Xalqın qəzeti!

# Xalq qəzeti

№ 273 (30967) 27 dekabr 2025-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi

# 2025 Azərbaycan idmanında rekord uğurlar ili

## Prezident İlham Əliyev 2025-ci ilin idman yekunlarına həsr olunan mərasimdə




**Dekabrın 26-da 2025-ci ilin idman yekunlarına həsr olunan mərasim keçirilib.**

**AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin Prezidenti İlham Əliyev mərasimdə iştirak edib.**

**Dövlətimizin başçısı görüşdə çıxış edib.**

***(ardı 2-ci səhifədə)***

## Çinin Azərbaycana yatırımı sürətlə artır



Səhifə ⇨ 16

## İşğalın talançılıq, vandalizm və "ölüm tələləri" izləri



Səhifə ⇨ 9

## İflasdan dərs almayanlar

*Ermənistanın suverenlik imtahanı və Azərbaycanın sarsılmaz iradəsi*



**Cənubi Qafqaz regionu tarixinin bəlkə də ən həlledici dövrünü yaşamaqdadır ki, 2020-ci il Vətən müharibəsində əldə olunan tarixi Zəfər və 2023-cü ilin sentyabrında həyata keçirilən lokal antiterror tədbirləri nəticəsində Azərbaycan Respublikası suverenliyini və ərazi bütövlüyünü tam bərpa etmiş, regionda yeni geosiyasi reallıq formalaşdırmışdır.**

Lakin postmüharibə dövrünün dinamikası, sülh müqaviləsinin imzalanması istiqamətində atılan addımlar, diplomatik təmasların intensivliyi fonunda Ermənistanın və onun havadarlarının sərgilədiyi davranış gizli revanşizm, siyasi manipulyasiya cəhdlərini xatırladır. Rəsmi İrəvan ritorikada sülhdən danışmasına baxmayaraq, əməldə beynəlxalq hüquqa və tarixi ədalətə zidd olan, regionu yenidən qeyri-sabitlik girdabına sürükləməyi hədəfləyən sistemli fəaliyyət proqramı icra etməkdədir. Qarşı tərəfin atdığı addımlar xaotik xarakter daşımır, əksinə, vahid mərkəzdən idarə olunan, Qərbdəki ermənipərəst dairələrin, lobbi qruplarının və korrupsiyalaşmış siyasətçilərin iştirakı ilə koordinasiya edilən qlobal hibrid müharibənin tərkib hissəsidir. Ermənistanın və onun xaricdəki havadarlarının hazırkı mərhələdə istifadə etdiyi ən təhlükəli təbliğat tezislərindən biri Azərbaycanda ədalət mühakiməsi qarşısında cavab verən hərbi cinayətkarların, separatçı rejimin rəhbərlərinin və terrorçuların hərbi əsir kimi qələmə verilməsidir.

***(ardı 8-ci səhifədə)***

## Bakıda diplomatiya, Qarabağda güc qalib gəldi



Səhifə ⇨ 7

## "Qızıl xaç"ın gecikmiş etirafı




Səhifə ⇨ 6

## Zaxarova, Ermənistan və "aksiomatik qəbul"



Səhifə ⇨ 8

## Rəqəmsal məkanda qaydaları kim tənzimləyir?




Səhifə ⇨ 8

## "Tərəfkeş ədalət"in iflası və Azərbaycanın siyasi uğuru



Səhifə ⇨ 7

## Aktau faciəsinin səbəbi obyektiv cavab gözləyir



Səhifə ⇨ 9

## Sülhün dialoq və etimad körpüsü



Səhifə ⇨ 9

# Prezident İlham Əliyev 2025-ci ilin idman yekunlarına həsr olunan mərasimdə

**(əvvəli 1-ci səhifədə)**

## Prezident İlham Əliyevin çıxışı

– Əziz idmançılar. Əziz dostlar.

Ənənəvi olaraq ilin sonunda görüşürük, ilin yekunlarını müzakirə edirik, idmançıları, idman mütəxəssislərini mükafatlandırırıq. Bu il də istisna deyil. Bu il idmançılarımız tərəfindən qazanılan medalların sayı rekord həddə çatıb. Beynəlxalq yarışlarda idmançılarımız tərəfindən 2000-dən çox medal, təqribən 600-dən çox qızıl medal qazanılıb. Bu, bir daha onu göstərir ki, idmanın inkişafı Azərbaycanda uğurla gedir. Keçən illə müqayisədə medalların sayı daha çoxdur və bu, yəqin ki, təbiidir. Çünki idmanın inkişafına göstərilən diqqət, aparılan dövlət siyasəti, əlbəttə ki, ildən-ilə daha yaxşı nəticələrə gətirib çıxarır.

Azərbaycanda idmanın inkişafı dövlət siyasətidir və dövlət xətti ilə bir çox proqramlar icra edilmişdir. İdman infrastrukturu demək olar ki, sıfırdan qurulmuşdur və bu gün ən yüksək səviyyədədir. Bölgələrdə idmanla məşğul olmaq üçün bütün şərait var. Bu il iki Olimpiya İdman Kompleksinin tikintisi başa çatmışdır - Gəncədə və Yevlaxda. Beləliklə, bölgələrdə Olimpiya İdman komplekslərinin sayı 46-ya çatıb.

Əlbəttə ki, bütün bunlar, eyni zamanda, düzgün aparılan siyasət idmanın inkişafını şərtləndirir və gəncləri idmanla məşğul olmağa daha da həvəsləndirir. Bu da çox önəmlidir. Çünki sağlam gənc nəsil yetişməsə, idman uğurlarını əldə etmək mümkün olmayacaq. Sağlam gənc nəsil, ilk növbədə, ölkənin gələcək inkişafı üçün lazımdır ki, Azərbaycan əhalisi, Azərbaycan vətəndaşları fiziki cəhətdən sağlam olsunlar. Eyni zamanda, uşaqlıqdan idmana göstərilən maraq əlbəttə ki, gələcəkdə idman uğurlarına yol açır.

Bizim siyasətimizin əsas istiqamətlərindən biri də gəncləri sağlam ruhda tərbiyə etməkdir, vətənpərvərlik ruhunda tərbiyə etməkdir ki, gənclər Vətən sevgisi ilə böyüsünlər, tərbiyə alsınlar və beləliklə, ölkəmizin inkişafı daimi olsun, əbədi olsun. Əlbəttə ki, burada əsas amil cəmiyyətdə mövcud olan ab-havadır. Bu da çox müsbətdir. Bizim xalqımız böyük dərəcədə həmrəylik, vətənpərvərlik göstərir və son illərin hadisələri bunu bir daha təsdiqləyir. Gənclərin fiziki hazırlığı, mənəvi saflığı vəhdət təşkil etməlidir. Məhz o halda ölkə uğurla inkişaf edə bilər. İdmanın isə gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə edilməsində çox böyük önəmi var.




Hər dəfə bizim idmançılarımız Dövlət Bayrağını beynəlxalq yarışlarda qaldıranda əlbəttə ki, hər birimiz qürur hissi keçiririk. Son 5 il ərzində bizim bayrağımız qalib ölkənin bayrağı kimi beynəlxalq arenalarda qaldırılır. Əminəm ki, idmançılar da beynəlxalq yarışlarda iştirak edən zaman bunu hiss edirlər. Ölkəmizə, xalqımıza olan münasibəti hiss edirlər və idman meydançalarına, idman arenalarına çıxarkən, yəqin ki, təbii olaraq qürur hissi ilə çıxırlar. Eyni zamanda, bizim 5 il bundan əvvəl əldə etdiyimiz şanlı Qələbə idmançıların məsuliyyətini də böyük dərəcədə artırır. Çünki onlar müzəffər xalqın nümayəndələri kimi yarışlarda iştirak edirlər.

Təbii ki, bundan sonrakı illərdə bu siyasət davam etdiriləcək. İdmanla məşğul olan bütün qurumlar çox sıx əlaqəli şəkildə fəaliyyət göstərirlər. Azərbaycanda ənənəvi olaraq bir çox beynəlxalq idman yarışları keçirilir. Bəziləri ənənəvi xarakter alır, bəziləri xüsusilə çox böyük beynəlxalq idman yarışları ilk dəfə idi ki, Azərbaycanda keçirilmişdir. Bu ilin ölkəmizdə keçirilmiş əsas idman yarışı təbii ki, MDB ölkələrinin üçüncü Oyunları olmuşdur. Oyunlar çox yüksək səviyyədə keçirilmişdir. Bu Oyunların xüsusiyyəti ondan ibarət idi ki, onlar bölgələrdə - bir neçə şəhərdə keçirilmişdir. Yəni bu, özlüyündə bir göstəricidir. Təbii ki, Bakı şəhərində istənilən idman yarışını keçirmək olar. Ancaq minlərlə xarici qonağın iştirakı ilə bölgələrdə keçirilmiş MDB Oyunları əlbəttə ki, bizim potensialımızı göstərir. Gəncə şəhəri mərkəz seçilmişdi. Yarışların bəziləri digər şəhərlərdə, o cümlədən Xankəndi şəhərində keçirilmişdir. Məndə olan məlumata görə, bütün qonaqlar çox böyük minnətdarlıqla həm bizim qonaqpərvərliyimizi qeyd ediblər, həm də bölgələrimizin gözəlliyi və yaradılmış şəraitlə tanış olublar. İdmançılarımız bu Oyunlarda yaxşı nəticə göstərmişlər, komanda hesabında ikinci yerə biz layiq görüldük. Əlbəttə ki, bütövlükdə bu kimi tədbirlər ölkəmizin imicini, idman potensialını bütün dünyaya göstərir.

Bu il ölkəmizdə ilk dəfə olaraq UFC üzrə beynəlxalq turnir keçirilmişdir. Bu da dünya miqyasında ən populyar idman yarışıdır və adətən bu yarışların əksər mərhələləri Amerikada keçirilir, yaxud da ki, ən inkişaf etmiş ölkələrdə. Bakını da bu siyahıya salmağımız, ilk növbədə, ölkəmizin potensialını göstərir. Eyni zamanda, onu göstərir ki, biz artıq bu sahədə də öz fəaliyyətimizi göstəririk. Yenə də turnirin təşkilatçıları ilə görüşüm zamanı onlar da qeyd edirdilər ki, Bakının bu cür inkişaf etmiş şəhər olmasını, bu dərəcədə gözəl şəhər olmasını heç təsəvvür edə bilmirdilər, heç gözləmirdilər. Yəni minlərlə iştirakçının, xarici qonağın iştirakı ilə keçirilən və dünya mediası tərəfindən işıqlandırılan belə bir yarış ölkəmizin təqdimatının bir növüdür.

Ənənəvi olaraq Formula 1 yarışı təbii ki, bu il də keçirilmişdir və bu yarış ölkəmizin dünyaya təqdimatında xüsusi rol oynamışdır. Təkcə onu demək kifayətdir ki, birinci Formula 1 yarışından sonra ölkəmizə gələn xarici turistlərin sayı 20 faiz artmışdır və ondan sonra da artım davam edirdi, COVID-ə qədər. Sonra təbii ki, aşağı düşdü. İndi yenə də bərpa edilir və əminəm ki, gələn il daha çox xarici qonaq ölkəmizə gələcək, o cümlədən beynəlxalq idman yarışlarını izləmək üçün. Bu il keçirilmiş Formula 1 yarışının özəlliyi onda idi ki, bütün biletlər əvvəlcədən satılmışdı və hətta əlavə tribunaların quraşdırılması da nəzərdə tutulmuşdu. Halbuki şəhər yarışı olduğu üçün burada daha böyük sayda tribunaların quraşdırılması çox çətindir. Amma buna baxmayaraq, 20 min insan canlı olaraq bu yarışı izləyib. Ümumiyyətlə isə bu yarışın auditoriyası yarım milyard insana bərabərdir. Yəni bütün dünya bu yarışı izləyərkən, ilk növbədə, əlbəttə ki, həm yarışı, həm də şəhərimizin gözəlliyini görür. Təbii ki, bu da ölkəmizin təqdimatı kimi qəbul edilməlidir.



Onu da deməliyəm ki, son vaxtlar bir neçə aparıcı ölkənin şəhəri Formula 1 yarışını keçirmək üçün təşkilatçılara müraciət etmişdir və xüsusilə şəhər yarışlarını daha çox xahiş etmişdir. Çünki Bakının timsalında hər kəs görür ki, şəhər yarışı böyük dərəcədə fərqlənir. Bir sözlə, bu kimi idman tədbirləri ölkəmizin imicini böyük dərəcədə ucaldır.

Ölkəmizdə yüzlərlə idman, beynəlxalq idman yarışları keçirilmişdir və gələn il də yarışların keçirilməsi gözlənilir. Xüsusilə mən ölkəmizdə ilk dəfə olaraq keçiriləcək Xizək üzrə Dünya Kubokunu qeyd etmək istərdim. Çünki bu, ilk dəfə olaraq keçiriləcək tədbirdir və ilk ildən dünya kuboku səviyyəsində Qusarda, Şahdağ Xizək Kurortunda keçiriləcək. Bu da Azərbaycanı və Şahdağı beynəlxalq xizək idmanının cədvəlinə salmış olur. Burada da ölkələrin sayı kifayət qədər məhduddur və Azərbaycanın burada da olması, qış idmanı növündə Dünya Kubokunun keçirilməsi əlbəttə ki, böyük hadisədir. Şahdağ Turizm Xizək Mərkəzinin inkişafı hər il təmin edilir. Hər il biz yeni traslar, yeni xizək zolaqları istifadəyə veririk. Əminəm ki, yaxın 1-2 ilə trasların uzunluğu 50 kilometri ötəcək, təqribən 55 kilometr olacaq. Gələcəkdə yeni mərhələnin inkişafı ilə bağlı da məsələlərə baxılacaq. Amma hazırda bu, bizim bölgəmizdə ən inkişaf etmiş xizək mərkəzidir və orada mövcud olan infrastruktur, hotellərin sayı və gələcək planlar, - indi özəl sektor tərəfindən oraya çox böyük maraq göstərilir, - bütövlükdə o bölgədə minlərlə iş yerinin yaradılmasına gətirib çıxarıb. Təkcə Şahdağ Xizək Mərkəzi bundan faydalanmır, bütün ətraf kəndlər, şəhərlər, orada işləyən, yaşayan insanların bir çoxu turizmin bu sektoruna da cəlb edilib.

Yəni bizim çox gözəl dəniz istirahət zonalarımız, xizək zonalarımız var. Güclü infrastruktur yaradılıbdır. Yollar, dəmir yolları, 9 beynəlxalq hava limanı, yeni şəhərlər arasındakı bağlantılar da müasirləşir. Qarabağda və Şərqi Zəngəzurda böyük infrastruktur işləri görülür. Artıq orada da - Köndələnçay su anbarında, Suqovuşan su anbarında yarışlar keçirilir. Gələcəkdə Sərsəng su anbarında da avarçəkmə üzrə yarışlar keçirilə bilər. Yəni ölkəmizin bu cür inkişafı, o cümlədən idman sektoruna da müsbət təsir göstərir.

Əlbəttə ki, bu il daha bir önəmli hadisə baş vermişdir. Bakı şəhəri "Dünyanın İdman Paytaxtı" seçilmişdir və bu da çox böyük hadisədir, bizim üçün böyük şərəfdir. Eyni zamanda, Azərbaycanda idmanla bağlı görülən işlərə verilən qiymətdir. Mən əminəm ki, bu şərəfli adı biz ləyaqətlə daşıyacağıq.

Əlbəttə, idmançıların və idman mütəxəssislərinin mükafatlandırılması da qeyd etdiyim kimi, bir ənənəyə çevrilib. Bu, çox gözəl ənənədir, artıq 30 ilə yaxındır ki, davam edir və hər şey ədalətli olmalıdır. Azərbaycanın idman şöhrətini ucaldan insanlar əlbəttə ki, dövlət tərəfindən qiymətləndirilməlidir və onların fəaliyyətinə layiqli münasibət göstərilməlidir.

Mən sizi qarşıdan gələn Yeni il bayramı və Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə təbrik edirəm. Sizə yeni uğurlar, qələbələr arzulayıram. Sağ olun.

*

Sonra Azərbaycanda idmanın inkişafında xidmətləri olan idmançıların və idman mütəxəssislərinin mükafatlandırılması mərasimi oldu.




Prezident İlham Əliyev Azərbaycanda idmanın inkişafında xüsusi xidmətlərinə və yüksək peşəkarlığına görə Mövlud Mirəliyevə, Ələkbər İmaməliyevə, Zöhrab Gözəlbəyliyə və İlahə Qədimovaya "Əməkdar bədən tərbiyəsi və idman xadimi" fəxri adlarının vəsiqələrini təqdim etdi.

Ölkəmizdə idmanın inkişafında xidmətlərinə görə Elmira Aslanova, Vəfa Musayeva, Nurəddin Rəcəbov, Eduard Məmmədov, Azər Məhərrəmov, Yaqub Abdullayev, Cahangir Ağarəhimov, Fikrət Hüseynov, Cahangir Bayramov və Coşqun Əliyev "Tərəqqi" medalları ilə təltif olundular.

Dövlətimizin başçısı 2025-ci ildə yüksək nailiyyətlər qazanmış bir qrup idmançıya və idman mütəxəssisinə - Şəmsi Səfərliyə, Böyükxanım Astanovaya, Morteza Validarviyə, Mehran Həmidzadəyə, Malik Həsənova, İmamverdi Məmmədova, Ramil Vəliyevə, Tofiq Əliyevə, Oqtay Abdullayevə, Nurəddin Məmmədova, Solmaz Adilovaya, Ülvi Qənizadəyə, Murad Məmmədova, Ramil Cəfərova, Aygül Abdullayevaya, Yelizaveta Rubana, Xəyyam Orucova, Elnur İbrahimə, Taleh Nağızadəyə, Nərmin Kazımovaya və Fərid Tağızadəyə yeni mənzillərin orderlərini təqdim etdi.

Azərbaycanda idmanın inkişafında uzunmüddətli səmərəli fəaliyyətinə görə Tərlan Həsənova, Asim Xudiyevə və Qərib Əliyevə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü veriləcək.

Sonra xatirə şəkli çəkdirildi.

Daha sonra Prezident İlham Əliyev idmançılarla söhbət etdi.

***AZƏRTAC***



## Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun Himayəçilik Şurası üzvlərinin təyin edilməsi və "Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun Himayəçilik Şurası üzvlərinin təyin edilməsi və "Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun Himayəçilik Şurası üzvlərinin təyin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 25 dekabr tarixli 3547 nömrəli Sərəncamının ləğv edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 17 mart tarixli 2535 nömrəli Sərəncamında dəyişiklik edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 25 dekabr tarixli 1760 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondunun Nizamnaməsi"nin 4.2-ci bəndinə uyğun olaraq **qərara alıram:**

**1.** Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun Himayəçilik Şurasının aşağıdakı tərkibi təsdiq edilsin:

Azərbaycan Respublikası maliyyə nazirinin müavini

Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müavini

Azərbaycan Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini

Azərbaycan Respublikası Mərkəzi Bankı sədrinin müavini

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin İqtisadi siyasət məsələləri sektorunun müdiri.

**2.** "Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun Himayəçilik Şurası üzvlərinin təyin edilməsi və "Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun Himayəçilik Şurası üzvlərinin təyin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 25 dekabr tarixli 3547 nömrəli Sərəncamının ləğv edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 17 mart tarixli 2535 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 3, maddə 241 (Cild I) 1-ci hissəsi ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 26 dekabr 2025-ci il**

# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Zati-aliləri, möhtərəm İlham Heydər oğlu!**

Sizi doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Siz Azərbaycan Respublikasının Prezidenti kimi ali dövləti vəzifənizdə doğma ölkənizə və vətəndaşlarınıza daim yüksək qayğı göstərir, uğurlu sosial-iqtisadi siyasət həyata keçirir, beynəlxalq gündəliyin formalaşdırılmasına və ictimai asayişin qorunmasına mühüm töhfələr verirsiniz. Müasir mürəkkəb geosiyasi şəraitdə bu vəzifələrin icrası dövlət başçısından strateji düşüncə, yüksək məsuliyyət və xüsusi analitik yanaşma tələb edir.

Azərbaycan Respublikasının dövlət hakimiyyəti orqanları ilə Rus Pravoslav Kilsəsinin Bakı Yeparxiyasının səmərəli əməkdaşlığının dəstəklənməsinə görə Sizə dərin minnətdarlığımı bildirirəm. Ümidvaram ki, formalaşmış mövcud qarşılıqlı münasibətlərin inkişafı gələcəkdə də insanların həyatında ənənəvi mənəvi dəyərlərin möhkəmlənməsinə xidmət edəcəkdir.

Sizə möhkəm cansağlığı və rifah, Uca Allahdan kömək, Azərbaycan xalqının firavanlığı naminə gələcək fəaliyyətinizdə yeni uğurlar arzulayıram.

**Dərin hörmətlə,**

***KİRİLL,***
***Moskvanın və Bütün Rusiyanın Patriarxı***

*

**Hörmətli İlham Heydər oğlu!**

Rusiya Federasiyası Xarici Kəşfiyyat Xidmətinin rəhbərliyi adından və şəxsən öz adımdan Sizi doğum gününüz münasibətilə təbrik edirəm.

Sizə ali dövləti vəzifənizdə bundan sonra da fəal və səmərəli iş, möhkəm cansağlığı, xoşbəxtlik, firavanlıq, həmişə əzizlərinizin və doğmalarınızın sevgisini arzulayıram.

Fürsətdən istifadə edərək, Rusiya və Azərbaycan xüsusi xidmət orqanları arasında əməkdaşlığın inkişafına göstərdiyiniz daimi diqqət və dəstəyə görə minnətdarlığımı bildirmək istəyirəm. Bu əməkdaşlıq bundan sonra da təhlükəsizliyin və ölkələrimizin milli maraqlarının müdafiəsinin təmin edilməsi, regionda sülhün və sabitliyin qorunub saxlanılmasının etibarlı qarantı olaraq xidmət göstərməyə davam edəcəkdir.

**Hörmətlə,**

***Sergey NARIŞKİN,***
***Rusiya Federasiyası Xarici Kəşfiyyat Xidmətinin direktoru***

*

**Möhtərəm İlham Heydər oğlu!**

Sizi doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Doğum günü insanın sanki yenidən anadan olduğu, Uca Tanrının ona növbəti il üçün həyatını yenidən qurmaq imkanı verdiyi, yeni vəzifələr müəyyənləşdirdiyi, eyni zamanda həmin vəzifələri yerinə yetirmək üçün yeni güc bəxş etdiyi bir gündür.

Bu, xüsusilə Sizin kimi yüksək səlahiyyətlərə, böyük istedada və nüfuza malik insanlara aiddir.

Sizin rəhbərliyinizlə Azərbaycan Respublikası dinamik şəkildə inkişaf edir, həm keçmişdən qalmış problemləri, həm də Qafqaz regionunun və bütövlükdə dünyanın inkişaf xüsusiyyətlərinin diktə etdiyi yeni çağırışları uğurla həll edir. Siz zamanın çağırışlarına çevik reaksiya verir, ölkəni və onun əhalisini davamlı olaraq rifaha doğru aparırsınız.

Bu baxımdan xüsusi olaraq Azərbaycanda millətlərarası sülhün təmin edilməsi və dindarların hüquqlarına riayət olunması istiqamətində fəaliyyətinizə görə Sizə ən səmimi minnətdarlığımı bildirirəm. Əqidə yoldaşlarımın ölkənizdəki icması dövlətin köməyinə və dəstəyinə, vicdan və dini etiqad azadlığının müdafiəsi istiqamətində Sizin ardıcıl və prinsipial mövqeyinizə nə qədər çox borclu olduğunu yaxşı başa düşür. Azərbaycana son səfərim zamanı bunun növbəti əyani təsdiqinin şahidi oldum və şəxsi görüşümüzdə ürəkdən söylədiyim sözləri yalnız təkrar edə bilərəm: "Sizə sonsuz təşəkkürümü bildirirəm".

Qoy bu sevincli gündə Uca Yaradan Sizə xoşbəxtlik, uğurlar və sevinc hissi ilə dolu bir həyat bəxş etsin! Həyatınızın yeni ilində Sizə möhkəm cansağlığı, nailiyyətlər və Azərbaycan üçün olduqca zəruri olan çətin, lakin şərəfli fəaliyyətinizdə böyük uğurlar arzulayıram.

**Dərin hörmətlə,**

***Berl LAZAR,***
***Rusiyanın Baş ravvini***

*

**Hörmətli İlham Heydər oğlu!**

Rusiya Uşaq Fondu və Beynəlxalq Uşaq Fondları Assosiasiyası adından doğum gününüz münasibətilə səmimi təbriklərimizi qəbul etməyinizi xahiş edirəm.

Uzun illərdir ki, uşaqların müdafiəsi işində birgə işləyirik və layiqli gələcək nəsil formalaşdırmaq kimi ali məqsədə doğru irəliləyirik. Şüarımız dəyişməz olaraq qalır: "Heç bir gün xeyirxah iş olmadan ötüşmür".

Sizə möhkəm cansağlığı, bol enerji və davamlı xeyirxah əməllər arzulayıram.

Qoy həmişə Sizi uşaqların təbəssümü əhatə etsin, doğmalarınız və yaxınlarınıza xoşbəxtlik və firavanlıq nəsib olsun!

**Hörmətlə,**

***Dmitri LİXANOV,***
***Rusiya Uşaq Fondunun sədri, Beynəlxalq Uşaq Fondları Assosiasiyasının prezidenti, yazıçı, Rusiyanın Əməkdar jurnalisti***

*

**Çox hörmətli İlham Heydər oğlu!**

Doğum gününüz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Siz görkəmli dövlət xadimisiniz. Sizin çoxillik ali dövləti fəaliyyətiniz Azərbaycan Respublikasının suverenliyinin, beynəlxalq nüfuzunun möhkəmləndirilməsinə, rifahının yaxşılaşdırılmasına yönəlib.

Həyatını idmanın inkişafına, gənc nəslin yetişdirilməsinə və sağlam həyat tərzinin gücləndirilməsinə həsr etmiş bir insan kimi mən Azərbaycanda bədən tərbiyəsi və idmanın inkişafına göstərdiyiniz diqqətə dərin hörmətlə yanaşıram.

Sizin rəhbərliyinizlə ölkə genişmiqyaslı beynəlxalq yarışlardan tutmuş gənc istedadların sistemli şəkildə dəstəklənməsinə qədər əsl güclü idman dövlətinə çevrilib. Sizin müdrikliyiniz, qətiyyətiniz və ənənələrə sadiqliyiniz Azərbaycan xalqı üçün sabitliyi, tərəqqini və layiqli gələcəyi təmin edir. Ölkələrimiz arasında dostluq əlaqələrinin möhkəmlənməsinə, həmçinin əməkdaşlığın gənclər üçün geniş üfüqlər açdığı humanitar və idman sahələrinə verdiyiniz töhfələri xüsusi qeyd edirəm.

Sizə möhkəm cansağlığı, tükənməz enerji, sülh və firavanlıq arzulayıram. Qoy hər gününüz gözəl işlərlə, yaxınlarınızın dəstəyi ilə və sabaha inamla dolu olsun!

**Dərin hörmət və minnətdarlıqla,**

***İrina VİNER,***
***Rusiya Federasiyasının Əmək qəhrəmanı, Rusiyanın İctimai Palatasının Bədən Tərbiyəsi, İdman və Sağlam Həyat Tərzi üzrə Komissiyasının sədri***

*

**Möhtərəm cənab Prezident!**

Mərmərə Qrupu Vəqfi adından Zati-alinizi doğum gününüz münasibətilə təbrik edirəm. Bu il həm də Sizin xalqa bəxş etdiyiniz Zəfər Gününün beşinci ildönümünü qeyd etdik. Türk dünyası qarşısında göstərdiyiniz yüksək xidmətlərə görə Sizə təşəkkür edirik.

Zati-alinizə, həmçinin Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə təbriklərimizi çatdırırıq.

Sizə, ailənizə və qardaş Azərbaycan xalqına qarşıdan gələn 2026-cı ildə cansağlığı, səadət, rifah, sülh və əmin-amanlıq arzulayırıq.

**Hörmətlə,**

***Akkan SUVER,***
***Mərmərə Qrupu Strateji və Sosial Araşdırmalar Vəqfinin sədri***

*

**Çox hörmətli cənab Prezident!**

Doğum gününüz münasibətilə səmimi təbriklərimi qəbul etməyinizi xahiş edirəm. Sizin dövlət başçısı kimi fəaliyyətiniz bir liderin öz xalqına və ölkəsinə sadiqlik nümunəsidir. Siz Azərbaycan xalqında ruh yüksəkliyi yaratmış, onun birliyini gücləndirmisiniz.

Sizə möhkəm cansağlığı, bol enerji və yeni nailiyyətlər arzulayıram.

Mən 10 il əvvəl TÜRKPA-nın Baş katibinin müavini kimi Bakıda işləmişəm və Azərbaycan hər zaman mənim qəlbimdədir.

**Dərin hörmətlə,**

***Mels SEMGALİYEV,***
***Türk Dövlətləri Parlament Assambleyasının Baş katibinin sabiq müavini***

*

**Hörmətli İlham Heydər oğlu!**

Sizi doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Sizin müdrikliyiniz, uzaqgörənliyiniz, yorulmaz səyləriniz Azərbaycanın inkişafının etibarlı əsasını təşkil edir.

Sizə möhkəm cansağlığı, Azərbaycan xalqının rifahı naminə fəaliyyətinizdə tükənməz enerji və yeni uğurlar arzulayıram.

**Hörmətlə,**

***Vladimir LİSİN,***
***Rusiya Federasiyası Atıcılıq İttifaqının Qəyyumlar Şurasının sədri***

*

**Hörmətli İlham Heydər oğlu!**

Doğum gününüz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Zati-alinizə və gözəl ailənizə möhkəm cansağlığı, rifah, qardaş Azərbaycan xalqının firavanlığı naminə gördüyünüz işlərdə böyük uğurlar arzulayıram. Siz və ailəniz dahi Heydər Əliyevin ideyalarını yaşadırsınız.

İstər Azərbaycanın inkişafı istiqamətində, istərsə də beynəlxalq miqyasda çoxşaxəli fəaliyyətinizdə əldə etdiyiniz mühüm nailiyyətlərdən qürur duyuruq.

**Dərin hörmət və ehtiramla,**

***David APTSİAURİ,***
***Gürcüstanın xarici işlər nazirinin sabiq müavini, fövqəladə və səlahiyyətli səfir, professor***

*

**Hörmətli cənab Prezident!**

Azərbaycan Britaniya Peşəkarları Assosiasiyası adından Sizi doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edir, Zati-alinizə ən xoş arzularımızı çatdırırıq.

Sizin rəhbərliyiniz altında ölkəmiz çoxlu nailiyyətlər əldə etmişdir. Xüsusilə iqtisadiyyatın müxtəlif sahələrində inkişaf, eləcə də sosial infrastrukturun gücləndirilməsi Sizə olan inamı daha da artırmışdır. Uğurlu siyasətiniz beynəlxalq aləmdə Azərbaycanın nüfuzunu getdikcə gücləndirir.

Cənab Prezident, Sizə cansağlığı, xoşbəxtlik, gələcək fəaliyyətinizdə uğurlar arzulayırıq.

İnanırıq ki, Sizin rəhbərliyinizlə Azərbaycan daha da irəliləyəcək və xalqımızın rifahı üçün yeni gözəl imkanlar yaranacaqdır.

**Hörmətlə,**

***Azərbaycan Britaniya Peşəkarları Assosiasiyasının təşkilat komitəsi:***
***Dr. İlhamə CƏFƏRLİ (təsisçisi və sədr),***
***Akademik İradə HÜSEYNOVA,***
***Professor Səyyarə İBADULLAYEVA,***
***Professor Qərib MÜRŞÜDOV,***
***Professor Kamran MƏLİKOV,***
***Professor Atilla SENAYLI,***
***Dr. Rəşad HACIYEV,***
***Dr. Əsmər CÜMŞÜDOVA,***
***Dr. Ayna VERDİYEVA,***
***Dr. Aygün BƏDƏLOVA,***
***Emin CƏFƏR***

**Möhtərəm cənab Prezident!**

Ulu Öndərimizin adını daşıyan Dünya Boks Komitəsinin idmançıları adından və şəxsən öz adımdan Sizi doğum gününüz münasibətilə səmimiyyətlə təbrik edir, Zati-alinizə ən xoş arzularımızı çatdırırıq.

Sizin müdrik rəhbərliyinizlə Azərbaycan Respublikasının əldə etdiyi nailiyyətlər bizi olduqca sevindirir. İnanırıq ki, Siz hələ ölkəmizə və xalqımıza çox uğurlar qazandıracaq, yeni-yeni zəfərlər bəxş edəcəksiniz.

Fürsətdən istifadə edərək, Sizi həm də Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə təbrik edirik.

Sizə möhkəm cansağlığı, yorulmaz fəaliyyətinizdə müvəffəqiyyətlər arzulayırıq.

**Hörmətə,**

***Yaşar NİFTƏLİYEV,***
***Almaniyada fəaliyyət göstərən Heydər Əliyev adına Dünya Boks Komitəsinin rəhbəri***

*

**Hörmətli cənab Prezident!**

Sizi doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edirik.

Sizin rəhbərliyinizlə Azərbaycan Respublikası dayanıqlı inkişaf, beynəlxalq nüfuzun möhkəmlənməsi və milli maraqların ardıcıl şəkildə qorunması yolunda mühüm nailiyyətlər əldə etmişdir. Dövlətə və xalqa xidmətiniz, qətiyyətli mövqeyiniz və uzaqgörən siyasətiniz ölkəmizin bu gününü və gələcəyini formalaşdıran əsas sütunlardan biridir.

Bu təbriki Sizə dərin həmrəylik hissi ilə çatdıraraq, ətrafınızda sıx birləşmiş xalqımızın milli dəyərlərə sədaqətinin və daha güclü Azərbaycan naminə iradəsinin daim möhkəm olmasını arzulayırıq.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, uzun ömür, xalqımızın rifahı naminə ali dövləti fəaliyyətinizdə davamlı nailiyyətlər arzu edirik.

**Dərin hörmət və ehtiramla,**

***Ağarəhim QULİYEV və Eldəniz ƏLƏKBƏRZADƏ,***
***Fransada fəaliyyət göstərən "Avey dueti" musiqi qrupunun yaradıcıları***

*

**Hörmətli cənab Prezident!**

Sizi doğum gününüz münasibətilə ürəkdən təbrik edir, Zati-alinizə uzun ömür, möhkəm cansağlığı, yeni-yeni müvəffəqiyyətlər arzulayırıq.

Bu gün Sizin - öz xalqının müdrik liderinin, vətənpərvər və fədakar, görkəmli siyasi xadiminin rəhbərliyi ilə Azərbaycan şanlı zirvələr fəth edir, ölkənin beynəlxalq arenada nüfuzu, etibarı getdikcə artır. Siz xalqına zəfər sevinci bəxş etmiş, ölkəsinə qalib ölkə statusu qazandırmış tarixi şəxsiyyətlərdənsiniz və buna görə də yaddaşlarda, qəlblərdə əbədi yaşayacaqsınız.

Bütün həyatını xalqımızın hərtərəfli inkişafı naminə mübarizələrə həsr etmiş Ümummilli Liderimizin arzuları müdrik siyasi dühanız sayəsində çin olmuş, Azərbaycan dünyaya Günəş kimi doğmuşdur.

Qədirbilən xalqımız, bütün dünya azərbaycanlıları öz əvəzolunmaz liderinə, "dəmir yumruqlu" sərkərdəsinə güvənir və Azərbaycanın işıqlı sabahına, daha sürətli tərəqqisinə məhz Sizin rəhbərliyinizlə irəliləməyin mümkün olduğuna inanır.

Cənab Prezident, Sizinlə fəxr edirik. Allah Sizi qorusun!

**Hörmətlə,**

***Fəxrəddin YARIYEV,***
***Rusiyanın Stavropol vilayətində fəaliyyət göstərən Azərbaycan Milli Mədəniyyət Mərkəzi "Odlar Yurdu" diaspor təşkilatının rəhbəri***

*

**Hörmətli cənab Prezident!**

Rusiyanın Primorsk vilayətində yaşayan azərbaycanlılar adından Sizi doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Sizin qətiyyətli liderliyiniz, uzaqgörən siyasətiniz və xalqa xidmət prinsipləriniz ölkəmizin inkişafına, sabitliyinin möhkəmlənməsinə və beynəlxalq nüfuzunun artmasına mühüm töhfələr verir.

Sizə möhkəm cansağlığı, uzun ömür, ali dövləti fəaliyyətinizdə davamlı uğurlar arzulayıram.

**Hörmətlə,**

***Ramiz ZEYNALOV,***
***Rusiyanın Primorsk vilayəti Azərbaycan Diasporu "Dostluq" İctimai Təşkilatının sədri***

*

**Hörmətli cənab Prezident!**

Doğum gününüz münasibətilə Manisa Azərbaycan Mədəniyyət və Həmrəylik Dərnəyi adından ən səmimi təbriklərimizi qəbul etməyinizi xahiş edirik.

Azərbaycan dövlətçiliyinin möhkəmlənməsi, ölkənin daha sürətli inkişafı, dünyada nüfuzunun artması istiqamətində apardığınız qətiyyətli siyasət bütün dünya azərbaycanlıları tərəfindən qürurla izlənilir.

Bu il biz Sizin müdrik rəhbərliyiniz və Ali Baş Komandanlığınızla qazanılan, uzun illər həsrətlə gözlənilən, tarixi ədalətin bərpasını təmin edən möhtəşəm Zəfərin beşinci ildönümünü böyük iftixar hissi ilə qeyd etdik. Zəfər Günü təkcə Azərbaycanın deyil, bütün Türk dünyasının qürur günüdür.

Cənab Prezident, fürsətdən istifadə edərək Sizi hər bir azərbaycanlını bir amal, bir bayraq və bir ideya ətrafında birləşdirən

31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə də təbrik edirik. Dünyanın müxtəlif ölkələrində yaşayan milyonlarla azərbaycanlı bu birliyi dövlətə sədaqət, milli-mənəvi dəyərlərə bağlılıq və Vətən eşqi ilə qorumağa davam edir.

Sizə möhkəm cansağlığı, uzun ömür, Azərbaycan Respublikasına davamlı inkişaf və əmin-amanlıq arzu edirik.

**Dərin hörmətlə,**

***Şəntürk XOŞGÜL,***
***Manisa Azərbaycan Mədəniyyət və Həmrəylik Dərnəyinin sədri***

**Möhtərəm cənab Prezident!**

Sizi Antalya azərbaycanlıları adından doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edir, Zati-alinizə xoş arzularımızı və dərin ehtiramımızı çatdırıram.

Azərbaycan Respublikası Sizin müdrik rəhbərliyinizlə misilsiz nailiyyətlərə imza atmışdır. Vətən müharibəsində əldə edilən şanlı Zəfər tariximizin ən parlaq, qızıl hərflərlə yazılmış səhifələrindən biridir və xalqımızın milli qürurunu, sarsılmaz birliyini, dövlətə olan sonsuz inamını bütün dünyaya nümayiş etdirmişdir.

Bu tarixi Qələbə nəticəsində ölkəmizin ərazi bütövlüyü və suverenliyi bərpa edilmiş, bölgəmizdə yeni geosiyasi və geoiqtisadi reallıqlar yaranmışdır. Bu möhtəşəm nəticələr məhz Sizin uzaqgörən, qətiyyətli və prinsipial siyasətinizin məntiqi yekunudur. Sizin rəhbərliyinizlə aparılan kompleks və hərtərəfli islahatlar Azərbaycanın iqtisadi dayanıqlılığını, hərbi qüdrətini və beynəlxalq nüfuzunu əhəmiyyətli dərəcədə gücləndirmişdir.

Sizə möhkəm cansağlığı, tükənməz enerji, dövlətimizə və xalqımıza xidmət yolunda daha böyük nailiyyətlər, yeni-yeni zəfərlər arzulayıram. Əminik ki, Sizin rəhbərliyinizlə Azərbaycanın gələcəyi daha parlaq, daha təhlükəsiz və daha firavan olacaqdır.

Fürsətdən istifadə edərək, Sizi 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə də təbrik edirəm. Ulu Öndər Heydər Əliyev tərəfindən təməli qoyulmuş bu əlamətdar gün birliyimizin daha da güclənməsi prosesinə stimul verən, böyük ictimai-siyasi əhəmiyyət kəsb edən bayramdır. Sizin sayənizdə həmrəylik ideyası artıq təməl dövlətçilik prinsiplərindən birinə çevrilmişdir.

**Ən dərin hörmət və ehtiramla,**

***Azər İSMAYILOV,***
***Antalya Azərbaycan Mədəniyyət və Həmrəylik Dərnəyinin rəhbəri***

*

**Hörmətli cənab Prezident!**

Sizi doğum gününüz münasibətilə İsveç-Azərbaycan Federasiyası adından səmimi-qəlbdən təbrik edirəm. Sizin müdrik və qətiyyətli rəhbərliyinizlə Azərbaycan dövləti böyük inkişaf yolu keçmiş, ölkəmizin beynəlxalq nüfuzu əhəmiyyətli dərəcədə artmışdır.

Dövlət müstəqilliyimizin möhkəmləndirilməsi, ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpa olunması, xalqımızın rifahının yüksəldilməsi üçün gördüyünüz misilsiz işlər hər bir azərbaycanlıda böyük qürur hissi yaratmışdır. Sizin uzaqgörən siyasətinizin qarşıdakı illərdə Azərbaycana yeni-yeni nailiyyətlər, zəfərlər qazandıracağına inanırıq.

Sizə möhkəm cansağlığı, ailə səadəti, Azərbaycanın hər zaman yüksək zirvələr fəth etməsi, xalqın rifahının daha da yüksəldilməsi istiqamətində çoxşaxəli fəaliyyətinizdə müvəffəqiyyətlər arzulayırıq.

**Hörmətlə,**

***Sevda DADAŞOVA,***
***İsveç-Azərbaycan Federasiyasının sədri***

*

**Hörmətli cənab Prezident!**

Sizi doğum gününüz münasibətilə təbrik edirik.

Sizin Azərbaycan xalqının rifahı naminə misilsiz fəaliyyətinizi alqışlayırıq.

Azərbaycanın dövlət müstəqilliyinin qorunub saxlanılması, torpaqlarımızın işğaldan azad edilərək ölkəmizin ərazi bütövlüyünün bərpa olunması, soydaşlarımızın azad edilmiş ərazilərə qayıdışının həyata keçirilməsi Sizin uğurlu daxili və xarici siyasətinizin nəticələridir.

Sizə cansağlığı, xoşbəxtlik, şərəfli fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayırıq.

Tanrı Sizi qorusun!

**Hörmətlə,**

***Azər KƏRİMOV,***
***Çexiya-Azərbaycan Elm və Mədəniyyət Mərkəzinin sədri, professor***

*

**Hörmətli cənab Prezident!**

Doğum gününüz münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırmaqdan məmnunam. Sizin rəhbərliyiniz altında Azərbaycanın qazandığı nailiyyətlər uğurlu fəaliyyətinizin sübutudur.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, bol enerji, irəliyə doğru addımlarınızda davamlı uğurlar arzulayıram. Zati-aliniz və əziz ailəniz daim sevinc dolu anlar yaşayasınız.

Qoy xidmətlərinizin uğurlu nəticələri Azərbaycan xalqına hər zaman fayda verməkdə davam etsin!

**Dərin hörmətlə,**

***Aaron FRENKEL,***
***İsrailli iş adamı***

*

**Möhtərəm cənab Prezident!**

Doğum gününüz münasibətilə Sizə Gürcüstanın Azərbaycanlı İş Adamları Birliyi (AZEBİ) adından səmimi təbriklərimizi çatdırmaqdan məmnunluq duyuram.

Biz Gürcüstanda yaşayan azərbaycanlılar Sizin qayğınızı və dəstəyinizi hər zaman hiss edir, bunu yüksək qiymətləndiririk.

Azərbaycan dövləti Sizin rəhbərliyinizlə böyük uğurlar qazanır, beynəlxalq arenada nüfuzunun artırılması yolu ilə irəliləyir. Gürcüstanın Azərbaycanlı İş Adamları Birliyi olaraq Sizin həyata keçirdiyiniz məqsədyönlü siyasəti dəstəkləyir və bundan sonra da dəstəkləyəcəyik.

Cənab Prezident, Sizə möhkəm cansağlığı və firavanlıq, Azərbaycan xalqının rifahı naminə ali dövləti fəaliyyətinizdə müvəffəqiyyətlər arzulayırıq.

Ən dərin ehtiramımızı qəbul etməyinizi xahiş edirəm.

**Hörmətlə,**

***Nəriman QURBANOV,***
***Gürcüstanın Azərbaycanlı İş Adamları Birliyinin (AZEBİ) İdarə Heyətinin sədri***

# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Hörmətli cənab Prezident!**

Sizi doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edir,

Zati-alinizə möhkəm cansağlığı, uzun ömür, ailə səadəti və Azərbaycan Respublikasının daha da inkişafı naminə ali dövləti fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayırıq.

Sizin uzaqgörən, qətiyyətli və müdrik rəhbərliyinizlə Azərbaycan dövləti mühüm tarixi mərhələlərdən uğurla keçmiş, beynəlxalq aləmdə nüfuzunu və mövqeyini daha da möhkəmləndirmişdir. Xüsusilə Ali Baş Komandan kimi rəhbərliyinizlə şanlı Azərbaycan Ordusunun 44 gündə qazandığı Zəfər nəticəsində Qarabağın işğaldan azad edilməsi xalqımızın çoxəsrlik tarixində müstəsna yer tutan, qürurverici və taleyüklü hadisə olmuşdur.

Bu tarixi Qələbə milli birlik və həmrəyliyin, güclü dövlət iradəsinin və Sizin sarsılmaz liderliyinizin parlaq təzahürüdür. Azad edilmiş torpaqlarımızda aparılan genişmiqyaslı bərpa və quruculuq işləri Azərbaycanın gələcəyinə olan inamı daha da gücləndirir.

Sizə bu şərəfli yolda tükənməz enerji və davamlı nailiyyətlər arzulayıram.

**Dərin hörmət və ehtiramla,**

***Rezo HƏSƏNOV,***
***Gürcüstanda fəaliyyət göstərən Qafqaz Hüquq və İnteqrasiya Mərkəzinin direktoru***

***

**Zati-aliləri, hörmətli cənab Prezident!**

İcazə verin, doğum gününüz münasibətilə Qardabani Təhsil və İnteqrasiya Mərkəzinin kollektivi adından Sizə ən səmimi təbriklərimizi və xoş arzularımızı çatdırım.

Sizin uzaqgörən və prinsipial rəhbərliyiniz Azərbaycan dövlətinin beynəlxalq nüfuzunun artmasına, xaricdə yaşayan azərbaycanlıların milli kimliyinin, dilinin və mədəni dəyərlərinin qorunub saxlanılmasına güclü stimul vermişdir. Bu diqqət və qayğı Gürcüstanda yaşayan soydaşlarımız tərəfindən də böyük minnətdarlıq hissi ilə qarşılanır.

Gürcüstan və Azərbaycan arasındakı dostluq və strateji tərəfdaşlıq münasibətləri regionda sülhün, sabitliyin və qarşılıqlı etimadın möhkəmlənməsində mühüm rol oynayır. Xüsusilə qeyd etmək istərdim ki, bu münasibətlər Gürcüstanda fəaliyyət göstərən Azərbaycan diaspor təşkilatlarının cəmiyyətə inteqrasiyası, multikultural dəyərlərin təşviqi və xalqlarımız arasında humanitar körpülərin qurulması baxımından mühüm əhəmiyyət daşıyır.

Əminik ki, Sizin rəhbərliyinizlə Gürcüstan-Azərbaycan münasibətləri gələcəkdə də yüksələn xətlə inkişaf edəcək, xaricdə yaşayan soydaşlarımızın birlik və həmrəyliyi daha da möhkəmlənəcəkdir.

Zati-aliləri, Sizə möhkəm cansağlığı, uzun ömür, tükənməz enerji və ali dövləti fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayıram.

**Dərin hörmətlə,**

***Çiçək HÜSEYNOVA,***
***Qardabani Təhsil və İnteqrasiya Mərkəzinin direktoru***

**Hörmətli cənab Prezident, Müzəffər Ali Baş Komandan!**

Sizi doğum gününüz münasibətilə "Azərbaycan Mərkəzi" İctimai Fondunun kollektivi adından səmimi-qəlbdən təbrik edir, ən xoş arzularımızı çatdırıram.

Zati-alinizin müdrik rəhbərliyi, xalqımıza göstərdiyiniz yüksək diqqət və qayğı, Vətənimizin siyasi, iqtisadi və mədəni inkişafı naminə yorulmaz fəaliyyətiniz hər bir azərbaycanlı üçün iftixar mənbəyidir.

Həyata keçirdiyiniz uzaqgörən siyasət, milli maraqlara sarsılmaz sədaqətiniz, Azərbaycanın beynəlxalq nüfuzunun daha da möhkəmlənməsində əvəzsiz rolunuz Sizə dünya miqyasında böyük hörmət və ehtiram qazandırmışdır.

Sizə möhkəm cansağlığı, tükənməz enerji, ailə səadəti və Vətənimizin tərəqqisi naminə bütün işlərinizdə yeni uğurlar arzulayıram.

Zati-alinizin rəhbərliyi ilə doğma Azərbaycanımızın daha da qüdrətlənəcəyinə, xalqımızın rifahının daim yüksələcəyinə inamımız sonsuzdur.

**Hörmətlə,**

***İlkin ORUCOV,***
***Qazaxıstanda fəaliyyət göstərən "Azərbaycan Mərkəzi" İctimai Fondunun direktoru***

***

**Hörmətli cənab Prezident!**

Sizi Qırğız Respublikasında yaşayıb fəaliyyət göstərən azərbaycanlılar adından doğum gününüz münasibətilə dərin hörmət və ehtiramla təbrik edirik.

Sizin müdrik, uzaqgörən və qətiyyətli rəhbərliyinizlə Azərbaycan Respublikası son illərdə hərtərəfli inkişaf yolu keçmiş, dövlət müstəqilliyi daha da möhkəmlənmiş, ölkəmizin siyasi, iqtisadi və sosial sahələrdə qazandığı uğurlar beynəlxalq miqyasda yüksək dəyərləndirilmişdir.

Biz, Qırğızıstanda yaşayan azərbaycanlılar əminik ki, Qırğızıstan və Azərbaycan arasında siyasi, iqtisadi-ticari və mədəni-humanitar əməkdaşlıq bundan sonra da xalqlarımızın rifahı naminə möhkəmlənəcək və dərinləşəcəkdir.

Cənab Prezident, Sizin həyat yolunuz təkcə dövlət məsuliyyəti deyil, bu yol həm də xalqın etimadı, ümidləri, tarixi və gələcəyidir, onun sevgisidir.

Bu, çox ağır, eyni zamanda çox dəyərli bir məsuliyyətdir və Siz bunun öhdəsindən layiqincə gəlirsiniz.

Sizə doğum günü təbrikimizi çatdırmaqla yanaşı, həm də verdiyiniz dayaq hissinə, sabaha olan əminliyə və ədalətin hər zaman qalib gələcəyinə olan inama görə səmimi minnətdarlığımızı bildiririk.

Eyni zamanda, Sizi qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə də təbrik edirik.

**Hörmətlə,**

***Xansıvar BAXŞƏLİYEV,***
***Qırğızıstandakı "Birlik" Azərbaycanlıların İctimai Birliyinin sədri***

## Baş Prokurorluqda Kollegiya iclası



**Dekabrın 26-da Baş prokuror Kamran Əliyevin rəhbərliyi ilə prokurorluğun fəaliyyət istiqamətləri üzrə cari il ərzində görülmüş işlər, qarşıda duran vəzifələr və işin təşkilinə dair məsələlərə həsr olunmuş Kollegiya iclası keçirilib.**

Baş prokuror Kamran Əliyev cari ilin xalqımız, o cümlədən hüquq ictimaiyyəti üçün əlamətdar hadisələrlə zəngin bir il olduğunu bildirib.

Qeyd edilib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 28 dekabr 2024-cü il tarixli Sərəncamı ilə 2025-ci ilin ölkəmizdə "Konstitusiya və Suverenlik İli" elan edilməsinin Konstitusiyanın qəbulunun 30 və Vətən müharibəsində qazanılmış Qələbənin 5 illiyinə təsadüf etməsi ona xüsusi mənəvi mahiyyət qatmışdır. Bildirilib ki, bu ilin qeyd olunması ümummilli lider Heydər Əliyevin dövlətçilik irsinə ehtiramın ifadəsi olmaqla, Ulu öndərin rəhbərliyi ilə 1995-ci ildə qəbul edilmiş Konstitusiya əsasında dövlət suverenliyi, qanunun aliliyi və insan hüquq və azadlıqlarının təmin edilməsi, eləcə də Azərbaycanın hüquqi dövlət kimi formalaşmasını əks etdirir.

Çıxış zamanı həmçinin vurğulanıb ki, Ulu öndərin layiqli davamçısı möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə dövlət idarəçiliyinin təkmilləşdirilməsi, hüquqi islahatların dərinləşdirilməsi, vətəndaşların sosial rifahının yüksəldilməsi və Azərbaycanın beynəlxalq nüfuzunun daha da möhkəmləndirilməsi istiqamətində mühüm nailiyyətlər əldə olunmuş, bu sahədə Birinci vitse-prezident Mehriban xanım Əliyeva da yaxından iştirak etmiş, bu siyasətin məntiqi davamı olaraq işğaldan azad edilmiş ərazilərdə genişmiqyaslı bərpa-quruculuq işləri yüksək sürətlə davam etdirilir.

Prokurorluq orqanlarının fəaliyyətinə toxunarkən Kamran Əliyev tərəfindən ölkəmizdə bərqərar olmuş ictimai-siyasi sabitliyin qorunması, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi və insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində Azərbaycan prokurorluğunun rolu qeyd edilməklə, prokurorluğun əsas fəaliyyət istiqamətləri üzrə görülən işlər və statistik göstəricilər kollegiya üzvlərinin diqqətinə çatdırılıb, ümumən qeydə alınmış cinayətlərin sayında azalmanın müşahidə edildiyi, bu nailiyyətlərin əldə olunmasında digər hüquq mühafizə orqanları ilə əlaqəli şəkildə həyata keçirilən preventiv, operativ və istintaq tədbirlərinin effektivliyi vurğulanıb.

Eyni zamanda, prokurorluq orqanlarının vətəndaşların hüquqlarının qorunması, qanunun aliliyinin təmin edilməsi və ictimai təhlükəsizliyin möhkəmləndirilməsi sahəsində davamlı və sistemli fəaliyyət göstərdiyi diqqətə çatdırılıb. Həmçinin çıxışda Baş prokuror qeyd edib ki, 2025-ci ilin prokurorluq orqanlarının fəaliyyəti baxımından mühüm beynəlxalq hadisələrlə yadda qalmışdır. Bu çərçivədə Baş Prokurorluğun təşkilatçılığı ilə bir sıra beynəlxalq tədbirlər konfranslar keçirilib.

İclasda həmçinin Baş Prokurorluğun "İşin Təşkili Qaydaları"na əlavə və dəyişikliklərin edilməsi, həmçinin "Prokurorluq orqanlarının 2026-cı ildə ictimaiyyətin maarifləndirilməsinə dair Yol Xəritəsi" layihəsinin müzakirəsi və təsdiqi məsələsi ilə bağlı Təşkilat və icraya nəzarət idarəsinin rəisi Tural Aslanov, "Prokurorluq orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq icrası həvalə olunmuş vəzifələrə təyinatlara razılıq verilməsi ilə bağlı Kadrlar idarəsinin rəisi Natiq Hüseynov məruzələrlə çıxış ediblər.

Aparılmış müzakirələr ətrafında Kollegiya üzvləri çıxış edərək təkliflərini bildirib, sonda bir sıra məsələlər üzrə Kollegiyanın qərarı qəbul olunub.

İclasa yekun vuran Baş prokuror Kamran Əliyev prokurorluq orqanlarının bundan sonrakı fəaliyyəti zamanı da dövlət və xalqımızın mənafeyi naminə qanunla üzərinə qoyulmuş vəzifələri layiqincə yerinə yetirəcəyinə əminliyini ifadə edib.

***XQ***

## Ruben Vardanyanın məhkəməsi dekabrın 30-da davam etdiriləcək

**Azərbaycan Respublikası Cinayət Məcəlləsinin sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə ilə bağlı maddələri ilə və digər ağır cinayətlərdə təqsirləndirilən Ermənistan vətəndaşı Ruben Vardanyanın barəsində cinayət işi üzrə dekabrın 26-na təyin olunmuş məhkəmə prosesi təxirə salınıb.**

Buna səbəb təqsirləndirilən şəxsin müdafiəçisi Emil Babışovun məhkəməyə müraciət edərək, özünün səhhətində yaranmış problemlə bağlı məhkəmənin təxirə salınmasını xahiş etməsidir.

Məhkəmə vəkilin müraciətini nəzərə alıb.

Növbəti məhkəmə iclası dekabrın 30-na təyin edilib.

***XQ***

## Mərkəzi icra hakimiyyəti orqanlarının və digər idarəetmə qurumlarının rəhbərləri tərəfindən 2026-cı ilin yanvar ayında şəhər və rayonlarda keçiriləcək vətəndaşların qəbulu cədvəli

| S/n | Qəbulu keçirən mərkəzi icra hakimiyyəti orqanı və idarəetmə qurumunun rəhbəri | Qəbulun keçirildiyi şəhər, rayon | Əhatə olunan şəhər və rayonlar | Qəbulun keçirildiyi gün |
|---|---|---|---|---|
| 1. | **Daxili işlər naziri** Vilayət Eyvazov | **Quba** | Quba, Qusar, Xaçmaz, Şabran, Siyəzən, Xızı | **06** |
| 2. | **Ədliyyə naziri** Fərid Əhmədov | **Salyan** | Salyan, Neftçala, Biləsuvar, Şirvan, Hacıqabul | **09** |
| 3. | **Rəqəmsal inkişaf və nəqliyyat naziri** Rəşad Nəbiyev | **Şabran** | Şabran, Siyəzən, Xızı | **09** |
| 4. | **Baş prokuror** Kamran Əliyev | **Şirvan** | Şirvan, Hacıqabul, Salyan, Neftçala, Biləsuvar | **16** |
| 5. | **İqtisadiyyat naziri** Mikayıl Cabbarov | **Masallı** | Masallı, Lerik | **16** |
| 6. | **Dövlət Gömrük Komitəsinin sədri** Şahin Bağırov | **Cəlilabad** | Cəlilabad, Masallı, Biləsuvar, Salyan | **16** |
| 7. | **Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi** Mürsəl İbrahimov | **Neftçala** | Neftçala, Salyan, Şirvan, Hacıqabul | **16** |
| 8. | **Qida Təhlükəsizliyi Agentliyinin sədri** Qoşqar Təhməzli | **Sumqayıt** | Sumqayıt, Abşeron, Qubadlı, Zəngilan | **19** |
| 9. | **"Azərişıq" ASC-nin sədri** Vüqar Əhmədov | **Hacıqabul** | Hacıqabul, Şirvan | **21** |
| 10. | **Əmək və əhalinin sosial müdafiəsi naziri** Anar Əliyev | **Ağdam** (Quzanlı qəsəbəsi) | Ağdam, Tərtər | **22** |
| 11. | **Energetika naziri** Pərviz Şahbazov | **Masallı** | Masallı, Lənkəran, Astara, Lerik, Yardımlı, Cəlilabad | **23** |
| 12. | **Gənclər və idman naziri** Fərid Qayıbov | **Sumqayıt** | Sumqayıt, Qubadlı | **23** |
| 13. | **Fövqəladə hallar naziri** Kəmaləddin Heydərov | **Ağdam** (Quzanlı qəsəbəsi) | Ağdam, Ağcabədi, Laçın | **23** |
| 14. | **Kənd təsərrüfatı naziri** Məcnun Məmmədov | **Oğuz** | Oğuz, Şəki, Qax, Zaqatala, Balakən, Qəbələ | **23** |
| 15. | **Mədəniyyət naziri** Adil Kərimli | **Ağsu** | Ağsu, Şamaxı, Qobustan, İsmayıllı | **23** |
| 16. | **Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri** Bahar Muradova | **Şirvan** | Şirvan, Hacıqabul | **23** |
| 17. | **Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin sədri** Saleh Məmmədov | **Xızı** | Xızı, Siyəzən | **23** |
| 18. | **Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri** Zaur Mikayılov | **Ucar** | Ucar, Kürdəmir, Zərdab | **23** |
| 19. | **"Azəristiliktəchizat" ASC-nin sədri** İlham Mirzəliyev | **Balakən** | Balakən, Zaqatala | **23** |
| 20. | **"Azəriqaz" İstehsalat Birliyinin baş direktoru** Azər Məmmədov | **Mingəçevir** | Mingəçevir, Yevlax | **23** |
| 21. | **Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri** Ramin Məmmədov | **Qobustan** | Qobustan, Şamaxı, Ağsu, İsmayıllı | **26** |
| 22. | **Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri** Rövşən Rzayev | **Göyçay** | Göyçay, Ağdaş | **29** |
| 23. | **İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin sədri** Zaur Əliyev | **Naxçıvan** | Naxçıvan, Babək, Culfa, Kəngərli, Ordubad, Sədərək, Şahbuz, Şərur | **29** |
| 24. | **Elm və təhsil naziri** Emin Əmrullayev | **Kürdəmir** | Kürdəmir, Mingəçevir, Yevlax, Ağdaş, Göyçay, Ucar, Zərdab | **30** |
| 25. | **Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri** Anar Quliyev | **Şabran** | Şabran, Siyəzən, Xızı | **30** |

**Vətəndaşların qəbulu müəyyən edilmiş günlərdə saat 10:00-da başlayır.**

## DTX, Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti və MİDA-nın birgə məlumatı

**Dövlət Təhlükəsizliyi Xidməti, Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti və Mənzil İnşaatı Dövlət Agentliyi birgə məlumat yayıb.**




Məlumatda deyilir: "Dekabrın 3-də Mənzil İnşaatı Dövlət Agentliyinin növbəti layihələri üzrə ümumilikdə 627 mənzilin "Elektron hökumət" portalı (www.e-gov.az) üzərindən "Güzəştli mənzil" sistemi vasitəsilə satışı zamanı Dövlət Təhlükəsizliyi Xidməti, Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti və MİDA tərəfindən tətbiq edilən informasiya təhlükəsizliyi mexanizmləri ilə sistemin təhlükəsiz fəaliyyəti nəzarətdə saxlanılıb və təmin edilib.

Mənzil seçimi prosesinə nəzarət və informasiya təhlükəsizliyi tədbirləri həyata keçirilərkən müxtəlif kiberhücum cəhdləri müşahidə edilib və operativ şəkildə aşkarlanaraq neytrallaşdırılıb.

Qeydə alınan müvafiq faktlarla bağlı DTX-də cinayət işi başlanılıb.

Müəyyən edilib ki, Azərbaycan Respublikasının vətəndaşları - C.Süleymanlı və T.Abdulov onlara müraciət etmiş müxtəlif vətəndaşların güzəştli şərtlərlə mənzil əldə etmək prosesini sürətləndirmək, bu prosesdə həmin vətəndaşlara qanunsuz üstünlük qazandırmaq məqsədilə əvvəlcədən əldə etdikləri və informasiya texnologiyaları sahəsində xüsusi texniki imkanlardan istifadə edərək uyğunlaşdırdıqları xüsusi proqram təminatını MİDA-nın "Güzəştli mənzil" informasiya sistemində mənzil seçimi prosesini təmin edən istifadəçi səhifəsinə və ona inteqrasiya edilmiş mühafizə mexanizminə qanunsuz tətbiq etməklə, 2025-ci il dekabrın 3-ü saat 11:00-da kompüter infrastrukturunun normal fəaliyyətinə qəsdən ciddi maneə yaratmağa yönələn hərəkətlər ediblər.

Onlar DTX tərəfindən Cinayət Məcəlləsinin 273.3.1 və 273.3.2-ci (kompüter sisteminə qanunsuz müdaxilə - hüququ olmadan kompüter məlumatlarını qəsdən daxil etmə yolu ilə kompüter sisteminin işləməsinə təkrar qəsdən maneə törətməyə yönələn hərəkətlər) maddələri ilə cinayət məsuliyyətinə cəlb ediliblər.

Hazırda əlaqəli xüsusatlarla bağlı istintaq-əməliyyat tədbirləri davam etdirilir".

***XQ***

# XİN diplomatiya ilinə yekun vurdu

**Dekabrın 26-da Azərbaycanın Xarici İşlər Nazirliyində 2025-ci ilin yekunlarına dair mətbuat konfransı keçirilib.**





Xarici işlər naziri Ceyhun Bayramov 2025-ci il üzrə xarici siyasətinin əsas istiqamətləri, milli maraqların təmin olunması məqsədilə həyata keçirilmiş diplomatik fəaliyyət və əldə olunmuş nəticələr barədə ətraflı məlumat verib.

Nazir bildirib ki, 2025-ci ildə beynəlxalq münasibətlər sistemində baş verən mürəkkəb geosiyasi proseslər fonunda Azərbaycan Respublikası müstəqil, balanslaşdırılmış və praqmatik xarici siyasət kursunu uğurlu şəkildə davam etdirib, çevik, məsuliyyətli və konstruktiv diplomatiya həyata keçirərək ikitərəfli və çoxtərəfli əməkdaşlıq mexanizmlərini gücləndirib, beynəlxalq nüfuzunu və təsir imkanlarını əhəmiyyətli dərəcədə artırıb.

C.Bayramov qeyd edib ki, əvvəlki illərdə olduğu kimi, şanlı zəfərin 5 illiyinin qeyd olunduğu 2025-ci ildə də regionda dayanıqlı və qalıcı sülhün təmin edilməsi Azərbaycanın xarici siyasətinin əsas prioritetlərindən biri olub. Bu çərçivədə, Azərbaycan ilə Ermənistan arasında münasibətlərin suverenlik və ərazi bütövlüyü prinsipləri əsasında normallaşdırılması, 2025-ci il avqustun 8-də Vaşinqtonda keçirilmiş Zirvə görüşünün nəticələri, sülh sazişi layihəsinin paraflanması, eləcə də ATƏT-in Minsk prosesinin və əlaqədar strukturların bağlanması istiqamətində görülən işlər diqqətə çatdırılıb.

Həmçinin qonşu dövlətlər, Mərkəzi Asiya, Avropa, Asiya-Sakit okean, Yaxın Şərq, Afrika və Amerika regionu ölkələri ilə aparılan iş barədə məlumat verilib. İntensivləşən təmaslar istiqamətində 41 ölkə ilə müxtəlif sahələr üzrə 191 sənədin imzalandığı, 52 dövlət ilə siyasi məsləhətləşmələrin keçirildiyi diqqətə çatdırılıb. Azərbaycanın Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət Şurasına tamhüquqlu üzv kimi qəbul olunmasının, habelə bir sıra ölkələrlə ikitərəfli münasibətlərin Strateji Tərəfdaşlığa yüksəldilməsinin ölkəmizin nüfuzunun və qarşılıqlı etimadın göstəricisi olduğu bildirilib.

Mətbuat konfransında Azərbaycanın 2025-ci il üzrə çoxtərəfli diplomatiya çərçivəsində fəaliyyəti barədə məlumat verən nazir, Türk Dövlətləri Təşkilatında sədrliyin Azərbaycana keçməsi, Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirədə sədrliyimizin davam etdirilməsi, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatında (QDİƏT) sədrliyimiz, Qoşulmama Hərəkatı Troykası çərçivəsində iştirak, COP29-a sədrliyimiz, eləcə də İqtisadi Əməkdaşlıq Təşkilatı və D-8 İqtisadi Əməkdaşlıq Təşkilatı platformaları üzrə irəli sürülmüş təşəbbüsləri xüsusi qeyd edib.

Azərbaycanın xarici ölkələrdə diplomatik təmsilçiliyinin genişləndirilməsi istiqamətində görülən tədbirlər barədə danışan nazir, bu çərçivədə, cari ildə Azərbaycanın Tailand Krallığında və Oman Sultanlığındakı səfirliklərinin rəsmi açılışını, 13 illik fasilədən sonra cari ilin fevral ayında Azərbaycanın Suriyadakı səfirliyinin fəaliyyətini bərpa edilməsini diqqətə çatdırıb.

Humanitar diplomatiya istiqaməti üzrə digər məsələlərlə yanaşı, mina təhdidi ilə mübarizə və itkin düşmüş şəxslərin taleyinin aydınlaşdırılması məqsədilə aparılan işlər diqqətə çatdırılıb. İl ərzində ölkəmiz tərəfindən Ukraynaya və Suriyaya göstərilən humanitar yardım və ölkəmizin beynəlxalq yardım proqramları barədə iştirakçılar məlumatlandırılıb.

Azərbaycan vətəndaşlarının hüquq və azadlıqlarının qorunması istiqamətində 2025-ci il daxil olmaqla son illər ərzində İraqdan və Suriyadan 473-ü uşaq və 64-ü qadın olmaqla, ümumilikdə 537 vətəndaşımızın repatriasiyasının, cari ildə İsrail və İran arasında baş vermiş hərbi münaqişənin nəticəsi olaraq 9 minə yaxın Azərbaycan vətəndaşının və 82 xarici ölkə vətəndaşının ölkəmizə təxliyəsinin həyata keçirildiyi diqqətə çatdırılıb.

Daha sonra nazir Ceyhun Bayramov media nümayəndələrinin çoxsaylı suallarını cavablandırıb. "Xalq qəzeti" əməkdaşının



"2026-cı ildə konkret olaraq hansı ölkələrdə səfirliyin və ya baş konsulluğun açılması gözlənilir?" sualına Ceyhun Bayramov cavab verib ki, məsələ ilə bağlı müəyyən təkliflər var. "Ancaq səfirliklərin və konsulluqların yaradılması barədə Milli Məclis qanun qəbul edir və həmin qanun cənab Prezident İlham Əliyev tərəfindən təsdiqlənir. Buna görə də bu məsələ barədə vaxtından əvvəl elan vermək istəmirəm", - deyə o vurğulayıb. Nazir onu da əlavə edib ki, Bəhreyn Krallığında Azərbaycan səfirliyin açılması 2026-cı ildə baş tutacaq.

***XQ***

# Milli Məclisin plenar iclası

*Quru sərhədlərin bağlı qalması, yollarda tıxac, çevik iş rejimi kimi məsələlər müzakirə edildi*

**Dünən Milli Məclisin növbəti plenar iclası keçirildi. İclasın gündəliyinə 9 məsələ daxil edilmişdi. Gündəliyin müzakirəsinə başlamazdan əvvəl deputatlar cari məsələlər ətrafında çıxışlar etdilər. Spiker Sahibə Qafarova "Azərbaycan Hava Yolları" QSC-yə məxsus Embraer 190-100 IGW tipli sərnişin təyyarəsinin Qazaxıstan ərazisində qəzaya uğramasının birinci ildönümü ilə bağlı həlak olanların ailələrinə bir daha başsağlığı verdi, günahkarların məsuliyyətə cəlb edilməsi və Rusiya tərəfindən zərərçəkən ailələrə təzminat ödənilməsi barədə çağırış səsləndirdi.**



Cari məsələlər bölümündə deputat Zahid Oruc çıxışında quru sərhədlərin bağlı qalması məsələsinə toxunaraq bildirdi ki, pandemiyadan sonra davam edən bu rejim regional ticarətin genişlənməsini, tranzit və logistika potensialının tam reallaşmasını məhdudlaşdırır, yüklərin daha uzun və baha marşrutlarla daşınmasına səbəb olur. Amma deputat onu da vurğuladı ki, yeni sərhəd siyasəti müasir təhlükəsizlik çağırışları fonunda formalaşdırılıb: "Terror qruplarının əhəmiyyətli hissəsi münaqişə sonrası regionlardan yayılır, qeyri-qanuni miqrasiya kanalları isə terror riskini bir neçə dəfə yüksəldir. Azərbaycan bu riskləri sərhədlərdə sərt nəzarət və xüsusi rejimlər hesabına minimumda saxlayır".

Deputat Fazil Mustafa çıxışında sürüşkən iş rejiminə keçidin vacibliyini vurğuladı. O bildirdi ki, bir sıra Avropa ölkələrində iş saatlarının daha erkən başlaması və çevik iş qrafiklərinin tətbiqi vətəndaşların vaxtdan səmərəli istifadəsinə imkan yaradır: "Bank sektoru kimi sahədə bazar günü iş rejiminə keçid, eləcə də ayrı-ayrı sektorların həftənin müəyyən günlərində işləməməsi xidmətlərdən istifadənin rahatlığını artıra bilər". Digər tərəfdən, F.Mustafa qeyd etdi ki, paytaxtda nəqliyyatın sıxlığı vətəndaşların vaxt itkisinə səbəb olur və insanların əhəmiyyətli hissəsi işə gedib-gəlmək üçün gündə orta hesabla 3-4 saat vaxt sərf edir: "Bakının tıxac probleminin tam həllinə qədər vətəndaşların vəziyyətini yüngülləşdirmək məqsədilə müəyyən güzəştlər tətbiq edilməlidir. Əgər bir şəxs işə gələrkən yolda 2 saat vaxt itirdiyini sübut edirsə, ona işdən bir saat tez çıxmaq imtiyazı verilməlidir. Bu addım əmək məhsuldarlığını və işə münasibətin keyfiyyətini artıra bilər".

*

Daha sonra gündəlikdə olan məsələlərin müzakirəsinə keçildi. İlk olaraq Əmək, Mülki Prosessual, Ailə, Cəzaların İcrası və Mənzil məcəllələrində dəyişiklik edilməsi barədə qanun layihəsi üçüncü oxunuşda nəzərdən keçirildi. Layihəni Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova təqdim etdi. Qanun layihəsi ilə bağlı müvafiq 6 komitə müsbət rəy verdi. Səsvermədən sonra layihə üçüncü oxunuşda qəbul edildi.

Gündəlikdə duran ikinci məsələ "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" qanuna dəyişiklik edilməsi ilə bağlı idi. Qanun layihəsini üçüncü oxunuşa İnsan hüquqları komitəsinin sədri Zahid Oruc təqdim etdi. Layihə cəmiyyət və deputatlar tərəfindən böyük maraqla qarşılandığından geniş müzakirələr aparıldı. Deputat Siyavuş Novruzov xaricdən Azərbaycana qarşı təhqir və mənəvi terror xarakterli çağırışlar edən şəxslərə qarşı daha sərt hüquqi tədbirlərin görülməsinin vacibliyini bildirdi. O qeyd etdi ki, bu kimi hallarla bağlı prokurorluq orqanları tərəfindən artıq müəyyən tədbirlər görülüb və proses genişləndirilməlidir. Onun sözlərinə görə, xaricdə məsuliyyətdən yayınaraq insanları təhqir edən şəxslər Azərbaycana gətirilməli və qanun qarşısında cavab verməlidirlər. S.Novruzov vurğuladı ki, bu cür hallara qarşı cəmiyyətin birgə mövqeyi formalaşdırılmalı, laqeydlik nümayiş etdirilməməlidir.

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsini ikinci oxunuşda Parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Kamal Cəfərov təqdim etdi. Deputat layihə ilə bağlı əlavə təklif və dəyişikliklərin olmadığını bildirdi. Səsverməyə çıxarılan qanun layihəsi qəbul edildi.

Gündəlikdə duran növbəti məsələ Cinayət və İnzibati Xətalar məcəllələrində, eləcə də "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" və "Mədəniyyət haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsinin ikinci oxunuşuna həsr olunmuşdu. Layihəni deputat Azay Quliyev təqdim etdi. Deputatlar Vüqar Bayramov, Qüdrət Həsənquliyev, Hicran Hüseynova, Gülşən Paşayeva, Erkin Qədirli və Aydın Mirzəzadə sənədi cüzi düzəlişlərlə dəstəklədiklərini bildirdilər. Qanun layihəsi səsverməyə çıxarılaraq ikinci oxunuşda qəbul edildi. Komitəsinin üzvü Nurlan Həsənov "Notariat haqqında" və "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" qanunlara dəyişiklik edilməsi barədə qanun layihəsini ikinci oxunuşda təqdim etdi. Layihə səsverməyə çıxarılaraq qəbul edildi.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanovun təqdimatında "Dövlət rüsumu haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi də ikinci oxunuşda səsverməyə çıxarıldı. Daha sonra sədr Vergi Məcəlləsində, "Tütün və tütün məmulatları haqqında", "Reklam haqqında" və "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" qanunlara dəyişiklik edilməsi barədə qanun layihəsi ətrafında çıxış etdi. Milli Məclisin deputatı ilk oxunuşda elektron siqaretlərin və onların komponentlərinin idxalı, ixracı, istehsalı, saxlanılması, topdan və pərakəndə satışı, istifadəsini qadağan edən müddətin 2026-cı il fevralın 1-dən aprelin 1-dək uzadılmasını təklif etmişdi. Qanun layihəsi səsverməyə çıxarılaraq ikinci oxunuşda qəbul edildi.

Növbəti məsələ "Patent haqqında" qanuna çoxsaylı dəyişikliklərin edilməsi barədə qanun layihəsinin müzakirəsinə həsr olundu. Milli Məclisin Elm və təhsil komitəsinin sədri Anar İsgəndərov qanun layihəsi barədə ətraflı məlumat verdi. Layihə patent alınması prosedurlarının sadələşdirilməsini, ekspertiza müddətinin əhəmiyyətli dərəcədə azaldılmasını və xidmətlərin çevikliyinin artırılmasını nəzərdə tutur. Dəyişikliklərə əsasən, xarici iddiaçılar patentlə bağlı bir sıra prosedurları birbaşa Azərbaycanın milli patent orqanına müraciət etməklə həyata keçirə biləcəklər. Qanun layihəsində xidməti tapşırıq əsasında ixtira yaradan müəlliflərə ödəniləcək qonorarın minimum 50 faiz səviyyəsində müəyyənləşdirilməsi də əksini tapıb. Sənəd sənaye mülkiyyəti sahəsində qanunvericiliyin ÜTT tələblərinə uyğunlaşdırılmasını, patent fəallığının artırılmasını, ölkənin beynəlxalq reytinqlərinin yaxşılaşdırılmasını və əqli mülkiyyət sahəsinin daha da təkmilləşdirilməsini hədəfləyir. Layihə səsverməyə çıxarılaraq birinci oxunuşda qəbul edildi.

Gündəliyin sonuncu məsələsi asbest və tərkibində asbest olan materialların mülki dövriyyədən çıxarılmasını təklif edən qanun layihəsi idi. Layihəni Milli Məclisin hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nurlan Həsənov təqdim etdi. Qanunvericiliyə təklif edilən dəyişikliklərə əsasən, asbest və tərkibində asbest olan materiallar mülki dövriyyədən çıxarılmış əşyaların siyahısına daxil edilir. Yeni tələblərin 2027-ci il iyulun 1-dən qüvvəyə minməsi nəzərdə tutulur. Elmi araşdırmalar asbestin insan sağlamlığı üçün ciddi risklər yaratdığını təsdiqlədiyindən, bir sıra ölkələrdə onun istifadəsi qadağan olunub. Təklif olunan dəyişikliklər ictimai sağlamlığın qorunması məqsədi daşıyır və sənəd birinci oxunuşda qəbul edildi.

Bununla da Milli Məclisin 2025-ci ildə son plenar iclası başa çatdı.

***Tacir SADIQOV***
***XQ***

***Xuntaçıların məhkəməsi***

# Erməni hərbçilərin son söz çıxışları yekunlaşıb





**Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə açıq məhkəmə prosesinin baxış iclası dekabrın 26-da davam etdirilib.**

Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə iclasında təqsirləndirilən şəxslərin hər biri bildikləri dildə tərcüməçi, həmçinin müdafiələri üçün vəkillərlə təmin olunub.

İclasda təqsirləndirilən şəxslər, onların müdafiəçiləri, zərərçəkmiş şəxslərin bir qismi, onların hüquqi varisləri və nümayəndələri, həmçinin dövlət ittihamını müdafiə edən prokurorlar iştirak ediblər.

Sədrlik edən Z.Ağayev bildirib ki, məhkəmə iclası təqsirləndirilən şəxslərin son söz çıxışları ilə davam etdirilir.

Məhkəmə iclasında təqsirləndirilən şəxs Davit İşxanyan son söz deyib. O, çıxışında irəli sürülmüş ittihamlarla razılaşmadığını bildirib və ittiham tərəfinin mövqeyinə əks arqumentlərini səsləndirib.

D.İşxanyan insanların yaşadıqları ərazilərdən məcburi şəkildə çıxarılmasında, qanunsuz məskunlaşmada, minaların yerləşdirilməsində, təcavüzkar müharibənin planlaşdırılmasında, yeni hücum planlarının hazırlanmasında, soyqırımında, mülki əhalinin məhv edilməsində, müharibə qanunlarının pozulmasında, mülki əhalinin təqibində, insanların girov götürülməsində, beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrum etmədə, işgəncə verilməsində, mülki şəxslərin qətlində, əmlakların talan edilməsində, cinayətkar birliyin tərkibində olmaqda, silah-sursatın qanunsuz daşınmasında və s. cinayətlərdə iştirak etmədiyini iddia edib.

Təqsirləndirilən şəxs 1991-ci il noyabrın 20-də baş vermiş Qarakənd faciəsi barədə də danışıb. O, Azərbaycana məxsus, içərisində yüksəkvəzifəli şəxslərin olduğu vertolyotun partlaması hadisəsinin qəza olduğunu iddia edib.

D.İşxanyan çıxışında əsir və girovlarla bağlı ittiham aktında yer almış məqamlara da toxunub. O qeyd edib ki, azərbaycanlı əsir və girovlarla təması olmayıb: "Özümü təqsirkar hesab etmirəm, mən hansısa cinayət törətməmişəm".

Sədrlik edən Z.Ağayev bununla da son söz çıxışlarının yekunlaşdığını deyib. O, tərəflərə (ittiham tərəfi, zərərçəkmiş tərəf və müdafiə tərəfi) müraciət edərək hökm layihəsi təqdim edib-etməyəcəklərini soruşub. Tərəflər hökm layihəsi təqdim etməyəcəklərini bildiriblər.

Bundan sonra sədrlik edən məhkəmə baxışının başa çatdığını elan edib.

Məhkəmə heyəti müşavirəyə gedib. Müşavirədən qayıtdıqdan sonra məhkəmə hökmü elan olunacaq.

***XQ***

# Prezident İlham Əliyevin Ağdamdan tarixi yaddaş mesajları



## I MƏQALƏ

### Tarix və Zaman

Böyük Liderlər tarixi Zamanda mənalandıra bilirlər. O mənaların içərisindən tarixi dövr üçün daha əhəmiyyətli olanı müəyyən edirlər. Bununla həm tarixi konkret Zaman kəsimində “yaşadırlar”, həm də onun kollektiv şüurun “yaddaş naxışlarına” çevrilməsinə yön verirlər. Tarix real həyatdan toplumun yaddaşına belə həkk olunur. Liderin sözü tarixin izinə çevrilir. Liderin sözü tarixin izində qalır!

Hər tarixi dönəmin öz yaddaşı var. Milyonların şüuruna hopmuş həqiqətlər millətin tarixi dövrdə gələcəyə baxışının rəmzidir. Bununla cəmiyyət gələcəyin obrazını yaradır və onu əyaniləşdirir. Henri Kissincer yazır ki, bu proses lidersiz mümkün deyildir, çünki onun missiyası etnosun keçmişini dəqiq bilmək əsasında gələcəyə aparmaqla bağlıdır.

Prezident İlham Əliyevin Ağdamdan verdiyi mesajlar müasir Azərbaycan dövləti və cəmiyyətinin tarixi yaddaşının zənginləşməsinin ana xəttini ifadə edirlər. Dövlət başçısı bu dəfə Azərbaycan tarixini və onun bu gün yaddaşlarda həkk olunmasının ümumi mahiyyətini “Zaman ritminə” tam daxil edə bildi. Azərbaycan rəhbərinin mesajlarına qısa da olsa, nəzər salaq.

### Xalqın tarixi irsi

Xalqın tarixi irsi onun yaddaşının bünövrəsidir. Əslində tarixi irs olmadan kollektiv yaddaş da olmaz. “Manqurt” yaratmaq niyyətində olanlar fərdlərin yaddaşını pozmaq məqsədi güdmüşlər. Kollektiv miqyasda bu işi daha dəhşətli və mənfur üsullarla etməyə çalışırlar. Xalqın bütövlükdə tarixi irsini məhv etməyə cəhdlər göstərirlər. Əgər alınsa, hədəf seçilmiş xalqın tarixi yaddaşı da “manqurtlaşmış” olur. Prezident İlham Əliyevin Ağdamda ifadə etdiyi aşağıdakı tezis bu baxımdan Azərbaycan xalqının tarixi yaddaşı üçün olduqca önəmlidir. Dövlət başçısı demişdir: “Ermənistan dövləti bu bölgələrdə Azərbaycan xalqının tarixi irsini tamamilə silmək istəyirdi”.

Bu artıq adi müharibə və ya hərbi təcavüz deyildir. Əsl mənası bir qədim xalqın tarixi irsini xüsusi məqsədlə silməyə çalışmaqdan ibarətdir. Burada Azərbaycan liderinin çox incə üsulla, ümumiyyətlə, son 250 ildə Azərbaycan xalqına, azərbaycanlılara və Azərbaycan dövlətçiliyinə qarşı imperialist dairələrin yeritdikləri siyasətin gerçək mənasına keçid vardır. Bunu semantik olaraq “Ermənistan dövləti” ifadəsinin tarixi, siyasi və geosiyasi layihə kimi reallaşmasının xüsusiyyətləri fonunda aydın görə bilərik.

Daha sadə olması üçün bu mühüm tarixi, siyasi, dövləti və geosiyasi məsələni konkret hissələrə bölək.

### “Ermənistan ideyası” tarixin “gözündə”

Bu gün hər kəs “Ermənistan var” deyir. Lakin həmin ad Cənubi Qafqazda çıx qısa yaddaşa malikdir. Bu bölgədə “Ermənistan” adlanan dövləti əvvəlcə ideya kimi yaratdılar. Sonra onu təcavüz, deportasiya və işğal yolu ilə aborigen türklərin tarixinə, mədəniyyətinə, demoqrafik strukturuna, yerləşim coğrafiyalarına və toplum kimi identikliklərinə nüfuz etdirdilər. Bunun əyani göstəricisi Qərbi Azərbaycanda, Qarabağda, Şərqi və Qərbi Zəngəzurda, Borçalıda, Cənubi Azərbaycanda qırğınlar, deportasiyalar, soyqırımlar, siyasi-ideoloji təzyiqlər formasında XVII əsrin ikinci yarısından başlayaraq XX əsrin 90-cı illərinə qədər olan müddətdə baş verənlərdir. Burada detallara varmaq imkanı yoxdur.

Qısa onu deyək ki, birinci Səfəvi-Rusiya müharibəsindən başlayaraq uzun müddət müxtəlif bəhanələrlə Azərbaycan torpaqlarına ermənilər köçürülməyə başlandı, müəyyən müddətlərdə mütəşəkkil erməni terroru şəbəkəsi vasitəsi ilə bu proses çoxaspektli amansız zorakı xarakter aldı. Yəni imperialist dairələr ermənilərin əli ilə azərbaycanlıları tarixi torpaqlarından zorakılıqla qovurdular, eyni vəhşiliklə onları ya uyğunsuz bir yerə atırdılar, ya da insanlar fərdi və ya ailə miyqasında Cənubi Qafqazın dördbir yanına dağılırdılar. Bununla Azərbaycan qövmu həm ənənəvi sosial strukturlaşma mühitini itirdi, həm ortaq sosial-psixoloji identiklikləri zərər gördü, həm də tarixi irsinin yox olması təhlükəsi yarandı.

Onun üçün ermənilərin havadarları terrorçuları öyrədirdilər ki, türkləri deportasiya etdiyiniz coğrafiyada qondarma erməni tarixi yaradın. Yəni demoqrafik göstəriciləri dəyişin, yer adlarını erməniləşdirin, müqəddəs sayılan yerləri təhqir edin və ya məhv edin (məsələn, məscid və qəbiristanlıqları), mədəniyyət abidələrini yerlə-yeksan edin, toponimləri tamamilə dəyişin və s. Vurğulanan dəyərlərin hamısı xalqın tarixi irsinə aiddir.

### “Sovet həmrəyliyi” və “Ermənistan” ideyası

Artıq I Dünya müharibəsinin sonuna Qərbi Azərbaycan torpaqlarının bir hissəsini işğal etmək və ora erməniləri köçürməklə süni erməni dövləti tarixinin ilk sətirlərini yazmışdılar. Bu proses 1920-ci ildə “Ermənistan Respublikası” ideyasının “Ermənistan SSR” proyektinə transformasiya olunması ilə yeni tarixi, siyasi, geosiyasi və ideoloji məzmun almağa başladı. Onun bir neçə əlaməti vardı.

Birincisi, ermənilərin havadarları artıq “Ermənistan”ı ideya kimi bəşəriyyətin şüuruna zorla “pərçimləmişdilər”, hətta onun coğrafi obrazını yaratmışdılar. Bu qondarma ölkə tarixən azərbaycanlılara məxsus olan Qərbi Azərbaycan ərazisində yaradılırdı. Bu zaman, ümumiyyətlə, “Qərbi Azərbaycan” ifadəsi coğrafi, sosial, siyasi, geosiyasi və tarixi-mədəni aspektlərdə yaddaşlardan silinirdi, onun adı heç çəkilmirdi. Rəsmi sənədlərdə əks olunmurdu.

Bununla tarixi reallıq olan “Qərbi Azərbaycan”ı “Ermənistan” ideyası ilə süni şəkildə əvəz etdilər. Tarixi irsimizə vurulan ən böyük zərbə bu məqamla bağlıdır. Ulu öndər Heydər Əliyev daim bu məqamı xüsusi vurğulamışdır. Prezident İlham Əliyev də onu həmişə ayrıca ifadə edir.

İkincisi, xalqların həmrəyliyindən və bərabərliyindən dəm vuran sovetlər nəinki bu ədalətsiz prosesin qarşısını aldı, hətta onu daha amansız müstəviyə transfer etdi. Onlar “sovet həmrəyliyi” adı altında Azərbaycan xalqının tarixi irsini məhv etməkdə davam etdilər. Artıq 1929-cu ilə Ermənistanın ölkə kimi ərazisi 9 min kvadratkilometrdən 29 min kvadratkilometrə qədər şişirdilmişdi. Bununla da SSRİ Ermənistanı tam olaraq dövlət səviyyəsinə qaldırdı və ədəbiyyatda, rəsmi sənədlərdə, beynəlxalq təşkilatların siyasi leksikonunda və sənədlərində “Qərbi Azərbaycan” termini tam silindi (əvvəldə də yox idi, lakin XIX əsrin sonlarında məhdud sayda rus tarixçisi ermənilərin bu regionda heç zaman mövcud olmadığı haqqında yazmışdılar).

Nümunə kimi Millətlər Liqası və BMT-nin qaçqınlarla bağlı qəbul etdikləri qətnamələri göstərə bilərik. Bu təşkilatların heç biri nə “Qərbi Azərbaycan” terminindən istifadə etmişdir, nə də qaçqın kimi həmin ərazidən deportasiya olunmuş soydaşlarımızın adını tutmuşdur. Bir sənəddə belə yoxdur! Tarixi irsin beynəlxalq miqyasda rəsmi silinməsi cəhdi, bax, budur!

Deməli, artıq II Dünya müharibəsi ərəfəsində, faktiki olaraq, Qərbi Azərbaycan bölgəmizin ərazisi hesabına Qərb və Rusiya qondarma və saxta “Ermənistan” ideyası “Ermənistan dövləti” ideyasına transformasiya edilmişdi. Bunun bədəlini isə Azərbaycan xalqı və dövlətçiliyi ödəmişdi – siyasi, mədəni, tarixi, mənəvi, demoqrafik irsimizə qarşı ciddi zərbələr vurğulmuşdu və hətta onu tarixin səhnəsindən tamamilə silmək iştahları meydana gəlmişdi. Ancaq bir reallığı nəzərə almamışdılar.

### Heydər Əliyevin liderlik dahiliyi və siyasi iradəsi

Ulu öndər SSRİ dönəmində yeganə şəxsiyyət idi ki, həm sovetə daxil olan bir respublikaya rəsmi rəhbərlik etmişdir, həm də kimsəyə hiss etdirmədən xalqın lideri olmuşdur. SSRİ üçün respublika miqyasında kommunist partiyasına rəhbərlik etməklə xalqın milli mövqeli lideri olmaq mümkün deyildi. Lakin Heydər Əliyev bu mümkün olmayanı bacardı. Ulu öndər Azərbaycan SSR-i faktiki məhv olmaqdan, şovinist dairələrin tələlərindən xilas etdi və Azərbaycan yaşamaqda davam etdi!

1969-cu ildə Heydər Əliyev Azərbaycan SSR-ə rəhbər təyin olunanda respublika çətin vəziyyətdə idi. Onun ərazilərini hektar-hektar müxtəlif bəhanələrlə ermənilərə peşkəş edirdilər. Müxtəlif təzyiq üsulları ilə iqtisadiyyatını, coğrafiyasını, demoqrafiyasını, mədəniyyətini dağıdırdılar. Belə təəssürat yaratmağa çalışırdılar ki, Azərbaycan ayrıca ölkə, cəmiyyət, mədəniyyət və iqtisadi məkan kimi mövcud ola bilməz. Ona görə də onun ərazisini başqaları arasında bölmək lazımdır.

Məhz bu prosesin qarşısını Heydər Əliyev həyata keçirdiyi sosial-iqtisadi, mədəni, elmi, təhsil və s. tədbirləri ilə qətiyyətlə aldı. Ermənilərin ərazi istəmək iştahları batdı, Kremlin bu istiqamətdə planları baş tutmadı. Bununla da XX əsrin 70-ci illərindən başlayaraq Azərbaycanın tarixi irsinin məhv edilməsi planları ciddi zərbələr aldı. Lakin təcrübə göstərdi ki, düşmən daha hiyləgər və gizli yol seçmişdir. Yəni 1990-cı illərə ermənilərin havadarları yeni planlarını hazırlamışdılar. Bu planda SSRİ-dən sonra Azərbaycanı, ümumiyyətlə, dövlət kimi yox etmək aspekti də mövcud imiş.

### 1989-cu ildə başlayan yeni şiddət

Bu barədə ulu öndər Heydər Əliyevin çoxlu sayda fikirləri vardır. Prezident İlham Əliyev də dəfələrlə onu ifadə etmişdir. Ağdamda da həmin fikir konkret deyilmişdir: “Mən 17 il ərzində ATƏT-in Minsk qrupunun həmsədrləri ilə təmasda olmuşam, onlarla çoxsaylı görüşlər keçirmişəm. Hər dəfə görüşəndə illər keçdikcə, görürdüm ki, bunların məqsədi məsələni həll etmək, işğala son qoymaq, BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icrasına nail olmaq yox, işğalı əbədi etmək idi. Sanki danışıqlar masasında bir tərəfdə Ermənistan və Minsk qrupunun həmsədrləri, digər tərəfdə isə Azərbaycan idi”.

ATƏT-in Minsk qrupunun həmsədrləri ABŞ, Fransa və Rusiya idi! Məhz bu dövlətlər yüz illərlə Azərbaycan torpaqlarının ermənilər tərəfindən işğal edilməsinə ciddi dəstəklər vermişlər və faktiki olaraq, Qərbi Azərbaycanı siyasi leksikondan silmək üçün canfəşanlıq göstərmişlər. Hər üç imperiya xislətli dövlətin bir sıra yaradıcı alim vətəndaşları həqiqəti desələr də, onlara qətiyyən fikir verməmişlər. Deməli, söhbət dərin dövlət siyasətindən gedir.

Azərbaycan Prezidenti Ağdamda məhz bu məqamı məharətlə vurğulamışdır. Müstəqillik illərində həmin dövlətlərin ATƏT-in Minsk qrupundakı fəaliyyəti onu təsdiqləyir ki, əsrlərdən gələn və anti–Azərbaycan xarakterdə olan siyasətlərini davam etdirməyə cəhdlər göstərmişlər. Onun əlamətlərindən biri də Azərbaycanın tarixi irsinə böyük qəsdlərdən ibarətdir.

Çünki faktdır ki, ermənilər 1989-cu ildən başlayaraq Qarabağda və Şərqi Zəngəzurda işğal etdikləri ərazilərdə tarixdə misli görünməmiş dağıdıcılıq etmişlər. Onlar sadəcə Azərbaycan ərazisini havadarlarının çox böyük hərbi dəstəyi ilə zəbt etməmişlər, həm də mədəniyyətimizə, dini dəyərlərimizə, coğrafiyamıza, mənəvi-əxlaqi dəyərlərə böyük ziyan vurmuşlar. Bu aspektdə onlar yüzillərdir apardıqları tarixi irsi dağıtmaq xəttini sadəcə yeni tarixi mərhələdə davam etdirmişlər. Buna görə də Azərbaycan Prezidentinin yuxarıda gətirdiyimiz fikri həm keçmişi, həm də gələcəyi əhatə edən strateji mövqedir. O baxımdan ki, tezisdə ifadə edilən “Ermənistan dövləti”, “bu bölgələr” və “Azərbaycan xalqının tarixi irsi” keçmişdən gələrək bu gün xüsusi siyasi və geosiyasi məzmun alan ifadələrdir. Onlar daha geniş anlama malikdirlər. Faktiki olaraq, Azərbaycan dövlətçiliyinə qarşı davamlı olaraq aparılan siyasətin başlıca məqamlarını ifadə edirlər.

Bütün bunların əsasında Prezident İlham Əliyevin Ağdamdakı görüşündə çıxışı zamanı apardığı iki ümumiləşdirmə çox əhəmiyyətlidir. Dövlət başçısı demişdir:

- Bizi işğalla barışdırmaq böyük dövlətlərin əsas vəzifəsi idi;

- Ermənistan-Azərbaycan müharibəsi zamanı və müharibədən sonra atəşkəs dövründə beynəlxalq təşkilatlar düzgün qərar qəbul etsələr də, bu qərarların icrası üçün bir addım belə atmayıblar. Bax, bu təşkilatların, böyük dövlətlərin riyakarlığı, necə deyərlər, özünü burada bariz şəkildə göstərir.

*(ardı var)*

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# “Qızıl xaç”ın gecikmiş etirafı

## *BQXK Azərbaycanın saxlanılan ermənilərlə humanist davranışını təsdiqləyib*

**Tarixin arxivinə göndərdiyimiz “Dağlıq Qarabağ” adlı Ermənistan–Azərbaycan münaqişəsinin davam etdiyi 30 il ərzində ölkəmiz məsələyə ədalətsiz və tərəfli, ermənipərəst mövqedən yanaşan bir çox beynəlxalq təşkilatlarla, Qərbin nüfuzlu institutları ilə mübarizə aparmalı oldu. Münaqişənin sülh yolu ilə həllinə 26 il vasitəçiliyi imitasiya etmiş ATƏT-in Minsk qrupunun son aqibəti hamıya bəllidir. Azərbaycanın Avropa İttifaqı və onun parlamenti ilə münasibətləri bölgəyə və sülhün tənzimlənməsinə məhz selektiv yanaşmaları səbəbindən normal məcrasına düşməyib.**



Beynəlxalq Qızıl Xaç Komitəsi də bu qəbildən sayıla biləcək təşkilatlardandır. İstər işğal dövründə, istər İkinci Qarabağ müharibəsində, istərsə də postmüharibə mərhələsində Komitə hərdən anti-Azərbaycan çıxışları, missiyası ilə üst-üstə düşməyən fəaliyyəti ilə nəzəri cəlb edib. Xüsusilə 2020-ci ildə müstəqil Azərbaycan Respublikasının ərazisində “dqr” kimi qeyri-qanuni təsisatın, Xankəndidəki xunta rejiminin böyründə özünün nümayəndəliyini yaradan BQXK aşkar şəkildə separatizmə dəstək verməyə başlamışdı. Bu barədə bir qədər sonra yazacağıq. İndi isə BQXK-nın Ermənistandakı nümayəndəliyinin Azərbaycanda saxlanılan bütün erməni məhbuslarla bağlı yaydığı məlumata diqqət yetirək.

Beynəlxalq Qırmızı Xaç Komitəsinin İrəvan filialının nümayəndələri dekabrın 24-ü və 25-də Azərbaycanda saxlanılan, törətdikləri hərbi cinayətlərə görə barələrində cinayət işi açılaraq təcridxanada saxlanılan və Bakı Hərbi Məhkəməsində prosesin davam etdiyi erməni əsilli şəxslərə baş çəkiblər. Bu barədə hay mediasına BQXK-nın Ermənistandakı kommunikasiya şöbəsinin rəhbəri Zara Amatuni məlumat verib.

Məlumatda bildirilir ki, Bakıya gələn nümayəndə heyətinin tərkibində həkim də olub. “Prosedurlara uyğun olaraq, səfər zamanı, keçmişdə olduğu kimi, bu dəfə də əsas diqqət məhbusların sağlamlıq vəziyyəti, onlarla təcridxanada rəftar, saxlanma şəraiti olub”, – Amatuni jurnalistlərə açıqlamasında deyib. Onu da əlavə edib ki, saxlanılan şəxslərin ailələri onlara heç bir bağlama çatdırmayıb, səfər təşkilatın nümayəndələri ilə təkbətək görüşlər və vəziyyətin ümumi qiymətləndirilməsi ilə başa çatıb.

Yəni diqqətinizə çatdırdığımız məlumatdan anlaşılan odur ki, BQXK nümayəndələri Bakı istintaq təcridxanasında saxlanılan ermənilərin hüquqlarının pozulması, onlara kənardan təzyiqlərin edilməsi kimi hallara, eləcə də səhhətləri ilə bağlı heç bir problemlə üzləşməyiblər. Əlbəttə, əgər onlar ən azı, saxlanılan şəxslərlə təkbətək görüşlərində bu kimi hallara işarə vuran məlumat eşitmiş olsaydılar, bunu dərhal dünyaya car çəkərdilər. Deməli, bugünədək Azərbaycan Femidası tərəfindən saxlanılanlara münasibətdə onların vəkillərinin, bəzi qərbli “hüquq müdafiəçilərinin” məlum bəyanat və açıqlamalarında göstərdikləri qanun pozuntuları yoxdur.

*

Oxuculara xatırladaq ki, Azərbaycan istər torpaqları işğalda olduğu vaxt, istərsə də postmünaqişə dövründə Beynəlxalq Qızıl Xaç Komitəsinin Bakı bürosunun fəaliyyətindən, onun tutduğu mövqedən razı olmayıb. Bunun da əsaslı səbəbləri mövcuddur. Ən başlıca səbəb ondan ibarətdir ki, Beynəlxalq Qızıl Xaç Komitəsi 2020-ci ilin əvvəllərində Azərbaycana xəbər vermədən separatçı rejimin yuva saldığı Xankəndidə qanunsuz ofis açmışdı. Bununla bağlı Azərbaycan tərəfi komitənin ərazimizdəki qanunsuz rejimlə bağladığı müqavilənin, imzaladığı sənədin surətini istəsə də, onu rəsmi Bakıya təqdim etməmişdi. Bundan sonra Azərbaycan hökuməti qeyri-qanuni ofisin bağlanması niyyəti barədə BQXK-ya məlumat vermişdi. Yəni ölkəmizin beynəlxalq hüquqla tanınmış ərazisinə qurumun Ermənistandakı nümayəndəliyi tərəfindən “desant atılmış” qeyri-qanuni ofisin təxribatçı fəaliyyəti komitənin nəzərə çatdırılmış və bu cür əməllərə son qoyulması barədə xəbərdarlıq edilmişdi. Amma rəsmi Bakının müraciətlərini qulaqardına vuran BQXK-nın Xankəndidəki ofisi 2020-ci ilin Vətən müharibəsindən sonra da fəliyyətini dayandırmadı. Faktiki olaraq, separatçı rejimin əlaltısına çevrilmiş bu təşkilat Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini bərpa etməsini tanımaq istəmirdi. Yalnız 2023-cü ilin sentyabrında bir sutkalıq antiterror əməliyyatından sonra çağırılmamış qonaq məcburiyyət qarşısında Xankəndidəki ofisini bağlamalı oldu.

Bir vacib faktı da qeyd etməyə bilmərik. BQXK-nın Xankəndidəki bədnam ofisi humanitar missiya adı altında qaçaqmalçılıqla məşğul olur, özünün nəqliyyat vasitələrində Ermənistandan Qarabağa ərzaq, tibbi ləvazimatın altında silah, narkotik maddələr daşıyırdı. O zaman bu barədə qəzetimiz yazmışdı. Xunta rejimi ilə yaxından əməkdaşlıq edən nümayəndəliyin bəzi əməkdaşlarının Vətən müharibəsinin gedişində Ermənistana casusluq etdikləri də üzə çıxdı. Konkret olaraq, 2020-ci il oktyabr ayının ortalarında təxribatçı ofisin əməkdaşlarının Azərbaycan Ordusunun Füzuli istiqamətində əməliyyatlarının qarşısını almağa, onu dayandırmağa cəhd göstərməsi danılmaz faktlarla sübuta yetirildi. Həmin vaxt Azərbaycan Dövlət Sərhəd Xidmətinin yaydığı məlumatda qeyd olunurdu ki, Qarabağdakı erməni xəstələrin təxliyəsini həyata keçirən təcili tibbi yardım maşınlarından qaçaqmalçılıq məqsədilə istifadə edilməsi halları mövcuddur. Bu, Azərbaycan qanunlarının kobud şəkildə pozulması, eyni zamanda, BQXK-ya olan etimaddan sui-istifadə edilməsi, münaqişə tərəflərindən birinin xeyrinə qanunazidd fəaliyyət kimi təsnifatlandırıla bilər. Nümayəndəliyin sadaladığımız qanunsuz əməlləri ilə bağlı Azərbaycan tərəfi cinayət işi açmışdı. Bütün bunlardan sonra beynəlxalq hüquqa və Azərbaycan qanunvericiliyinə zidd hərəkətlərinə görə, ümumiyyətlə, Beynəlxalq Qızıl Xaç Komitəsinin respublikamızda fəaliyyətinə xitam verilməsi barədə qərar qəbul olundu. Bununla bağlı rəsmi məlumatda Beynəlxalq Qızıl Xaç Komitəsinin yerli nümayəndəliyinin hazırkı fəaliyyətinə ehtiyac duyulmadığı, bu fəaliyyəti zəruri edən səbəblərin artıq aradan qalxdığı bildirilirdi.

Beynəlxalq Qırmızı Xaç Komitəsinin Ermənistandakı nümayəndəliyinin diqqətinizə çatdırdığımız məlumatından 2 qənaət hasil olur. Qurum, nəhayət, sülhə yaxınlaşmış iki ölkə arasındakı münaqişəyə obyektiv yanaşma sərgiləməyə və məlum məhkəmə prosesinin tam şəffaf, ədalətli və qəbul edilmiş beynəlxalq norma və qaydalara uyğun şəkildə aparıldığını etiraf edir. İkinci qənaətə görə isə, BQXK bununla Azərbaycanda fəaliyyətini bərpa etmək istəyini ismarışlayır.

***İmran BƏDİRXANLI***
***XQ***

### *Ekspert rəyi*



**Fikrət SADIXOV,**
**Qərbi Kaspi Universitetinin professoru, politoloq**

Realıq göz qabağındadır. Hətta Azərbaycanın haqq işinə qarşı dəfələrlə çıxış edən Beynəlxalq Qızıl Xaç Komitəsi gerçəkliyi qəbul etməyə bilməzdi. Çünki Azərbaycan BMT-nin bütün tövsiyələrinə, qoşulduğu konvensiyaların tələblərinə əməl edir. Xalqımıza qarşı cinayətlər törətmiş, soydaşlarımıza işgəncələr vermiş erməni hərbi cinayətkarlarının saxlanma şəraiti də, onların bütün hüquqlarının qorunması da, müdafiələrinin təşkili də beynəlxalq qaydalara uyğun şəkildə təmin edilib. Onların açıq və şəffaf şəkildə aparılan məhkəmə prosesinin sonunda ədalətli qərarların qəbul ediləcəyinə şübhə etmirəm. Təbii olaraq, sübuta yetiriləcək cinayət əməllərinə görə məhkəmə adekvat cəza tətbiq edəcək.

Barələrində cinayət işləri açılmış saxlanılan ermənilər üçün normal insani şəraitin yaradılması Azərbaycanın öz üzərinə götürdüyü öhdəliklərə riayət etdiyi anlamına gəlir. Bu, həm də onu sübut edir ki, otuz il ərzində işğala dözməsinə, haylardan olmazın əzablar görməsinə, şəhər və kəndlərimizin yerlə yeksan edilməsinə baxmayaraq, Azərbaycan saxlanılan erməni əsilli şəxslərlə sivil qaydada davranır.

Beynəlxalq Qızıl Xaç Komitəsinin son məlumatında qeyd olunanlar təsadüf deyil. Bunu komitənin reallığa əsaslanması, gerçəkliyə düzgün yanaşması saymaq olar. Doğrudur, bir obyektiv məlumata görə, komitənin fəaliyyətini müsbət qiymətlndirməyə tələsməməliyik. Sadəcə olaraq, BQXK Bakı Hərbi Məhkəməsində keçmiş separatçılar üzərində davam edən prosesin beynəlxalq hüquqa, ədalətə uyğun aparıldığını etiraf etməli olub. Bu isə həm Ermənistana, həm də separatçıları müdafiə edən qüvvələrə ciddi işarə sayılmalıdır.

# Bakıda diplomatiya, Qarabağda güc qalib gəldi

## *Sülhə gedən yol isə Azərbaycandan daha güclü olmağı tələb edir*

**Prezident İlham Əliyevin siyasi dünyagörüşü universal məsuliyyət anlayışı ilə milli maraqların sərt müdafiə xəttini eyni düşüncə platformasında birləşdirən nadir dövlətçilik modelinə əsaslanır. Ölkə rəhbərinin siyasi davranış sistemi ölkəyə yönəlmiş çoxistiqamətli təzyiq və təsir mexanizmlərinə qarşı suveren mövqenin qorunmasına xidmət edən davamlı müqavimət fəlsəfəsi formalaşdırıb. Bu siyasi portretin mərkəzində isə sülh ideyasının diplomatik ritorika yox, dövlət davranışının sistemli xəttinə çevrilməsi dayanır.**



Bu gün vaxtilə işğalçı mövqedə dayanmış bir dövləti – Ermənistanı sülh masasına əyləşdirmək, onu beynəlxalq hüququn tanıdığı reallıqlar çərçivəsində davranmağa məcbur edən siyasi konfiqurasiya formalaşdırmaq İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın ardıcıl güc, iradə və strateji ardıcıllıq üzərində qurulmuş siyasətinin məntiqi nəticəsi hesab olunur.

Prezident İlham Əliyev Ağdamda sakinlərlə görüşü zamanı açıq və qəti şəkildə bəyan etdi ki, Ermənistan–Azərbaycan sülh prosesində təşəbbüskar tərəf Bakıdır, ilkin təklifləri masaya rəsmi Bakı yatırıb, sülh müqaviləsinin mətni və hüquqi konstruksiyası da məhz Azərbaycan tərəfindən formalaşdırılıb: "Onu da hamı bilir və bilməlidir. Birinci təklifi biz vermişik, sülh müqaviləsinin mətninin müəllifi də bizik və oraya salınan bütün maddələrin də müəllifi bizik". Dövlət başçısı, eyni zamanda, vurğuladı ki, işğal faktının, şəhidlərin xatirəsinin, Xocalı qurbanlarının və günahsız insanların həlak edilməsinin yaddaşdan silinməsi mümkün deyil və qəbul edilə bilməz.

Bu tarixi yaddaşın qorunması milli məsuliyyətin əsas göstəricisi olmaqla yanaşı, gələcək təhlükəsizlik davranışının da dayaq xətti kimi təqdim olundu. Prezident xüsusi olaraq qeyd etdi ki, şirin ritorikanın arxasında gizlənə bilən risklərə qarşı ayıq qalmaq zərurəti dəyişməzdir və məhz bu yanaşma çərçivəsində son beş ildə ordunun döyüş potensialı ardıcıl şəkildə gücləndirilib, ötən ay keçirilən hərbi parad isə bu gücün real miqyasını açıq şəkildə nümayiş etdirdi.

Dövlət başçısının Ağdamda səsləndirdiyi tezislər göstərdi ki, Azərbaycan diplomatiyası hazırkı mərhələdə tək bir xətt üzərində deyil, iki paralel strategiya əsasında irəliləyir. Bir tərəfdə danışıqlar masası mövcuddur, digər tərəfdə həmin masanın dağılmamasını təmin edən real güc arxitekturası formalaşdırılıb. Bu, sülhü niyyət bəyanatları üzərindən deyil, güc balansı sferasından dizayn edən siyasi modeldir. Aydın məsələdir ki, avqustun 8-də Vaşinqtonda keçirilən üçtərəfli görüş Cənubi Qafqazda uzunmüddətli münaqişənin həllinə və yekun sülh prosesinə doğru atılan ən əhəmiyyətli addımlardan biri kimi tarixə düşdü. Bu baxımdan rəsmi İrəvan tərəfindən son aylar sülh müqaviləsinin maddələri üzrə irəli sürülən mövqelərin yumşalması, sərhəd delimitasiyası xəttində razılaşdırılmış texniki addımların atılması, kommunikasiyalar mövzusunda ritorikanın dəyişməsi məhz bu güc balansının yaratdığı siyasi təzyiq fonunda baş verir.

"...Biz son 5 ildə ordu potensialımızı böyük dərəcədə gücləndirmişik və keçən ay hərbi paradda bütün dünya bunun bir hissəsini gördü bildi. Əbədi sülhə nail olmaq üçün biz hər zaman potensial düşmənlərimizdən bir neçə dəfə güclü olmalıyıq. Bunu təmin edirik və edəcəyik". Prezident İlham Əliyevin səsləndirdiyi bu fikirlər artıq formalaşmış yeni regional nizamın siyasi fəlsəfəsini ifadə edən, həm də Cənubi Qafqazın gələcək arxitekturasının konturlarını açıq şəkildə göstərən dövlət doktrinasıdır. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ölkədə ordu quruculuğu misli görünməmiş inkişaf mərhələsinə qədəm qoydu.

2003-cü ildə cəmi 160 milyon dollar olan Azərbaycan ordusunun illik büdcəsi 2011-ci ildə 3,3 milyard dollara yüksəldi. Yəni cəmi 8 il ərzində, təxminən, 20 dəfə artdı. 2011-ci ildə Azərbaycanın hərbi xərcləri Ermənistanın bütün dövlət büdcəsindən 50 faiz çox idi. Orduda islahatlar aparılaraq yeni hərbi birləşmələr – xüsusi təyinatlı qüvvələr, hərbi dəniz qüvvələrinin modernləşdirilməsi, birgə taktiki təlimlər kimi addımlar atıldı. 2016-cı ilin Aprel döyüşləri və 2018-ci ilin Günnüt əməliyyatı zamanı əldə olunan lokal qələbələr göstərdi ki, Azərbaycan ordusu artıq peşəkarlıq və texnoloji üstünlük baxımından keyfiyyətcə fərqli səviyyəyə yüksəlib. 2020-ci il Vətən müharibəsində qazanılan Zəfər də məhz son illərin planlı ordu quruculuğunun bəhrəsi oldu.

İşğal dövrü bitdikdən sonra Azərbaycan ordusu "müharibədən çıxmış ordu" statusunda dayanmadı. Əksinə, 2020–2025 intervalı ordunun klassik döyüş modeli üzərindən çıxarılaraq yüksək texnologiyalı, çoxqatlı, manevr qabiliyyətli regional güc platformasına çevrildiyi mərhələ kimi formalaşdı. Bu mərhələdə ordunun silahlanma fəlsəfəsi komanda–idarəetmə, kəşfiyyat, PUA və radioelektron mübarizə elementlərinin vahid əməliyyat məkanında inteqrasiyası üzərindən yenidən quruldu. Nəticədə Azərbaycan artıq yalnız lokal döyüş üstünlüyü əldə edən yox, əməliyyat məkanını bütövlükdə formalaşdıran, qarşı tərəfin risk davranışını başlanğıc mərhələsində neytrallaşdıran sistem tipli ordu modelinə keçidi təmin etdi.

Azərbaycanın formalaşdırdığı hərbi güc arxitekturasının və əldə edilmiş tarixi qələbənin beynəlxalq miqyasda nümayişi 10 dekabr 2020-ci ildə Bakının Azadlıq meydanında keçirilən möhtəşəm Zəfər paradı ilə siyasi simvola çevrildi. Həmin paradda, təxminən, üç min nəfərlik şəxsi heyət təntənəli keçidlə Azərbaycan Ordusunun struktur və texnoloji transformasiyasını nümayiş etdirdi, müasir silah sistemləri, eləcə də Vətən müharibəsi zamanı düşməndən ələ keçirilmiş hərbi qənimətlər ictimaiyyətə təqdim olundu. Bu xəttin davamı olaraq bu il noyabrın 8-də Qələbənin beşinci ildönümünə həsr edilən hərbi paradda beş mindən çox hərbi qulluqçunun iştirak etməsi təkcə mərasim ölçüsü kimi yox, Azərbaycan dövlətinin regionda təhlükəsizlik qaydalarını hansı güc və iradə ilə formalaşdırdığını əyani formada göstərdi.

Ölkə başçısının Ağdamda verdiyi mesaj sülh anlayışının romantik illüziyalar müstəvisindən çıxarılaraq rasional təhlükəsizlik arxitekturasına yerləşdirildiyini nümayiş etdirir. İki əsr öncə də, otuz üç il əvvəl də, son yeddi ilin, beş ilin, hətta iki ilin siyasi mənzərəsi də göstərirdi ki, Ermənistan rəhbərliyi reallıqdan qopmuş xam xəyallar sürükləyir, erməni ictimai rəyini uydurma "tarixi üstünlük" mifləri ilə manipulyasiya edir və nəticədə regionu növbəti siyasi fəlakətlərin astanasına gətirirdi.

Vətən müharibəsi bu xam xəyalların hərbi-siyasi müstəvidə iflasını rəsmiləşdirdi, sonrakı mərhələdə həyata keçirilən qisas əməliyyatları və sərhəd boyunca mövqelərin bərpası bu davranış modelinin artıq təhlükəsizlik reallığına çevrildiyini göstərdi. 2023-cü ilin sentyabrında birsutkalıq lokal antiterror tədbirləri isə separatçı silahlı strukturların ləğvi və dövlət suverenliyinin bütün ərazi üzrə bərpası ilə bu xəyalpərəst siyasi kursun hüquqi cəhətdən də bağlandığını nümayiş etdirdi.

Bu gün formalaşmış reallıqlar üzərində qurulan sülh prosesi Azərbaycan üçün milli təhlükəsizlik arxitekturasının funksional elementi kimi çıxış edir. Dövlət başçısının yürüdüyü siyasi xətt açıq şəkildə göstərir ki, sülhün davamlılığı regionda qüvvələr nisbətinin proqnozlaşdırılan, nəzarətdə saxlanılan və üstün mövqedə qorunan balansı üzərində inşa olunur. Bu, qarşı tərəfə eyni vaxtda həm siyasi mesaj, həm də strateji xəbərdarlıq ötürür: tarixi yaddaş saxlanılır, təhlükəsizlik qorunur, diplomatik masa isə yalnız real gücün yaratdığı balans mühitində işlək mexanizm statusu qazanır.

Azərbaycan sülhə açıqdır, bu sülhü zəiflik üzərində inşa etməyə yox. Dövlətin təhlükəsizlik fəlsəfəsi artıq gələcək onilliklərin davranış konturlarını indidən müəyyənləşdirir və regionda sabitliyin hansı prinsiplər üzərindən qurulacağını açıq şəkildə ortaya qoyur. Formalaşan bu strateji çərçivə Qarabağdan yüksələn tarixi yaddaşın, real gücün və siyasi iradənin eyni xətt üzərində birləşdiyi yol xəritəsidir. Erməni xalqı son 200 ilini, daha doğrusu, indiyə qədərki saxta tarixini yaddaşından silməlidir ki, növbəti 200 ildə mövcudluğunu qoruyub–saxlaya bilsin...

*Tacir SADIQOV*
*XQ*

# "Tərəfkeş ədalət"in iflası və Azərbaycanın siyasi uğuru



**Prezident İlham Əliyevin Ağdamda doğma yurdlarına qayıdan sakinlərlə keçirilən görüşü siyasi kontekstdən yanaşdıqda Azərbaycanın beynəlxalq sistemlə münasibətlərinin yekun qiymətləndirilməsi kimi dəyərləndirilir. Burada əsas diqqət təcrübədən çıxarılan siyasi nəticələrin açıq şəkildə səsləndirilməsinə yönəlmişdi.**

Prezident İlham Əliyevin ritorikası bu dəfə auditoriyanı təsəlli ilə sakitləşdirmək üzərində qurulmamışdı. Əksinə, çıxışda ton daha çox hesabat xarakteri daşıyırdı – həm daxili auditoriya, həm də beynəlxalq aktorlar üçün. Dövlət başçısı göstərirdi ki, Azərbaycan işğal dövrünü beynəlxalq münasibətlər sisteminin necə işlədiyini öyrədən uzunsürən dərs kimi yaşamışdır. Bu dərs idealist beynəlxalq hüquq təsəvvürləri ilə real güc siyasəti arasındakı uçurumu aydın şəkildə üzə çıxardı.

Burada ortaya çıxan əsas analitik məqam ondan ibarətdir ki, Prezidentin çıxışı gələcək davranış modelinin izahıdır. Yəni məqsəd "bizə qarşı ədalətsizlik oldu" tezisini təkrarlamaq yox, bu ədalətsizliyin hansı institusional və siyasi mexanizmlər üzərindən mümkün olduğunu göstərmək idi. Ağdamdan, işğalın simvoluna çevrilmiş şəhərdən verilən mesaj beynəlxalq laqeydliyin konkret coğrafi nəticələrini vizual və siyasi baxımdan eyni anda xatırladırdı.

Məhz bu nöqtədə sualın ünvanlandığı auditoriya genişlənir. Çıxış təkcə Ağdam sakinləri üçün deyildi. O, eyni zamanda, illərlə "status-kvo"nu qorumağa çalışan beynəlxalq vasitəçilərə, selektiv yanaşma sərgiləyən böyük güclərə və beynəlxalq təşkilatların icrasız qərarlarına yönəlmiş siyasi müraciət idi. Prezident faktiki olaraq bildirirdi ki, Azərbaycan artıq beynəlxalq sistemin verdiyi vədlərlə yox, onun real davranışları ilə hesablaşan dövlət mərhələsinə keçib.

Prezidentin çıxışı otuzillik müşahidənin, gözləntinin və məyusluğun süzgəcindən keçmiş strateji nəticələrin ictimai təqdimatı idi. Çıxışın əsas mahiyyəti məhz burada gizlənir: Azərbaycan beynəlxalq münasibətlərdə kimə, nə zaman və hansı şərtlərlə güvənməyin mümkünlüyünü nəzəriyyə əsasında yox, yaşanmış təcrübə üzərindən müəyyənləşdirib.

Prezidentin səsləndirdiyi tezis Azərbaycanın beynəlxalq sistemdə yaşadığı paradoksu açıq şəkildə ortaya qoyurdu. Formal baxımdan hər şey yerində idi: işğal faktı tanınırdı, hüquqi sənədlər mövcud idi, qətnamələr qəbul olunmuşdu. Lakin beynəlxalq münasibətlərdə həlledici olan məhz bu "formal düzgünlük" deyil, onun icra olunub-olunmamasıdır. Azərbaycan nümunəsində isə hüquq var idi, amma iradə yox idi. Məhz buna görə Prezidentin "son illərin tarixində ən böyük ədalətsizliklə biz üzləşmişdik" fikri sistemli siyasi müşahidənin nəticəsi kimi səslənir.

Mövcud vəziyyət bizi daha dərin analitik müstəviyə çıxarır. Beynəlxalq sistem niyə bəzi münaqişələrə dərhal müdaxilə edir, bəzilərini isə onilliklər boyu "dondurulmuş" vəziyyətdə saxlayır? Ağdamdan verilən mesaj göstərir ki, cavabı beynəlxalq hüququn çatışmazlığında axtarmaq sadəlövhlük olar. Problem hüququn kimlər üçün və nə vaxt işlədilməsindədir. Azərbaycan üçün hüquqi mexanizmlər mövcud olsa da, onlar bilərəkdən siyasi neytrallıq pərdəsi altında passiv vəziyyətə salınmışdı. Burada selektivlik anlayışı ön plana çıxır. Beynəlxalq təşkilatlar universal dəyərlərdən danışsalar da, real qərarvermə prosesində geosiyasi maraqlar üstün mövqe tutur. Bütün bunlar o deməkdir ki, işğal faktının özü yox, işğalçının kimliyi və onun güc mərkəzləri ilə münasibətləri əsas meyar rolunu oynayır. Prezidentin çıxışında dolayı yolla vurğulanan məqam məhz budur: Azərbaycan torpaqlarının işğalı beynəlxalq sistem üçün idarə olunan siyasi mövzu kimi qəbul edilmişdi.

ATƏT-in Minsk qrupu və BMT Təhlükəsizlik Şurasının taleyi bu kontekstdə simvolik xarakter daşıyır. Qətnamələrin icra olunmaması siyasi seçim idi. Ağdamdan səslənən arqumentlər göstərir ki, Azərbaycan bu prosesi illər boyu müşahidə edib və nəticədə belə bir qənaətə gəlib: beynəlxalq sistem ədaləti təmin etmədikdə, onu gözləmək yox, reallığı dəyişmək əsas strategiyaya çevrilir. Yəni beynəlxalq münasibətlərdə normativ sənədlər yalnız güc balansı ilə dəstəkləndikdə işlək olur. Əks halda, onlar kağız üzərində qalan təsəlli mexanizminə çevrilir. Azərbaycan təcrübəsi bu acı reallığı bütün çılpaqlığı ilə üzə çıxarır və Ağdamdan verilən mesaj bu reallığın artıq qəbul edildiyini göstərir.

Sanksiyalar mövzusu isə müasir beynəlxalq siyasətdə selektiv ədalətin ən açıq indikatorlarından biridir. XXI əsrdə sanksiyalar artıq müharibədən əvvəl işə salınan siyasi cəza mexanizmi funksiyasını daşıyır. Lakin Azərbaycanla bağlı vəziyyətdə bu mexanizm sanki mövcud deyildi. Susqunluq şüurlu siyasi seçim idi. Ermənistanın iqtisadi, demoqrafik və institusional zəifliyi nəzərə alındıqda, hər hansı real sanksiya paketinin işğal siyasətini davam etdirməyi qeyri-mümkün edəcəyi aydın idi. Məhz buna görə sanksiyaların tətbiq olunmaması münaqişənin "təhlükəli şəkildə dondurulması"nın əsas şərtlərindən birinə çevrilmişdi.

Burada diqqətçəkən əsas məqam odur ki, beynəlxalq sistem yalnız sanksiya tətbiq etməklə deyil, onu tətbiq etməməklə də prosesləri yönləndirir. Ermənistan-Azərbaycan münaqişəsində sanksiyaların yoxluğu, faktiki olaraq, işğalın davamına siyasi kredit rolunu oynadı. Bu isə Prezidentin dolayı yolla səsləndirdiyi daha sərt nəticəyə gətirir: münaqişə nəzarətsiz böhran yox, idarə olunan status-kvo idi. Yəni böyük güclər üçün əsas məsələ regionda öz maraqlarına uyğun "sabit qeyri-sabitlik" mühitinin qorunması idi.

Məhz bu reallıqlar Azərbaycan üçün fundamental xarici siyasət dönüş nöqtəsi yaratdı. Uzun illər beynəlxalq vasitəçilərin verdiyi vədlərə, hüquqi mexanizmlərə və diplomatik proseslərə əsaslanan strategiya tədricən funksionallığını itirdi. Post-2020 dövründə isə tam fərqli yanaşma formalaşdı. Azərbaycan artıq regional güc balansının özü müəyyən edən aktor kimi çıxış etməyə başladı.

Əslində Prezidentin Ağdamdakı çıxışı bu dəyişimin ideoloji əsaslandırmasıdır. Burada açıq mesaj verilir: Azərbaycan beynəlxalq hüquqdan yan keçən dövlətə çevrilməyib, amma artıq təkcə hüquqa bel bağlayan dövlət də deyil.

Türkiyəyə ünvanlanan xüsusi vurğu isə Prezidentin çıxışında emosional minnətdarlıq çərçivəsini aşaraq strateji mahiyyət daşıyır. "Bizim yanımızda olan tək ölkə Türkiyə idi" ifadəsi klassik hərbi-siyasi bloklara əsaslanan müttəfiqlik modelinin effektivliyinin sual altına alındığını nümayiş etdirir. Azərbaycan təcrübəsi göstərdi ki, kağız üzərində mövcud olan kollektiv mexanizmlər real böhran anında işləmədikdə, ortaq dəyərlərə, qarşılıqlı maraqlara və siyasi etimada söykənən tərəfdaşlıq həlledici faktora çevrilir. Bu kontekstdə Azərbaycan–Türkiyə münasibətləri yeni regional realizmin nümunəsi kimi çıxış edir. Burada təhlükəsizlik diplomatik dəstək, siyasi legitimlik və mənəvi həmrəylik vahid paket kimi işləyir. Prezidentin vurğusu onu göstərir ki, milli maraqla mədəni-siyasi yaxınlığın üst-üstə düşdüyü hallarda dəstək mexanizmi davamlı xarakter alır. Məhz bu davamlılıq Azərbaycanın beynəlxalq təcrid ssenarilərini neytrallaşdıran əsas faktorlardan birinə çevrildi.

İslam Əməkdaşlıq Təşkilatına istinad isə daha incə bir problemi üzə çıxarır. İƏT çərçivəsində qəbul olunan qərarlar normativ baxımdan Azərbaycanın mövqeyini dəstəkləyirdi, lakin həmin qərarların icrası üçün real təzyiq alətləri mövcud deyildi. Belə bir vəziyyət beynəlxalq sistemdə tez-tez rast gəlinən paradoksu təsdiqləyir: hüquqi sənədlər var, amma onları hərəkətə gətirən siyasi iradə yoxdur. Prezidentin bu məqamı xatırlatması hüquqi legitimliklə real təsir gücü arasındakı fərqin altını cızmaq məqsədi daşıyır.

Ağdamdan səslənən çıxış bu baxımdan postmünaqişə dövrünün ideoloji çərçivəsini formalaşdırır. Azərbaycan burada özünü nə uzun illər ədalətsizlik yaşamış passiv qurban kimi təqdim edir, nə də qələbədən



sonra revanşist ritorikaya üstünlük verir. Əksinə, təqdim olunan model rasional və nəticəyönümlü dövlət davranışına əsaslanır. Mesaj aydındır: beynəlxalq sistemdə ədalətsizlik mövcuddur, lakin onu emosional etirazla yox, düzgün strateji oxunuş və balanslı güc siyasəti ilə aşmaq mümkündür.

Bu yanaşmanın mərkəzində suverenlik anlayışının yeni interpretasiyası dayanır. Suverenlik beynəlxalq hüquq normalarına istinadla qorunan status deyil, eyni zamanda, real güc, regional tərəfdaşlıq və strateji müttəfiqlik balansı ilə təmin olunan siyasi vəziyyətdir.

Son olaraq qeyd edək ki, Ağdam görüşü Azərbaycanın beynəlxalq münasibətlər sisteminə ünvanladığı açıq siyasi bəyanata çevrilir. Bəyanatın mahiyyəti ondan ibarətdir ki, selektiv ədalət üzərində qurulmuş köhnə yanaşmalar öz legitimliyini itirib. Yeni reallıqda isə prosesləri əldə olunan nəticələr və formalaşdırılan güc balansı müəyyən edir.

*Şəbnəm ZEYNALOVA,*
*XQ-nin siyasi analitiki,*
*siyasi elmlər üzrə fəlsəfə doktoru*

# Zaxarova, Ermənistan və “aksiomatik qəbul”

## Yaxud Rusiyanın nəyi “pisdir”?

**Əslində, Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarovanın bildirdiklərinə reaksiya verməmək də olardı. Ona görə ki, xanım sözçü fikirlərini Ermənistan kontekstində dilə gətirir və bunun prinsip etibarilə Azərbaycana heç bir dəxli yoxdur. Amma onun açdığı mövzu barədə təkcə ölkəmizdə və Ermənistanda yox, ümumən postsovet məkanında eyni durum var. Hələ dünyanı demirik.**





M.Zaxarova bildirib ki, Ermənistan hakimiyyəti istənilən müxalif meyilləri, o cümlədən Erməni Apostol Kilsəsinin təqibini Rusiya xüsusi xidmət orqanları ilə əsaslandırır: “Biz Ermənistanın səlahiyyətli orqanlarının müxalif mövqedə olan istənilən siyasi və ictimai xadimlər arasında, guya, hansısa rus təsiri agentlərini axtarmaq istiqamətində fəal iş apardığını müşahidə edirik. Bilirsiniz, məndə belə sual yaranır: rus təsiri agentləri… Bəs Ermənistanın səlahiyyətli orqanları onları hansı meyarlara əsasən tutur və ya müəyyənləşdirir? Bunlar kimlərdir? İkitərəfli münasibətlərin inkişafının tərəfdarı olanlarmı? Axı Ermənistanın baş naziri Nikol Paşinyan daim Rusiya ilə münasibətlərin inkişaf etdirilməsinin vacibliyini deyir. Rusiyaya hörmət edən, onun tarixini, mədəniyyətini bilənlərmi? Axı baş nazir Paşinyan daim ölkəmizə dost münasibətindən danışır.

Ermənistanın səlahiyyətli orqanlarının rus təsiri agentlərini hansı meyarlara əsasən müəyyənləşdirdikləri anlaşılmazdır. İstərdik ki, söhbətin kimlərdən getdiyi və bu meyarların nə olduğu aydın olsun. Əgər məsələ Rusiyanın adı altında müxalifətlə hesablaşmaqdan gedirsə, bu, ümumiyyətlə, çox pisdir. Bu nə dostluqdur, nə insani davranışdır, nə də, yeri gəlmişkən, demokratikdir. Burada Rusiyanın nə aidiyyəti var? Çünki heç bir sübut yoxdur”. Deməli, “aksiomatik qəbul” (axiomatic acceptance) deyilən bir ifadə var ki, bu, bir iddianın sübutsuz doğru kimi anlaşılmasıdır. Yəni, hansısa məqam rəsmi şəkildə elan olunur, amma ictimai müzakirələrdə bu, qeyri-rəsmi aksioma çevrilir. “Self-evident truth” ifadəsi də var ki, mənası həqiqətin öz-özünə dərkidir. Bu anlayış bir məsələnin toplumda çox vaxt tənqidsiz və yoxlamasız dərkinə əsaslanır. Sosial və ya ictimai konsensus ifadəsinə görə isə hadisənin doğruluğu sübutla deyil, ümumi razılaşma ilə möhkəmlənir. Belə durumlarda konsensus mütləq həqiqət yox, sadəcə, razılaşmadır. Narrativin hegemonluğu anlayışına gəldikdə, bu, hadisənin rəsmi və ya dominant izahının güclənməsi deməkdir. Yəni izah o qədər güclüdür ki, alternativlər yanlış sayılır. Sübut tələb edənlər şübhəli qarşılanır, əksinə, nəyisə sübuta yetirmək istəməyən tərəf üstün mövqedə dayanır. Əlbəttə, bütün bunları diqqətə çatdırmaqda məqsədimiz var. Amma məqsədə aydınlıq gətirməzdən əvvəl xanım Zaxarovanın digər fikirlərinə nəzər salaq. Məsələn, Rusiya XİN-in sözçüsü bildirib ki, Ermənistandakı anti-Rusiya hay-küyü fonunda bir millətin nümayəndələri arasında düşmən axtarılmamalıdır: “Bu nə adlanır? Məncə, belə ağır yol keçmiş, milli əlamətə görə təzyiqlərin nə demək olduğunu yaxşı bilən Ermənistan xalqı bunu, çətin ki, dəstəkləsin. Elə görürük ki, insanlar bunu dəstəkləmirlər. Ümid edirik ki, Ermənistan cəmiyyəti bu cür halların genişlənməsinə imkan verməyəcək. Ermənistan hakimiyyəti isə onu populyarlaşdırmayacaq. Həmçinin bizim baxışımıza görə, siyasi məqsədlər üçün iman, dini etiqad və baxış məsələlərindən istifadə tamamilə yolverilməzdir. Biz ardıcıl olaraq daxili işlərə qarışmamaq, digər dövlətlərin suverenliyinə hörmət prinsiplərinə sadiq qalırıq və erməni həmkarlarımızla istənilən danışıqlarda bundan çıxış edirik. Təəssüf ki, bunu bəzi Qərb siyasətçiləri haqqında demək olmur. Avropa diplomatiyasının rəhbəri Kaya Kallas açıq şəkildə Ermənistana Moldovada sınaqdan keçirilmiş seçkilərin təşkili üzrə “ən yaxşı Avropa təcrübələrini” təklif edir. Bu nə cür təcrübədir? Xatırladım ki, orada bütün dünya siyasi təzyiqləri, hədələri, şantajı, seçkilər ərəfəsində müxtəlif kreditlər, qrantlar, transşlar və s. şəklində pul daşınmasını müşahidə etdi. Bunun əsl demokratiya ilə heç bir əlaqəsi yoxdur”.

Bəli, Ermənistanda güclü anti-Rusiya təbliğatı aparılmaqdadır və bu təbliğatın başında baş nazir Nikol Paşinyan administrasiyası və ona yaxın çevrələr dayanır. Yəni Zaxarova fikirlərində haqlıdır. Eləcə də Rusiya rəsmisinin Ermənistanda rus agentləri şəbəkəsinin axtarışından, habelə Qərbin Moldova texnologiyasını Ermənistana tətbiq etmək niyyətindən söz açmasında məntiq var. Amma mahiyyət tamamilə başqadır.

Mahiyyət o anlamda başqadır ki, Zaxarova nə üçün vəziyyətin indiki duruma gəldiyindən söz açmır. Bu onun heç ağlına da gəlmir. Bir qədər əvvəl həqiqət olmayanların həqiqət qismində təqdimatındakı nəzəri məqamları təsadüfən diqqətə çatdırmadıq. Məsələ ondadır ki, heç kəs Ermənistanda rus təsirinin sübutunu axtarmağa çalışmır. Yəni ayrı-ayrı detallar önəmli deyil. Mahiyyətin başqalığı fonunda Zaxarovanın müdafiə mövqeyinə keçməsinə, fərqli narrativ axtarışına çıxmasına ehtiyac yoxdur. Elə isə lap əvvəlki fikrimizə qayıdaq.

Bəli, təkcə Ermənistanda deyil, bütövlükdə postsovet məkanında Rusiyaya münasibətdə, demək olar, eyni baxış var. Hər yerdə rus agentləri axtarılır, hər yerdə Moskvanın hansısa təxribatçı davranışa üstünlük verəcəyi, seçki prosesinə qarışacağı vurğulanır. Fikrimizcə, təkcə Zaxarova yox, bütövlükdə Rusiya rəsmiləri, habelə ölkənin ictimai rəyi bu barədə düşünməlidir. Axı meydana elementar sual çıxır: Hər şeyin sübutu olmalıdırsa, necə olur ki, Rusiyaya münasibətdə hamı sübutsuz danışır və ya hərəkət edir? Digər tərəfdən, Zaxarova yenə də haqlıdır ki, bütün postsovet məkanında Rusiya ilə ikitərəfli münasibətlərin inkişafının tərəfdarları var. Eləcə də ölkəyə hörmət edən, onun tarixini, mədəniyyətini bilənlər. Belələrinin baxışının zəifliyi və cəmiyyətlərdə özünə yer tapmamasının günahkarı isə başqa heç bir dövlət yox, məhz Rusiyanın özüdür. Ölkənin siyasəti, tarixən tutduğu kurs imkan vermir ki, məsələn, Azərbaycan xalqı Dostoyevskini, Çexovu, Bulkaqovu sevsin. Axı Rusiyanın hərəkət və davranışları bu dahilərin qələmindən yağan mütərəqqilik və başəriliklə tərs mütənasibdir. Hər zaman da belə olub. Məgər ölkə siyasi məqsədlər üçün iman, din, dini etiqad və baxış məsələlərindən istifadə etməyibmi? Edib!

Diqqət yetirək, Zaxarovanın “ağır yol keçmiş, milli əlamətə görə təzyiqlərin nə demək olduğunu yaxşı bilən Ermənistan” ritorikası nə deməkdir? Görəsən, milli əlamətə görə ermənilərə təzyiq göstərən kim və ya kimlərdir? Aydındır ki, Azərbaycan və ümumən türklər. Yəni təsəvvürlərdəki canlanma budur. Deməli, Zaxarovanın, əslində, nəyi təlqin etdiyini oxumaq asandır. Hər halda, Ermənistandakı müxaliflərin kimlər olduqları məlumdur. Bu adamlar nəinki ölkələrinin, bütövlükdə dünya erməniliyinin 44 günlük müharibədə rəzil-rüsvay duruma düşdüyünü iddia edir və hakimiyyətə gəlib vəziyyəti düzəldəcəklərini vurğulayırlar. Beləl追 revanşist və şovinist təbliğat aparırlar. Erməni Apostol Kilsəsi də onlara dəstək verir. O zaman sual yaranır: Zaxarova ədalətlidirmi? Axı işğalçılıq, separatçılıq ədalətli təmayül sayıla bilməz və bu təmayülün vaxtilə milli etnik münaqişə zəminində meydana çıxdığı da sirr deyil, belə mənfi halların Rusiya tərəfindən dəstəkləndiyi də həmçinin. Bəlkə Rusiyanın ayrı-ayrı bölgələrində azərbaycanlılara qarşı etnik, dini zəmindəki təqiblərdə siyasi məqsədlər ön planda dayanmayıb?

Sonda bütün bu qeyd etdiklərimizdən sonra xanım Zaxarovanın Azərbaycan-Ermənistan münasibətləri kontekstində dilə gətirdiyi bir fikri də diqqətə çatdıraq. O bildirib ki, rəsmi Moskva hər iki ölkə arasındakı dialoqda müsbət dinamika, eləcə də region daxilində əlaqələrin bərpası və qurulması istiqamətində perspektivlər görür. O, Rusiya tərəfinin nəqliyyat kommunikasiyalarının blokdan çıxarılması prosesinin başlanmasını alqışladığını vurğulayıb. Rusiya taxılının Azərbaycan ərazisindən tranzit yolu ilə keçməklə, Ermənistana tədarükünü qeyd edərək, nəhayət, söhbəti “3+3” regional əməkdaşlıq formatı üzərinə gətirib. Axı aydındır ki, xanım sözçünün qabartdığı Bakı-İrəvan təmasları konteksti ilə “3+3”ün hansısa əlaqəsi yoxdur.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Rəqəmsal məkanda qaydaları kim tənzimləyir?

## *ABŞ və Avropa arasında idarəetmə dartışması*




**XXI əsrin siyasi və institusional gündəliyində texnologiya anlayışını sadəcə iqtisadi inkişaf aləti kimi dəyərləndirmək düzgün olmaz. Çağdaş dövrümüzdə rəqəmsal platformalar ictimai rəyə təsir edən, siyasi prosesləri formalaşdıran və dövlətlərin təhlükəsizlik arxitekturasında əsas rol oynayan aktorlara çevrilib. Yaranmış reallıq isə müxtəlif ölkələr arasında yeni tənzimləmə mübahisələri doğurur. Son dövrlər müşahidə olunan viza qadağaları məsələsi də məhz bundan qaynaqlanır.**

Bu günlərdə ABŞ Amerikanın texnologiya şirkətlərinin tənzimlənməsini nəzərdə tutan qanunların qəbulunu təşviq edən kampaniyanın əsas fiqurlarından olan beş tanınmış avropalıya viza qadağası tətbiq edib. Amerikanın addımı ilk baxışdan kəskin diplomatik addım kimi görünsə də, hadisənin köklərində dayanan səbəblər institusional yanaşma fərqlərini kölgədə qoyur. Bu səbəbdən yaranmış vəziyyətə daha geniş çərçivədə yanaşmaq zəruridir.

Qeyd etdiyimiz kimi, ABŞ tərəfindən tətbiq olunan viza qadağaları 5 avropalı ictimai fiquru əhatə edir. Onların sırasında Aİ-nin daxili bazar üzrə keçmiş komissarı, Avropanın rəqəmsal tənzimləmə arxitekturasının formalaşmasında mühüm rol oynamış Terri Breton xüsusi yer tutur. Digər şəxslər isə Almaniya və Böyük Britaniyada dezinformasiya ilə mübarizə aparan vətəndaş cəmiyyəti institutlarının rəhbərləri və təsisçiləridir. Yəni Vaşinqtonun bu addımı müəyyən siyasi-funksional yanaşmaya yönəlib. Bu yanaşma Avropada son illər güclənən “rəqəmsal məsuliyyət” konsepsiyasından qaynaqlanır. Qadağaların miqyasının məhdud olması, onların iqtisadi və ya təhlükəsizlik sanksiyalarına çevrilməməsi məsələnin daha çox simvolik və preventiv xarakter daşıdığını göstərir. ABŞ tərəfi, faktiki olaraq, rəqəmsal platformaların fəaliyyətini tənzimləyən normativ çərçivələrin qlobal nəticələr doğura biləcəyini və prosesdə Vaşinqtonun narahatlıqlarının nəzərə alınmasının vacibliyini vurğulayır.

Vaşinqtonun mövqeyini birbaşa “təzyiq” və ya “qarşıdurma” kimi qiymətləndirmək doğru deyil. Çünki ABŞ üçün əsas problem Avropa İttifaqının qəbul etdiyi “Digital Services Act” (DSA) kimi normativ aktların eksterritorial (toxunulmazlıq hüququ, beynəlxalq hüquqda dövlətin xarici ölkə başçılarına, diplomatik nümayəndələrə və digər vəzifəli şəxslərə verdiyi imtiyazların məcmusu) təsir ehtimalıdır. Nəzərə alınmalıdır ki, Vaşinqtonda söz azadlığı anlayışı fundamental konstitusion prinsip kimi qəbul edilir. Sözügedən prinsip isə platformalara geniş manevr sahəsi verir. ABŞ-da texnologiya şirkətləri uzun illər ərzində məhz bu azad mühit sayəsində qlobal liderliyə yüksəlməyi bacarıb. Vaşinqton üçün əsas narahatlıq ondan ibarətdir ki, Avropa tərəfindən müəyyən edilən qaydalar zamanla ABŞ şirkətlərinin qlobal fəaliyyət standartlarına çevrilə bilər. Avropa tərəfinin mövqeyi isə Vaşinqtondan xeyli fərqlənir. Brüsselin yanaşmasına görə, real dünyada qanunsuz sayılan davranışların onlayn mühitdə nəzarətsiz qalması hüquqi boşluq yaradır. Burada ABŞ-ın mövqeyi daha çox normativ presedent qorxusu ilə izah olunur. Yəni məsələ bugünkü tənzimləmədən çox, sabah hansı qaydaların qəbul ediləcəyidir. Bununla yanaşı, Avropa Komissiyası və üzv dövlətlər vurğulayırlar ki, DSA konkret olaraq platformaların şəffaflığını artırmaq, istifadəçilərin hüquqlarını qorumaq, dezinformasiyanın sistemli yayılmasının qarşısını almaq məqsədi daşıyır. Xüsusilə seçki proseslərinə müdaxilə, nifrət ritorikasının radikallaşmaya yol açması və süni intellektin manipulyativ imkanları fonunda tənzimləmə zəruri təhlükəsizlik mexanizmi kimi qəbul olunur. Fransa prezidenti Emmanuel Makronun mövcud vəziyyətə münasibəti xüsusilə diqqər çəkir. Onun bu məsələni tənqid etməsinə gəldikdə isə bu mövqe o qədər də inandırıcı görünmür. Çünki Paris uzun müddətdir ki, Avropada “strateji muxtariyyət” və “rəqəmsal suverenlik” anlayışları ilə manipulyasiya etməklə məşğuldur.

Əslində, məsələni daha dərindən analiz etsək, görərik ki, mübahisə qlobal xarakter daşıyır. Çin, Rusiya, Hindistan və digər böyük aktorlar da rəqəmsal məkana öz yanaşmalarını formalaşdırır. ABŞ və Avropa arasında gedən debat isə qlobal modelin hansı istiqamətdə inkişaf edəcəyini müəyyənləşdirən əsas nüanslardan biri kimi dəyərləndirilir. Əgər ABŞ modeli bazar azadlığını, Avropa modeli isə normativ məsuliyyəti önə çəkirsə, gələcəkdə bu iki yanaşmanın kəsişmə nöqtəsi tapılmalıdır. Əks halda, dünya rəqəmsal olaraq parçalanmış hüquqi zonalara bölünə bilər. Belə olan halda, ABŞ-ın tətbiq etdiyi viza qadağaları nə transatlantik münasibətlərin sonu, nə də yeni “soyuq müharibə”nin başlanğıcıdır. Bir şey dəqiqdir ki, bu, nə Vaşinqtonun, nə də Brüsselin təkbaşına qərar verəcəyi məsələ deyil. Çünki qlobal rəqəmsal nizam qarşılıqlı anlaşma, hüquqi harmoniya və institusional dialoq yolu ilə formalaşa bilər. Məhz bu baxımdan mövcud mübahisəni tarixi fürsət kimi də qiymətləndirmək mümkündür. Həm də fürsət yaranır ki, ABŞ və Avropa rəqəmsal gələcəyin qaydalarını razılaşma əsasında müəyyən etsinlər.

Beləliklə, baş verənlər göstərir ki, rəqəmsal texnologiyalar artıq diplomatiyanın mərkəzində qərarlaşıb. Platformalar, alqoritmlər və məlumat axınları bu gün siyasi qərarların, ictimai sabitliyin və demokratik institutların taleyini müəyyən edən faktorlara çevrilib. Belə bir şəraitdə istənilən normativ addım qaçılmaz olaraq beynəlxalq rezonans doğurur. ABŞ ilə Avropa arasında yaranmış mövcud fikir ayrılığı da məhz bu reallığın təzahürüdür. Amma fərqli tarixi təcrübələrin, hüquqi ənənələrin və siyasi mədəniyyətlərin eyni qlobal problemə müxtəlif həll yolları müzakirə oluna bilər. Hazırda ABŞ üçün söz və platforma azadlığı, Avropa üçün isə ictimai məsuliyyət və hüquqi nəzarət ön planda dır. Hər iki yanaşma öz daxilində məntiqdir və ikisi də qlobal rəqəmsal sistemin müəyyən aspektlərini qorumağa yönəlib. Tərəflərin bu fürsətdən necə istifadə edəcəyini isə zaman göstərəcək.

***Nəzrin ELDARQIZI***
***XQ***

### *Ekspert rəyi*



**Hüseyn SULTANLI,**
**Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin məsləhətçisi**

ABŞ və Avropa İttifaqı arasında dərinləşən Transatlantik uzaqlaşma fonunda Tramp administrasiyasının keçmiş Avropa Komissarı Tyerri Breton da daxil olmaqla beş tanınmış avropalı şəxsə viza qadağası tətbiq etməsi diqqətçəkən siyasi addım kimi qiymətləndirilir. Gərginliyin kökləri bu ilin əvvəlində Aİ-nin Rəqəmsal Xidmətlər Aktı çərçivəsində ABŞ-a məxsus sosial media platformaları — “X” və “Facebook” daxil olmaqla araşdırmalara başlamasına gedib çıxır. Tramp administrasiyası prosesi ABŞ texnologiya şirkətlərinə qarşı yönəlmiş və “Amerikanın səsini sıxışdırmağa xidmət edən” həddindən artıq tənzimləmə kimi dəyərləndirib. ABŞ dövlət katibi Marko Rubionun bunu “eksterritorial senzura” adlandırması isə, əslində, ABŞ–Aİ münasibətlərində daha dərin fikir ayrılıqlarının konkret sahələrdə təzahürü kimi dəyərləndirilə bilər. Sözügedən qərar Ağ Evin xarici siyasət xətti ilə tam uzlaşır.

Bununla yanaşı, Tramp administrasiyası dəfələrlə Aİ-nin “Transatlantik alyans” çərçivəsində üzərinə düşən yükü kifayət qədər bölüşmədiyini vurğulayaraq, həm Brüsselin, həm də üzv dövlətlərin daha ciddi öhdəlik götürməli olduğunu bildirib. Son dövrlər artan sərt ritorika, beynəlxalq arenada nümayiş etdirilən məsafəli davranış mövcud ziddiyyətlərin dərinləşdiyini göstərir. Mübahisələrin artıq yalnız texniki və ya iqtisadi sahələrlə məhdudlaşmaması, mədəni və siyasi çalarlar alması isə beynəlxalq təhlükəsizlik baxımından əlavə risklər yaradır. ABŞ-ın Aİ-yə müttəfiq kimi yanaşmada tərəddüd etməsi Vaşinqtonun xarici siyasət prioritetlərində Brüsselin rolunun zəiflədiyini göstərir. Aİ-nin xarici siyasətdə müstəqil xətt axtarışları fonunda tərəflər arasında praqmatik və həllyönümlü dialoq imkanları da daralır.

# İflasdan dərs almayanlar



**(əvvəli 1-ci səhifədə)**

Bu, beynəlxalq hüququn norma və prinsiplərinə, Cenevrə konvensiyalarına ziddir. Bakıda istintaqı və məhkəmə prosesi davam edən şəxslər illər uzunu Azərbaycan ərazilərini işğal altında saxlayan, Xocalı soyqırımı daxil olmaqla dinc əhaliyə qarşı kütləvi qırğınlar törədən, etnik təmizləmə siyasətinə rəhbərlik edən və terroru dövlət siyasəti səviyyəsinə qaldıran fiqurlardır.

Amma ədalət mühakiməsi siyasi alver predmeti ola bilməz. Hərbi cinayətlər, insanlıq əleyhinə cinayətlər və terrorçuluq beynəlxalq yurisdiksiyada ən ağır suçlar hesab edilir. Azərbaycanın hüquq-mühafizə orqanlarının həyata keçirdiyi tədbirlər beynəlxalq öhdəliklərə tam uyğundur və heç bir kənar təzyiq rəsmi Bakını ədaləti bərpa etmək yolundan döndərmək iqtidarında deyil.

2023-cü ilin antiterror tədbirlərindən sonra bölgəni tərk edən erməni əhalisinin seçimi tamamilə fərdi xarakter daşıyıb, Azərbaycan dövlətinin onlara təqdim etdiyi reinteqrasiya planından, vətəndaşlıq hüququndan və təhlükəsizlik təminatından imtina əsasında baş verib. Beynəlxalq müşahidəçilərin, o cümlədən BMT missiyalarının təsdiq etdiyi kimi mülki əhaliyə qarşı heç bir zorakılıq halı qeydə alınmamış, onların təhlükəsiz çıxışı təmin edilmişdir. Buna baxmayaraq, bəzi Qərb dairələrinin, xüsusilə Fransa və Avropa Parlamentindəki qrupların “etnik təmizləmə”, “məcburi köçkünlük” və “qovulma kimi ”ifadələrdən istifadə etməsi faktların kobud şəkildə təhrif edilməsinin təzahürüdür. Ermənilərin geri qayıtmasının beynəlxalq zəmanət altında təmin olunması tələbi mahiyyətcə Azərbaycanın suverenliyinə qəsd cəhdidir. Sözügedən tələb Azərbaycanın konstitusiya quruluşu çərçivəsində yaşamaq istəməyən, lakin ərazidə imtiyazlı statusa malik olmağı arzulayan kütlənin vasitəsilə gələcəkdə yenidən separatizm ocağı yaratmaq planının tərkib hissəsidir. Heç bir xarici qüvvə Azərbaycanın ərazisində nəzarətsiz, statusu bəlli olmayan və potensial təhlükə mənbəyi sayılan anklavların yaranmasına nail ola bilməyəcək.

Qərbi Azərbaycandan qovulmuş yüz minlərlə azərbaycanlının qayıdış hüququnu görməzdən gələn, amma Qarabağdan könüllü gedən ermənilər üçün xüsusi imtiyazlar tələb edən dairələrin mövqeyi ikili standartların göstəricisidir. Beynəlxalq hüquq müdafiəçisi və ya prokuror cildinə girərək Azərbaycana qarşı qərəzli hesabatlar hazırlayan, soyqırımı iftiraları atan Luis Moreno Okampo kimi şəxslərin keçmişi onların hansı maraqlara xidmət etdiyini göstərir. Beynəlxalq Cinayət Məhkəməsinin keçmiş prokuroru Okampo vaxtilə korrupsiya qalmaqallarında, etik davranış qaydalarının pozulmasında və ofşor hesablarla bağlı şübhəli əməliyyatlarda ittiham olunmuş, nüfuzunu itirmiş bir fiqurdur. Belə bir şəxsin erməni lobbisinin maliyyə dəstəyi və sifarişi ilə hazırladığı hesabatların obyektivlikdən uzaq olduğu, siyasi sifariş yerinə yetirdiyi şübhə doğurmur. Bu, çirkli pulların və lobbi maraqlarının diktə etdiyi fəaliyyətdir. Eyni ssenari ABŞ Konqresində də müşahidə olunur və illər uzunu Senatın xarici əlaqələr komitəsinə rəhbərlik edən, Azərbaycana və Türkiyəyə qarşı sərt sanksiyaların təşəbbüskarı olan Bob Menendesin rüşvətxorluq, xarici dövlətlərin maraqlarını qorumaq, korrupsiya əməllərində ifşa olunması erməni lobbisinin dostlarının əsl simasını ortaya qoydu.

Regionda sülh və sabitliyə ən böyük təhdidlərdən biri də Avropa İttifaqının Ermənistandakı müşahidə missiyasının fəaliyyətidir. İlk mərhələdə qısamüddətli və mülki xarakter daşıyacağı vəd edilən, lakin sonradan müddəti uzadılan, tərkibi genişləndirilən missiya, faktiki olaraq, kəşfiyyat xarakterli funksiyaları yerinə yetirir. “Binokl diplomatiyası” adlandırılan fəaliyyət sərhəddə gərginliyin artmasına və Ermənistanın revanşist dairələrinin cəsarətlənməsinə xidmət edir. Missiyanın tərkibində Avropa ölkələrinin xüsusi xidmət orqanlarına və hərbi strukturlarına bağlı şəxslərin yer alması, həmçinin Kanada kimi regiona yad dövlətin nümayəndələrinin ora daxil edilməsi Brüsselin əsl niyyətinin regionda geosiyasi möhkəmlənmək olduğunu sübut edir. Yuxarıda sadalanan bütün faktlar, yəni cinayətkarların müdafiəsi, qayıdış şousu, korrupsioner lobbiçilik və hərbiləşmiş müşahidə missiyası vahid strategiyanın tərkib hissələridir. Ermənistanın havadarları regionda dayanıqlı sülhün bərqərar olmasında maraqlı deyillər. Çünki sülh onların regiona təsir imkanlarını məhdudlaşdıracaq və manipulyasiya alətlərini əllərindən alacaqdır.

Lakin həmin siyasət, ilk növbədə, Ermənistanın özü üçün fəlakətli nəticələr vəd edir. Tarix sübut edir ki, xarici vədlərə aldanaraq qonşularına qarşı ərazi iddiaları irəli sürən və revanşizm yolunu tutan dövlətlər sonda öz müstəqilliklərini itirmək təhlükəsi ilə üzləşirlər. Bütün təzyiqlərə, ikili standartlara və hibrid təhdidlərə baxmayaraq, Azərbaycan Respublikası prinsipial mövqeyindən geri çəkilmir. Rəsmi Bakı sülh gündəliyinə sadiqliyini nümayiş etdirməklə yanaşı, milli maraqlarını, suverenliyini və təhlükəsizliyini qorumaq üçün bütün zəruri addımları atır. Ermənistanın və onun tərəfdaşlarının apardığı oyunlar Azərbaycanın iradəsini qırmağa, ölkəmizi haqq yolundan döndərməyə qadir deyildir. Bu mürəkkəb geosiyasi arenada Ermənistanın oynadığı rol sadəcə piyada funksiyasını yerinə yetirməkdən ibarətdir. Dövlətimiz isə strateji səbri və qətiyyəti ilə bu dumanı dağıtmağa, regionu işıqlı gələcəyə aparmağa qadir yeganə güc mərkəzidir.

***Yusif ŞƏRİFZADƏ***
***XQ***

# Sülhün dialoq və etimad körpüsü

## *Çoxtərəfli təhlükəsizliyə Bakı və Daşkəndin ortaq baxışı*



**Dünya sürətlə dəyişir və beynəlxalq sistem bu dəyişikliklərə adekvat cavab verməkdə çətinlik çəkir. SSRİ-nin süqutundan sonra yaranmış yeni beynəlxalq konfiqurasiyada baş verən hadisələr göstərir ki, uzunmüddətli sabitliyin və təhlükəsizliyin təmin olunması üçün məsuliyyət daşıyan təşkilatlar – BMT, ATƏT və digər beynəlxalq qurumlar dəyişikliklər qarşısında əksər hallarda aciz qalırlar. Son 30 ildə bu təşkilatların islahatlara ehtiyacı barədə çox danışılıb, lakin əməli addımlar atılmayıb.**

Bu təşkilatların dünyada baş verənlərə təsir imkanları getdikcə azalır, qlobal təhlükəsizlik məsələləri isə mürəkkəb xarakter alır. Siyasi, sosial-iqtisadi və regional ziddiyyətlərin yığılması uzunmüddətli münaqişə potensialını artırır. Belə bir şəraitdə preventiv diplomatiya yalnız nəzəri konsepsiya deyil, real və strateji ehtiyac kimi önə çıxır. Məhz bu formatda Özbəkistanın təşəbbüsü və Azərbaycanın prosesdə oynaya biləcəyi rol xüsusi əhəmiyyət kəsb edir.

Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin 2027-ci ili Preventiv Diplomatiya ili elan etmək istəyi maraqla qarşılanıb. Bu ideya təsadüfi deyil və Daşkəndin son illər apardığı xarici siyasət kursunun məntiqi davamıdır. Özbəkistan regionda açıq dialoqa, mehriban qonşuluğa və qarşılıqlı etimada əsaslanan yeni siyasi mühit formalaşdırmağa çalışır. Mərkəzi Asiyada dövlətlərarası münasibətlərin sağlam əsaslar üzərində qurulması, regional inteqrasiyanın gücləndirilməsi və münaqişə risklərinin minimuma endirilməsi bu siyasətin əsas prioritetlərindəndir. Preventiv diplomatiya təşəbbüsü də məhz bu yanaşmanın beynəlxalq müstəviyə çıxarılması kimi qiymətləndirilir. Bu prosesdə Azərbaycanın mövqeyi və təcrübəsi örnəkdir.

Onu da qeyd edək ki, Azərbaycan Qoşulmama Hərəkatının ən fəal və təşəbbüskar üzvlərindən biridir. Bakının 2019–2023-cü illərdə Hərəkata sədrliyi təşkilatın fəaliyyətində keyfiyyətcə yeni mərhələ açıb. Bu dövr Hərəkatın tarixində çoxsaylı təşəbbüslərlə yadda qalıb. Bunlardan biri də quruma üzv olan dövlətlərin Parlamentlər Şəbəkəsinin yaradılması idi. Prezident İlham Əliyev bu təşəbbüslə Beynəlxalq Parlamentlərarası İttifaqın 143-cü Assambleyasında çıxış etmişdi. Dövlətimizin başçısı bütün üzv dövlətlər tərəfindən dəstəklənən bu təşəbbüsü Azərbaycanda reallaşdırdı.

Azərbaycanın özünün keçdiyi mürəkkəb tarixi yol preventiv yanaşmaların əhəmiyyətini açıq şəkildə göstərir. Uzun illər davam edən münaqişə dövründə beynəlxalq ictimaiyyətin vaxtında və təsirli mexanizmləri işə sala bilməməsi problemin dərinləşməsinə, risklərin qalmasına səbəb oldu. Nəticədə münaqişənin həlli daha çətin və baha başa gəldi. Bu təcrübə təkcə regional deyil, qlobal miqyasda da dərs kimi dəyərləndirilə




bilər. Azərbaycanın yaşadığı reallıq göstərdi ki, preventiv diplomatiya yalnız humanist çağırış deyil, həm də rasional və strateji zərurətdir.

Münaqişənin aktiv mərhələsi başa çatdıqdan sonra Azərbaycanın xarici siyasət gündəliyində postmünaqişə bərpası və dayanıqlı sülhün təmin edilməsi əsas yer tutdu. Bakının təhlükəsizlik anlayışının iqtisadi və sosial ölçüləri də əhatə etdiyini göstərir. Azərbaycan üçün təhlükəsizlik təkcə hərbi balans məsələsi deyil, eyni zamanda, qarşılıqlı asılılıq, iqtisadi inkişaf və regional inteqrasiya ilə sıx bağlıdır. Bu yanaşma preventiv diplomatiyanın mahiyyəti ilə üst-üstə düşür və münaqişələrin köklü səbəblərinin aradan qaldırılmasına yönəlir.

Bundan başqa, Azərbaycan Qoşulmama Hərəkatına sədrlik etdiyi dövrdə qurum, sadəcə, siyasi bəyanatlar platforması olmaqdan çıxararaq, beynəlxalq problemlərin müzakirə olunduğu və konkret mövqelərin formalaşdırıldığı təsirli mexanizmə çevirməyə çalışdı. Dövlətlərin suveren bərabərliyi, beynəlxalq hüququn selektiv tətbiqinin yolverilməzliyi, çoxtərəfli dialoqun gücləndirilməsi kimi prinsiplər Bakının sədrliyi dövründə Hərəkatın əsas xəttinə çevrildi.

Ölkəmizin cəmi 3 illik sədrliyi dövründə Qoşulmama Hərəkatına verdiyi impuls və təşkilatın beynəlxalq miqyasda artan nüfuzu dünya birliyinin Azərbaycana olan etimadının göstəricisidir. Məhz bu etimad sayəsində Azərbaycanın təşkilata sədrliyinin daha bir il müddətinə uzadılmasına dair qərar qəbul olundu. Bütün bunlar onu göstərir ki, Azərbaycan təşkilata sədrliyi dövründə 2019-cu ilədək amorf bir qurum kimi tanınan Qoşulmama Hərəkatını qlobal siyasətin ön cərgəsinə çıxarmağa və beynəlxalq təşəbbüslərin müəllifinə çevirməyə nail oldu.

Məhz bu nöqtədə Azərbaycan–Özbəkistan münasibətlərinin strateji xarakteri daha aydın görünür. **Bu barədə XQ-yə açıqlama verən Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin aparıcı məsləhətçisi Roza Bayramlı bildirdi ki, hər iki ölkə xarici siyasətində çoxvektorluq və bloklardan kənarlıq prinsipini əsas tutur:** “Bakı və Daşkənd hərbi-siyasi alyanslardan uzaq duraraq, strateji muxtariyyətini qorumağa çalışır və siyasi-diplomatik vasitələrə üstünlük verir. Bu oxşar yanaşma onların Qoşulmama Hərəkatı çərçivəsində birgə fəaliyyətini daha da asanlaşdırır. Özbəkistanın preventiv diplomatiya təşəbbüsü ilə Azərbaycanın bu sahədəki təcrübəsi bir-birini tamamlayır və sinerji yaradır.

Bundan başqa, Azərbaycan və Özbəkistan təkcə siyasi baxımdan deyil, həm də coğrafi və iqtisadi müstəvidə bir-birini tamamlayan ölkələrdir. Azərbaycan Cənubi Qafqazla Mərkəzi Asiya arasında mühüm nəqliyyat və kommunikasiya körpüsü rolunu oynayır. Orta Dəhliz layihəsi, Xəzər üzərindən tranzit imkanlarının genişlənməsi, regional logistika şəbəkələrinin inkişafı hər iki ölkənin maraqlarına cavab verir. Bu layihələr təkcə iqtisadi fayda gətirmir, eyni zamanda, qarşılıqlı asılılığı artıraraq münaqişə risklərini azaldan mühüm preventiv mexanizm funksiyası daşıyır.

Özbəkistanın Qoşulmama Hərəkatına sədrliyə hazırlaşması fonunda Azərbaycanın institusional təcrübəsi xüsusi dəyər kəsb edir. Bakı Hərəkatın iş mexanizmlərinin təkmilləşdirilməsi, onlayn və fövqəladə Zirvə görüşlərinin təşkili, qlobal çağırışlara operativ reaksiya verilməsi sahəsində təcrübə toplayıb. Bu təcrübənin Daşkəndlə paylaşılması, birgə təşəbbüslərin hazırlanması preventiv diplomatiya gündəliyinin konkret məzmunla zənginləşdirilməsinə xidmət edə bilər. Əsas məsələ bu təşəbbüslərin deklarativ səviyyədə qalmaması, real proqramlar və mexanizmlərlə dəstəklənməsidir”.

Ekspertin sözlərinə görə, Beynəlxalq sistemin getdikcə daha çox fraqmentləşdiyi, etimadın azaldığı bir dövrdə Azərbaycan və Özbəkistan kimi dövlətlərin əməkdaşlığı xüsusi əhəmiyyət daşıyır: “Ölkələrin ortaq baxışı göstərir ki, təhlükəsizlik yalnız güc balansı ilə deyil, dialoq, qarşılıqlı hörmət və inklüziv yanaşmalarla təmin oluna bilər. Qoşulmama Hərəkatının bu ruhda yenidən canlandırılması beynəlxalq münasibətlərdə konstruktiv alternativlərin mövcud olduğunu sübut edə bilər”.

Beləliklə, Özbəkistanın yeni təşəbbüsü və Azərbaycanın bu prosesdə fəal iştirakı qurumun gələcəyi üçün yeni perspektivlər açır. Bu əməkdaşlıq təkcə iki ölkənin milli maraqlarına deyil, beynəlxalq təhlükəsizlik arxitekturasının formalaşmasına xidmət edir. Bakı və Daşkəndin ortaq səyləri göstərir ki, müasir dünyada dayanıqlı sülhə aparan yol qarşıdurmadan deyil, vaxtında görülən tədbirlərdən, dialoqdan və qarşılıqlı etimaddan keçir. Preventiv diplomatiya məhz bu yolun əsas istiqamətlərindən biri kimi getdikcə böyük əhəmiyyət qazanır, iki ölkə arasında strateji əməkdaşlığın mərkəzi elementinə çevrilir.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Aktau faciəsinin səbəbi obyektiv cavab gözləyir

## *Hələlik Qazaxıstan Nəqliyyat Nazirliyinin AZAL təyyarəsinin qəzası ilə bağlı aralıq hesabatı açıqlanıb*



**Qazaxıstan Nəqliyyat Nazirliyi AZAL şirkətinə məxsus Embraer 190 4KAZ65 təyyarəsi ilə bağlı aviasiya hadisəsinin ildönümü ilə əlaqədar məlumat yayıb.**

Məlumatda bildirilib ki, araşdırma Qazaxıstanın Nəqliyyat Nazirliyi tərəfindən Beynəlxalq Mülki Aviasiya Təşkilatı (ICAO), Azərbaycan, Braziliya və Rusiya nümayəndələrinin iştirakı ilə həyata keçirilir. Bu araşdırmadan əlavə, üç ölkənin (Azərbaycan, Qazaxıstan və Rusiya) istintaq orqanları öz səlahiyyətləri çərçivəsində qəza ilə bağlı cinayət işinin istintaqını da həyata keçirir.

Hesabatda qeyd edilib ki, Bakı–Qroznı reysini yerinə yetirən və Aktau yaxınlığında qəzaya uğrayan hava gəmisinin aviaqəzasının səbəblərinin araşdırılmasının yekun başaçatma müddəti təyin olunmuş bütün tədqiqatların və işlərin tamamlanma vaxtından asılıdır. Qeyd edilib ki, Qazaxıstan Nəqliyyat Nazirliyi tərəfindən yaradılmış Aviasiya Hadisələrinin Araşdırılması Komissiyası Beynəlxalq Mülki Aviasiya Təşkilatının (ICAO) Konvensiyasının 13-cü əlavəsinin 6.6 standartına uyğun olaraq “Azerbaijan Airlines” şirkətinə məxsus təyyarənin 2024-cü il dekabrın 25-də Aktauda qəzaya uğraması ilə bağlı aralıq hesabat hazırlayıb. Aralıq hesabat Qazaxıstan Nəqliyyat Nazirliyinin saytında yerləşdirilib.

Nazirlik komissiya tərəfindən aparılan araşdırma ilə yanaşı, Qazaxıstan hüquq-mühafizə orqanlarının cinayət işi üzrə istintaq apardıqlarını da vurğulayıb. “Araşdırmanın gedişi barədə məlumatlar araşdırma başa çatana qədər üçüncü şəxslərə açıqlanmır. Aviasiya hadisəsinin araşdırılmasının yekun başaçatma müddəti bütün təyin olunmuş tədqiqatların və işlərin tamamlanma vaxtından asılıdır. Hadisənin səbəbləri və ya ona təsir edən amillər, eləcə də uçuşların təhlükəsizliyi ilə bağlı tövsiyələr yekun hesabatda əks olunacaq”, – deyə açıqlamada vurğulanır.

Bildirilib ki, ICAO-nun 13-cü əlavəsinin müddəalarına əsasən, aviasiya hadisəsinin yalnız bir məqsədi var: gələcəkdə oxşar halların qarşısını almaq. Qeyd edilib ki, bu fəaliyyətin məqsədi heç kimin günahını və ya məsuliyyətini müəyyən etmək deyil.

Aviasiya hadisəsinin araşdırmasının yekun müddəti bütün təyin olunmuş tədqiqatların və işlərin başaçatma vaxtından asılıdır. Hadisənin səbəbləri və ya onu təşviq edən amillər, həmçinin uçuş təhlükəsizliyi ilə bağlı tövsiyələr yekun hesabatda təqdim olunacaq.

Xatırladaq ki, 2024-cü il dekabrın 25-də AZAL-a məxsus təyyarə, J2-8243 Bakı–Qroznı reysini yerinə yetirərkən Qazaxıstanın Aktau şəhərindən 3 km məsafədə qəzaya uğrayıb. İlkin istintaq məlumatlarına görə, Qroznıya yaxınlaşarkən təyyarə Rusiyanın “Pantsir–S” hava hücumundan müdafiə sistemi tərəfindən hücuma məruz qalıb. Bundan əlavə, Rusiya tərəfinin radioelektron mübarizə vasitələrindən istifadəsi nəticəsində Azərbaycan təyyarəsinin rabitə sistemi tamamilə iflic olub. Bu səbəbdən hava gəmisi Rusiyanın hava məkanında radarlardan itib.

Təyyarədə, ümumilikdə 67 nəfər (62 sərnişin, 5 ekipaj üzvü) olub. Onlardan 42 nəfəri Azərbaycan vətəndaşı (37 sərnişin, 5 ekipaj üzvü), 16 nəfəri Rusiya, 6 nəfəri Qazaxıstan, 3 nəfəri isə Qırğızıstan vətəndaşıdır. Qəza nəticəsində 38 nəfər həlak olub, 29 nəfər sağ qalıb. Aviaqəza zamanı hava gəmisinin komandiri İqor Kşnyakin, ikinci pilot Aleksandr Kalyaninov və stüardessa Hökumə Əliyeva həyatını itirib.

***S.NAZİMOĞLU***
***XQ***



# İşğalın talançılıq, vandalizm və “ölüm tələləri” izləri

## *Ağdam Ermənistanın urbisid vəhşiliyindən təmizlənir*

**Ermənistanın Azərbaycana qarşı 30 ilə yaxın davam etdirdiyi işğalçılıq və talançılıq siyasəti təkcə hərbi təcavüzlə məhdudlaşmayıb. Eyni zamanda, sistemli iqtisadi və ekoloji vandalizm xarakteri daşıyıb. İşğal dövründə suveren ərazilərimizdə yerləşən təbii sərvətlər məqsədli şəkildə istismar edilib, sənaye və kənd təsərrüfatı obyektləri ya talan olunub, ya da tamamilə sıradan çıxarılıb.**

Məlum proseslər Ermənistanın dövlət səviyyəsində formalaşdırdığı qeyri-qanuni gəlir mexanizmlərinin mühüm tərkib hissəsinə çevrilib. Nəticədə talançılıq tək-tük faktlar yox, planlı və davamlı dövlət siyasəti kimi həyata keçirilib. Beynəlxalq hüququn norma və prinsiplərinin açıq şəkildə pozulması fonunda aparılan bu fəaliyyətlər regionda uzunmüddətli sosial, iqtisadi və ekoloji fəsadlar yaradıb. Ermənistan rəhbərliyi isə bütün bu dağıdıcı əməlləri illər boyu ya inkar edib, ya da məsuliyyəti müxtəlif bəhanələrlə ört-basdır etməyə çalışıb. Azərbaycan dövləti 2020-ci ildə Qarabağ məsələsini öz gücü hesabına həll etdikdən sonra həmin talançılıq siyasətinin miqyası və nəticələri faktlar və sübutlar əsasında açıq şəkildə ortaya qoyulur.

Bu çərçivədə Prezident İlham Əliyevin dekabrın 24-də Ağdamda 2-ci yaşayış kompleksinin açılışı mərasimində səsləndirdiyi fikirlər diqqəti cəlb edir. Dövlətimizin başçısının sözlərinə görə, işğal dövründə Ağdam demək olar ki, yer üzündən silinib. Yəni şəhər Ermənistan dövləti tərəfindən tamamilə dağıdılıb: “Bu, Ermənistan dövlətinin məqsədyönlü siyasəti, bizə qarşı olan düşmənçiliyin bariz nümunəsi idi. Məqsəd də tam aydın idi. Birincisi, talançılıq. Çünki bütün binaların daşları bir-bir sökülərək talan edilmişdir, müxtəlif yerlərdə, Ermənistan ərazisində satılmışdır. Digər tərəfdən, Ermənistan dövləti bu bölgələrdə Azərbaycan xalqının tarixi irsini tamamilə silmək istəyirdi. Üçüncü məqsəd isə bu şəhəri elə vəziyyətə salmaq idi ki, artıq burada yaşayış mümkün olmasın, azərbaycanlılar heç vaxt buraya qayıtmaq haqqında düşünməsinlər. Ancaq səhv etdilər. Biz, xalqımız bütün bu əzablı illər ərzində bir amalla yaşamışıq ki, öz doğma dədə-baba torpaqlarımıza qayıdaq və qayıdandan sonra bu torpaqları, bu şəhərləri, kəndləri bərpa edək. Azərbaycan xalqı heç vaxt işğalla barışmamışdır”.

Prezident İlham Əliyevin səsləndirdiyi fikirlər Ermənistanın Azərbaycana qarşı apardığı siyasətin mahiyyətini bütün çılpaqlığı ilə ortaya qoyur. Dövlətimizin başçısının “urbisid” anlayışına müraciəti təsadüfi deyil və bu termin Ağdamın durumunu dəqiq təsvir edir. Söhbət, sadəcə, müharibə nəticəsində zərər görmüş şəhərdən yox, məqsədli şəkildə yer üzündən silinmiş yaşayış məkanından gedir. Ermənistanın davranışı spontan dağıntı deyil, planlı və mərhələli şəkildə həyata keçirilmiş talançılıq aktı olub. Binaların daşlarının sökülərək daşınması və satılması bu vandalizmin iqtisadi motivlərini açıq göstərir. Eyni zamanda, Azərbaycan xalqının tarixi-mədəni izlərini silmək cəhdi etnik nifrət və mədəni soyqırımı niyyətini üzə çıxarır. Digər məqsəd, yəni geri dönüşü mümkünsüz etmək İrəvanın uzunmüddətli demoqrafik və siyasi planlarının tərkib hissəsi idi. Bu siyasət nəticəsində Ağdam təkcə fiziki deyil, həm də sosial yaddaş baxımından hədəfə alınıb. Şəhərin infrastrukturunun, yaşayış məkanlarının və ictimai obyektlərinin məhv edilməsi insanların doğma torpaqlarla bağlarını qırmağa yönəlmişdi. Ermənistan rəhbərliyi bununla, faktiki olaraq, beynəlxalq humanitar hüququn əsas prinsiplərini ayaqlar altına atıb. Lakin Prezidentin vurğuladığı kimi, bu siyasət iflasa uğradı. İllərlə qurulan bu dağıdıcı strategiya Azərbaycanın siyasi iradəsi və güclü dövlətçilik konsepsiyası qarşısında davam gətirə bilmədi. Bu gün Ağdamda aparılan genişmiqyaslı bərpa və quruculuq işləri, şəhərin Azərbaycan dövlətinin iradəsi ilə dirçəldilməsi Ermənistanın urbisid siyasətinin iflasa uğradığını açıq şəkildə sübut edir. Dövlətimizin başçısının Ağdamdan verdiyi mesajlar həm tarixi ədalətin bərpasını, həm də gələcəyə yönəlik qətiyyətli mövqeni ifadə edir. Bu fikirlər həm tarixi ədalətin bərpası, həm də talançılıq siyasətinə verilən ən tutarlı cavabdır.

*

Ümumiyyətlə, işğal dövründə həmin ərazilərdə Azərbaycan xalqına məxsus mədəni irsin məqsədyönlü şəkildə silinməsi Ermənistanın düşmənçilik siyasətinin ən ağrılı və təhlükəli istiqamətlərindən biri olub. Məscidlərimizin dağıdılması, təhqir olunması və tövlələrə çevrilməsi təkcə vandalizm aktı deyil, eyni zamanda, dini dəyərlərə qarşı açıq hörmətsizlik nümunəsi idi. Qəbiristanlıqların, ziyarətgahların və tarixi abidələrin məhv edilməsi ilə Azərbaycan xalqının bu torpaqlardakı çoxəsrlik izlərini yox etmək məqsədi güdülürdü. Ermənistan bununla həm beynəlxalq hüququn, həm də UNESCO konvensiyalarının tələblərini kobud şəkildə pozurdu. Lakin bütün bu cəhdlər nəticəsiz qaldı. Azad edilmiş ərazilərdə aparılan bərpa-quruculuq işləri sübut edir ki, mədəni irs yenidən dirçəlir, dağıdılan məscidlər, müqəddəs yerlər əvvəlki görkəmini alır. Bu proses həm tarixi ədalətin bərpası, həm də mədəni vandalizmə verilən prinsipial cavabdır.

Bütövlükdə, Ermənistanın işğal altında saxladığı ərazilərdə həyata keçirdiyi fəaliyyətlər açıq şəkildə talançılıq və qeyri-qanuni istismar siyasəti olub. Yaşayış evlərinin, sosial və sənaye obyektlərinin sökülməsi, az və ya çox dəyər daşıyan bütün avadanlıq və materialların, hətta evlərin taxtalarının sökülərək sistemli şəkildə Ermənistana və digər ölkələrə daşınması buna bariz sübutdur. Bu proses fərdi təşəbbüslər yox, mərkəzləşdirilmiş şəkildə idarə olunan mexanizm əsasında aparılıb. Paralel olaraq Azərbaycanın təbii sərvətləri – meşələr, faydalı qazıntılar, qızıl yataqları, mineral mədənlər amansızcasına istismar edilib. Ekoloji balansın pozulması, torpaqların yararsız hala salınması və su ehtiyatlarının çirkləndirilməsi uzunmüddətli fəsadlar yaradıb. Amma bu talançılıq siyasəti faktlarla sənədləşdirildi və dəyən ziyanın miqyası dəqiqləşdirildi.

İşğal dövründə və sonra həyata keçirilən kütləvi minalama siyasəti isə həmin ərazilərdə gələcək yaşayışı mümkünsüz etmək məqsədi daşıyan ən təhlükəli və qeyri-insani addımlardan biri idi. Torpaqların sistemli şəkildə minalanması sülhün yaranmasından sonra belə dinc əhalini hədəfə almağa hesablanmış gizli təhdid mexanizmi kimi çıxış edir. Azad edilmiş ərazilər üzrə mina xəritələrinin verilməməsi və ya bilərəkdən yanlış təqdim edilməsi bu siyasətin davamı kimi qiymətləndirilir. Nəticədə yüzlərlə soydaşımız, o cümlədən mülki şəxslər, bərpa işlərində çalışan mütəxəssislər mina partlayışlarının qurbanına çevrilib. Bu faciələr ailələr üçün sağalmaz yaralar açmaqla yanaşı, bölgəyə qayıdış prosesini də ciddi şəkildə ləngidir. Ermənistanın bu addımları beynəlxalq humanitar hüququn, xüsusilə də müharibədən sonrakı dövrdə mülki əhalinin müdafiəsini nəzərdə tutan konvensiyaların açıq pozuntusudur.

İşğal altında olmuş ərazilərdə bir sıra Qərb şirkətlərinin qanunsuz fəaliyyəti də diqqətdən kənarda qalmamalıdır. Bu fəaliyyətlər talançılıq siyasətinin beynəlxalq ölçü aldığını göstərirdi. Həmin şirkətlər İrəvanın yaratdığı keçmiş separatçı rejimlə əməkdaşlıq edərək Azərbaycanın milli sərvətlərinin istismarında bilavasitə iştirak ediblər. Söhbət təkcə iqtisadi maraqlardan yox, beynəlxalq hüququn açıq şəkildə pozulmasından gedir. Buna baxmayaraq, uzun müddət bu fəaliyyətlərə qarşı adekvat hüquqi və siyasi tədbirlərin görülməməsi ikili standartların mövcudluğunu üzə çıxarıb. Qanunsuz qazanc əldə edən tərəflər məsuliyyətdən yayınsa da, faktlar artıq sənədləşdirilib. Bu məsələ beynəlxalq hüquqi müstəvidə qiymətini almalı, Azərbaycanın sərvətlərinin talanında iştirak edən bütün subyektlər cavabdehlik daşımalıdır.

***Səxavət HƏMİD***
***XQ***

*Bakı məişət kondisionerləri zavodu – 50*

# Ulu öndərin Azərbaycanı şöhrətləndirmiş yadigarı



**Bugünlərdə Bakı məişət kondisionerləri zavodunun fəaliyyətə başlamasının 50 ili tamam oldu. Xatırladaq ki, ümummilli lider Heydər Əliyevin təşəbbüsü və iradəsi ilə Azərbaycan paytaxtında qısa müddətdə tikilib istifadəyə verilmiş bu nadir müəssisə Azərbaycanın şöhrətini dünyaya yaymışdı. BMKZ markası ilə tanınan bu zavod SSRİ və Avrasiya məkanında ən böyük belə istehsal idi.**

**Yubiley ərəfəsində "Bakıkondisioneri" Elm İstehsalat Birliyinin keçmiş baş direktoru, Azərbaycanın Dövlət mükafatı laureatı, Əməkdar mühəndis Fuat Quliyevlə görüşüb ondan müsahibə aldıq.**

***– Necə olmuşdu ki, SSRİ-nin belə nadir müəssisəsi Bakıda tikilmişdi?***

– SSRİ-də məişət kondisionerləri zavodunun yaradılmasının tarixi 1971-ci ilin yayına təsadüf edir. O zaman Daşkənd şəhərində sovet rəhbəri Leonid Brejnevin sədrliyi ilə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi və SSRİ Nazirlər Sovetinin birgə iclası keçirilirdi.

Həmin günlərdə güclü istilər iclasın keçirilməsinə ciddi təsir göstərirdi. O zaman xaricdən alınan kompleks avadanlıqlar hesabına kondisioner istehsalı zavodunun yaradılması təşəbbüsü ortaya çıxdı və bu təşəbbüsü Leonid Brejnev dəstəklədi. Qısa müddətdən sonra Ukrayna SSR-in Zaporojye şəhərində məişət kondisionerlərinin istehsalı üzrə zavodun yaradılması haqqında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi və SSRİ Nazirlər Sovetinin qərarı qəbul edildi və bu işlərə 25 milyon dollar vəsait ayrıldı.

Tikinti ilə bağlı SSRİ Elektrotexnika Sənayesi Nazirliyi aparıcı nazirlik kimi müəyyən edildi. Nazirliyin "GiproEnerqoProm" İnstitutu baş layihələndirici oldu. Satınalma müqaviləsinin bağlanılması SSRİ Xarici Ticarət Nazirliyinin əsas idarəsi olan "Sənayeavadanlıqimport"a həvalə edildi. Bu qərar haqqında məlumat alan kimi Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyev təcili olaraq Moskvaya getdi. O, Leonid Brejnevi inşaat işlərinin 2 ilə başa çatacağına, 1975-ci ilin sonundan gec olmayaraq istismara buraxılacağı şərti ilə zavodun tikinti yerinin dəyişdirilərək Bakı şəhərinə dəyişdirilməsinə inandıra bildi.

Zavodun tikintisinin yerinin dəyişdirilməsi ilə bağlı əsas arqumentlərdən biri o oldu ki, həmin illərdə Azərbaycanda müdafiə sənayesi müəssisələrinin birində məişət kondisionerlərinin istehsal sahəsi mövcud idi. Lakin az miqdarda, primitiv texnologiyalarla istehsal edilən kondisioner istismar zamanı çox səs-küylü idi. Heydər Əliyev qarşıya qoyulan bütün tələbləri həll edəcəyi barədə Leonid Brejnevə söz verdi və vədinə əməl etdi. 1973-cü ilin sonunda tikintisinə başlanan zavod düz 2 ildən sonra – 1975-ci il dekabrın 25-də istismara buraxıldı.

1972-ci ildə Bakıda tikintisi aparılan məişət kondisionerləri zavodunun müdiriyyəti yaradıldı və istedadlı istehsalat təşkilatçısı Sənan Axundov müəssisəyə direktor, Rüstəm Şahmalıyev baş mühəndis, Kamal Munşiyev direktorun əsaslı tikinti üzrə müavini təyin edildi. Azərbaycan Respublikası Nazirlər Soveti tərəfindən tikintiyə nəzarət Nazirlər Kabinetinin sədr müavini Əliş Lənbəranskiyə həvalə edildi. Tikinti meydançasında onun üçün iş otağı yaradıldı və Əliş müəllim bütün tikinti dövrünü burada keçirdi.

İnşaat işlərinin gedişinə nəzarət və operativ sualların həlli məqsədilə ölkə rəhbərlərinin müşavirələri təşkil edilirdi və hər 10 gündən bir bu müzakirə Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyevin sədrliyi ilə keçirilirdi. Tikintiyə kömək məqsədilə inşaat-quraşdırma, təchizat, nəqliyyat, enerji və respublikanın digər təşkilatları da səfərbər edilərək, bütün istiqamətlər üzrə şəbəkə cədvəlləri tərtib edilmişdi. Bütün məsələlərin həlli və tikintinin aparılma müddətinə ciddi nəzarət edilirdi.

Müvafiq texniki sənədlərlə təminat üçün Bakı Kondisionerləri Xüsusi Konstruktor Texnoloji Bürosu yaradıldı və bu büroya rəhbərlik istedadlı mühəndis, alim Səid Sultanova tapşırıldı. Layihənin tikinti hissəsi Azərbaycan Dövlət Sənaye Layihə İnstitutuna həvalə edildi. İş prosesində layihənin texnoloji hazırlığı da aparıldı. Müəyyən edildi ki, dünyadakı bütün məişət kondisionerləri zavodları eyni sxem üzrə işləyir: komplektləşdirici zavodlar əsas müəssisəni kompressorlar, elektrik mühərrikləri və açarları, rele və digər hissələrlə təchiz edirlər. Kondisionerlər zavodu isə bu detallar vasitəsilə yığımı təmin edirlər.

Lakin həmin dövrdə SSRİ-də yeni yaradılan kondisionerlər zavodunu komplektləşdirici detallarla təmin edəcək zavodlar mövcud deyildi. Bundan başqa, Yaponiya texnologiyaları əsasında kondisioner istehsalı zamanı tələb edilən 45 adda material və komplektləşdiricilər SSRİ-də istehsal edilmirdi. Bu vəziyyətdən çıxış üçün kondisionerin bütün detal və hissələrinin elə




tikilən zavodda hazırlanması qərara alındı. Bu da tələb olunan avadanlığın dəyərinin artmasına və müqavilənin dəyərinin 94,5 milyon ABŞ dollarına çatmasına gətirib çıxardı.

Heydər Əliyev bu çox çətin məsələni də həll etdi və tikintiyə pul ayrıldı. SSRİ-də mövcud olmayan lazımi material və komplektləşdiricilər istehsalı üçün Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi və SSRİ Nazirlər Sovetinin 2 qərarı qəbul edildi. SSRİ-nin aidiyyəti nazirliklərinə əvvəllər SSRİ-də istehsal olunmayan 45 adda material və komplektləşdirici detalların, o cümlədən yüksəkkeyfiyyətli mis boruların, alüminium folqanın, xüsusi poladın istehsalı təşkil edilməsi həvalə edildi. Bütün bu materiallar tələb olunan vaxtda BMKZ-na təhvil verildi.

Zavodun fəaliyyətinin ilk vaxtlarında müəyyən obyektiv səbəblərdən belə materiallar xaricdən idxal edilirdi. Yeri gəlmişkən, bu materiallar nəinki kondisioner istehsalında, elektrik maşınqayırma, elektrik məişət maşınları və digər sahələrdə də tələb olunurdu. Beləliklə, kondisioner zavodunun inşası SSRİ-dəki çox sayda müəssisələr üçün daha müasir materiallardan istifadə edərək istehsalın təşkilinə təkan verdi. Paralel olaraq, ABŞ, Fransa, Yaponiya və digər ölkələrdən olan xarici şirkətlərlə müqavilələrin işlənməsi davam etdi.

Təkliflər nəzərdən keçirilən zaman SSRİ-də istehsalın konkret, real istehsal şərtləri nəzərə alınaraq layihənin texniki, texnoloji və təşkilati tərəflərinin öyrənilməsini tez və ən tam şəkildə həyata keçirən "Toshiba", "Tokio Bocki" və "Mitsionun" birgə təklifləri üzərində dayanılması məqsədəuyğun hesab edildi. Layihənin bir çox cəhətdən bənzərsiz olduğu ortaya çıxdı. Belə ki, dünya təcrübəsində kondisionerin bütün hissələrinin bir istehsal sahəsində yığılması praktikası olmamışdı.

1972-ci ildə qeyd edilən şirkətlərlə bağlanan müqavilədə 2 model kondisionerin, rotasion tipli kompressorların, pər mühərriklərinin və ildə 400 min ədəd yalnız soyutma rejimində işləyən, saatda 1500 və 2500 kilokalori soyuqluq istehsalına malik olan BK 1500 və BK 2500 modifikasiyalı 2 model kondisionerlərin istehsalı üçün avadanlıq komplektinin, istehsal edilən kondisionerlərin komplektləşdirilməsi üçün 450 min ədəd rotasiyalı kompressor və 410 min ədəd pər mühərriklərinin lisenziyasının alınması nəzərdə tutulmuşdu.

***– Avadanlıqla təchizat, müəssisənin kadrlarla komplektləşdirilməsi və mütəxəssislərin hazırlanması necə həyata keçirilirdi?***

– 1974-cü ilin əvvəlindən avadanlıqların Yaponiyanın İokoqama limanından Odessanın İlyiçevsk limanına çatdırılmasına başlanıldı. Yüklər oradan yük qatarları vasitəsilə dəmir yolu ilə Bakı şəhərinə, birbaşa tikinti meydanına çatdırılırdı. Yol boyunca Bakıya gələn yüklərə yaşıl işıq verilirdi. Tikilən zavodun işçiləri tərəfindən bütün marşrut boyunca qatarların keçidinə nəzarət edilirdi. Gətirilən avadanlıqlar, təbii ki, müasir dünya standartlarına uyğun olmaqla yüksək dərəcədə avtomatlaşdırma və mexanizasiyalı idi.

Bu, mühəndis-texniki və işçi personalı üçün yüksək ixtisas tələbləri irəli sürürdü. İntensiv şəkildə lazımi kadrların işə qəbulu və təcrübə keçmək üçün Yaponiyaya göndərilməsinə başlanıldı (200 nəfərdən çox mütəxəssis göndərilmişdi). Bakıdakı bütün müəssisələrdən yüksəkixtisaslı işçilər seçilirdi. Zavodun işçiləri Politexnik və Neft Kimya institutlarında diplom müdafiəsi üzrə komissiyalara daxil edilərək müəssisənin mühəndis-texniki kadrlarla komplektləşdirilməsi üçün ən yaxşı məzunları seçirdilər. Əlavə olaraq, SSRİ Elektrotexnika Nazirliyinin müvafiq əmrinə əsasən, tikilən zavoda yüksəksəviyyəli fəhlə kadrlarının göndərilməsinə hər cür köməklik göstərilməsi tapşırılmışdı.

Bu məqsədlərdən ötrü Bakı zavodunun nümayəndələri nazirliyin aparıcı müəssisələrinə ezam olunur, tövsiyə olunan ixtisaslı kadrlarla müsahibələr apararaq onların sənədlərini baxılması üçün komissiyaya təqdim edirdilər. İşə qəbul edilən mütəxəssislər Bakıya gələn kimi dərhal yaşayış yeri ilə təmin olunurdular. Bütün bu tədbirlər zavodun istismara verilməsi ərəfəsində nəhəng kollektivi savadlı, təcrübəli, bacarıqlı işçilərlə komplektləşdirməyə, mürəkkəb avadanlığın qəzasız və səlis işinin təminatına və lazım gələrsə, profilaktikasına imkan verdi. Avadanlığın sonrakı istismarı dövründə heç bir iri qəza vəziyyəti halı olmadı və 2000-ci illərə qədər qüsursuz işlədi.

Yeni avadanlıqların zavoda gəlməsi ilə eyni vaxtda Yaponiyadan həmin avadanlığın quraşdırılması və istismara verilməsi üzrə mütəxəssislərin gəlişinə başlandı. Pik vaxtlarda zavodda Yaponiyadan gələn 130 mühəndis və sazlayıcı çalışırdı. Müəssisənin inşası zamanı zavodun əsas binasının 72 min kvadratmetr olan ərazisinin metal konstruksiyalarını xaricdən almaq qərara alındı.

Finlandiyanın "Naaraharyu" şirkəti ilə müqavilə bağlandı və şirkət müqavilənin bütün şərtlərini qısa zamanda və effektiv şəkildə yerinə yetirərək metal konstruksiyaların tam şəkildə çatdırılmasını təmin etdi, mühəndis şef montajçı göndərdi, Xüsusi Tikinti Quraşdırma Tresti tərəfindən bütün 72 min kvadratmetr sahə gecikmədən quraşdırıldı.

Ən müasir rotasion kompressorun konstruksiyası tökmə üsulu ilə çuqundan hazırlanmış 5 hissədən ibarətdir. Tökmə istehsalının özünəməxsus xüsusiyyətlərinin olduğu nəzərə alınaraq, Elektrotexnika Sənayesi Nazirliyinin müəssisələrini tökmə detallarla təchiz edən və BMKZ-dən çox da kənarda olmayan Bakı Elektrik Tökmə zavodunda qeyd edilən 5 detalın hazırlanması üçün tökmə avadanlıqlarının – xarici "Disamatik" xəttinin quraşdırılması qərara alındı.

Zavodun iş prosesində böyük miqdarda müəssisələrarası qablaşdırma və qeyri-standart avadanlıq tələb olunurdu ki, bu da maya dəyərini azaltmaq üçün müqaviləyə salınmamışdı. Nazirlik tərəfindən bu avadanlıqların istehsalı Bakı Elektrik Ştampları Zavoduna tapşırıldı. Zavod BK XKTB-nin çertyojları əsasında 1974-cü ildən onları istehsal etməyə başladı, sonradan isə KB-nin çertyojları əsasında ştamp və pressformaların əvəzedicilərini hazırlayaraq BMKZ-ni bu detallarla təmin etdi.

Zavodun layihəsində fəhlə kadrlarının yetişdirilməsi və sonradan onların BMKZ-də işlə təmin edilməsi üçün peşə məktəbinin inşası nəzərdə tutulmuşdu. Bu məktəb zavodla eyni vaxtda tikildi və sonradan mövcud müəssisənin işçi kadrları ilə təminatının əsas mənbəyi oldu.

Bütün Azərbaycan tikinti sahəsində zərbəçi templərlə çalışdı və 1975-ci il dekabrın 25-də işlər başa çatdırıldı. Saat 10:00-da müəssisənin istismara verilməsinə həsr edilən yığıncaqda Heydər Əliyev bütün tikinti işlərinin başa çatdırılması və BMKZ-də kondisionerlərin istehsalına başlandığını elan etdi. Zavodun istismara verilmə mərasimində "Toshiba" şirkətinin prezidenti də iştirak etdi.

Azərbaycan hökuməti zavodun inşası və gələcək inkişafı üçün sahəsi təxminən 30 hektar olan, metronun "Depo" stansiyası ilə üzbəüz böyük bir ərazi ayırdı. Təbii ki, bu ərazini abadlaşdırmaq və yaşıllaşdırmaq lazım idi. Bu məqsədlə, yaşıllaşdırma xidməti yaradıldı və enerjili gənc mühəndis Adil Abdullayev bu sahəyə rəhbər təyin edildi. Zavodun buraxılışı ərəfəsində zavodun daxilində və ətraf ərazilərdə əsas etibarı ilə müxtəlif ölkələrdən gətirilən nadir ağaclardan ibarət böyük park kompleksi yaradıldı.

Əslində, kondisioner olduqca mürəkkəb bir məişət elektrik cihazıdır və peşəkar quraşdırma işlərinin aparılmasını tələb edir. Buna görə də tikinti işləri başa çatmazdan öncə SSRİ-nin müxtəlif şəhərlərində məhsulun satışdan əvvəlki hazırlıq və kondisionerlərin pəncərə yuvasında quraşdırılması, onun qoşulması, istismarına zəmanət verilməsi, istismar müddətində xidmət göstərilməsi və təmiri ilə bağlı zavoda tabe olan atelyelərin yaradılmasına başlanıldı.

Zəmanət müddəti quraşdırıldıqdan sonra 12 ay təyin edildi və bu müddətdə, lazım gəldikdə, pulsuz təmir və ya kondisionerin dəyişdirilməsi aparılırdı. Belə təmir atelyeləri bütün İttifaq respublikalarında yaradıldı və tədricən artaraq ötən əsrin 80-ci illərində 220-yə çatdı. Zavoddakı servis xidmətin ilk rəhbəri, məşhur Azərbaycan müğənnilərinin – Fidan və Xuraman Qasımovaların atası Əkrəm Qasımov idi.

Sonradan atelyelərin bir çoxu genişlənərək kondisionerlərdən əlavə olaraq "Bakıkondisioneri" EİB-də istehsal edilən digər məişət elektrik texnikasının (elektrik dondurmahazırlayanlar, elektrik tozsoranlar, mətbəx kombaynları, mikserlər, qəhvəüyüdənlər, ətçəkənlər, televizorlar) satışını həyata keçirən texniki-ticarət mərkəzlərinə çevrildilər.

İstehsalın həcmi ilbəli artaraq, 1981-ci il üçün 400 min ədəd kondisionerin hazırlanması gücünə çatdı, sonradan texniki yenilənmə nəticəsində hasilat ildə 435 min ədədə çatdırıldı. BK XKTB-nin fəal işləməsi nəticəsində ara modelli olan soyuq hava rejimində işləyən BK-2000, sonradan BK-2300 modeli hazırlandı, daha sonra isti-soyuq rejimdə işləyən BK-1500T, BK-2000T, BK-2300T, BK-2500T modelləri yaradıldı. Sonradan Bakı ilə qardaşlaşmış Sarayevo şəhərində yerləşən "Unioninvest" şirkəti ilə müştərək kondisionerlər buraxılışına başlanıldı.

Zavodda tropik iqlimə malik ölkələr üçün kondisionerlərin istehsalına başlanıldı. Avstraliya, Kuba, Əfqanıstan, Pakistan, Livan, Seneqal, BƏƏ kimi ölkələrə hər il 130-150 min ədəd kondisioner ixrac edilirdi. 1978-ci il sentyabrın 23-də Sov. İKP MK-nın Baş katibi Leonid Brejnev Bakıda olarkən BMKZ-ni ziyarət etdi

O zaman Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi Heydər Əliyevin həyat yoldaşı, Azərbaycanın görkəmli oftalmoloqu, Azərbaycan SSR Elmlər Akademiyasının akademiki, professor Zərifə xanım Əliyeva kondisioner zavodunda göz xəstəliklərinin diaqnozu və profilaktikası üçün laboratoriya yaratdı. Laboratoriya ən müasir avadanlıqla təchiz edilmişdi.

80-ci illərin ortalarında SSRİ-də sənaye müəssisələrinin idarəçiliyinin mərkəzləşsizdirilməsi prosesi başladı. Təcrübə olaraq, az sayda aparıcı müəssisəyə (təxminən, 12-15) öz məhsullarını müstəqil qaydada ixrac etmək və qazanclarını idarə etmək hüququ verildi. Bu, ixrac prosedurlarını çox sadələşdirdi. 1985-ci ildə zavodun öz vəsaiti hesabına mətbəx kombaynları və digər məişət texnikası istehsal edən yeni məişət maşınları zavodu tikildi, 1991-ci ildə isə ildə 1,5 milyon ədəd elektrik mühərriki və onların bazası əsasında mikser, ətçəkən və qəhvə üyüdən maşın istehsalı edən İtaliyanın "Merloni" firması ilə müştərək müəssisə yaradıldı.

***– Bu məşhur zavodun nadirliyi nədə idi?***

– Zavodda tək ümumi konveyer xətlərinin uzunluğu, demək olar ki, 10 kilometrdir. Əsas odur ki, zavodun texniki avadanlıqlarla təchizatı və tətbiq edilən texnologiya hər bir sahədə həm əsas məmulatın, həm də ayrı-ayrı hissələrin yüksək keyfiyyətinə zəmanət verirdi. Min tonluq pressdə soyuq dərin sorma üsulu ilə kondisionerin əsas aqreqatlarından biri olan kompressorun korpusu hazırlanırdı.

İstehsal prosesi zamanı bənzərsiz aqreqat eyni vaxtda 9 fərqli əməliyyat keçirdi. Bu zaman işin dəqiqliyi məhsulların əlavə emalını tələb etmir. Zavodun əsas sexlərinin avadanlıqları müasir elektronika ilə təchiz olunub və bir çoxu avtomatik rejimdə işləyir. Burada avtomatik kontakt qaynağından istifadə edilirdi ki, bu da bütün birləşmələrin xüsusi etibarlılığını təmin edir.

İstehsalın hər bir mərhələsində, bütün parametrlərə ciddi nəzarət həyata keçirilirdi. Məsələn, işçi təzyiqi 25 atmosfer olan kompressorun hermetikliyi 30 atmosfer təzyiqində sınaqdan keçirilirdi.

Toz metalergiya üsulu ilə kompressor və pərin elektrik mühərrikinin metal keramik hissələri hazırlanırdı. Metal keramika məhsulun davamlılığını və aşınma müqavimətini əhəmiyyətli dərəcədə artırırdı. Onlar möhkəmliyi ilə metaldan geri qalmır, həmçinin kondisionerin istismar müddətini əhəmiyyətli dərəcədə artırır, çəkisini də azaldırdı.

Zavodda suyun qapalı təmizlənməsi prosesi var idi. Ətraf mühit problemlərinin belə bir həlli bir daha istehsal texnologiyasına müasir yanaşmanı nümayiş etdirirdi.

Bakıda istehsal olunan məişət kondisionerləri dünyanın, təxminən, 60 ölkəsində tələb olunurdu. Bakı məişət kondisionerləri zavodunun məhsulları beynəlxalq sərgilərdə diplom və qızıl medallara layiq görülmüşdür. BMKZ-in istehsal nailiyyətləri yüksək idi. İstehsala başladıqdan bəri müəssisə əla nəticələr göstərirdi.

***– Necə oldu ki, bu cür istehsal və böyük dövriyyə vəsaitinin mövcudluğuna baxmayaraq, zavod öz fəaliyyətini dayandırdı?***

– 80-ci illərin sonlarında SSRİ-nin dağılmasına səbəb olan siyasi proseslər ölkə iqtisadiyyatına təsir etməyə bilməzdi. Uzunmüddətli tətillər, dəmir yolunun dayandırılması və bank sisteminin dağılması müntəzəm olaraq SSRİ-də mövcud olan mal və materialların qarşılıqlı tədarük sistemini süquta uğratdı. Gömrük maneələrinin yaranması da ritmik iş üçün şəraiti yaxşılaşdırmadı.

İnflyasiya nəhəng sıçrayışlarla istehsalçıların səylərini heçə endirir, Çeçenistanda gedən müharibə səbəbindən Rusiyadan gələn malların aylarla yollarda qalması, kütləvi surətdə talan edilməsi, tələb edilən məmulatların dəyərinin ödənilməsinin mümkünsüzlüyü son nəticədə əksər müəssisələrin bağlanmasına səbəb oldu. 70 faiz mal və materialımızın gəldiyi Rusiyadan xammalın alınmasında yaranan problemlərə görə qeyri-standart həll yollarını axtarmağa məcbur olduq.

80-ci illərin sonlarında banklarda nağd pul çatışmazlığı səbəbindən əməkhaqlarının verilməsində yaranan çətinliklər BMKZ-nun fəaliyyəti üçün böyük problemlər yaratmışdı. Belə şəraitdə, fəaliyyət göstərməyin yeganə yolu sovet dövründə alver deyilən biznes oldu. Bu baxımdan, Azərbaycanın bəxti digər postsovet dövlətlərindən daha çox gətirdi. Müdrik və təcrübəli Heydər Əliyev Azərbaycanda hakimiyyətə qayıdaraq müharibə şəraitində çox çətin problemlərə məharətlə qalib gələrək ölkədə sabitliyə nail oldu. 1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi"ni imzalayaraq ölkənin gələcək inkişafının təməlini qoydu.

Çox sevindirici haldır ki, ulu öndər Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyev bu gün ölkəmizi uğurla inkişaf etdirir. 30 ilə yaxın işğal altında olmuş torpaqlarımız onun dahi sərkərdəliyi ilə azad edilib və bu gün həmin ərazilərdə böyük bərpa və quruculuq işləri həyata keçirilir, yeni-yeni istehsal müəssisələri yaradılır. Bu da bir istehsalçı kimi bizi çox sevindirir.

***Müsahibəni apardı:***
***Salihə ƏLİYEVA***

# Heydər Əliyev Fondunun uşaqlar üçün bayram şənliyi





**Heydər Əliyev Fondu hər il olduğu kimi, bu il də Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il ərəfəsində qayğıya ehtiyacı olan uşaqlar üçün şənlik təşkil edib.**

Tədbirdə Heydər Əliyev Fondunun vitse-prezidenti, Leyla Əliyeva, Arzu Əliyeva və Alena Əliyeva iştirak ediblər.

"Yeni il möcüzəsi" adlı bayram şənliyinə müxtəlif uşaq evlərində və internat məktəblərində tərbiyə alan, sağlamlıq imkanları məhdud və xüsusi qayğıya ehtiyacı olan uşaqlar, eləcə də Vətən uğrunda canlarından keçən şəhidlərimizin övladları dəvət alıblar.

Bayram ovqatı ilə bəzədilən "Gülüstan" sarayında uşaqları nağıl qəhrəmanları qarşılayıb. "Face Art" vasitəsilə uşaqlar özləri də istənilən möcüzə qəhrəmanını canlandırmaq imkanı qazanıblar.



Uşaq bayramı videoçarxın nümayişi ilə başlayıb. Balacaların ən böyük dostu və himayədarı olan Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin vaxtilə yeni nəslə qayğısından, müxtəlif illərdə Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramlarını uşaqlarla birlikdə keçirməsindən bəhs edən görüntülər maraqla izlənilib. Videoçarxda Prezident İlham Əliyevin və Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın uşaqlarla görüşlərindən də maraqlı anlar əks olunub.

Uşaqlara təqdim edilən əyləncələrlə dolu səhnəcik dostluq, xeyirxahlıq, qarşılıqlı kömək üzərində qurulub: xoşniyyətli insanların hər zaman qələbə çaldığı göstərilir.

Yeni il ovqatlı sarayda uşaqlar bayramı tanınmış sənətçilərin, sevimli nağıl və cizgi filmləri qəhrəmanlarının əhatəsində rəqs edib, mahnı ifa edərək keçiriblər.

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu valideyn himayəsindən məhrum, sağlamlıq imkanları məhdud uşaqların, Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarından keçən şəhidlərimizin bizə əmanəti olan övladlarının problemlərinin həllinə xüsusi diqqətlə yanaşır, bu uşaqların hər zaman qayğı ilə əhatə olunmasına çalışır. Fondun ənənəvi Yeni il şənlikləri də məhz həmin kateqoriyadan olan uşaqları sevindirmək məqsədilə təşkil edilir.

İyirmi bir il ərzində Fondun keçirdiyi Yeni il şənliklərində qayğıya ehtiyacı olan minlərlə uşaq iştirak edib.

Əyləncəli proqramın sonunda uşaqlara Heydər Əliyev Fondu tərəfindən bayram hədiyyələri verilib.

XQ

# "ANİMAFİLM Studio"da görüş

**Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva "ANİMAFİLM Studio" yaradıcı heyəti ilə görüşüb.**



Görüş zamanı Leyla Əliyeva studiyanın əməkdaşları ilə səmimi söhbət aparıb, yaradıcı şəxslərlə birlikdə ölkəmizdə animasiya sənətinin inkişaf perspektivləri ətrafında fikir mübadiləsi edib. Görüşdə studiyanın direktoru Rəşid Ağamalıyev, Əməkdar mədəniyyət işçisi, Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü Elçin Hami Axundov və studiyanın əməkdaşları iştirak ediblər.

Leyla Əliyevaya studiyada istehsal olunan yeni animasiya filmləri təqdim edilib. Azərbaycan və Özbəkistan animasiya ustalarının birgə istehsalı olan "Yer və Ay", eləcə də Azərbaycan, Polşa və Almaniya animasiya mütəxəssislərinin əməkdaşlığı ilə ərsəyə gələn "Yulaf dönərgə" qısametrajlı animasiya filmlərinə baxılıb.





Bununla yanaşı, Leyla Əliyeva "ANİMAFİLM Studio" tərəfindən istehsalına başlanmış "İsi və Piti" adlı yeni uşaq animasiya serialının ilk iki seriyasının ilkin variantları ilə tanış olub. Təqdimat zamanı bildirilib ki, serial uşaqlara Azərbaycanı, onun milli-mədəni dəyərlərini, eləcə də müasir dövrdə inkişaf edən sənət sahələrini tanıtmaq baxımından mühüm maarifləndirici əhəmiyyət daşıyır.

XQ

# Uşaq İncəsənət Festivalında mükafatlandırma

**Mədəniyyət Nazirliyi, Elm və Təhsil Nazirliyi və Heydər Əliyev Mərkəzinin təşkilatçılığı ilə növbəti Uşaq İncəsənət Festivalına yekun vurulub. Dekabrın 26-da Heydər Əliyev Mərkəzində festivalın yekun mükafatlandırma mərasimi keçirilib.**





Mərasimdə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva və Alena Əliyeva iştirak ediblər.

Əvvəlcə festival barədə məlumat verilib. Bildirilib ki, 2023-cü ildən Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə keçirilən festivalın məqsədi milli-mənəvi dəyərlərin gənc nəslə aşılanması, ənənəvi incəsənət sahələrinin qorunub yaşadılması və dövlətinə, vətəninə bağlı gəncliyin yetişdirilməsidir. Layihə, eyni zamanda, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun mədəniyyət və gənc istedadların dəstəklənməsi istiqamətində həyata keçirdiyi fəaliyyətin tərkib hissəsidir.



Uşaq İncəsənət Festivalı təkcə müsabiqə formatı ilə deyil, həm də uşaqların inkişafına yönəlmiş geniş yaradıcılıq platforması kimi çıxış edərək, onların komanda işi, səhnə mədəniyyəti, yaradıcı yanaşma və özünüifadə bacarıqlarının formalaşmasına töhfə verir. Bu platforma Uşaq İncəsənət Festivalını artıq müsabiqə formatından çıxararaq, ölkə üzrə istedad bankının formalaşdırılmasına xidmət edən bir mədəniyyət mexanizminə çevirib. Belə ki, Azərbaycanın bütün bölgələrindən olan 6–17 yaş aralığındakı uşaqları bir araya gətirən festival ötən müddətdə peşəkar və həvəskar kateqoriyalar üzrə yaradıcılıq mübadiləsi üçün geniş imkanlar yaradıb.

2025-ci ilin mart ayından start götürən builki festivala 27 mindən çox iştirakçı müraciət edib və bu göstərici layihənin geniş miqyasını, uşaqların incəsənətə artan marağını bir daha təsdiqləyir.

Seçim mərhələlərinin nəticələrinə əsasən 19 fərdi və 5 kollektiv nominasiya üzrə qaliblər müəyyənləşdirilib. Beləliklə, festival üzrə ümumi qalib sayı 512 nəfər olub.

Tədbirdə çıxış edən mədəniyyət naziri Adil Kərimli Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən mədəniyyət siyasətinin əsas istiqamətlərindən birinin gənc kadrların, gənc istedadların üzə çıxarılmasına dövlət dəstəyinin göstərilməsi olduğunu bildirib. Nazirin sözlərinə görə, Birinci vitse-prezident Mehriban Əliyevanın rəhbərliyi altında Heydər Əliyev Fondu tərəfindən gənc istedadların müəyyən edilməsi, onların təhsilinin, eyni zamanda, fərdi inkişafının dəstəklənməsi istiqamətində çoxsaylı layihələr həyata keçirilməkdədir.

"Bu illər ərzində bizim bir çox gənc istedadlarımız Heydər Əliyev Fondu, şəxsən Mehriban xanım Əliyevanın təşəbbüsü və dəstəyi ilə xaricdə təhsil proqramlarına cəlb olunublar, onların fərdi inkişafı istiqamətində müxtəlif addımlar atılıb. Uşaq İncəsənət Festivalı isə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü və ideyası ilə keçirilir. Qarşıya qoyulan tapşırıqlardan biri də o idi ki, bütün ölkə ərazisində yaradıcı təfəkkürə malik gənc istedadların, xüsusi fitri istedada sahib olan uşaqların müəyyən edilməsi, onların üzə çıxarılması, onlarla fərdi inkişaf işinin aparılması istiqamətində bir mexanizm qurulsun. Bu layihə də məhz həmin ideya əsasında ərsəyə gəldi. Məzmununa və ideyasına görə çox mühüm bir layihə olan və ikinci dəfədir keçirilən Uşaq İncəsənət Festivalı, sadəcə, bir tədbir deyil. Festivala paytaxtın rayonları da daxil olmaqla ümumilikdə 86 şəhər və rayondan uşaqlar və gənclər müraciət etdilər. Üçmərhələli seçim əsasında 24 nominasiya üzrə qaliblər müəyyənləşib. Bu, yaradıcı şəxslərin üzə çıxarılması üzrə əhatəli bir platformadır. Burada gənc istedadların kadr bankı formalaşmış olur. Yaradılan elektron analitik platforma əsasında hər bir bölgədə hansı istedadların olduğunu, incəsənətin müxtəlif növlərinə daha çox meyli olan bölgələri müəyyən edirik. Bilirik ki, hansı bölgədə hansı istedadlar mövcuddur. Bu, həm gələcəkdə mədəniyyət sahəsi üzrə data əsaslı idarətməyə imkan verir, həm də peşəkar heyətin formalaşdırılması üçün ilkin mərhələdə onların müəyyən edilməsini və peşəkar təhsilə, sonra da peşəkar mədəniyyət sahəsində idarətməyə gətirilməsi üçün geniş imkanlar yaradır", - deyə mədəniyyət naziri vurğulayıb.

Sonra festivalın qaliblərinin mükafatlandırılması mərasimi olub. Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva qalibləri təbrik edib, onlara uğurlar arzulayıb.

Daha sonra isə qaliblərin ifasında konsert proqramı təqdim olunub. Proqram çərçivəsində qaliblər solo çıxışlarla yanaşı, tanınmış incəsənət xadimləri ilə duet nömrələri və xüsusi hazırlanmış musiqi-səhnə kompozisiyaları ilə çıxış ediblər.

Festivalın rəsm nominasiyası üzrə qalib olan 5 nömrəli Uşaq-Gənclər İnkişaf Mərkəzinin üzvü on yaşlı Melissa Quliyeva AZƏRTAC-a müsahibəsində qədim bazarlarımızı təsvir etdiyi əsərinin qalib seçildiyini bildirib: "Qaliblər arasında olduğum üçün çox sevincliyəm. Bundan sonra da üzərimdə çalışacağam və daha gözəl işlər ərsəyə gətirəcəyəm".

Akademik vokal üzrə birinci yer tutan on iki yaşlı Raul Hüseynov bəstəkar Fikrət Əmirovun əsərlərindən olan "Güləram, gülsən" mahnısı ilə qalib olub. O, rəqiblərinin kifayət qədər güclü olduğunu, lakin qələbə qazanmaqda çətinlik çəkmədiyini deyib. Raul üç ildir musiqi ilə məşğul olduğunu və ilk dəfə birinci yeri tutduğunu qeyd edib. R.Hüseynov gələcəkdə bu istiqamətdə fəaliyyətinə davam etməyi və Azərbaycanı beynəlxalq arenalarda təmsil etməyi düşünür.

Qeyd edək ki, Uşaq İncəsənət Festivalı inklüzivlik prinsiplərinə əsaslanaraq hər bir uşağın bərabər iştirakını təmin edir. Festival çərçivəsində qarmon ifaçılığı, dekorativ-tətbiqi sənət və rəssamlıq nominasiyaları üzrə sağlamlıq imkanları məhdud olan uşaqlar da iştirak edib və qalib olublar. Xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün yaradılmış əlçatan mühit onların istedadlarını sərbəst nümayiş etdirməsinə imkan verib. Festival mədəniyyət sahəsində bərabər imkanların və sosial inteqrasiyanın təşviqinə xidmət edib.

Layihənin növbəti illərdə daha geniş proqramla davam etdirilməsi və minlərlə uşağın yaradıcılıq yoluna dəstək olması nəzərdə tutulur.

XQ

# Leyla Əliyeva "YAŞA" Mərkəzində yaşlı nəslin nümayəndələri ilə görüşüb





**Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva İçərişəhərdə yerləşən "YAŞA" Mərkəzində yaşlı nəslin nümayəndələri ilə görüşüb.**



Mərkəzdə yaşlı insanlar müxtəlif əl işləri, dekorativ-tətbiqi sənət nümunələri və digər yaradıcılıq fəaliyyəti ilə məşğul olur, onlar üçün mütəmadi olaraq maarifləndirici və mədəni tədbirlər təşkil edilir.

Leyla Əliyeva yaşlılarla səmimi söhbət edib, səsləndirdikləri şeirləri dinləyib, onların hazırladıqları əl işlərinə baxıb, məşğələlərin məzmunu və Mərkəzin gələcək fəaliyyət planları barədə məlumat alıb.

Qeyd edək ki, yaşlı insanların fəal, sağlam və mənalı həyat sürməsini dəstəkləmək üçün "YAŞA" Mərkəzləri şəbəkəsi formalaşdırılıb. Hazırda bu mərkəzlər təkcə Bakıda deyil, eyni zamanda, Mingəçevir və Şamaxı şəhərlərində də fəaliyyət göstərir, müxtəlif regionlarda yaşayan ahıllar üçün sosiallaşma, öyrənmə və fəal həyat imkanları yaradır.

*XQ*

# Gəncə uşaq evində Yeni il şənliyi





**Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə Yeni il ərəfəsində Gəncə şəhər 4 saylı uşaq evində yaşayan azyaşlılar üçün bayram şənliyi təşkil olunub.**

Bu barədə IDEA İctimai Birliyindən məlumat verilib.

Bildirilib ki, bayram tədbirində IDEA İctimai Birliyinin könüllüləri uşaqlara hədiyyələr təqdim edib, balacalarla birlikdə müxtəlif əyləncəli oyunlar və fəaliyyətlər həyata keçiriblər. Bu təşəbbüs balacalara yeni il ərəfəsində xoşbəxtlik və bayram əhvali-ruhiyyəsi bəxş edib.

Qeyd edək ki, Leyla Əliyevanın təşəbbüsü ilə həm ölkəmizin müxtəlif regionlarında, həm də dünyanın bir sıra ölkələrində humanitar, təhsil, səhiyyə, sosial, ekoloji və digər sahələri əhatə edən genişmiqyaslı layihələr mütəmadi olaraq həyata keçirilir. Xüsusilə bayram günlərində uşaq evlərində, internat müəssisələrində, eləcə də müalicə və qayğıya ehtiyacı olan uşaqlar üçün bayram tədbirlərinin təşkili bu təşəbbüslərin əsas istiqamətlərindən biridir. Himayədən məhrum olmuş, qayğıya daha çox ehtiyac duyan uşaqların sevindirilməsi, onların bayram ab-havasını hiss etmələri məqsədilə bu cür tədbirlər mütəmadi olaraq təşkil edilir.

*XQ*

# Aktauda təyyarə qəzasının qurbanları yad edilib



**"Azərbaycan Hava Yolları" aviaşirkətinə məxsus "Embraer 190" tipli təyyarənin Aktau yaxınlığında qəzaya uğramasının ildönümü ilə bağlı anım mərasimi keçirilib. Qəzanın baş verdiyi ərazidə təşkil olunan tədbirdə Baş konsulluğumuzun əməkdaşları, Türkiyə, İran, Özbəkistan və Türkmənistanın Aktaudakı baş konsulları, yerli ictimaiyyətin nümayəndələri iştirak ediblər.**

Baş konsul Ayxan Süleymanlı öz çıxışında Qazaxıstan tərəfinin baş vermiş faciəyə həssaslıq nümayiş etdirdiyini qeyd edib. O, Rusiya Federasiyasının hadisəyə hüquqi qiymət verəcəyinə ümid etdiyini bildirib.

Qazaxıstan Xalq Assambleyasının vilayət Ağsaqqallar Şurasının sədri Onaybek Abdilov faciə qurbanlarının xatirəsini dərin hüznlə yad edib, belə ağır hadisələrdə xalqlar arasında həmrəyliyin və qarşılıqlı dəstəyin xüsusi əhəmiyyətini vurğulayıb.

Sonra Azərbaycan diasporunun təşkilatçılığı ilə həlak olanların ruhuna ehsan süfrəsi açılıb.

***Qulu KƏNGƏRLİ,***
***XQ-nin Türküstan üzrə xüsusi müxbiri***

**Aktau**

*Elmi açıqlama*

# Xarici jurnallarda çıxışlar elmimizə nə qazandırır?

**Son illərdə beynəlxalq indeksli jurnallarda məqələ çap etdirmək alimlərimizə nüfuz və elmi imic qazandıran amillərdən biri kimi aktuallıq qazanıb. Elmi araşdırmaların təsdiqində və akademik karyerada üstünlük qazandıran belə məqalələrin milli elmimizə nə qazandırması ilə bağlı qəzetimiz vasitəsilə zəruri açıqlama verən Bakı Dövlət Universitetinin cəbr və həndəsə kafedrasının müdiri, Ali Attestasiya Komissiyası riyaziyyat və mexanika üzrə ekspert şurasının sədri, professor Arif Səlimov bildirdi:**

– Beynəlxalq indeksli jurnallarda dərc olunmanın önəmi bir neçə cəhətdə özünü göstərir. Belə jurnallar ciddi ekspert rəyindən keçir, bu da məqalənin etibarlılığını təmin edir. Məqalə dünya elmi ictimaiyyətinə açıq olur və digər tədqiqatçılar ondan sitat gətirə bilir. Nəticədə, belə bir məqalənin dərc olunması akademik dəyər qazanmağa kömək edir və elmi dərəcə, elmi ad və elmi layihələr üçün göstərici kimi istifadə olunur.



Qeyd edilən indeksli jurnallarda məqalələrin çap olunması, həm də ölkənin elmi səviyyəsini dünyaya tanıtmaq və tədqiqatçıların fəaliyyətini artırmaq üçün önəmli alətlərdən biridir. Lakin hər jurnal elmi keyfiyyət və nüfuz daşımır. Bəzi pullu və tez nəşr edilən jurnallarda məqalələrin çap olunması elmi potensialın imicinə heç də xeyir vermir və müəllifə uğur gətirmir.

Azərbaycan alimlərinin yalnız məhdud bir qismi beynəlxalq elmi mühitdə yüksək nüfuzu olan jurnallarda keyfiyyətli araşdırmalarını dərc etdirməklə ölkənin elmi mövqeyinin güclənməsinə töhfə verir. Digər bir qrup tədqiqatçı isə əsasən pullu jurnallara yönəlməklə formalaşmaqda olan müsbət imicə gerçək və davamlı təsir göstərə bilmirlər.

Bu baxımdan, alimlərin çap fəaliyyətlərinin təhlili və təlimatlandırılması vacibdir. Mətbuatda dərc edilən əvvəlki yazılarımda məsləhət görülməyən jurnalları üç və dördüncü sinfə ayırmış və ictimaiyyətlə paylaşmışdıq. İndi isə 3-cü sinfin ən "parlaq" nümunəsi olan MDPİ (çoxşaxəli rəqəmsal nəşriyyat institutu) jurnalları haqqında məlumat vermək istəyirəm.

MDPI jurnalları İsveçrədə mərkəzləşmiş və açıq şəkildə pul qarşılığında məqalə çap etdiklərini bildirən bir qurumdur. Onların 100-ə yaxın jurnalı "Web of Science"da, 300-ə yaxın jurnalı isə "Scopus"da indekslənmişdir. Sürətli çap və rahat giriş imkanları bu jurnalları bəzi tədqiqatçılar üçün cəlbedici edir. Lakin dünyanın bir sıra qabaqcıl ölkələri MDPI jurnallarında çap olunan məqalələrə görə təşviq, mükafat, elmi dərəcə və adların verilməsində məhdudiyyətlər tətbiq etmişdir.

Azərbaycan alimlərinin MDPI jurnallarında fəaliyyətinin təhlili göstərir ki, 727 məqalə müxtəlif sahələrdə çap olunmuşdur və müəlliflər doktorantlardan professorlara qədər müxtəlif elmi səviyyələri əhatə edir. Eyni zamanda, bəzi məqalələrdə Azərbaycan universitetlərinin adının keçdiyi xarici müəlliflər də iştirak edir.

Bildiririk ki, elm və təhsil qurumlarımız qeyd olunan məsələni ciddi şəkildə təhlil etməli, MDPI və buna bənzər jurnallarda Azərbaycan alimlərinin nəşr fəaliyyətinə obyektiv qiymət verməli, bu nəşrlərin ölkəmizin beynəlxalq elmi nüfuzuna təsirini ortaya qoymalı və müvafiq qurumlar üçün əsaslandırılmış strateji tövsiyələr hazırlamalıdır.

***Hazırladı:***
***Namiq QƏDİMOĞLU***
***XQ***

# Yevlaxda uşaqların bayram sevinci



**Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə Yeni il ərəfəsində Yevlax şəhərində yaşayan uşaqlar üçün Yeni il tədbiri keçirilib.**

IDEA-dan bildirilib ki, bayram tədbiri çərçivəsində müxtəlif yaş qruplarına aid 30 uşağa velosipedlər, eləcə də təhlükəsizlik ləvazimatları hədiyyə olunub. Bu təşəbbüs balacalara Yeni il ərəfəsində xoşbəxtlik və bayram əhvali-ruhiyyəsi bəxş edib.



Qeyd edək ki, Leyla Əliyevanın təşəbbüsü ilə həm ölkəmizin müxtəlif regionlarında, həm də dünyanın bir sıra ölkələrində humanitar, təhsil, səhiyyə, sosial, ekoloji və digər sahələri əhatə edən genişmiqyaslı layihələr mütəmadi olaraq həyata keçirilir. Xüsusilə bayram günlərində uşaq evlərində, internat müəssisələrində, eləcə də müalicəyə və qayğıya ehtiyacı olan uşaqlar üçün tədbirlərin təşkili bu təşəbbüslərin əsas istiqamətlərindən biridir. Himayədən məhrum olmuş, qayğıya daha çox ehtiyac duyan uşaqların sevindirilməsi, onların bayram ab-havasını hiss etmələri məqsədilə bu cür tədbirlər mütəmadi təşkil olunur.

*XQ*

# Mənzil-kommunal təsərrüfatı çevik idarəetməyə keçirilir



**Azərbaycanda həyata keçirilən struktur islahatları, əsasən, idarəetmə sistemində müsbət nəticələrin əldə edilməsi ilə bağlı əlverişli şəraitin yaradılmasına imkan verir. Başqa sözlə, belə dəyişikliklərin ən böyük üstünlüyü müasir standartlara uyğun idarəetmə qurumlarının yaradılmasını şərtləndirir və bu istiqamətdə mövcud sistemin səmərəli fəaliyyətinə şərait yaradır. Eyni zamanda, struktur islahatları dövlət büdcəsində vəsaitlərə qənaət olunması və onun səmərəli xərclənməsi baxımından da mühüm önəm daşıyır.**

Bu fikri bir qədər də konkretləşdirib deyə bilərik ki, belə islahatlar idarəetmədə bir çeviklik formalaşdırır, proseslərə idarəetmə orqanlarının daha cəld, tez bir zamanda səmərəli reaksiya verməsini gerçəkləşdirir. Bütövlükdə struktur islahatları cəmiyyətin inkişafı və ölkənin daha müasir, çevik idarəetmə sisteminə transformasiyası baxımından son dərəcə zəruridir.

Azərbaycan Respublikasının Baş naziri Əli Əsədovun 22 dekabr 2025-ci il tarixli qərarı ilə təsdiq edilən "Yerli icra hakimiyyəti başçısının tabeliyində olan Mənzil-kommunal Təsərrüfatı Müəssisəsinin (MKTM) Nümunəvi Nizamnaməsi" hər zaman cəmiyyətdə fəaliyyəti ilə bağlı müəyyən narazılıqlar doğuran mənzil-istismar sahəsində sistemli islahatlara start verilməsi də bu baxımdan yüksək qiymətləndirilir. Bu sənədlə ölkədə mənzil-kommunal təsərrüfatının idarə olunmasında yeni yanaşmanın formalaşdırılması qarşıya mühüm vəzifə kimi qoyulur.

Xatırladaq ki, bütün payları dövlətə məxsus olacaq MKTM-ni Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla Nazirlər Kabineti yaradır. Qurum müvafiq ərazidə mənzil-kommunal təsərrüfatı və mənzil istismarı sahəsində fəaliyyət göstərən, məişət tullantılarının yığılması və daşınması, abadlaşdırma, yaşıllaşdırma, təmizlik və işıqlandırma işlərini yerinə yetirən məhdud məsuliyyətli cəmiyyət formasında yaradılan hüquqi şəxsdir.

Yerli icra hakimiyyəti (Bakı şəhəri, Laçın, Cəbrayıl, Xocavənd, Xocalı, Kəlbəcər və Qubadlı rayonları istisna olmaqla) orqanları 6 ay müddətində aidiyyəti üzrə tabeliklərində olan mənzil-kommunal təsərrüfatı sahəsində xidmət göstərən müəssisələrin əsasında məhdud məsuliyyətli cəmiyyət statusunda vahid MKTM-nin yaradılması ilə bağlı təklifləri Nazirlər Kabinetinə təqdim edəcək.

Ekspertlər bildirirlər ki, mənzil-istismar sahələri (MİS/JEK) illərdir ki, səmərəsiz idarəetmə, şəffaflığın olmaması, sakinlərlə əlaqələrin zəifliyi və maliyyə intizamının pozulması kimi problemlərlə yadda qalıb. Binaların ümumi təsərrüfatına cavabdeh olan bu qurumlar, demək olar ki, nə xidmət keyfiyyətinə görə məsuliyyət daşıyıb, nə də vətəndaş qarşısında real hesabatlılıq nümayiş etdirib.

Sakinlərin ödədiyi mənzil-kommunal haqlarının hara və necə xərclənməsi, təmir-bərpa işlərinin hansı meyarlarla aparılması, fövqəladə hallara operativ reaksiya verilməməsi kimi məsələlər illərlə ictimai müzakirə mövzusuna çevrilib. Nəticədə MİS/JEK anlayışı cəmiyyətin düşüncəsində xidmət qurumundan daha çox problemlərin mənbəyi kimi formalaşıb.

Yeni təsdiqlənən Nümunəvi Nizamnamə mənzil-kommunal təsərrüfatında idarəetmənin mərkəzləşdirilməsi və məsuliyyətin gücləndirilməsi məqsədi daşıyır. MKTM-lərin yerli icra hakimiyyəti başçılarının tabeliyində vahid hüquqi şəxs kimi fəaliyyət göstərməsi, nizamnamə kapitalının isə mövcud kommunal-təsərrüfat qurumlarının əmlakı hesabına formalaşdırılması bu sahədə resursların parçalanmasının qarşısını almağı hədəfləyir.

Ekspertlərin sözlərinə görə, belə bir model idarəetmədə vahid standartların tətbiqi, maliyyə və əmlak üzərində nəzarətin gücləndirilməsi, xidmət keyfiyyətinə görə məsuliyyətin konkret qurum üzərində cəmləşdirilməsi, texniki və kadr potensialının daha səmərəli bölüşdürülməsi kimi mühüm üstünlüklər yarada, MİS/JEK-lərin illərlə yığılıb qalmış problemlərini kökündən həll edə bilər. Şübhəsiz ki, bu islahatın real nəticə verməsi üçün normativ-hüquqi dəyişikliklə yanaşı, idarəetmə fəlsəfəsinin də dəyişməsi, şəffaflıq, hesabatlılıq və ictimai nəzarət mexanizmlərinin gücləndirilməsi gözlənilir.

Bütün bunlarla bərabər, MKTM-lərin fəaliyyətinin sakinlərlə açıq müqavilə münasibətləri əsasında qurulacağına, xidmətlərin keyfiyyətinin ölçüləbilən göstəricilərlə qiymətləndiriləcəyinə, maliyyə hesabatlarının ictimaiyyət üçün açıq olacağına böyük ümid bəslənilir. Yeri gəlmişkən, bir çox ölkələrdə mənzil-kommunal təsərrüfatının səmərəli idarə olunması bələdiyyə və ya yarımüstəqil kommunal şirkətlər vasitəsilə həyata keçirilir. Bu modellərdə əsas prinsip sakinlərin xidmətin sifarişçisi və qiymətləndiricisi olmasıdır. Azərbaycanda isə bu sahədə uzun illərdir ki, mərkəzləşdirilən, lakin zəif nəzarət olunan idarəetmə modeli üstünlük təşkil edir. Yeni MKTM modeli isə bu boşluğu doldura bilər, lakin bunun üçün kadrların peşəkarlığı, rəqəmsal idarəetmə sistemlərinin tətbiqi, vətəndaş müraciətlərinə operativ cavab mexanizmlərinin yaradılması zəruri hesab olunur.

Bir sözlə, Baş nazirin imzaladığı qərar mənzil-kommunal təsərrüfatında islahatlar üçün vacib hüquqi baza yaradır. Bu, MİS/JEK-lərlə bağlı illərdir ki, davam edən narazılıqların aradan qaldırılması üçün real imkan kimi dəyərləndirilir. Təbii ki, bu imkanın uğurlu nəticəyə çevrilməsi üçün icra, nəzarət və məsuliyyət mexanizmlərinin diqqətdə saxlanılacağı da nəzərdə tutulur.

Bəs indiyədək MİS/JEK-lərin fəaliyyəti ilə bağlı davam edən narazılıqların kökü nədən qaynaqlanır? Mütəxəssislərin fikrincə, mənzil-istismar sahələri ölkə üzrə minlərlə çoxmənzilli binanın texniki vəziyyətinə, ümumi sahələrin saxlanmasına, mühəndis-kommunikasiya xətlərinin istismarına cavabdeh olsa da, real vəziyyət tamamilə fərqli mənzərə ortaya qoyub. Binaların dam örtüklərinin illərlə təmir olunmaması, lift təsərrüfatının təhlükəli vəziyyətdə qalması, zirzəmilərin yararsız hala düşməsi, tullantıların vaxtında daşınmaması və ən əsası – sakin müraciətlərinə formal münasibət bəslənilməməsi bu qurumların fəaliyyətinə inamı minimuma endirib.

Eyni zamanda, MİS/JEK fəaliyyətinin səmərəli olması üçün beynəlxalq təcrübədə əsas meyar sayılan sakinlərin prosesə cəlb edilməsi məqsədilə bir çox ölkələrin bu sahədəki təcrübəsindən bəhrələnməyi unudub. Məsələn, illik maliyyə hesabatları açıq dərc olunmayıb, xidmət keyfiyyəti üzrə ölçülə bilən göstəricilərin tətbiqinə önəm verilməyib, sakin şuralarının və ya müşahidə mexanizmlərinin yaradılmasına laqeyd yanaşılıb.

Ən ciddi problemlərdən biri isə maliyyə şəffaflığının olmamasıdır. Sakinlərdən toplanan aylıq ödənişlərin hansı istiqamətlərə xərcləndiyi, nə qədər vəsaitin yığıldığı və hansı əsaslarla xərcləndiyi



illərdir cavabsız suallar olaraq qalır. Nəticədə MİS/JEK-lər nə bazar iqtisadiyyatı prinsipləri ilə işləyən xidmət qurumuna, nə də səmərəli dövlət strukturlarına bənzəyir.

Yeni təsdiq edilən Nümunəvi Nizamnamə bu sahədə parçalanmış idarəetmənin aradan qaldırılmasını hədəfləyir. MKTM-lərin yerli icra hakimiyyəti başçılarının tabeliyində vahid hüquqi şəxs kimi formalaşdırılması, nizamnamə kapitalının isə mövcud kommunal təsərrüfat qurumlarının əmlakı hesabına yaradılması mühüm institusional dəyişiklikdir. İslahatın uğurla nəticələnməsində isə digər vacib məqam rəqəmsal idarəetmənin tətbiqidir. Elektron müraciət sistemləri, onlayn ödəniş və hesabat platformaları, xidmətlərin icra müddətinin izlənməsi həm korrupsiya risklərini azaldılmasını, həm də operativliyin artırılmasını şərtləndirər. Bu, eyni zamanda, MKTM-lərin fəaliyyətinin real vaxt rejimində monitorinqinə imkan yaradar və "kim cavabdehdir?" sualını aradan qaldırar.

Beləliklə, Baş nazirin imzaladığı qərar mənzil-kommunal təsərrüfatında islahatlar üçün ciddi hüquqi və institusional zəmin yaradır. Bu sənəd MİS/JEK-lərlə bağlı illərdir ki, cəmiyyətdə yığılıb qalmış narazılıqların aradan qaldırılması üçün real imkan açır. "Yerli icra hakimiyyəti başçısının tabeliyində olan Mənzil-Kommunal Təsərrüfatı Müəssisəsinin (MKTM) Nümunəvi Nizamnaməsi"ndən də göründüyü kimi, MKTM modeli şəffaf, hesabatlı, vətəndaşyönümlü xidmət fəlsəfəsinə əsaslanır.

***V.BİNYATOĞLU***
***XQ***



# XX əsrin "şəhəryeyən"liyi

## *Ermənistanın Qarabağa vurduğu urbisid yaraları sağaldılır*

**Prezident İlham Əliyev dekabrın 24-də Ağdam şəhərində 2-ci yaşayış kompleksinin açılışı mərasimində postmünaqişə dövründə ölkəmizin həyata keçirdiyi strateji xətti, xüsusilə də "Böyük qayıdış" Proqramının mahiyyəti, miqyası və tarixi əhəmiyyəti ilə bağlı mühüm məsələləri bir daha diqqətə çatdırdı. Bu çıxış yeni bir yaşayış kompleksinin istifadəyə verilməsi ilə bərabər, həm də onilliklər boyu işğalın ağır fəsadlarını yaşayan bir şəhərin yenidən dirçəldilməsi, sosial-iqtisadi və mənəvi baxımdan bərpası prosesinin siyasi-fəlsəfi çərçivəsinin formalaşdırılmasının ifadəsi idi.**

Dövlətimizin başçısının vurğuladığı kimi, işğal dövründə Ermənistanın məqsədyönlü şəkildə urbisidə məruz qoyduğu Ağdam şəhərinin, demək olar ki, tamamilə dağıdılması sistemli və düşünülmüş siyasətin nəticəsi idi. Bu siyasət talançılıq yolu ilə iqtisadi qazanc əldə etmək, xalqımızın tarixi-mədəni izlərini silmək, ən əsası isə bu torpaqlara qayıdışı psixoloji və fiziki baxımdan mümkünsüz etmək məqsədi daşıyırdı.

İşğal illərində şəhərdə binaların daşlarının sökülərək müxtəlif istiqamətlərdə daşınması və satılması, məscidlərin, qəbiristanlıqların, tarixi abidələrin təhqir olunması Ermənistanın beynəlxalq humanitar hüquq normalarını kobud şəkildə pozduğunu göstərir. Bu, eyni zamanda, şəhərsalma və mədəni irsə qarşı törədilmiş cinayətdən xəbər verir.

Bu məqamda, qeyd edək ki, Ermənistan Ağdamla yanaşı, Qarabağ və ətraf rayonları işğal altında saxladığı dövrdə ərazilərimizdə qəsbkarlıqdan daha irəli gedərək ekoloji terror, iqtisadi talançılıq və mədəni soyqırımı da həyata keçirib. 30 il ərzində düşmən ölkə və onun nəzarətində olan qeyri-qanuni qurumlar Azərbaycanın yeraltı və yerüstü sərvətlərini amansızcasına istismar edib. Qızıl, civə, mis, mərmər, tikinti materialları kimi qiymətli ehtiyatlar qeyri-qanuni şəkildə çıxarılaraq xarici bazarlara daşınıb. Bu proses nə ekoloji norma, nə də beynəlxalq hüquq çərçivəsində aparılıb. Mütəxəssislərin hesablamalarına görə, yalnız mədən sənayesi sahəsində Azərbaycana vurulan zərər milyardlarla dollarla ölçülür. İşğalçı bu sərvətləri talamaqla yanaşı, bölgənin gələcək iqtisadi inkişaf imkanlarını da uzun müddətlik sıradan çıxarıb.

Prezident İlham Əliyevin vurğuladığı kimi, Ermənistanın fəaliyyəti təkcə iqtisadi talanla məhdudlaşmayıb, həm də regionda ekoloji tarazlığın sistemli şəkildə pozulmasına yönəlib. Meşələrin kütləvi şəkildə qırılması, çayların sənaye və məişət tullantıları ilə çirkləndirilməsi, torpaqların minalarla və kimyəvi maddələrlə çirklənməsi ilə ekoloji fəlakətə yol açılıb. Xüsusilə, Oxçuçay və onun hövzəsi boyunca aparılan çirkləndirmə siyasəti ilə Azərbaycanın, eləcə də regionun ekosisteminə ağır zərbə vurulub. Bu, artıq beynəlxalq aləmdə də transsərhəd ekoloji cinayət kimi qiymətləndirilib.

Xatırladaq ki, zəngin flora və fauna müxtəlifliyi ilə tanınan Qarabağ bölgəsinin qəsbkarlıq illərində nadir bitki növləri məhv edilib, vəhşi heyvanların yaşayış arealları dağıdılıb, təbii qoruqlar, demək olar ki, yoxa çıxarılıb. Bu, gələcək nəsillərin təbii irs hüquqlarının kobud şəkildə pozulması deməkdir.

Ermənistanın işğal siyasətinin ən ağrılı tərəflərindən biri də mədəni və dini irsin məqsədli şəkildə məhv edilməsi olub. Məscidlər, qəbiristanlıqlar, tarixi abidələr, muzeylər dağıdılıb, bir hissəsi isə təyinatı dəyişdirilərək təhqiramiz məqsədlər üçün istifadə olunub. Beynəlxalq mediada bu vandalizm aktları Azərbaycan xalqı ilə bərabər, bütün bəşəriyyətin mədəni irsinə qarşı cinayət kimi qiymətləndirilib.

Qarabağ və Şərqi Zəngəzurun işğal altında saxlandığı illərdə Azərbaycan toponimlərinin erməniləşdirilməsi qəsbkarlıq siyasətinin ideoloji istiqamətlərindən biri olub. Bu addımla torpaqlarımızın tarixi kimliyini dəyişmək, saxta "tarixi əsaslar" formalaşdırmaq qarşıya əsas məqsədlərindən biri kimi qoyulub. Lakin bu cəhdlər beynəlxalq hüquq və tarixi faktlar qarşısında iflasla nəticələnib.

Yeri gəlmişkən, respublikamızın çoxsaylı maddi-mədəni nümunələri, o cümlədən 44 dini məbəd, 18 məscid qəddarcasına dağıdılıb. İşğal altında qalan ərazilərdə 12 muzey və 6 şəkil qalereyası, tarixi əhəmiyyətli 9 saray yerlə bir edilib, 40 min tarixi-etnoqrafik əhəmiyyətə malik eksponat işğalçı ölkəyə daşınıb. 927 kitabxanada 4 milyon 600 min nüsxə kitab və xüsusi əhəmiyyətli əlyazma nümunələri yandırılıb. İşğal altındakı ərazilərdə şəhərlər və kəndlər yerlə bir edilib. Zavodlar sökülüb, elektrik xətləri, su şəbəkələri, dəmir yolları sıradan çıxarılıb. Düşmənin planlı şəkildə həyata keçirdiyi bu "yandırılmış torpaq" siyasətində məqsəd azadlıqdan sonra bölgənin bərpasını maksimum dərəcədə çətinləşdirmək olub.

Azərbaycan işğal dövründə və ondan sonra beynəlxalq hüquqa əsaslanaraq bu cinayətlərin sənədləşdirilməsi və dünya ictimaiyyətinə çatdırılması istiqamətində ardıcıl siyasət aparıb. BMT, Avropa İttifaqı və digər beynəlxalq qurumlar çərçivəsində məsələ qaldırılıb, monitorinqlər keçirilib, hesabatlar hazırlanıb. Bu faktlarla Ermənistanın Qarabağda həyata keçirdiyi siyasətin Cenevrə konvensiyalarına, ekoloji hüquqa və mədəni irsin qorunmasına dair beynəlxalq sənədlərə zidd olduğu bir daha təsdiqlənib.

Bu gün Qarabağ və Zəngəzurda davamlı olaraq yeni yaşayış komplekslərinin açılış mərasimləri keçirilir. Bununla da dağıdılmış torpaqlarımızda həyat canlanır, ekosistem dirçəlir, mədəni irs yenidən bərpa olunur. Bu, işğala məruz qalan şəhər və kəndlərimizin yenidən tikilib-qurulması prosesi olmaqla bərabər, həm də tarixi ədalətin bərpasının rəmzi kimi diqqət çəkir.

Vətən müharibəsində Azərbaycanın qazandığı böyük Zəfərlə ərazi bütövlüyümüzün bərpa olunması, işğaldan azad edilmiş torpaqlarımızın ölkə iqtisadiyyatına reinteqrasiyası, regionda mövcud yeni reallıqlar və əməkdaşlıq imkanları, beynəlxalq və regional nəqliyyat-logistika dəhlizlərinin artan potensialı respublikamızın sürətli inkişafı üçün əlavə stimul yaradır. İqtisadi resursları, təbii ehtiyatları, enerji mənbələri, yeraltı metal filizi yataqları, termal suları, tikinti materialları üçün xammal bazası, nəqliyyat-tranzit, turizm imkanları və s. düşməndən təmizlənən ərazilərimizə investor marağını da artırır. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının bu coğrafiyadakı strateji mövqeyi, insan resursları potensialı və infrastruktura çıxış imkanları bu ərazilərin gələcəkdə daha sürətlə inkişaf etmək imkanlarını genişləndirir.

Beləliklə, Qarabağın dirçəldilməsi Azərbaycanın postmüharibə dövründə həyata keçirdiyi siyasəti – dağıdılanı bərpa etmək, itirilənləri daha müasir formada yenidən qurmaq və bu torpaqlarda uzunmüddətli, dayanıqlı həyatı gerçəkləşdirmək məqsədini açıq şəkildə göstərir. Bu proses iqtisadi olmaqla bərabər, həm də mənəvi məna daşıyır. Çünki bu torpaqlara qayıdan hər bir ailə, hər bir insan tarixi ədalətin bərpasının canlı şahidinə çevrilir.

Prezident İlham Əliyev dekabrın 24-də Ağdam şəhərində 2-ci yaşayış kompleksinin açılışı mərasimindəki çıxışında səsləndirdiyi fikirlər isə Azərbaycan dövlətinin azad edilmiş ərazilərdə quruculuq layihələrinin kampaniya xarakteri daşımadığını, bunun sistemli və strateji yanaşma olduğunu bir daha sübut edir. Qarabağın bugünkü mənzərəsi isə əzəli-əbədi bu yurd yerlərimizin gələcədə necə olacağından – müasir, inkişaf etmiş, iqtisadi cəhətdən güclü və sosial baxımdan rifahlı bir region kimi dünyada tanınacağından xəbər verir.

***Vaqif BAYRAMOV***
***XQ***

*Fətəli xan Xoyski – 150*

# Xalq Cümhuriyyətinin ilk baş naziri

**Azərbaycan tarixinin taleyüklü anlarında önə çıxan bir sıra şəxsiyyətlər xalqın milli iradəsinin təcəssümü kimi onun tarixi taleyinin müəyyənləşməsində həlledici rol oynamışlar. XX əsrin əvvəllərində belə şəxsiyyətlərdən biri də milli maraqlara sadiqliyi, dövlətçi düşüncəsi, siyasi iradəsi və uzaqgörənliyi ilə seçilən Fətəli xan Xoyski olmuşdur. O, Azərbaycan Xalq Cümhuriyyətinin yaranması və möhkəmlənməsi prosesində həlledici rol oynayan simalardan biri kimi tarixə düşmüşdür.**



Azərbaycan tarixinin ən mürəkkəb, ən keşməkeşli çağlarında o, sadəcə ictimai-siyasi xadim kimi deyil, milli dövlətçilik maraqlarını uca tutan, xalqın taleyini düşünən dövlət xadimi idi. Fətəli xan Xoyski digər cümhuriyyət xadimləri ilə bir sırada Azərbaycan xalqının azad yaşamaq haqqını sözlə deyil, əməli ilə müdafiə edənlərdən oldu. Demokratik əqidəli, hüquqşünas dəqiqliyi, dövlət xadiminə məxsus uzaqgörənliyi ilə Fətəli xan yeni yaranmış respublikanın təməl daşlarını qoyanlardan oldu.

Ötən əsrin 80-ci illərinin sonlarından Azərbaycan Cümhuriyyəti tarixinin tədqiqi fonunda Azərbaycan Cümhuriyyətinin ilk baş naziri Fətəli xan Xoyskinin həyat və fəaliyyətinə də diqqət yetirilmiş və 1998-ci ildə onun fəaliyyətini əks etdirən yığcam sənəd toplusu və kiçik həcmli kitab da işıq üzü görmüşdür. Cümhuriyyət tarixi tədqiqatçıları onun ümumən bacarıqlı dövlət xadimi olması barədə mübahisəsiz qənaətə gəlmişlər.

Digər cümhuriyyətçi xadimlərdən fərqli olaraq zəngin publisistik irsi olmadığı üçün Xoyski şəxsiyyətini əsasən gördüyü işlər ilə qiymətləndirməli oluruq. Belə demək olarsa, onun özünü "danışdıra" bilmir, bu və ya digər qərarı verərkən onun düşüncəsindəki ziddiyyətlərdən, təkamüldən xəbərsiz qalırıq. Bu səbəbdən də Azərbaycan Cümhuriyyəti tarixində mühüm rol oynamış Fətəli xan Xoyski şəxsiyyətini düzgün qiymətləndirmək üçün onun fəaliyyətini ifadə edən siyasi aktlarla, sənədlərlə yanaşı, müasirlərinin onun haqqında söylədikləri bir cümlə belə əhəmiyyət daşıyır. Lakin xüsusən son illərdə AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunda aparılan araşdırmalar, müxtəlif ölkələrin – Rusiya Federasiyası (Sosial-Siyasi Tarix Arxivi), Böyük Britaniya (Forin Ofis), Türkiyə Cümhuriyyəti (Baş Bakanlık Osmanlı Arxivi) və Gürcüstan Respublikası (Mərkəzi Dövlət Tarix Arxivi) arxivlərindən əldə edilən bir sıra sənədlər, eləcə də 1917-1920-ci illər dövri mətbuatının son dövrdə geniş şəkildə tədqiqi nəticəsində əldə edilən çoxsaylı materiallar Fətəli xan Xoyskinin bir dövlət xadimi kimi fəaliyyətinin daha dərindən öyrənilməsinə və şəxsiyyətinin böyüklüyünün müəyyən edilməsinə imkan verir.

Beləliklə, 1917-ci ildə Rusiyada Fevral inqilabı baş verdikdə cəmiyyətin bir sıra tanınmış simaları kimi, Bakı Dairə Məhkəməsinin andlı iclasçısı F.X.Xoyski də istimai-siyasi həyata atılmış oldu. İnqilabın təkan verdiyi milli təşkilatlanma prosesində onun rolunu xüsusi qeyd etmək lazımdır. O, martın 9-da yaradılan Müvəqqəti Müsəlman Komitəsinin fəal üzvü oldu. İnqilabın ilk günlərindən Azərbaycan milli demokratik hərəkatını təmsil edən simalar arasında ardıcıl olaraq Rəsulzadə və digərləri ilə yanaşı və bir çox hallarda isə ən mühüm hadisələrlə ilə bağlı məhz Xoyski soyadına rast gəlirik. Milli Komitədən Petroqrada Dövlət Dumasının Müvəqqəti Komitəsinin sədri M.Rodzyankonun adına inqilabla bağlı təbrik teleqramı ünvanlandıqda bu teleqramı M.Əsədullayev, M.Ə.Rəsulzadə və F.X. Xoyski imzalamışdılar.

İnqilabdan sonra azərbaycanlıların ictimai-siyasi həyatının ən mühüm hadisələrindən biri aprelin 15-dən 20-dək Bakıda keçirilən Qafqaz müsəlmanları qurultayı Xoyskinin mövqeyinə aydınlıq gətirir. Qurultayın rəyasət heyətinə seçilən Xoyski çıxışında bildirirdi ki, hər cür azadlıq, ələlxüsus da millətlərin azadlığı başqalarının azadlığına hörmət olunmasına əsaslanmalıdır. Qurultayda digər millətlərin nümayəndələrinin çıxışlarına cavab olaraq Xoyski müsəlmanların inqilaba münasibətini bu cür izah edirdi: "...ola bilsin ki, biz digər millətlərdən daha çox bu azadlığı dəyərləndiririk, çünki çarizm despotizminin əsas ağırlığını biz öz çiynimizdə daşımışıq".

Milli Şuranın üzvü olan Fətəli xana ilk gündən bacarıqlı hüquqşünas kimi bilavasitə bu biliklərinin gərəkli olduğu işlərin həlli həvalə edilir, o da həmin işlərin öhdəsindən məharətlə gəlirdi. Yeni sənəd və materiallar onun 1917-ci ilin iyun ayında Petroqraddakı fəaliyyətinə işıq salır. Aydın olur ki, Milli Komitə tərəfindən iyun ayının ortalarında ümum-Rusiya Müəssislər Məclisinə seçkilərlə bağlı əsasnamə layihəsini hazırlamaq məqsədilə təşkil edilən müşavirədə iştirak üçün Petroqrada ezam edilən Fətəli xan erməni siyasi dairələrinin Cənubi Qafqazda inzibati dəyişikliyə nail olmaq cəhdlərinin də qarşısını almağa nail ola bilmişdi. Ermənilər Cənubi Qafqazda zemstvo idarəçiliyinin tətbiqi ilə əlaqədar bu məsələni gündəmə gətirərək, öz xeyirlərinə həll etməyə çalışırdılar. Bu məqsədlə Petroqradda Cənubi Qafqazda zemstvo idarəçiliyinin tətbiqi üçün layihə hazırlamaq məqsədilə Xüsusi müşavirə çağırılsa da, azərbaycanlılar burada təmsil olunmamışdılar.

Vaxtilə ermənilərin nüfuzlu xadimi A.Xatisov Daşnaksütyun partiyasının erməni muxtariyyəti planlarını özündə əks etdirən layihəyə ilə çıxış etsə də, onu qəbul etdirə bilməmişdi. Petroqradda çağırılan müşavirədə yenidən bu layihə ortaya qoyulmuşdu. Azərbaycanlıların nümayəndəsi qismində müşavirəyə qatılan Xoyski Xüsusi Zaqafqaziya Komissarlığı (XZK) yanında bütün millətlərin nümayəndələrinin daxil olduğu müvafiq komissiyanın yaradıldığından Petroqradda belə bir müşavirə üçün ehtiyac olmadığını bildirmişdi. Xatisovun layihəsinə görə, Yelizavetpol quberniyasının dağlıq və düzən hissəsi bir–birindən inzibati cəhətdən ayrılmalı idi və sərhədlər etnik əlamətə (ermənilər və azərbaycanlılar) müəyyənləşdirilməli idi.

Xoyski bunun mümkünsüzlüyünü əsaslandırmışdı və mübahisə doğuracaq ərazilərdə inzibati vahidlərin yaradılması işi XZK-nin ixtiyarına verilmiş, məsələnin ermənilərin xeyrinə həllinin qarşısı alınmışdı. İyunun 29-da Qafqaz diyarının yeni inzibati bölgüsü layihəsini hazırlamaq üçün komissiya yaradıldıqda artıq Xatisovla yanaşı, Xoyski də onun tərkibinə daxil edilmişdi. Türkiyə arxivlərindən əldə olunmuş sənədlər onu göstərir ki, ermənilər həmin layihəni 1918-ci ilin yayında keçirilməsi nəzərdə tutulan İstanbul konfransında yenidən ortaya qoymağa cəhd etmişdilər.

Xoyski 1917-ci il avqustun 22-də yaradılan və kifayət qədər mühüm bir vəzifə olan Bakı quberniyası üzrə ümum-Rusiya Müəssislər Məclisinə seçki komissiyasının sədri seçilmişdi. Qeyd edək ki, bu seçki komissiyasının formalaşması özü də Bakıda sosialistlər və milli qüvvələr olmaqla qarşı-qarşıya duran iki əsas mövqenin mövcudluğunu göstərirdi. Bakıda ciddi siyasi qüvvə olan sosialistlər sözügedən komissiyaya öz nümayəndələrinin seçilməsinə çalışsalar da, gizli səsvermə ilə ən çox səs toplayan F.Xoyski sədr, S.Şaumyan müavin seçilmişdi.

Oktyabrın 29-da Bakıda Şəhər Dumasına seçkilər keçirildikdə, sosialistlərin əksəriyyət qazanmasına baxmayaraq, Dumanın sədri vəzifəsinə də Xoyskinin seçilməsi müxtəlif milli və siyasi qüvvələrin onun nüfuzu ilə hesablaşmasının göstəricisi idi.

Qeyd etmək lazımdır ki, Xoyskinin Azərbaycan milli hərəkatında çəkisi milli hərəkata düşmən olan sosialistlərin, xüsusən də bolşeviklərin ritorikasında özünü göstərirdi. Təsadüfi deyil ki, Şaumyan öz çıxış və yazılarında Azərbaycan milli qüvvələrini təmsil edən şəxsləri sadalayarkən hər dəfə "Xan Xoyski" adını qeyd edirdi.



Oktyabr çevrilişindən sonra Cənubi Qafqazın idarəçiliyi Zaqafqaziya Komissarlığına keçmiş, burada Fətəli xana xalq maarifi komissarı vəzifəsi verilmişdi. Xoyskinin fəaliyyətinin mühüm bir hissəsi Zaqafqaziya Seymində iştirakla bağlıdır. Burada gürcü və erməni deputatların Türkiyəyə qarşı ittihamlarına qarşı çıxış edən Xoyski mövcud vəziyyətdə diqqətli davranaraq danışıqların nəticəsini gözləməyi və bu müddətdə təhdidedici dildə danışmamağa çağırırdı.

Zaqafqaziya hökumətində ədliyyə naziri vəzifəsinə təyin edilən Xoyski Zaqafqaziya Federativ Demokratik Respublikasının konstitusiyasının hazırlanması məqsədilə yaradılan komissiyaya daxil edilmişdi. O, sesessiya hüququ əsasında Qafqaz Konfederasiyanın yaradılması tərəfdarı idi.

Milli maraqların qorunması tələb olunan məqamlarda Xoyski qətiyyətli mövqe nümayiş etdirməkdən çəkinmirdi. 1918-ci il mayın 6-da Daşnaksütyun partiyasının Seym fraksiyasının müsəlman fraksiyasına müraciətlə "Bakı hadisəsinin ləğvini öz üzərlərinə götürmələri və bunun müqabilində gələcəkdə Bakıda hakimiyyətin beynəlmiləl xarakter daşıması və erməni hərbi hissələri Bakıda qalması" kimi şərtləri məhz Xoyskinin Bakıda hakimiyyətin müsəlmanlara verilməsi, oraya müsəlman hərbi hissələrinin yeridilməsi və tərk-silah edilmiş erməni hərbi hissələrinin çıxarılması barədə cavabı ilə rədd edilir.

1918-ci il may ayının 27-də Müvəqqəti Milli Şura təşkil edildikdə onun idarəçiliklə məşğul olacaq İcraiyyə Komitəsinin sədri vəzifəsinə Xoyski seçildi. Xarakterindəki qətiyyət, məntiqi düşüncə və prinsipiallıq Azərbaycan Cümhuriyyətinin ilk hökumətinin təşkili kimi taleyüklü məsələnin Xoyskiyə həvalə edilməsini tələb edirdi. İlk hökumətdə Xoyski Nazirlər Şurasının sədri və daxili işlər naziri vəzifələrini icra edirdi. Lakin Nuru Paşanın iyunun 16-da Gəncəyə gələn Xoyski hökumətini tanımaması səbəbindən Milli Şura iyunun 17-də Xoyskinin rəhbərliyi ilə yeni hökumət təşkil etməli olmuşdu.

Bu zaman Osmanlı komandanlığının Azərbaycanın daxili işlərinə qarışmaq cəhdləri Xoyskini ciddi şəkildə narahat edirdi. O, Azərbaycan hökumətinin tələblərini ifadə edərək yazırdı: "Bütün üsuli-idarə Azərbaycan hökumətinin əlində cəmləşməlidir, türk hərbi hissələri isə özünün bütün arzu və tələblərini hökumətə yönəltməli və onun vasitəsilə həyata keçirməlidir və hazırda baş verdiyi kimi, bilavasitə idarəetmə işlərinə qarışmamalıdır". Fətəli xan öz etirazını Nuru Paşaya da bildirməkdən çəkinməmişdi.

Nəzərə almaq lazımdır ki, Xoyski hökumətin başına keçdikdə Azərbaycan çox ağır hərbi-siyasi hadisələr burulğanında idi. Bolşevik-daşnak alyansının Azərbaycan xalqına qarşı törətdiyi soyqırımından sonra Bakı quberniyası bütünlükdə Bakı Xalq Komissarları Sovetinin hakimiyyəti və bolşevik-daşnak hərbi qüvvələrinin tapdağı altında idi. I Dünya müharibəsinin yekun mərhələsinə keçən Antanta və Mərkəz dövlətlərinin hər biri üçün neft Bakısı mühüm əhəmiyyət kəsb edirdi. Bu səbəbdən də 1918-ci ilin yayında Bakı uğrunda gərgin mübarizə gedirdi. Güclü ordusu olmayan Cümhuriyyət hökumətinin xarici siyasəti bu mürəkkəb vəziyyətdə dövlətin mövcudluğunu qoruyub saxlamağa nail olmağa yönəldilmişdi.

Ağır mübarizə nəticəsində sentyabrın 15-də Qafqaz İslam Ordusu tərəfindən azad edildikdən sonra Bakıya köçən Xoyski hökumətinin qarşısında duran mühüm vəzifə demokratik dövlət quruculuğu prosesinin sürətləndirilməsi olmalı idi. Bu məqsədlə 1918-ci il sentyabrın 14-də hökumət Müəssislər Məclisinə seçkilər üzrə Xoyskinin sədrliyi ilə komissiya yaratdı.

Dövlətin müstəqilliyi birbaşa onun hərbi qüvvələrinin gücündən asılı idi. Hələ Türkiyə hərbi qüvvələri Azərbaycanda olarkən başlanmış ordu quruculuğunu sürətləndirmək və onu daha da səmərəli aparmaq üçün 1918-ci il oktyabrın 23-də hökumət Hərbi Nazirliyin yaradılmasını qərara almışdı. Bu struktur dövlətin qarşısında duran tarixi vəzifələrin həllində mühüm rol oynadığından ona rəhbərliyi ilk vaxtlar Xoyski öz üzərinə götürmüşdü.

Mudros müqaviləsinə görə türk qoşunları Azərbaycanı tərk etməli və Birinci Dünya müharibəsində qalib olan Antanta qüvvələri buraya gəlməli idi. Lakin müqavilə ilə bağlı Osmanlı tərəfi Azərbaycan hökumətini məlumatlandırmamışdı. Noyabrın 6-da Xoyski Osmanlı sədrəzəmi Əhməd İzzət paşaya məsələ barədə Azərbaycan tərəfinə geniş məlumat verilməsi üçün müraciət etsə də, noyabrın 11-nə kimi cavab ala bilməmişdi. Belə olan halda, hadisələrin hansı istiqamətdə inkişaf etdiyini düzgün müəyyən edən Xoyski və xarici işlər naziri vəzifəsini icra edən A.Ziyadxan noyabr ayının 10-da ABŞ-ın prezidenti V.Vilsona teleqramla müraciət edərək, ondan Azərbaycan Cümhuriyyətinin müstəqilliyinin dünya dövlətləri tərəfindən tanınması üçün kömək göstərməsini xahiş etmişdilər.

Noyabrın 17-də general V.M.Tomsonun rəhbərliyi altında Antanta qüvvələrinin Bakıya gəlməsi ilə ilə Xoyski növbəti sınağa məruz qalmışdı. Osmanlı komandanlığı kimi ingilis komandanlığı da ilk öncə Azərbaycan hökumətini tanımaq istəməmişdi. Tomson Bakı limanında Azərbaycan Cümhuriyyəti bayrağının İngiltərə, ABŞ, Fransa, İtaliya bayraqları ilə yanaşı asıldığını görərək, onu dərhal götürmək əmrini vermişdi. Məhz bu zaman Fətəli xan mahir dövlət xadimi və diplomat bacarığını nümayiş etdirdi. Böyük Britaniya arxivlərinin sənədlərində ingilis komandanlığının Xoyskiyə münasibətini əks etdirən xeyli məlumat yer almışdır. Burada Xoyski "Bakının ən bacarıqlı ictimai xadimlərindən biri" kimi qeyd edilir.

Noyabrın 20-də Xoyski ilə görüşən Tomson öz hökumətinə məruzəsində bildirirdi: "Şübhəsiz ki, o, ağıllı bir adamdır, bir hüquqşünas kimi Qafqazda indiyədək məlum olan hər hansı yerli idarəçilik qurumundan qat-qat daha səriştəli yerli administrasiya yarada bilmişdir". Xoyski obyektiv mövqeli, sağlam düşüncəli bir dövlət xadimi kimi qarşı tərəfin rəğbətini qazanmışdı və Tomson iki gün sonra onunla təkrar görüşdüyünü və əməkdaşlıq barədə razılığa gəldiklərini bildirirdi. Bu görüşlərin əsas mövzusu koalisiyalı hökumətin yaradılması məsələsi idi. Xoyskinin müttəfiq komandanlığının etimadını qazanması demokrtik dövlət quruculuğu prosesinə müsbət təsir etmişdi.

1918-ci ilin dekabrında yeni hökumət kabineti yaradılması məsələsi ortaya çıxdıqda isə ona kimin rəhbərlik etməsi sualı diqqəti yenə də Fətəli xanın üzərinə yönəltmiş oldu. Parlament sədrinin müavini H.Ağayevin sözləri Xoyskiyə olan münasibəti aydın ifadə edir: "Fraksiyaların arzusu, habelə Sizin siyasi təcrübəniz, Vətənə və Millətə xidmət işində göstərdiyiniz mühüm fəaliyyət və fədakarlığınız məni vadar edir ki, Sizi vacib və çətin bir işə, baş nazir vəzifəsini öz üzərinizə götürməyə və koalisiyalı kabinet təşkil etməyə dəvət edim". Xoyski səhhətinin pozulmasını əsas gətirərək bu təklifdən imtina etsə də, deputatların israrını və ölkədə yaranmış vəziyyətin mürəkkəbliyini nəzərə alaraq Xoyski çətin vəziyyətdə məsuliyyəti yenidən öz üzərinə götürdü, yeni hökumət təşkil etməyə və onun rəhbəri olmağa razılıq verdi.

Dekabrın 26-da yeni və koalisiyalı tərkibə əsaslanan hökumətdə baş nazir kürsüsü ilə yanaşı, xarici işlər naziri vəzifəsi də Xoyskiyə həvalə edilmişdi. Xoyskinin hökumət bəyannaməsində aydın şəkildə qeyd edilirdi: "Hökumətin millət üçün olduğu aşkardır! Millətin əksəriyyəti fəhlə və kəndlidən ibarətdir. Hökumət bilir ki, torpaq əkinçiyə verilməz isə, fəhlənin həyatı təmin edilməz isə, o hökumət yürüməz". Vəd edildiyi kimi də Xoyski hökuməti (III hökumət) sosialyönümlü tədbirləri artırmaq yolunu tutaraq qiymətlərin tənzimlənməsi, xüsusi mülkiyyətin sosiallaşdırılması, istehsal və maddi nemətlərin bölüşdürülməsi prosesinə dövlətin müdaxiləsinə yönəlik siyasət yürüdürdü. Fəhlə məsələsi həmin dövrdə ölkə gündəminin ən mühüm problemlərindən biri idi. 1919-cu il yanvarın 21-dən fəaliyyətə başlayan Əmək Nazirliyi bu məsələyə diqqəti artırdı.

Bu dövrdə ingilis komandanlığı Azərbaycanda ticarət, sənaye, nəqliyyat və s. üzərində bir sıra məhdudiyyətlər qoysa da, Xoyski hökumətinin qəti etirazı ilə Azərbaycan polisi, su nəqliyyatı və neft sənayesi, maliyyə idarələri və s. üzərində qoyulan bu məhdudiyyətlər ləğv olunmuşdu.

Xoyski ölkənin ərazi bütövlüyünün bərpası və qorunması istiqamətində, ermənilərin Qarabağ, Naxçıvan və Zəngəzurdakı qəsbkarlıq hərəkətlərinə qarşı ardıcıl olaraq mübarizə aparmışdı. Bölgədə hakimiyyəti möhkəmləndirmək üçün 1919-cu il yanvarın 15-də Qarabağ general-qubernatorluğu yaradılmış, ingilislərin Naxçıvanla bağlı siyasətinə qəti etiraz edilmişdi.

Lakin sosial–iqtisadi vəziyyət kəskin idi. Belə ki, türklərin Azərbaycanı tərk etməsindən sonra hökumətə qarşı kəskin müxalifətə çevrilən sosialistlər fəallaşmağa başlamışdılar. Eləcə də getdikcə sosial bazasını möhkəmləndirməkdə olan və daha mühafizəkar mövqedə qərarlaşan "İttihad" Partiyası hökumətə qarşı ciddi müxalifətə çevrilmişdi. Səhhəti mövcud vəziyyətdə işləməyə imkan vermədiyindən Xoyski 1919-cu ilin fevralında istefa verməli oldu. 1919-cu ilin aprelində təşkil edilən N.Yusifbəyli hökumətində vəzifə almasa da, Xoyski ictimai-siyasi həyatdan uzaqlaşmadı.

1919-cu ilin sentyabrında N.Yusifbəylinin təşkil etdiyi sayca V hökumət kabinetində F.X.Xoyskiyə xarici işlər naziri vəzifəsi həvalə edilmişdi. Onun fəaliyyətinin bu mərhələsi Azərbaycan Cümhuriyyətinin Sovet Rusiyasının işğal hədəfinə çevrildiyi daha ağır bir dövrə düşmüşdü. RSFSR xalq xarici işlər komissarı Q.V.Çiçerini RSFSR xalq xarici işlər komissarı Q.V. Çiçerinin notalarına Xoyskinin verdiyi cavablar onun bir dövlət xadimi kimi qətiyyətini nümayiş etdirir.

Bolşevik təhlükəsinin real olduğunu nəzərə alan və Rusiya təzyiqinə qarşı radikal tədbirlər görülməsinə çağıran Xoyski bildirirdi: "Heç bir rus partiyası, heç bir Rusiya hökuməti heç vaxt Zaqafqaziya Respublikasının müstəqilliyini tanımayacaq və yalnız Qafqaz xalqlarının güclü ordusu və əldə silah müstəqilliyini qorumaq əzmi olduğu zaman Qırmızı Moskva bizimlə hesablaşacaq və bizim sərhədlərimizi keçməyəcəkdir". Lakin siyasi situasiya dəyişdiyindən həmin vaxt F.X.Xoyski daxil olmaqla sərt kurs tərəfdarlarının təklifləri qəbul edilməmişdi. Bununla belə 1920-ci il martın 7-də Çiçerinə son cavab notası Xoyskinin mövqeyini aydın ifadə edir. O, iki dövlət arasında münasibətlərin iki tərəfin suverenliyi əsasında həyata keçirilə biləcəyindən asılı olduğunu bildirirdi.

Bütün qeyd edilənlər Azərbaycan Cümhuriyyəti hökumətinin baş naziri F.X.Xoyski tariximizin həlledici dövründə özünün rəhbərlik qabiliyyəti və uzaqgörənliyi ilə seçilən, xalqın milli iradəsini təcəssüm etdirən lider olduğunu bir daha təsdiq edir. Peşəkar hüquqşünas kimi məntiqlə hərəkət edərək hadisələri obyektiv qiymətləndirə bilməsi, məsuliyyəti dərk etməsi, diplomatikliyi, siyasi çevikliyi, milli və dövləti maraq məsələlərində prinsipiallığı Xoyskini bacarıqlı dövlət xadimi kimi xarakterizə etməyə imkan verir.

Qətiyyətlə demək olar ki, Fətəli xan Xoyski milli dövlət qurucusu kimi tarixi bir missiya daşıyaraq Azərbaycan xalqının taleyinin həlledici məqamında öz vəzifəsini layiqincə yerinə yetirə bilmişdir.

***Aygün ƏZİMOVA,***
***AMEA Tarix və Etnologiya İnstitutunun***
***böyük elmi işçisi, fəlsəfə doktoru***

# Azərbaycan kəndinin uğurlu ili

**2025-ci ilin başa çatmasına sayılı günlər qalır. Ötən illər kimi, bu ilimiz də barlı-bəhərli, bərəkətli olub. Əkin-biçin adamları ilboyu tarla və bağlara qayğı göstəriblər, torpaq da onların halal əməyini itirməyib, bir dəni on sünbül edib. Bu gün Mildə, Muğanda, Qarabağda, Şirvanda, Naxçıvanda, bir sözlə, ölkəmizin hər bir guşəsində tarlalarımızın bol nemətləri süfrələrimizi bəzəyir.**



Bu günlərdə kənd dəyirmanlarında zəmilərin məhsulu olan taxıl üyüdülür. Yerli buğda çörəyinin ətri, dadı bir başqadır. Söz vaxtına çəkər. Bu an anamın təndirdə bişirdiyi çörəyin böyük bir parçasını götürüb evimizin qənşərindəki dağlara həmyaşıdlarımla meşə əzgili yeməyə getdiyimiz günlər yadıma düşdü. Necə də bəxtəvər anlar idi.

Bu il Qubanın, Göyçayın, Ordubadın alma, armud, heyva bağlarının məhsulu bol olub. Kəlbəcərli bir arıçı dostum paytaxtda ənənəvi bal yarmarkasında söylədi ki, dünyanın ən yaxşı balı Kəlbəcər balıdır. Ona dedim ki, məgər buna etiraz edən var?! Amma gəlin etiraf edək ki, Qusarın, Lerikin, Laçının balı da çox dadlı və ətirlidir.

Siz dünyanın başqa heç yerində Azərbaycanın cənub bölgəsində yetişdirilən sitrus meyvələri qədər dadlı meyvələr tapa bilməzsiniz. Burada yetişdirilən naringi, portağal, feyxoa bu bərəkətli torpağın xalqımıza hədiyyəsidir. Bu il Lənkəran, Astara və Masallının çay plantasiyalarından əvvəlki illərdə olduğundan daha çox çay toplanıb.

İndi dekabrın son günləridir. Dekabrın adı gələndə adamın canı üşüyür. Dağların ətəklərində yerləşən kəndlərin sakinləri qışa əvvəldən hazırlıq görüblər. Elə bölgələrimiz də var ki, ilin sonuncu ayında belə fermerlər hələ də iş başındadır.

**Ağsunun Cəfərli kəndində hazırda təsərrüfat işləri ilə məşğul olan jurnalist həmkarım Səməd Məlikzadə** dedi ki, bu günlərdə həmkəndliləri Küdrü düzündəki pay torpaqlarında yeni nar bağları salmaqla məşğuldurlar. Dövlət fermerlərə damcı üsulu ilə bağ saldıqlarına görə xeyli subsidiya verir. Səməd müəllim, həmçinin söylədi ki, payız aylarında nar məhsulunun alıcısı başının üstündə olduğu üçün fermerlər bu işə önəm verirlər.

Məlumdur ki, pambıqçılıq iqtisadi səmərəlilik baxımından çox gəlirli sahədir. 1970-ci illərdə, eləcə də 1980-ci illərin əvvəllərində respublikamız bu sahədə nəzərəçarpan uğurlar qazanıb. “Ağ qızıl” istehsalı sürətlə artıb, ölkə büdcəsinə böyük maliyyə vəsaitləri daxil olub, nəticədə əhalinin rifahı yaxşılaşıb.

Təəssüf ki, sonrakı illərdə bəzi səriştəsiz təsərrüfatçılar pambığın xeyrindən çox ziyanı olduğunu iddia edirdilər. Bir müddət Mil, Muğan, Şirvanın pambıq plantasiyaları əkilib-becərilmədi, pambıq emalı zavodları işləmədi. Bu yanlış yanaşma, təbii ki, fəsadsız ötüşmədi, illərlə qazanılan səriştə və ənənələr unudulmağa başlandı.

Nə yaxşı ki, Azərbaycan hökuməti 2000-ci illərin əvvəllərindən başlayaraq bu sahənin dirçəldilməsi üçün konkret tədbirlər həyata keçirdi. Pambıqçılıq ilə məşğul olan fermerlərin əməyini stimullaşdırmaq üçün onlara subsidiyalar ayrıldı. Hökumətin hərtərəfli dəstəyini hiss edən fermerlər yenidən bu gəlirli sahəyə üz tutdular.

Bu il respublika üzrə pambıq yığımı dekabrın ortalarında uğurla yekunlaşıb. Əkin aparılmış 100 min 468 hektar sahədən 353 min 914 ton xam pambıq tədarük olunub. Bu, son 20 ilin ən yüksək göstəricisidir.

**Qusar Dövlət Aqrar İnkişaf Mərkəzinin (DAİM) direktoru Rauf Minhacov** özünün “feysbuk” səhifəsində yazıb ki, bir müddət əvvəl onun yolu rayonun dağlıq kəndləri olan Duztahir, Gican və Sudurdan keçib. Rauf müəllim kənd sakinləri ilə söhbət etdikcə, onların hər birinin öz işinə olan həvəsini, doğma torpağa bağlılığını daha dərindən hiss edib: “Hər kəs ilin zəhmətini gülərüzlə, ümidlə dəyərləndirir, qarşılamağa hazırlaşdıqları yeni ildə də bolluq və bərəkət arzulayırdı. Mən də onlara səmimi diləklərimi çatdırdım – məhsulunuz bol, zəhmətiniz dəyərli olsun, əziz zəhmət adamları!”.

Hörmətli oxucu! Rauf müəllimin sözlərinə biz də ürəkdən qoşuluruq, Qusarda, eləcə də Azərbaycanın hər bir bölgəsində torpağı həvəslə əkib-becərən fədakar kənd sakinlərini builki uğurlarla əlaqədar təbrik edir, onlara yeni uğurlar arzulayırıq!

*Məsaim ABDULLAYEV*
*XQ*

# Bağların barı – fermerlərin varı

**Astaranın münbit torpaqları, təbii iqlim şəraiti meyvəçiliyin inkişafı üçün geniş imkanlar açır. Halal zəhmətlə yetişdirilən sitrus və subtropik meyvələr təkcə ölkəmizin daxili bazarlarında deyil, onun hüdudlarından uzaqlarda da dadı, ətri, yüksək keyfiyyəti ilə seçilir və alıcılar tərəfindən razılıqla qarşılanır.**

Bu yerlərdə ata-babadan sitrusçuluqla məşğul olurlar. Çünki iqtisadi cəhətdən sərfəli, gəlirli sahədir. Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamı ilə təsdiq olunmuş “Azərbaycan Respublikasında sitrus meyvəçiliyinin inkişafına dair 2018-2025-ci illər üçün Dövlət Proqramı”nın icrası istiqamətində Astara rayonunda xeyli işlər görülüb. Kənd əhalisinin məşğulluğunun artırılması və maddi rifahının yüksəldilməsi məqsədilə sitrusçuluğa diqqət artırılıb.



Sitrus meyvələrinin ayrı-ayrı növləri üzrə subsidiyaların və intensiv metodlara əsaslanan bağçılıq təsərrüfatlarının yaradılması üçün birdəfəlik yardımların verilməsi fermerlərin marağına səbəb olub. 2018-ci ildən sertifikatlı, şaxtaya davamlı sitrus meyvə sortlarının əkilməsinə, intensiv meyvə bağlarının salınmasına start verilib.



Türkiyədən və digər xarici ölkələrdən gətirilmiş Satsoma, Primasol, Ortanik, Nova, Rubinson, Okitsu və Mursott növ şaxtaya davamlı və yüksək məhsuldarlığa malik sitrus meyvə tingləri əkilib. Bağlara müasir tələblər səviyyəsində aqrotexniki qulluq göstərilir, damcı üsuluna əsaslanan suvarma sistemi tətbiq olunur.

**Astara Rayon Statistika İdarəsinin rəis müavini Şövqiyyə Məmmədova** söhbətə sitrusçuluqda dinamik inkişafı əks etdirən rəqəmlərlə başladı:

– Rayonda 4634 hektar sitrus bağı var. Bunun 3442,6 hektarı məhsuldardır. İlin əvvəlindən 70,3 hektar yeni sitrus bağları salınıb. Keçən il rayonun fermer və şəxsi təsərrüfatlarında 67842,8 ton sitrus məhsulları istehsal edilib. Hektarın məhsuldarlığı 20,3 ton olub.

Dekabr ayının əvvəlinə olan məlumata görə, bu il bağlardan 71314,3 ton məhsul yığılıb. Müqayisə etsək, əvvəlki ildə istehsal olunmuş məhsuldan xeyli çoxdur. Bunun 52773,5 tonunu naringi, 6055,9 tonunu portağal, 373,6 tonunu limon, 8780,2 tonunu feyxoa təşkil edir. Kiviçiliyin də inkişafına xüsusi diqqət yetirilir. Maşxan, Təngərüd və digər ərazilərdə salınmış 159,6 hektar kivi bağından 754,8 ton məhsul yığılıb.

Astaranın dağətəyi ərazilərində yerləşən Kijəbə, Siyakü, Şüvi inzibati ərazi dairələrinə daxil olan kəndlərdə sitrusçuluq üstünlük təşkil edir. Günəş şüaları yamaclarda meyvənin tez yetişməsinə və keyfiyyətinə təsirsiz ötüşmür.

Əhalinin maddi vəziyyəti, dolanışığı bağların verəcəyi məhsuldan xeyli asılıdır.

Bu il bağlar yaxşı bar gətirib. Meyvənin ağırlığından ağacların budaqları əyilib. Salxım kimi sallanan naringilər, portağal və limonlar yaşıl libaslı bağlara xüsusi gözəllik verir. Tüləgüvan kəndində seyr etdiyimiz əsrarəngiz, gözəl mənzərə insanı valeh edir.

Kənddə 1760 nəfər əhali var. Sakinlərin 90 faizi sitrusçuluqla məşğul olur. **Rafiq Ağayev** kənddə halal, zəhmətkeş insan kimi tanınır. Ömrünün 70-ci qışını yaşayır. İxtisasca aqronomdur. Sovet dönəmində sovxozda aqronom, komsomol katibi və yerli həmkarlar təşkilatının sədri vəzifələrində işləyib. Ailə təsərrüfatına məxsus 0,85 hektar sahədə 800-dən çox naringi, portağal və limon ağacları əkib.

Sentyabr ayının ortalarından məhsul yığımına başlandığını, naringinin kiloqramının yerindəcə 1,5-1,6 manata satıldığını deyir. Yığım zamanı ailə üzvləri ilə bərabər, 6-7 fəhlə də işlədib, hər birinə gündəlik 30-35 manat ödəyib. Ailə təsərrüfatı 18 ton naringi istehsal edib. Məhsulun 40 faizi satılıb. Qalanı anbarda saxlanılır. Rafiqin dediyinə görə, indi qiymətlər xeyli aşağı düşüb. Məhsuldan asılı olaraq qiymətlər 30-35 qəpikdən başlayaraq 1,5 manata kimi dəyişir. Məhsulu Bakıdan və respublikamızın rayonlarından gəlib alırlar. Bayram günlərində qiymətlərin qalxacağı gözlənilir.

**Kijəbə qəsəbə inzibati ərazi dairəsi üzrə nümayəndə Firudin Əhmədov** aqrar sahədə tanınmış, təcrübəli, nüfuzlu mütəxəssisdir. Uzun müddət rayonda rəhbər vəzifələrdə işləyib. Əsl təsərrüfat adamıdır. Kijəbə ərazi dairəsinin 12 kəndi əhatə etdiyini, fermer və fərdi təsərrüfatlar tərəfindən 1000 hektardan çox sitrus və subtropik meyvə bağlarının salındığını bildirir.

Naringi bağları daha çox–700 hektar təşkil edir. Hələlik 30 min tondan artıq sitrus meyvələri yığılıb. Məhsul əsasən respublikamızın daxili bazarlarına, Rusiya, Belarus, Ukrayna və digər MDB ölkələrinə yola salınıb. Kijəbə qəsəbəsində Niyazi Baxşıyev, Tüləgüvan kəndində Mirbaba Ağayev, Ojəkəran kəndində Taleh Həsənovun başçılıq etdikləri fermer təsərrüfatları daha çox fərqlənirlər. Naringi yığımı başa çatmaq üzrədir. Bağlarda portağal, limon, kinkan, kivi və digər meyvələrin yığımı isə davam edir, – deyə Firudin Əhmədov söhbətini yekunlaşdırır.

*Əlisəfa HƏSƏNOV,*
*XQ-nin bölgə müxbiri*

# Naxçıvanda ilk kolleksiya meyvə bağı



**Naxçıvanda aqrar sahədə yeni mərhələnin əsası qoyulur. Regionda kənd təsərrüfatının davamlı inkişafı, yerli sortların qorunması və məhsuldarlığın artırılması məqsədilə innovativ yanaşmalar tətbiq olunur. Tarixən meyvəçiliyin geniş inkişaf etdiyi Naxçıvan torpaqları öz münbitliyi, iqlim xüsusiyyətləri və qədim bağçılıq ənənələri ilə seçilib. Əsrlər boyu burada yetişdirilən müxtəlif meyvə sortları bu ərazinin kənd təsərrüfatında mühüm yer tutub və bu gün də öz əhəmiyyətini qoruyub saxlayır.**

Məhz bu zəngin ənənələr yeni layihələrin elmi əsaslarla davam etdirilməsinə dəstək verir. Bu istiqamətdə atılan önəmli addımlardan biri də tingçilik sahələrinin müasir standartlara uyğun yenilənməsi və meyvəçiliyin elmi əsaslarla qurulmasıdır. Bu çərçivədə Naxçıvanda ilk dəfə innovativ üsullarla tingçilik sahələri və kolleksiya meyvə bağı yaradılıb.

Bəs bu işin təşkilində hansı prinsiplər əsas götürülür və gözləntilər nələrdir? **Naxçıvan Kənd Təsərrüfatı Elmi–Tədqiqat İnstitutunun direktoru Günel Seyidzadə** bizimlə söhbətində bildirdi ki, bu layihənin əsas məqsədi sağlam əkin materialı istehsalını təmin etmək, meyvə bağlarında məhsuldarlığı artırmaq, regionda dayanıqlı ting bazası formalaşdırmaq və elmi-texnoloji yeniliklərin tətbiqini genişləndirməkdir. Təşəbbüs, həmçinin muxtar respublikanın ixrac potensialının daha da yüksəldilməsinə xidmət edir.

Öyrəndik ki, bu layihənin həyata keçirilməsi üçün Naxçıvan şəhəri və Şərur rayonunda müvafiq ərazi ayrılıb. Belə ki, Naxçıvan Kənd Təsərrüfatı Elmi-Tədqiqat İnstitutunun Naxçıvan şəhəri və Şərur Dayaq Məntəqəsində salınan meyvə bağında yüksək məhsuldarlığa malik tinglərin yetişdirilməsinə başlanılıb. Muxtar respublikada intensiv bağçılığın inkişafına xidmət edəcək bu kolleksiya bağında ting materialı Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Meyvəçilik və Çayçılıq Elmi-Tədqiqat İnstitutundan əldə olunub.

Günel Seyidzadənin verdiyi məlumata görə, yeni yaradılmış sahələrdə gilas, badam və şaftalı olmaqla, 21 xarici sort üzrə 1050 ədəd ting və 50 min ədəd calaqaltı əkilib. Həmçinin kolleksiya bağı müasir standartlara uyğun suvarma sistemi ilə təmin olunub ki, bu da bitkilərin sağlam inkişafına və yüksək məhsuldarlığa zəmin yaradır.

Ümumilikdə, 2 hektar ərazini əhatə edən tingçilik sahələri və kolleksiya meyvə bağı Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Meyvəçilik və Çayçılıq Elmi-Tədqiqat İnstitutu ilə əməkdaşlıq çərçivəsində yaradılıb. Bu əməkdaşlıq sayəsində sahələrdə elmi yanaşmalar tətbiq olunur, seleksiya işləri gücləndirilir və yerli iqlim şəraitinə uyğun yüksəkkeyfiyyətli tinglərin yetişdirilməsi məqsədilə müasir aqrotexniki tədbirlər həyata keçirilir.

Qeyd edək ki, bu layihə çərçivəsində Naxçıvanın özünəməxsus bağçılıq ənənələrindən geniş istifadə də nəzərdə tutulur.

*Səbuhi HƏSƏNOV,*
*XQ-nin Naxçıvan müxbiri*

# Ağcabədi – Qarabağın Mil qapısı

**Regionların sosial-iqtisadi inkişafı, müasir infrastruktur layihələrinin həyata keçirilməsi, məşğulluq məsələlərinin həll edilməsi bölgələrdə yaşayan əhalinin rifah halının yüksəldilməsi baxımından xüsusi əhəmiyyət daşıyır. Ağcabədi rayonunda da mütəmadi olaraq sakinlərin rahat yaşayışının təmin olunması istiqamətində təqdirəlayiq addımlar atılır. Qarabağın Mil qapısı olan Ağcabədi yaraşıqlı parkları, yeni asfalt döşənmiş küçələri, ən əsası isə, təmizliyi ilə göz oxşayır.**





**Rayon icra hakimiyyəti başçısının Ağcabədi şəhər inzibati ərazi dairəsi üzrə nümayəndəsi Fikrət Allahverdiyevlə** söhbət zamanı öyrəndik ki, küçələrin asfaltlanması, yeni səkilərin çəkilməsi, işıq dirəklərinin quraşdırılması, işıqlandırma sisteminin müasirləşdirilməsi, yaşıllıqların salınması və onlara qulluq, bir sözlə, şəhərin abadlaşdırılması rayon rəhbərliyi tərəfindən hər zaman xüsusi diqqətdə saxlanılır.

Belə ki, cari ildə Ağcabədinin şəhərdaxili yollarında ümumilikdə 28 min 190 kvadratmetr əraziyə asfalt örtüyünün döşənməsi nəzərdə tutulub. Şəhərin Həmdi Məmmədquluzadə, Cəfər Cabbarlı, Yaqub Məmmədov, Üzeyir Hacıbəyli və digər küçə, prospekt və dalanlarını əhatə edən asfaltlama işləri artıq tamamilə yekunlaşıb. Bunun 22 min 190 kvadratmetri yeni asfalt örtüyüdür, 6 min kvadratmetr yolda isə cari təmir işləri aparılıb.

Yolların asfaltlaması mütəmadi olaraq davam etdirilir. Yeni ildə növbədə yeni küçə və prospektlər var. F.Allahverdiyev onu da bildirdi ki, şəhərin küçə və parklarının işıqlandırılmasında fasilələrin yaranmaması, bu sahədə yeniliklərin tətbiqi də nəzarətdə saxlanılır, aidiyyəti üzrə davamlı işlər görülür. 2025-ci ilin ötən dövrü ərzində şəhərdə 345 yeni işıqlandırma dirəyi quraşdırılıb ki, bu da sürücülərin və piyadaların daha 20 kilometr uzunluğunda işıqlı yollarda rahat hərəkətinə imkan verəcək.

Beləliklə də şəhərdə quraşdırılmış işıq dirəklərinin sayı 4 minə çatdırılıb. Həmçinin rayonun Yaşıllaşdırma və İşıqlandırma İdarəsi tərəfindən yüksəkkeyfiyyətli elektrik materialları alınıb, küçə işıq dirəklərində sıradan çıxmış yeraltı kabellər vaxtlı-vaxtında dəyişdirilib, led lampalar yenisi ilə əvəz edilərək maqnit ötürücü və fotorelelər quraşdırılıb. Nəticədə hava qaralanda işıqlar avtomatik olaraq yanır, səhərlər isə sönür. Bu isə həm elektrik enerjisinə qənaət etməyə imkan verir, həm də əl əməyinin azalması deməkdir.

Ağcabədidə yeni yaşıllıqların salınması, ağacların, kolların, güllərin əkilməsi şəhərin daha da gözəlləşməsinə, havasının təmizliyinin artmasına şərait yaradır. Yola saldığımız ildə şəhərin parklarında, küçə və prospektlərdə on minlərlə müxtəlif növ ağac, bəzək kolları, güllər, çiçəklər əkilib, mövsümə uyğun olaraq ağaclarda budama, suvarma və dərmanlama işləri aparılıb.

Ağcabədililəri daha bir sevindirici yenilik gözləyir. Belə ki, şəhərin 20 Yanvar küçəsində 4 hektar ərazidə salınacaq yeni parkın layihələndirilməsi artıq yekunlaşıb. Gələn il tikintisinə başlanacaq parkda təbii landşaftın mühafizə edilməsi, mövcud yaşıllıqların qorunması nəzərdə tutulub. Parkın kənarlarında sakinlər üçün yürüş zolaqları salınacaq, ərazidə attraksionlar, ictimai-iaşə obyektləri quraşdırılacaq.

Birləşmiş şəhər bələdiyyəsi də imkanlarını Ağcabədinin infrastrukturunun yenilənməsi istiqamətində mühüm işlərin görülməsinə yönəldib. Qurumdan bildirdilər ki, cari ildə bələdiyyənin vəsaiti hesabına Ağcabədi şəhərinin Nəriman Nərimanov və Qarabağ küçələrində yerləşən 2 piyada körpüsü əsaslı təmir edilib, Həsən Əliyev küçəsində isə 1 yeni piyada körpüsü tikilərək vətəndaşların istifadəsinə verilib.

Yol infrastrukturu üzrə də zəruri addımlar atılıb. 2025-ci ilin 11 ayı ərzində şəhər ərazisində 54 min 80 kvadratmetr, rayonun Şənlik kəndində isə 11 min 515 kvadratmetr ara yol xüsusi texnikalar vasitəsilə hamarlanaraq təmir edilib.

Ağcabədidə görülən bütün bu işlər vətəndaşların gündəlik rahat yaşayışını təmin etməklə yanaşı, kənd təsərrüfatı və xidmət sektorunun inkişafına da öz töhfəsini verir.

*Mahir RƏSULOĞLU,*
*XQ-nin Qarabağ müxbiri*

# Çinin Azərbaycana yatırımı sürətlə artır



**Hazırda Azərbaycan Çinlə bütün sahələrdə sıx və çoxşaxəli əlaqələr qurub. Bu münasibətlərin tarixi kökləri isə qədim İpək Yolunun formalaşdığı dövrlərə gedib çıxır. Həmin dövrlərdən etibarən İpək Yolu vasitəsilə iki xalq arasında ticarətlə yanaşı mədəni və elmi əlaqələr də yaranıb. Şərqlə Qərbi birləşdirən bu mühüm ticarət yolu Azərbaycan ərazisini Çinin digər regionlarla əlaqələndirən əsas körpülərdən biri olub.**

İkitərəfli əlaqələr zaman keçdikcə daha da möhkəmlənib. Çağdaş dövrdə isə siyasi, iqtisadi, nəqliyyat, energetika, təhsil və mədəniyyət sahələrində əməkdaşlıq daha da zənginləşib.

Xatırladaq ki, 2019-cu ilin aprel ayında Pekində təşkil olunan "Bir kəmər, bir yol" beynəlxalq forumunda Azərbaycan dövlət başçısının iştirakı çərçivəsində 10 vacib sənəd imzalanmışdı. Sənaye, investisiya və ticarət sahələrini əhatə edən bu sənədlərin icrası Azərbaycan ilə Çin arasında ticarət-iqtisadi əlaqələrin daha da dərinləşməsinə şərait yaratmışdı. Bu əməkdaşlığın nəticəsi olaraq, iki ölkə arasında xarici ticarət dövriyyəsi 2018-ci ildəki 1,3 milyard dolları səviyyəsindən 2,4 dəfə artaraq təxminən, 1,9 milyard dollar yüksələrək 2023-cü ildə 3,2 milyard dollara çatmışdı. Müsbət və sürətli inkişaf fonunda Çin Azərbaycanın əsas ticarət tərəfdaşlarından biri kimi mövqeyini möhkəmləndirmişdi.

Bu ilin aprelin 23-də Azərbaycan Prezidenti İlham Əliyev və Çin Xalq Respublikasının Sədri Si Cinpin "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanat" imzalayıblar. Dövlət başçısının Çinə dövlət səfəri zamanı imzalanan sənəd iqtisadi, siyasi nöqteyi–nəzərdən olduqca böyük əhəmiyyət daşıyır. Statistik rəqəmlərə nəzər yetirdikdə, bu sənədin iki ölkə arasında yeni pilləyə qədəm qoyduğunu görmək mümkündür.

Dövlət Gömrük Komitəsinin məlumatına görə, bu ilin yanvar–oktyabr aylarında Azərbaycanla Çin arasında ticarət əməliyyatlarının həcmi 3,8 milyard dollara çatıb.

Məlumata əsasən, bu, 2024-cü ilin eyni aylarındakı göstərici ilə müqayisədə 799,2 milyon dollar çoxdur. Hesabat dövründə Çin ilə ticarət dövriyyəsi Azərbaycanın ümumi ticarət dövriyyəsinin 9,34 faizi həcmində olub. Bununla da sözügedən ölkə hesabat dövrü ərzində Azərbaycanın ən çox ticarət əməliyyatları apardığı ölkələr sırasında 4-cü pillədə qərarlaşıb.

Cari ilin yanvar-oktyabr aylarında Azərbaycandan Çinə 79,6 milyon dollarlıq məhsul ixracı qeydə alınıb. Bu, ötən ilin eyni dövrü ilə müqayisədə 65,2 milyon dollar və ya 5,5 dəfə çoxdur.

Hesabat dövründə Çindən Azərbaycana isə 3,7 milyard dollar dəyərində ixrac əməliyyatları icra olunub ki, bu da 2024-cü ilin eyni dövrü ilə müqayisədə 734 milyon dollar artım deməkdir. Bunun la da hesabat dövründə Çin Azərbaycanın ən çox məhsul idxal etdiyi ölkələr sırasında ilk pillədə qərarlaşıb.

*

Qeyd edək ki, Çinin Azərbaycana birbaşa xarici investisiyalarının (BXİ) həcmi 2025-ci ilin birinci yarısının sonuna 405 milyon dollara çatıb. Avrasiya İnkişaf Bankının (EDB) məlumatına görə, bu göstərici 2017-ci ilin əvvəlində 259 milyon dollar təşkil edib. Çin investisiyalarının orta illik artım tempi 2016-cı ildə 4,8 faiz, 2022-ci ildən etibarən isə təxminən 9,7 faiz olub.

EDB bildirir ki, BXİ portfelinin əsas hissəsi emal sənayesinin payına düşür. Bu sahə Çinin Azərbaycana yatırdığı investisiyaların 88 faizini, yəni 2025-ci ilin birinci yarısının sonuna 355 milyon dolları əhatə edir. Emal sənayesinə yönələn investisiyalar 2016-cı illə müqayisədə təxminən 40 dəfə artıb.

Eyni zamanda, enerji sektorunda ümumi dəyəri 50 milyon dollar olan (portfelin 12,3 faizi) layihələr formalaşıb. "Universal Energy" şirkəti Qobustan rayonunda "Universal Solar Azerbaijan" birgə müəssisəsi vasitəsilə 100 MVt gücündə günəş elektrik stansiyası inşa edir. Layihənin investisiya dəyəri 100 milyon dollar olaraq qiymətləndirilir, tikinti işlərinə 2025-ci ildə başlanılıb.

Bununla yanaşı, hesabatda vurğulanır ki, "China Datang Overseas" Böyükşor gölündə 100 MVt gücündə günəş elektrik stansiyası və 30 MVt-lıq enerji saxlanc sistemi üzrə layihə hazırlayır. İnvestisiya sazişi 2025-ci ilin aprelində imzalanıb. Hər iki layihə Azərbaycanın "yaşıl enerji" ixracı strategiyasına uyğundur və Çin şirkətlərinin bərpa olunan enerji sahəsində mövqeyini gücləndirir.

Bundan əlavə, sənaye layihələri arasında BYD şirkəti ilə "Electrify Azerbaijan"ın birgə Sumqayıtda elektrik mühərrikli avtobusların istehsalı müəssisəsinin yaradılması da var. İlkin investisiya 17 milyon dollar təşkil edir, istehsalın genişləndirilməsi çərçivəsində sonradan vəsait qoyuluşu 60-94 milyon dollara qədər artırılacaq.

Həmçinin Çin özəl investoru Ağdam Sənaye Parkında lift və eskalator istehsalı üzrə "Fujiai Azerbaijan" zavodunun qurulmasına 2 milyon dollar həcmində sərmayə yatırmağı planlaşdırır. EDB-nin qeyd etdiyi kimi, bu layihələrin hamısı əsasən investorların öz vəsaitləri hesabına, Çinin dövlət büdcə dəstəyi olmadan maliyyələşdirilir.

***Musa BAĞIRLI***
***XQ***

# Neft Fondunun qlobal nəhənglərlə əməkdaşlığı




**Azərbaycan Dövlət Neft Fondu (ARDNF) neft gəlirlərini qlobal şirkətlərin səhmlərinə yatıraraq ölkənin münbit gələcəyinə yatırım edir. Xüsusən, Fondun səhmlər portfeli əsasən yüksək texnologiyalı beynəlxalq şirkətlərdən ibarətdir. 2025-ci ilin üçüncü rübü üzrə açıqlanan məlumatda ARDNF-nin listinqdə olan səhmlərinin dəyəri 15,9 milyard dollara çatdığı bildirilir.**

Fondun səhmlərə yatırdığı şirkətlərin siyahısına yenə də "NVIDIA", "Apple", "Microsoft", "Amazon", "Meta" kimi qlobal İT nəhəngləri başçılıq edir. Bu, ARDNF-nin gələcək innovasiya və texnologiya trendlərinə öncülük edən sahələrə fokuslandığını göstərir.

ARDNF-nin bu strategiyası artıq real nəticələr verməkdədir. Fondun yüksək texnologiya şirkətlərinə yatırımları qısa müddətdə ciddi gəlir artımı ilə müşayiət olunub. Fondun "NVIDIA" şirkətindəki səhmlərinin dəyəri 2025-ci ilin III rübündə 787 milyon dollara yüksəlib ki, bu da ilin ilk yarısındakı 663 milyon dollarlıq həcmdən 3 ayda 19 faiz artım deməkdir. Nəticədə, "NVIDIA" Fondun portfelində ən dəyərli səhminə çevrilərək hətta "Apple"ı geridə qoyub. Şirkətin səhmləri də eyni dövrdə təxminən 24 faiz artaraq 530 milyon dollardan 657 milyon dollara çatıb. "Apple" isə Fondun portfelində ikinci mövqedə qərarlaşıb. Digər iri yatırımlarda da müsbət dinamika müşahidə edilir – "Microsoft" səhmləri 3 ayda 28 milyon dollar artaraq 632 milyon dollara, "Amazon" isə 362 milyon dollara yüksəlib. Göründüyü kimi, Fondun qlobal texnologiya nəhənglərinə yatırımları qısa müddətdə yüksək gəlir gətirərək strategiyanın doğruluğunu təsdiqləyir.

Bunun nəticəsidir ki, cəmi 3 ay ərzində ARDNF-nin səhm portfelinin dəyəri 14,8 milyard dollardan 15,9 milyard dollara yüksəlib. Yalnız bir rübdə Fondun səhm investisiyalarından əldə etdiyi gəlir 14,3 faiz (təxminən 1,1 milyard dollar) artıb. Bu, çox qısa müddətdə qeyri-adi yüksək nəticə hesab olunur və ARDNF-nin seçdiyi investisiya kursunun ölkə üçün maliyyə baxımından səmərə verdiyini göstərir. Qeyd edək ki, Fond 2000-ci illərin əvvəllərindən bəri qlobal səhm indekslərinə toplam 7,1 milyard dollar yatırıb və bu investisiyalardan əldə olunan ümumi gəlir artıq 8,8 milyard dollara çatıb. Fond səhmlərə yatırdığı vəsaitdən uzun müddətdə də xeyli artıq qazanc əldə edib ki, bu da strategiyanın dayanıqlı uğurundan xəbər verir.

ARDNF-nin qlobal İT şirkətlərinə investisiya yönəltməsi Azərbaycana bir sıra uğurlar qazandırır. İlk növbədə, Fondun aktivlərinin artması ölkənin strateji valyuta ehtiyatlarını gücləndirir. Bu il ARDNF-nin ümumi aktivləri ilin əvvəli ilə müqayisədə 16,9 faiz artaraq 70,2 milyard dollara yüksəlib. Səhm portfelində baş verən artım bu yüksəlişin əsas drayverlərindən biridir. Yatırımların böyük hissəsi "MSCI World" indeksi çərçivəsində diversifikasiya olunmuş qlobal portfelə yatırılıb. Beləliklə, ARDNF neft gəlirlərini qlobal bazarlarda dəyərləndirərək uzunmüddətli stabil gəlir mənbəyi yaradır.

Fondun bu addımının uğuru ondan ibarətdir ki, neftdən kənar investisiya gəlirləri sayəsində ölkə büdcəsinə əlavə vəsait transferti mümkün olur. Məsələn, təkcə 2025-ci ilin ilk 9 ayında Fondun vəsaitlərinin idarə edilməsindən (yəni investisiyalardan) əldə etdiyi gəlir 5,23 milyard manat təşkil etmişdir. Bu qazanc ARDNF-yə ölkədaxili layihələri maliyyələşdirmək, strateji sosial-iqtisadi proqramlara dəstək vermək imkanı yaradır. Qlobal şirkətlərin səhmlərinə yatırılan vəsait ölkə daxilində təhsil, infrastruktur, gələcək nəsillərin təminatı kimi sahələrə yönəltmək üçün artırılır.

ARDNF-nin "Apple", "Microsoft", "Google", "Meta" kimi innovativ şirkətlərə investisiya etməsi həm də Azərbaycanı qlobal texnoloji inkişafın maliyyə bəhrələrindən faydalanmağa imkan verir. Hazırda Fond dünyanın 1600-dən çox iri şirkətində səhmdardır və bu qlobal iştirak payı ildən-ilə böyüyür. Bu addımların perspektiv uğuru odur ki, Azərbaycan təkcə enerji resurslarından deyil, qlobal innovasiya və istehsal nəhənglərinin dəyərindən də qazanc götürür. Nəticədə, milli sərvət artır və gələcək nəsillər üçün dayanıqlı maliyyə ehtiyatı formalaşır.

ARDNF-nin qlobal texnoloji səhmlərə investisiya strategiyası ümumilikdə müsbət qiymətləndirilə bilər. Bu strategiya Azərbaycanın neft kapitalını beynəlxalq bazarlarda səmərəli şəkildə dəyərləndirərək ölkə üçün əlavə gəlir mənbəyi formalaşdırır. Mühüm olan odur ki, qazanılan vəsait sonradan Azərbaycan iqtisadiyyatının inkişafına yönəldilir və beləliklə, neft gəlirləri gələcək nəsillər üçün faydaya çevrilir.

Ümumilikdə, qlobal bazardakı yüksəlişdən səmərəli yararlanmaq Azərbaycanın strateji ehtiyatlarını artırıb. Bununla belə, neytral mövqedən baxdıqda, strategiyanın uğuru təkcə indiki göstəricilərlə deyil, həm də gələcəkdə bazar dəyişkənliklərinə davamlılıqla ölçüləcək. İndiki mərhələdə isə ARDNF-nin gələcəyə yönəlik investisiya addımı öz bəhrəsini verməkdədir – həm Fondun aktivləri artıb, həm də ölkənin maliyyə dayanıqlılığı güclənib. Beləliklə, bu addım Azərbaycana uzunmüddətli perspektivdə uğur vəd edən düzgün bir strategiya təsiri bağışlayır.

***Nurlan ABDALOV***
***XQ***

# Pambıqçılıq dövlət dəstəyi ilə dirçəlib

*Müstəqillik dövründə ilk dəfə istehsal 360 min tona çatdırılıb*

**Azərbaycanda pambıqçılıq sahəsində fəaliyyət göstərən fermerlərə təhvil verdikləri məhsula görə subsidiyaların ödənilməsinə başlanıb. Bu barədə Kənd Təsərrüfatı Nazirliyi məlumat yayıb. Bildirilib ki, subsidiya ödənişləri maliyyə qrafikinə uyğun olaraq dekabrın 30-da başa çatacaq.**

Məlumat üçün bildiririk ki, Aqrar Subsidiya Şurasının qərarına əsasən, 2025-ci təsərrüfat ilində müasir suvarma sistemləri ilə təchiz olunmuş sahələrdə yetişdirilmiş məhsulu pambıq emalı və tədarükü şirkətlərinə təhvil verən fermerlər hər tona görə dövlətdən 210 manat subsidiya alacaqlar. Ənənəvi üsulla suvarılan sahələrdə yetişdirilib tədarük məntəqələrinə təhvil verilən pambığın hər tonuna görə isə fermerlərə 195 manat subsidiya ödəniləcək.

Pambığa görə məhsul subsidiyası dekabrın 15-nə qədər pambığın təhvil verilməsinə dair qəbzləri Elektron Kənd Təsərrüfatı İnformasiya Sisteminə daxil edən fermerlərə verilməli idi. Gecikən fermerlərə isə subsidiyaların ödənişi 2026-cı maliyyə ilinin 2-ci rübündə həyata keçiriləcək.

Xatırladaq ki, Azərbaycanda pambıq əkinləri torpaq mülkiyyətçisi olan fermerlərlə pambıq tədarükü və emalı şirkətləri arasında bağlanan müqavilələr əsasında aparılır. İmzalanan müqaviləyə əsasən, şirkət fermeri zəruri toxum, gübrə, pestisid və herbisidlərlə təmin edir, torpağın əkinə hazırlanması, aqrotexniki qulluğun göstərilməsi və məhsulun yığılması ilə bağlı texnika təchizatını həyata keçirir, bitkinin vegetasiya dövründə fermerə zəruri məsləhətlər vermək üçün aqronom ayırır, əkin xərclərini qarşılamaq üçün avans verir. Fermer isə bunun qarşılığında məhsulu yetişdirmək və müqavilədə müəyyən olunmuş qiymətə şirkətə təhvil vermək öhdəliyinə malikdir. "Contract farming" formatında müqaviləli əkin fermerlərin əkin xərclərini və məhsul satışı problemini aradan qaldıran üsul kimi Azərbaycanda uzun illərdir tətbiq olunur və özünü tam doğruldur.



Yeri gəlmişkən, Aqrar Subsidiya Şurası növbəti təsərrüfat ili üçün pambıq istehsalına görə məhsul subsidiyasının artırılması barədə qərar qəbul edib. 2026-cı ildə fermerlərə müasir suvarma sistemləri ilə təmin olunmuş əkin sahələrində yetişdirilən pambığın hər tonuna görə 215 manat, müasir suvarma sistemləri ilə təmin olunmamış əkin sahələrində yetişdirilən pambığın hər tonuna görə isə 200 manat subsidiya ödənilməsi nəzərdə tutulur.

Gələn il pambıq üzrə məhsul əmsalı Ağcabədi, Ağdam, Beyləqan, Bərdə, Biləsuvar, Goranboy, İmişli, Kürdəmir, Neftçala, Saatlı, Sabirabad, Salyan, Tərtər, Yevlax, Zərdab rayonlarına, habelə Cəlilabad rayonunun Günəşli və Təzəkənd kəndlərinə və Ucar rayonunun Xələc kəndinə şamil ediləcək, digər rayonlarda əkiləcək pambığa görə isə məhsul subsidiyası ödənilməyəcək.

Bu arada, Kənd Təsərrüfatı Nazirliyi Azərbaycanda pambıq yığımı ilə bağlı son statistikanı açıqlayıb. Qurumun məlumatına görə, ölkə üzrə pambıq əkini aparılmış 100 min 468,1 hektar sahədən kondisiya çəkidə 360 min 47 ton xam pambıq tədarük olunub. Operativ məlumata əsasən, pambıq üzrə hektarın orta məhsuldarlığı 35,84 sentner təşkil edib. Bu, pambıqçılıqda müstəqillik dövrünün ən yüksək orta məhsuldarlıq göstəricisidir.

Yeri gəlmişkən, mövsümün əvvəlində ölkənin 16 rayonunda pambıq əkilib. Əkinlərin 86 faizə yaxını pambıqçılıq üzrə ixtisaslaşmış 9 rayonun (Ağcabədi, Beyləqan, Bərdə, Biləsuvar, İmişli, Neftçala, Saatlı, Sabirabad, Salyan) payına düşür. Həmin rayonlarda pambıq əkinlərinin ümumi ərazisi 86 min hektara yaxındır. Bu il ən çox pambıq Saatlı (12 min 634,1 hektar), Ağcabədi (11 min 821,7 hektar) və Sabirabad (11 min 86,2 hektar) rayonlarında əkilib.

2025-ci təsərrüfat ilində pambıq üzrə ən yüksək məhsuldarlıq isə Beyləqan rayonunda qeydə alınıb. Bu rayonda orta məhsuldarlıq göstəricisi 41,88 sentner/hektar təşkil edib. Rayon üzrə əkin aparılmış 8 min 898,3 hektar sahədən 37 min 264,1 ton məhsul yığılaraq tədarük məntəqələrinə təhvil verilib.

Orta məhsuldarlıq göstəricisinə görə növbəti yerləri Neftçala (39,79 sentner/hektar), Biləsuvar (39,90 sentner/hektar), Tərtər (37,61 sentner/hektar), Bərdə (37,31 sentner/hektar) və Saatlı (36,06 sentner/hektar) rayonları tutur. Bu rayonlarda pambıq üzrə orta məhsuldarlıq göstəricisi ümumrespublika göstəricisindən yüksək olub.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

# "Bahar" və "Qum-dəniz" yataqları ikinci həyat qazanır

**Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Bahar" və "Qum-dəniz" yataqlarından ilkin neftin 2027-ci ilin sonu – 2028-ci ilin əvvəli əldə edilməsi nəzərdə tutulur. Bu barədə sözügedən yataqların operatoru olan "Bahar Energy Operating Company Limited" (BEOC) şirkəti məlumat yayıb.**



Məlumata görə, layihə çərçivəsində müasir texnoloji standartlara uyğun infrastruktur qurulacaq, yeni hasilat və kəşfiyyat quyuları qazılacaq. Bununla yanaşı, istehsalat və nəqliyyat sistemləri modernləşdiriləcək. Artıq "Bahar" və "Qum-dəniz" yataqlarının ilkin hasilat sxemi üzrə yenidən işlənmə layihəsi çərçivəsində müvafiq addımların atılmasına başlanılıb.

Azərbaycan Dövlət Neft Şirkəti tərəfindən son illərdə həyata keçirilən korporativ strategiyaya uyğun olaraq mövcud neft-qaz yataqlarının potensialı və əməliyyat səmərəliliyi yenidən qiymətləndirilməkdədir. Bu məqsədlə "Bahar" və "Qum-dəniz" yataqlarının ilkin hasilat sxemi üzrə yenidən işlənmə layihəsi çərçivəsində BEOC və ABŞ-ın SLB şirkətləri arasında müqavilə bağlanılıb.

2026-cı ilin yanvar ayına qədər "Bahar" yatağının statik və dinamik modellərinin, ilkin hasilat sxemi çərçivəsində quyu qazma, tamamlanma proqramını da əhatə edən işlənmə planının hazırlanması, yataqların işlənmə planı üçün əlverişli sahələrin müəyyənləşdirilməsi işləri nəzərdə tutulub. Həmçinin ilkin işlənmə quyularının təyin edilməsi, quyuların qazma və tamamlanması üçün konseptual mühəndislik layihələndirilməsinin aparılması, eləcə də layihənin "müəyyən et" və "icra et" mərhələləri üçün iş həcminin, iş qrafikinin və büdcə planının hazırlanması işlərinin yekunlaşdırılması razılaşdırılıb.

Qeyd edək ki, "Bahar" yatağı 1968-ci ildən, "Qum-dəniz" yatağı isə 1955-ci ildən istismardadır. Hər iki yataq Azərbaycanın enerji sənayesinin inkişafında strateji əhəmiyyətə malikdir. "Qum-dəniz" yatağı Xəzər dənizinin Azərbaycan sektorunda, Abşeron yarımadasının cənubundakı Qum adasından başlayaraq, təxminən, 12 kilometr məsafədə dəniz istiqamətində uzanır. "Bahar" yatağı isə, təxminən, 20 kilometr məsafədə yerləşir.

***XQ***

*Prezident tələb qoyub*

# Ana dilimiz – milli varlığımızın aynası

**Məlum olduğu kimi, Prezident İlham Əliyev noyabrın 3-də Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) 80 illik yubileyinə həsr edilən tədbirdəki nitqində milli inkişafın mühüm istiqamətləri ilə yanaşı, Azərbaycan dilinin qorunması məsələlərinə xüsusi diqqət yetirib. Dövlət başçısının həmin fikirlərini və qarşıya qoyduğu vəzifələri dilçi alimlər, ədəbiyyat xadimləri, media sahəsində fəaliyyət göstərən qurumların rəhbərləri, təhsil sahəsinin məsul şəxsləri fundamental tezislərdən ibarət "Yol xəritəsi" kimi qəbul edərək, bununla bağlı düşüncələrini bölüşürlər.**

Qeyd edək ki, dekabrın 8-də Milli Məclisdə "Azərbaycan dilinin dövlət dili kimi inkişaf strategiyası: mövcud vəziyyət və perspektivlər" adlı konfrans keçirilib. Məqsədi Azərbaycan dilinin qorunması və inkişafı strategiyalarını müzakirə etmək, bu istiqamətdə parlamentin, elmi ictimaiyyətin və ziyalıların vəzifələrini müəyyənləşdirmək olan konfransda bildirilib ki, Ümummilli liderin bünövrəsini qoyduğu dil siyasətini Prezident İlham Əliyev uğurla davam etdirir və bu gün ana dilinin qorunması, ədəbi dil normalarının müasir texnologiyalara inteqrasiyası dövlət siyasətinin prioritet istiqamətləri sırasındadır. Qeyd olunub ki, bu məsələlər Milli Məclisin də daim diqqət mərkəzindədir və parlamentin dəstəyi strateji qərarların ardıcıl və uğurlu şəkildə həyata keçirilməsini təmin edir.

Əlbəttə, Azərbaycan dilinin qarşısında çağdaş dünya dinamikasından irəli gələn yeni hədəflər durur. Dilimizin saflığının qorunması, rəqəmsallaşma və yeni texnologiyalara inteqrasiyası, terminologiyaların elmi əsaslarla yenilənməsi və s. bu sıradandır.

Dil milli varlıq nişanı, yaddaş aynası, mənəvi irsin daşıyıcısı, dövlətçilik təfəkkürünün formalaşdığı bir məkandır. Onların dilimizin hazırkı vəziyyəti, teleradio və mətbuatda düzgün istifadəsi, lüğət tərkibinin zənginləşdirilməsi, ictimai həyatın bütün sahələrində – rəsmi, mədəni və işgüzar mühitdə, ədəbi dil normalarına riayət olunması, məktəblərdə Azərbaycan dilinin düzgün metodik tədrisi barədə fikirlərini oxuculara təqdim edirik.



**İsa HƏBİBBƏYLİ, AMEA-nın prezidenti, akademik:**

– Prezident İlham Əliyevin AMEA-nın yubiley yığıncağındakı parlaq çıxışında ana dilimizlə, dövlət dilimizlə bağlı səsləndirdiyi fikirlər həm cəmiyyətimizin müxtəlif təbəqələrini, xalqımızı düşündürən mühüm məsələlərdir, həm də bu işlə məşğul olan akademik qurumlar, təhsil müəssisələri qarşısında mühüm vəzifələr qoyur. Dövlətimizin başçısının "Biz öz dilimizi qorumasaq, dilimizi təmiz, saf saxlamasaq, onda yavaş-yavaş dilimizi itirə bilərik" fikri məsələnin nə qədər vacib və həssas olduğunu göstərir.

Bəli, Azərbaycan dili ilə bağlı problemlər var və bunu həll etmək bizim ümummilli məsələmizdir. Prezident İlham Əliyev çıxışında beynəlxalq leksikonda yer alan və dünyada qəbul edilmiş vahid terminologiyadan başqa, yad sözlərin Azərbaycan dilinə gətirilməsini "ya səhv, ya təxribat və ümumiyyətlə, qəbuledilməz" kimi qiymətləndirib. Fikrimcə, bu mövqe Azərbaycan alimləri, tədqiqatçıları, müəllimləri və ziyalıları üçün dilin qorunması istiqamətində aydın çağırışdır.

Müasir, inkişaf etmiş dillər beynəlxalq terminləri mənimsəməklə yanaşı, həm də öz daxili imkanları hesabına zənginləşdirilən dillərdir. Azərbaycan dilinə də bu baxımdan daha ciddi yanaşmalıyıq. AMEA-nın dövlət dili siyasətinə elmi dəstəyi, normativ bazanın elmi əsaslarla hazırlanması və dövrün çağırışlarına uyğun yenilənməsi, Azərbaycan toponimlərinin qorunması ilə bağlı fəaliyyəti bundan sonra daha da genişlənəcək.

Milli Elmlər Akademiyası proqram şəklində 15 cilddən ibarət Azərbaycan tarixi ilə bağlı sənəddə Prezident İlham Əliyevin AMEA-nın yubiley tədbirində səsləndirdiyi fikirlər əsas istiqamət olaraq əksini tapacaq.

Qeyd edim ki, hazırda Dilçilik İnstitutunda yeni orfoepiya və orfoqrafiya lüğətləri hazırlanır. Texnoloji inkişaf olmadan ümumi inkişafa nail olmaq mümkün deyil. Akademiya olaraq süni intellekt, kibertəhlükəsizlik sahəsində də inkişafa nail olmalı və bunu işimizdə tətbiq etməliyik. Eyni zamanda, Tarix İnstitutu yeni atlas xəritələr hazırlayır ki, burada, həmçinin sovet dövründən əvvəl Azərbaycan ərazilərinin tarixi adları əks olunur. Bunun üçün geniş tədqiqatlar aparılır. Toponimlərin bərpası məsələsində də tarixiliyi və gerçəkliyi nəzərə almağı zəruri sayırıq.

Reklam bazarında, efirlərimizdə, dərsliklərimizdə, elmi-tədqiqat əsərlərində bəzən alınma kəlmələrdən lazım gəldi-gəlmədi istifadə olunur. Düşünürəm ki, müvafiq qurumlar, o cümlədən Akademiya bu məsələni müzakirə edib həll etməyə borcludur. Bu, ümummilli məsələdir. Həmçinin fikrimizcə, Terminologiya Komissiyasının tərkibinə yenidən baxılmalı, onun fəaliyyəti aktivləşdirilməlidir. Həmçinin televiziya proqramlarında ana dili ilə bağlı proqramların təşkilinə yeni yanaşma tələb olunur. Biz bu cəhətdən televiziyalarımızla qarşılıqlı əməkdaşlığa hazırıq.



**Elnarə AKİMOVA, Milli Məclisin deputatı, filologiya elmləri doktoru:**

– Prezident İlham Əliyevin fikirləri bir daha göstərir ki, dil yalnız ünsiyyət vasitəsi deyil – millətin yaddaşı, kimliyi və mənəvi sərvətidir. "Dilini itirən millətini itirər" deyən böyük dühalar kimi, ölkə başçısı da dilin qorunmasını siyasi çağırışdan çox, milli məsuliyyət kimi təqdim edir. Onun "Bizim dilimiz çox zəngindir, xarici sözlərə ehtiyac yoxdur. Ana dilimizin saflığını qorumaq hər bir Azərbaycan vətəndaşının borcudur" fikri həm çağdaş bir xəbərdarlıq, həm də gələcək nəsillərə ünvanlanan tövsiyədir.

Azərbaycan dili əsrlərin süzgəcindən keçmiş, xalqımızın taleyini, düşüncəsini, ruhunu daşımış bir xəzinədir. Bu dilin zənginliyini qorumaq, onun hər sözündə gizlənən mədəniyyət qatlarını yaşatmaq yalnız dilçi alimlərin deyil, hər bir vətəndaşın gündəlik həyatına daxil olmalıdır. Çünki dilimizdəki hər alınma söz, hər korlanmış ifadə təkcə dilin üslubuna deyil, millətin yaddaşına zərər vurur.

Fikrimcə, qloballaşma dövründə, informasiya axını içərisində ana dilini qorumaq həm mədəni mübarizə, həm də milli mövqe tələb edir. Gənclərin sosial mediada öz ana dilində düzgün yazması, musiqiçilərin, yazıçıların, jurnalistlərin dilin imkanlarını qoruması və inkişaf etdirməsi bu mücadilənin ən önəmli cəbhələridir. Bu gün qloballaşmanın dil üzərində təhdidlərini dilin keşiyində dayanmaqla qoruya bilərik. Dövlət başçısının vurğuladığı kimi, biz başqa dillərin inkişafına qarşı deyilik, amma öz dilimiz – öz kimliyimiz yad sözlərin əsarətində qalmamalıdır.

Bu gün Azərbaycan dilində bir fikri, hissi və ya hadisəni ən incə çalarlarla ifadə etmək mümkündür. Bizim dilimiz Qarabağda çalınan kamanın səsi qədər ahəngdar, muğam kimi zəngin, dastanlar qədər dərindir. Onu sevmək və qorumaq təkcə "borc" deyil, milli şərəf məsələsidir.

Ana dilimizin saflığını qorumaq gələcəyimizi, kimliyimizi və milli dirçəlişimizi qorumaq deməkdir. Bu həm elm, həm dövlət siyasəti, həm də mənəvi missiyadır. Prezidentin çağırışı bu missiyanı hər kəsin şəxsi məsuliyyəti səviyyəsinə qaldırır və bu, yalnız dövlət başçısının deyil, bütün xalqın dilə olan sevgisinin növbəti ehtiyacı kimi mənalanır.

*

Məktəb dərsliklərində təqdim olunan materialların dili ilə bağlı çətinliklər uzun müddətdir ki, təhsil mütəxəssisləri və müəllimlərin müzakirə mövzusudur. Onlar dərslik dilinin şagirdlər üçün çətin olduğunu, məzmunu qavrama prosesinə mane yaratdığını qeyd edirlər. Elm və təhsil naziri Emin Əmrullayev də brifinqlərdən birində dərsliklərin dilinin şagirdlərin oxuyub-anlaması baxımından çətinlik yaratdığını vurğulamışdı. Deməli, dərsliklərin dilinin sadələşdirilməsi ilə bağlı addımlar atılmalıdır.

**Elnur ƏLİYEV, Təhsil İnstitutunun direktor əvəzi, elm və təhsil nazirinin müşaviri:**



– Sirr deyil ki, hazırda bəzi dərsliklərin istifadəsi şagirdlər üçün müəyyən çətinliklər yaradır. Bu kimi hallar məktəblərdə aparılan müşahidələr vasitəsilə müəyyən edilir. Təhsil İnstitutu dərslikləri mütəmadi keyfiyyət ekspertizasına cəlb edir. Hər il yeni hazırlanmış dərsliklərlə bağlı institutun mütəxəssisləri dərs dinləmələri aparır və müəllimlərdən dərsliklərin necə istifadə olunması barədə məlumat toplayır. Eyni zamanda, şagirdlərin dərsliklərdən istifadə səviyyəsi də qiymətləndirilir. Toplanmış məlumatlar əsasında dərslik müəllifi komandalarına təklif və tövsiyələr təqdim olunur. Dərsliklərin toplanılması və qiymətləndirilməsi prosesi davamlı fəaliyyət olaraq həyata keçirilir.

Mütəxəssislərin qənaətinə görə, Elm və Təhsil Nazirliyi tərəfindən yeni dərsliklərin hazırlanması üzrə yaradıcı komandaların tərkibində minimum bir neçə dil redaktoru və korrektorun, həmçinin elmiliyin dəqiqliyini təmin etmək məqsədilə elmi redaktorların iştirakı təmin edilir. Dərsliklərin dilinin şagirdlər tərəfindən rahat mənimsənilməsi üçün sadə olmasına diqqət yetirilir. Eyni zamanda, vacib məqam ondan ibarətdir ki, dilin sadələşdirilməsi məzmunun elmi dəqiqliyinə və fənnin mahiyyətinə xələl gətirməməlidir.

Həmçinin Azərbaycan Respublikası Təhsil İnstitutunda hesab edilir ki, bəzi fənlərin spesifikliyi səbəbi ilə terminologiya mürəkkəb görünə bilər və bu, normaldır. Yaradıcı heyət qarşısında qoyulan əsas tələblərdən biri də məzmunun keyfiyyətini aşağı salmadan və elmi dəqiqliyinə xələl gətirmədən dərsliklərin dilinin sadələşdirilməsini təmin etməkdir.



**Vasif SADIQLI, Filoloji Araşdırmalar və Dil Monitorinqi Mərkəzinin sədri:**

– Azərbaycan dili milli dövlətçiliyin başlıca rəmzlərindən biridir. Müstəqillik dövründə onun geniş istifadəsi, əsaslı tədqiqi, ölkədə dilçilik elmi sahəsində vəziyyətin yaxşılaşdırılması üçün əlverişli zəmin yaradılıb. "Dövlət dili haqqında" Azərbaycan Respublikasının Qanunu ilə dövlət dilinin hüquqi statusu, işlənməsi, qorunması və inkişafı sahəsində dövlətin əsas vəzifələri müəyyən edilib. Həmin Qanuna əsasən, dövlət dilinin saflığının qorunması, dilçilik elminin nəzəriyyəsi və praktikasının inkişafı üçün müvafiq şəraitin yaradılması və tədbirlərin həyata keçirilməsi, xarici ölkələrdə yaşayan azərbaycanlıların Azərbaycan dilində təhsil almalarına, bu dildən sərbəst istifadə etmələrinə köməklik göstərilməsi dövlətin vəzifələrinə daxildir.

Prezident İlham Əliyev AMEA-nın 80 illik yubiley yığıncağındakı çıxışında deyib: "Ana dilimiz çox zəngindir və xarici kəlmələrə ehtiyac da yoxdur. Düzdür, beynəlxalq leksikon var və hər birimiz bu leksikondan istifadə edirik. Amma əgər Azərbaycan dilində əzəli bir kəlmə varsa, başqa dildən kəlməni gətirib əvəzləmək nə məqsəd daşıyır? Bu, ya səhvdir, ya təxribatdır. Hər ikisi də qəbuledilməzdir". Deyilən neqativ halların qarşısının alınması üçün dövlət dilindən istifadəyə nəzarət edən kadrlar diqqətlə seçilməli, bu iş təsadüfi şəxslərə tapşırılmamalıdır. Ölkədə ədəbi dilin zənginləşməsi prosesini tənzimləyən ayrıca quruma ehtiyac olduğunu bildirmişik. Çünki hazırda bir gündə "Oksford" lüğətinə orta hesabla 16,5 söz daxil olur. Bu, bir ildə 6 min neologizm deməkdir. 10 ildən sonra dilimizin 60 minə yaxın alınma söz yükü altında əzilməsini istəmirik. Hazırda bizdə termin yaradıcılığı ilə ictimai əsaslarla məşğul olunur. Amma Türkiyədə yeni sözlərlə 30 nəfərlik ştatlı işçidən ibarət bir qurum məşğuldur. İranda isə analoji sahə ilə məşğul olanların sayının 100-ə qədər olduğu bildirilir. Fikrimizcə, belə bir qurum Azərbaycan dilinin lüğət tərkibinin mahiyyətcə dolğunlaşması, inkişafı, zənginliklərinin qorunub saxlanması və müasirləşməyə uğurla uyğunlaşa bilməsi üçün çox gözəl imkanlar aça bilər.

Ana dilimizi uzaq dillərlə yanaşı, yaxın dillərin də mənfi təsirlərindən qorumaq lazımdır. Mərhum akademik Tofiq Hacıyevin bir fikrini xatırlatmaq istərdim: "Dillərin ayrılması irəli gedən bir prosesdir, geriyə dönmür. Vaxtilə ana dil olub, ondan ayrılmalar getməyə başlayıb. Bu, tarixi inkişafın məntiqidir. Geriyə inkişaf, əgər buna inkişaf demək olarsa, assimilyasiyadır, zorakılıqdır".

Bəzi şəxslərin cəfəng siyasi mülahizələrlə ana dilimizi başqa dillərin törəmə strukturuna çevirmək cəhdləri, dilimizdə oturuşmuş bir sıra sözlərin alınma olduğunu bəhanə edib, onları dildən çıxarmaq çağırışları zərərlidir, antimillidir, təhlükəlidir. Bu, Türkiyədə olduğu kimi, indiki nəsillə keçmiş nəsillər, ədəbi, elmi, mədəni irsimiz arasında uçurum yaratmaq deməkdir. Belə olarsa, gələcək nəsillər, hətta Vaqifi, Zakiri, Səməd Vurğunu, Mirzə Cəlili oxuyan zaman lüğətdən istifadə zərurəti ilə üzləşərlər. Nəhayət, onu da unutmaq olmaz ki, dil təkcə verbal ünsiyyət vasitəsi deyil, o həm də mədəniyyətin yaşamasının spesifik üsulu, mədəni kodların formalaşması faktorudur. Burada Üzeyir Hacıbəylinin sözlərini xatırlatmaq yerinə düşərdi: "Ana dilimizə əhəmiyyət verməsək, ola bilər ki, bir gün dilimiz itər-batar, yox olar və bir millətin də ki, dili batdı, o millət özü də batar, çünki bir millətin varlığına, yaşamasına isbat-vücud onun dilidir".

*



**Azər TURAN, "Ədəbiyyat qəzeti"-nin baş redaktoru, filologiya üzrə fəlsəfə doktoru:**

– Bu gün həyatımız geniş, qlobal proseslərlə təmasda keçir. Belə bir reallıqda Azərbaycan dili qloballaşan dünyanın sıxışdırılan deyil, söz sahibi olan dillərindən biri olmaq haqqına malikdir. Dilin qorunması, inkişafı, lüğət tərkibinin zənginləşməsi həm də qalib millət olmağımızın nəticəsi və göstəricisidir. Dil millətin köküdür, toplumu millət edən başlıca amillərdən biridir. Dilimizin saflığını qorumaq milli kimliyimizi, bir millət olaraq yaşama haqqımızı qorumaq deməkdir.

Ədəbiyyat yaddaşı olan dilin əsasında formalaşsa, daha gözəl və üstün nəticələr verər. Ədəbiyyat, eyni zamanda, dilin lüğət tərkibini zənginləşdirməlidir. Bunu da təbii ki, ədəbiyyatı yaradanlar - yazıçılar etməlidir.

Xatırladım ki, sovet dövründə bunu Azərbaycanda ən çox edən şairlərdən biri Rəsul Rza olub. Bu gün Azərbaycan dilinin lüğət tərkibinə Rəsul Rzanın poeziyasından keçmiş sözlər kifayət qədərdir. Məsələn, "göydələn", "ötəri" və başqaları. Eləcə də bu gün artıq ümumişlək olan "çimərlik" sözü dilimizə Xəlil Rzanın yadigarıdır. Hər şair, hər yazıçı dil fondumuza milli kökü və yaddaşı olan, səslənərkən narahatlıq yaratmayan, dilimizin arxitekturasını pozmayan, xələl gətirməyən bir-iki söz əlavə etsə, onun faydasını hər yerdə hiss edərik.

Dilin mühafizəsi üçün millətin müstəqil olması vacib şərtdir. Lakin Azərbaycan dili təkcə sovet hakimiyyəti dönəmində deyil, ondan əvvəl - Rusiya imperiyasının tərkibində olduğumuz dövrdə də ciddi təzyiqlərlə üzləşib. O zamanlar dilimizi ədəbiyyat qorudu. Bu mənada, ən böyük xidməti Molla Pənah Vaqif göstərib. Vaqif bunu vəzir kimi yox, şair kimi edib. Saray dili farsca idi. Xalq isə Vaqifin şeirlərini oxuyub öz milli və həm də estetik meyarlarını müəyyənləşdirdi.

Ədəbiyyat adamları hər dövrdə zamana uyğun sözlər yaratmaqla dilin lüğət tərkibini zənginləşdirməlidir. Xalqın içindən gələn söz dilə, adətən, təzyiqlə qəbul etdirilən sözlərdən daha tez yatır, tez yayılır və ümumişlək olur. Türk Dövlətləri Birliyinin reallaşdığı bir mərhələdə türk dillərinin də qovuşmasına, bir-birinə yaxınlaşmasına ehtiyac var. Azərbaycanda dilimizin saflığını daha məsuliyyətlə qorumalıyıq, çünki bu, həm də bütün türkləri birləşdirən amildir.

Qarşıdan gələn Türkoloji Qurultayın 100 illiyi ilə bağlı maraqlı bir tarixi faktı da xatırladım: Həmin qurultayda çıxış edən özbək alimi Qazi Alimcan deyirdi ki, azəri türk şairi Sabiri Türküstanın hər yerində oxuyurlar, anlayırlar, zövq alırlar. Demək, xalqa yaxınlaşdıqca anlaşma imkanı da artır. Bu halda ümumi ədəbi dildə həmlənin aşağıdan gəlməsi ehtimalı böyükdür. Dilin özü birləşməyi və yaxınlaşmağı təmin edir. Buna heç bir kimsə mane ola bilməz.

Bəzən Şah İsmayıl Xətaiyə yönələn əsassız yanaşmalar olur. Bəziləri - onların arasında yazıçılar da, siyasətşünaslar da var – Xətai haqqında istədikləri tərzdə danışırlar. Halbuki dil məsələsi baxımından Azərbaycan dili, xüsusən də Azərbaycan ədəbi dili geniş mənada Xətaiyə borcludur. Bəkir Çobanzadə yazırdı ki, XVI əsr Azərbaycan türkcəsi ədəbiyyatının bədii yüksəkliyi, vertikalı Füzuli ilə ölçülürsə, bu dilin içindəki bədii və lisani komponentlərin genişliyi, horizontal meyarı Xətai ilə təmsil olunur. Çobanzadəyə görə, Xətai Azərbaycan türk dilini daha geniş və zəngin şəkildə şeirlərində işlədən və bu dilin dialekt xüsusiyyətlərini əks etdirən birinci şairdir. Deməli, Xətainin irsini qorumaqla dilimizi də qorumuş oluruq.

Ədəbiyyat dillə bağlı bu missiyanı başqa tarixi dövrlərdə də yerinə yetirib. Şah dövrü İranında panfarsizm təbliğatçıları Azərbaycan dilinə "dönmə dil" deyəndə, Əhməd Kəsrəvilər dilimizi hədəfə alanda Şəhriyar "Heydərbabaya salam"ı yazmaqla Azərbaycan türkcəsinə möhtəşəm abidə ucaltdı.

Dil xalqın namusudur, əgər bu belədirsə, deməli, onu hamımız birlikdə qorumalıyıq. Təkcə sözləri yox, sözlərin harmoniyasını, dilin ahəngini, ritmini, daxili musiqisini də. Dilin saflığını qorumaq əslində millətin mənəvi saflığını qorumaqdır.



**İbrahim İLYASLI, Azərbaycan Yazıçılar Birliyi Poeziya bölməsinin rəhbəri, şair:**

– Cənab Prezidentin "Bizi millət kimi qoruyub saxlayan məhz dilimiz, ədəbiyyatımız, tariximiz, ənənələrimizdir", – deyə bir fikri var. Biz dilimizin saflığını ona görə qorumalıyıq ki, kürəsəlləşmə dövründə onu kənar təsirlərdən, əcnəbi dil basqılarından qoruyub, gələcək nəslə saf, təmiz bir Azərbaycan dili ötürək. Zaman-zaman üstümüzə yeriyən ərəb, fars, rus dilləri basqısının acılarını hələ də çəkməkdəyik.

Yeri gəlmişkən, bu mənada, ana dilimizin bütövlüyünü tamamlayan dialekt, şivə dediyimiz bir anlayışı da unutmamamalıyıq. Sovetlər dönəmində lüğət tərkibindən çıxarılmış, əslində qədim türkcəmizdə olan sözləri də lüğətimizə, orfoqrafiya kitabımıza yenidən daxil etməliyik. Türk dünyasının yenidən bir dil ailəsi olaraq gündəmə gəldiyi bir zamanda bu, bizim üçün ən önəmli bir məsələ olmalıdır. Elektriki naqil ötürdüyü kimi, dili də bu dildə danışmış ata-babalarımız, ana-nənələrimiz ötürür bizə. Naqil qırılan yerdə enerji, dil qırılan (təhrif olunan) yerdə də millət yox olur. Latın dilinin timsalında bu faciə bir örnəkdir. Saf dil varsa, saf da millət var.

Ana dilinin dövlət qurulmasında və dövlətçiliyin yaşamasında nə qədər önəmli bir yer aldığını zaman-zaman bizdən gizli saxlanılmış, müstəqillik dövrümüzdə isə yenidən öyrənilməyə başlanmış ən yeni tariximiz xalqımıza sübut etdi. Prezident İlham Əliyevin Birinci Türkoloji Qurultayın 100 illik yubileyinin keçirilməsi haqqında Sərəncamı isə bütövlükdə türk dili ailəsinin uluslararası miqyasa yenidən və daha yetənəkli çıxacağına böyük ümidlər verir.

Mən ədəbiyyat adamıyam. Ədəbiyyat, hər şeydən öncə, ana dili hadisəsidir. Hər bir yazı adamı, ilk növbədə, ana dilinin bütün incəliklərinə bələd olmalıdır. Təəssüf ki, bəzən həm sosial platformalarda, həm də yazılı mətbuatımızda bunun hansı faciələrə gətirib çıxaracağının fərqində olmayanlar da var. Müşahidələr göstərir ki, yeni nəsil azərbaycanlılar – Azərbaycan övladları özlərindən asılı olmayaraq, dilimizin saflığının daşıyıcısı olmaq anlamında müəyyən çətinlik çəkirlər. Məişət dilindən tutmuş, gənc yazarların nəsr, publisistika, poetik mətnlərinə qədər uzanıb gedir bu problem.

Buna görə də Prezident İlham Əliyev mövcud durumu nəzərə alıb, bu məsələyə xüsusi önəm verərək, AMEA-nın yubileyindəki çıxışında bütün qələm adamlarına və ümumən, ictimaiyyətə ciddi mesajlar ismarlayıb. Təkcə qələm adamları deyil, aidiyyəti olan bütün qurumlar bundan nəticə çıxarmalıdır. Rəsmi yazışmalardan tutmuş, reklam lövhələrinə qədər bütün mətnlər ciddi nəzərdən keçirilməlidir.

Teleradio qurumlarına ana dilini mükəmməl mənimsəmiş, orfoqrafiya və orfoepiya qaydalarını dərindən bilən mütəxəssislər cəlb edilməlidir.

Unutmaq olmaz ki, dil var olmaq hadisəsidir.

*Səhifəni hazırladı:*
*Əli NƏCƏFXANLI*
*XQ*

# Qazan xanlığı – yüksəlişi və süqutu

**Qazan xanlığı fəaliyyət göstərdiyi müddətdə burada bütün sahələr, o cümlədən memarlıq və monumental memarlıq geniş inkişaf etmişdi. Ağ daşdan gözəl məbədlər, mədrəsələr və məscidlər inşa olunmuşdu, oyma sənəti də geniş yayılmışdı. Məscid və mədrəsələrdə böyük kitabxanalar var idi. Qazan güclü elm və ilahiyyat mərkəzinə çevrilmişdi. Xanlığın paytaxtı Qazan şəhərində memarlıq abidələrinin və məscidlərin tikintisi üçün böyük vəsait ayrılırdı. Şəhərdə iri karvansaralar, qonaq evləri, məscidlər, şərq üslubunda hamamlar tikilir, planlı küçələr salınırdı. Ümumilikdə, Qazan xanlığının mədəniyyəti Volqa bulqarlarının və Qızıl Orda mədəniyyətinin elementlərini özündə əks etdirmişdi, şəhər əhalisinin çoxu savadlı idi.**

Bunu Qazan Kremlində qorunub saxlanılan əlyazmalar, memarlıq abidələri, xüsusən də keçmiş Nurəli məscidi və arxeoloji qazıntılar zamanı o dövrə aid aşkar edilən maddi mədəniyyət nümunələri təsdiq edir. Xanlığın ərazisində çoxlu şəhər olub: Ələt, Tətəş, Qullar, Şəki, Alabuqu, Arça, Kaşan, Çallı, Çori, Suketay və s. xanlıqda daşoyma sənəti, zərgərlik, qiymətli metallarla və qiymətli daşlarla birləşdirilmiş müxtəlif bəzək əşyalarının yaradılması ən yüksək inkişaf səviyyəsinə çatmışdı. 1552-ci ildə Qazanda İran, Həştərxan, Krım, Türküstan, Qafqaz və digər ölkələrdən gələn 5 min əcnəbi tacir yaşayıb. Volqa bulqarlarının erkən dövründə bölgədə meydana çıxan və Qızıl Orda dövlətində də istifadə olunan, ərəb əlifbasına əsaslanan yazı Qazan xanlığında da geniş yayılmışdı. Dini təhsil mədrəsələrdə öyrədilirdi, məşhur Kul Şərif mədrəsəsində yüksəksəviyyəli təhsil verilirdi.

Qazan xanlığında Şərq poeziyası geniş yayılmışdı. Xanlıq öz şairləri ilə məşhur idi. XV əsrin sonu - XVI əsrin əvvəllərində Məhəmməd Əmin, Məhəmmədyar, Ümmi Kamal, Qarif bəy, Maksudi və XVI əsrin birinci yarısında məşhur Qazan seyidi kimi tanınan Kul Şərif və bir çox başqa saray və xalq şairi var idi. O dövrdə Qazan xanlığının poetik irsinin zirvəsi Məhəmmədyarın 1539-cu ildə yazılan "Tuxvai-mərdan" ("İnsanların hədiyyəsi") və 1542-ci ildə "Nury-sodur" ("Qəlblərin nuru") əsərləri sayılır və şair şeirlərində xeyirxahlığı, ədaləti, həmçinin xalqa sədaqətlə xidmət dəyərlərini önə çəkir.

Tarixdən məlum olduğu kimi, XVI yüzilliyin 60-cı illərində Sibir və Türküstanda Çingiz xanın nəslindən olan Şeybanilər sülaləsi hakimiyyətə gəlmişdi. Elə o dövrdən başlayaraq çar Rusiyası Sibirdə öz ata-babalarının ərazilərində yaşayan türk xalqlarının bu torpaqlardan Rusiyanın içərilərinə köçürülməsi siyasəti həyata keçirirdi.

Bir tərəfdən, Volqaboyuna və Urala gətirilən rusların yerləşdirilməsi, digər tərəfdən, zorla xristianlaşdırma siyasəti, yerli türk əhalisinin öz doğma yurdlarından sənayenin inkişaf etdirilməsi adı ilə Rusiyanın Avropa hissəsindəki ərazilərə köçürülmələri ciddi narazılıqlara səbəb olur, çar hökumətinə qarşı mübarizə daha da genişlənirdi.

Çar Rusiyası hökuməti XVIII yüzilliyin ortalarına qədər təkcə Qazan və ətraf ərazilərdə 500-dən çox məsciddən 400-nü tamamilə məhv etmişdi. XVIII yüzilliyin 70-ci illərinin əvvəllərində Rusiya çarına qarşı baş vermiş üsyanlarda türklərlə yanaşı, digər Volqaboyu və Ural xalqları yaxından iştirak ediblər.

Üsyanlar yatırılsa da, Rusiya hökumət orqanları XVIII yüzilliyin sonlarında müsəlman türklərə Qazanda mədrəsələr açmağa və daşdan məscid tikməyə icazə verməyə məcbur olur, qəribə olsa da, türk və rus zadəganlarının hüquqları eyniləşdirilir.

Qazan xanlığında əhalinin əsas məşğuliyyəti əkinçilik və maldarlıq idi. Tatarlarda əsas qoşqu at sayıldığından onların böyük at ilxıları olub. Qədim bulqarların ənənəsini davam etdirən sənətkarlar dəri, gön və xəz məmulatı istehsal edib, müxtəlif metal növlərindən əşyalar hazırlayıblar və o məhsullar həm daxildə, həm də xaricdə satılıb. Qazan şəhərində XV əsrin sonlarından etibarən iki böyük daimi bazar fəaliyyət göstərib. Bu bazarlarda həm xanlığın kəndlərindən gələnlər, həm də Volqaboyundan, Sibirdən və Şərqi Avropadan, həmçinin Krımdan və rus dövlətindən gələn tacirlər alver ediblər.

**Qazan xanlığı.** Qızıl Orda dövləti dağıldıqdan sonra XIII əsrin ikinci yarısında onun yerində İsgi-Qazan knyazlığı yaranır. Çox da güclü olmayan Qazan knyazlığı 1399-cu ildə Yuri Dmitriyeviçin silahlı dəstələri tərəfindən dağıdılır və Qazan şəhəri təxminən 40 il dağılmış vəziyyətdə qalır. Qazan xanlığının yaranması ilə şəhərin bərpasına başlanılır.

Qazan xanlığı 1438-ci ildən 1552-ci ilədək fəaliyyət göstərib. Ərazisi 75.000 kvadratkilometr, paytaxtı Qazan şəhəri, dilləri qədim tatar, çuvaş dili, rəsmi dili qədim tatar dili, dini İslam, şamanizm olub.

Qazan xanlığı müasir Tatarıstan, Mari El, Çuvaşiya, Mordoviya ərazilərini, eləcə də Udmurtiya və Başqırdıstanın bir hissəsini, Volqa çayının sağ sahillərindən Kama çayına qədər olan geniş torpaqları əhatə edib. Xanlığın qərb sərhədi Moskva knyazlığına qədər uzanıb. Qazan xanlığından Qafqaza, Xəzər dənizi sahilinə, Türküstana ticarət yolları gedib. Hələ qədim zamanlardan bu torpaqlarda Qazan tatarlarının, marilərin, mordvaların, udlaudların əcdadları yaşayıb. Vyatka çayı sahilində udmurtlar, geniş meşə ətəklərində çuvaşlar, mordvalar, marilər, başqırdlar yaşayıblar.

Qazan xanlığı Qızıl Orda dövləti dövründə Qazan ulusu adı ilə Qızıl Orda dövlətinə tabe idi. Qazan xanlığının yaradıcısı Toxtamışın nəvəsi, Qızıl Orda hökmdarlarından Ulu Məhəmməd xan olub. Ulu Məhəmməd xan Suzdal knyazlığını məğlub etdikdən sonra Moskva knyazlığını da özünə tabe edib. Ulu Məhəmməddən sonra oğlu Mahmud, ondan sonra Mahmudun oğlu Xəlil, Xəlildən sonra qardaşı İbrahim taxta çıxsa da, onlar uğursuz hökmdar kimi tarixə düşüblər.

Dövlətin başında xan dursa da, əslində qurumu iri feodallar şurası (divan) idarə edib. Xanlıq daruq (dairə) və uluslara (vilayət) bölünüb. Qazan xanlığının ictimai tərkibi 4 məşhur nəsildən – Şirin, Barqın, Arqın, Qıpçaq olan iri feodallar, sultan, əmir, mirzə, ulan, kazak, tacir və sənətkarlardan, azad kəndlilər, asılı kəndlilər, təhkimli hərbi əsirlər və kölələrdən ibarət idi. Xanlıqda feodal istehsal üsulu mövcud idi, torpaqlar tək-tək



Qazan xanlığının ərazisi


Qazan xanlığının bayrağı

feodalların əlində cəmlənmişdi. Kəndlilər feodallara məxsus icmalarda yaşayır və icarəyə götürdükləri torpaq paylarının əvəzində illik yasaq (vergi) ödəyirdilər. Məsələn, Türküstanda bu, "iqta" adlanıb.

### Ulu Məhəmmədin rus torpaqlarına yürüşləri

Ulu Məhəmməd xan və oğlu Mahmudun dövründə Qazan xanlığı Rusiya torpaqlarına yürüşlərə başlayır. 1439-cu ildə Ulu Məhəmməd üç minlik ordu ilə Moskvaya yürüş edərək rus ordusunu məğlub edir, 1444-cü ildə Nijni-Novqorod, Kolomna və bir neçə digər Rusiya şəhərini tutur, eyni ildə Nijni-Novqorod və Ryazan knyazlıqlarına hücum edir, 1445-ci ildə Suzdal yaxınlığında rus qoşunlarını məğlub edir və Böyük Hersoq II Vasilini əsir götürərək Moskva knyazlığına xərac qoyur, döyüşdən iki ay sonra xan böyük məbləğdə pul alıb II Vasilini azad edir. Ulu Məhəmməd ömrünün sonuna kimi rus knyazlıqları ilə müharibə aparıb. 1445-ci ildə Ulu Məhəmmədin ölümündən sonra oğlu Mahmud xan hakimiyyətə gəlir və 1466-cı ilədək xanlığı idarə edir. Rusiyanın Volqaboyunda işğalçılıq siyasətinə qarşı çıxan Mahmud xan 1446-1448-ci illərdə Murom, Vladimir, Ustyuq və başqa əyalətlərə yürüşlər keçirib. 1439-cu ildə Ulu Məhəmməd xan Moskvaya yaxınlaşıb şəhəri mühasirəyə alsa da, on bir gündən sonra geri çəkilib.

1446 və 1448-ci illərdə Mahmud xan Moskva knyazlığına qarşı yeni yürüşlərə başlayır və xərac ödənilməsini tələb edir. Mahmud xan şərqə və şimal-şərqə yürüşləri zamanı Vyatka, Udmurt və digər əraziləri tutur, bununla da Qazan xanlığının şərq sərhədləri Urala çatır.

### 1467-1469-cu illər Rusiya-Qazan müharibəsi

1467-ci ildə Mahmudun ölümündən sonra böyük oğlu Xəlil xan taxta çıxır və Qazan xanlığını iki müharibə ilə qarşı-qarşıya qoyur. Xəlil xan kobudluğu ilə tarixə düşüb. Bir il sonra xan qəfildən ölür və qardaşı İbrahim taxta çıxır. Lakin zadəganlar ona qarşı suiqəsd hazırlayırlar.

1467-ci ildə Mahmud xanın ikinci oğlu İbrahim taxta çıxır, o, ruslar tərəfindən ələ alındığından Rusiyanın Qazan xanlığını işğal etməsinə əlverişli şərait yaradır. 1467-ci ildə Moskvanın Böyük Hersoqu III İvanın dəstəyi ilə Qazan xanlığına yürüş başlayır, lakin məğlubiyyətlə nəticələnir. Rus-Qazan müharibəsi 1469-cu ildə sülh müqaviləsi və əsirlərin mübadiləsi ilə başa çatır.

### 1478-ci il Rusiya-Qazan müharibəsi

1478-ci ildə III İvan Qazana yürüş edir, müharibə İbrahim xanla sülh müqaviləsi bağlamaqla yekunlaşır. 1479-cu ildə İbrahim xanın ölümündən sonra Qazan xanlığında daxili çəkişmələr başlayır və bu, İbrahim xanın oğlu İlhamın taxt-taca iddia edən qardaşı Məhəmməd Əminin sürgün olunması ilə nəticələnir və İlham xan taxta çıxır. İlham xan iki dəfə, 1479-1484-cü və 1485-1487-ci illərdə hakimiyyətdə olub.

### 1487-1497-ci il Rusiya-Qazan müharibələri

İbrahim xanın oğlu Məhəmməd Əmin Moskvanın dəstəyi ilə 1482-ci ildən İlham xana qarşı müharibəyə başlayır və 1484-cü ildə Məhəmməd Əmin Qazanı işğal edir, lakin 1485-ci ildə devrilir, qardaşı İlham xan yenidən taxta çıxır. 1487-ci ildə Qazana qarşı rusların yürüşü təşkil edilir və uzun mühasirədən sonra İlham xan devrilir. Məhəmməd Əminin hakimiyyəti dövründə Qazan xanlığı faktiki olaraq Moskvanın protektoratı altında idi və Moskva ilə vahid xarici siyasət yürüdürdü. 1493-cü ildə Böyük Ordaya qarşı birgə mübarizə apardılar. Bu arada Məhəmməd Əmin xan divanın səlahiyyətlərini məhdudlaşdırır ki, bu da 1495-ci ildə zadəganlar arasında narazılığa səbəb olur və onlar Məhəmməd Əmin xanı taxtdan salır, Qaraçibəylər Qul Məhəmməd, Urak, Sadır və Agiş Şiban qəbiləsindən olan Sibir şahzadəsi Mamuku taxta çıxarırlar. O, 1496-1497-ci illərdə hakimiyyətdə olub. 1497-ci ildə Məhəmməd Əminin əvvəllər Rusiya dövlətində yaşamış kiçik qardaşı Əbdül Lətif xan taxta çıxır. 1502-ci ildə Qul Məhəmməd Əbdül Lətifi devirir və rus səfirlərinin köməyi ilə Məhəmməd Əmin xanın Qazana qayıtmasına nail olur.

### 1505-1518-ci illərdə fasilələrlə Rusiya-Qazan müharibələri


Qazan xanlığının hərbçiləri

1505-1507-ci illərdə Məhəmməd Əmin Qazan yaxınlığında Moskva qoşunlarına iki dəfə ciddi məğlub olur, 1507, 1508, 1512, 1516-cı illərdə Moskva ilə dörd sülh müqaviləsi imzalanır və Qazan xanlığı ilə Rusiya dövləti arasında qonşuluq münasibətləri bərpa olunur. Məhəmməd Əminin 1518-ci ilin dekabrında ölümündən sonra 1519-cu ildə Moskva yaxınlığındakı Qasım xanlığının xanı Şeyx Əliyar sultanın oğlu Şah Əli Qazan taxtına çıxarılır, o isə burada zadəganların imtiyazlarının qorunub saxlanmasına söz verir. Lakin xanlıqda rus məsləhətçilərinin artan təsiri və bir sıra digər səbəblər zadəganların yeni sui-qəsdinə və xanın qovulmasına səbəb olur.

### 1521–1524-cü illər Rusiya-Qazan müharibəsi

1521-ci ildə Krım sultanı Sahib Gəray anası Nur Sultanın dəstəyi ilə Qazan taxtına çıxır. Həmin ilin avqustunda xanın qüvvələri Nijni-Novqorod, Murom, Klin, Meşçera və Vladimir torpaqlarına hərbi yürüşə başlayır və Kolomnada Krım xanı Məhəmməd Gəray ilə birləşir və Moskvanı mühasirəyə alır, Moskvanın Böyük Şahzadəsi III Vasili sülh müqaviləsi imzalamağa məcbur edilir. Nəticədə Rusiya dövləti Qazan xanlığına xərac ödəməyə məcbur olur. Qazan xanlığı isə 28 il Krım xanlığına tabe olur.

1523-cü ildə Sahib Gəray yenidən Moskva və Həştərxana qarşı uğursuz müharibəyə başlayır. Yeni bir hücumdan qorxan Sahib Gəray qardaşı, Krım xanı Səadət Gərayın yanına səfir göndərərək Qazana silah və sursat göndərilməsini istəsə də Səadət kiçik qardaşına kömək göstərməkdən imtina edir. Daha sonra, 1524-cü ilin yazında Sahib Gəray Osmanlı İmperiyasının vassalı olduğunu qəbul edərək Türkiyə Sultanı Süleymandan kömək istəyir, lakin o da kömək göndərməkdən imtina edir.

1524-cü ilin yazında III Şahzadə Vasili Qazan xanlığına qarşı yeni böyük bir yürüş təşkil edir. 150.000 nəfərlik rus ordusu Qazana yaxınlaşan zaman Sahib Gəray 13 yaşlı qardaşı oğlu Səfa Gərayı paytaxtda qoyub Qazandan Krıma qaçır. Zadəganlardan Bulat Şirin, Əmir Atuş (Otuç), Atalıq Talış və başqalarının dəstəyi ilə rus ordusuna müqavimət göstərirlər və 1526-1528-ci illərdə Moskva ilə sülh bağlanır.


Qazan xanlarının uyuduğu məzarlıq

### 1530-1531-ci illər Rusiya-Qazan müharibəsi

1530-cu ildə Rusiya hökuməti sülh müqaviləsini pozaraq Qazana qarşı yürüşə başlayır. Qazan xanlığı Noqay Ordası və Həştərxandan göndərilən qoşunlarının köməyi ilə rus alaylarını məğlub edir. Xanın hakimiyyətinin yenidən güclənməsi Moskvaya güvənən zadəganların üsyanına səbəb olur. 1531-ci ildə Səfa Gəray sürgün olunur, tərəfdarları isə edam edilir. 1531-ci ildə Moskvanın tərəfdarları olan divan üzvləri Xanbikə Gövhərşad, Bulat Şirin və Murzə Kiçi Əlinin rəhbərlik etdiyi qrup Qasım xanı Şeyx Əliyar sultanın 15 yaşlı oğlu Can Əlini Qazan taxtına dəvət edir. Can Əli yetkinlik yaşına çatmadığına görə onun anası Xanbikə Gövhərşad Can Əliyə lələ təyin olunur və bütün hakimiyyət Gövhərşadın əlində cəmləşir. Tezliklə Moskvanın razılığı ilə Can Əli Noqay Mirzə Yusifin qızı Syuyumbikə ilə evlənir və bu evlilik Gövhərşadın lələ statusuna son qoyur.

### 1535–1545-ci illər Rusiya-Qazan müharibəsi

1533-cü ildə Moskvanın Böyük Knyazı III Vasilinin ölümündən sonra Moskvanın Kazan xanlığındakı təsiri kəskin şəkildə zəifləyir və bu da zadəganlar arasında xanın və onun ətrafındakıların siyasətinə qarşı üsyana səbəb olur. 1535-ci ildə Bulat Şirin və Gövhərşad Şah Əli xanı devirirlər və Səfa Gəray taxta çıxır. Can Əlinin ölümündən sonra Səfa Gəray Syuyumbikə ilə evlənir.

Moskvadakı daxili çəkişmələrdən istifadə edən Səfa Gəray 1536-1537-ci illərdə Rusiya dövlətinə qarşı uğurlu yürüş keçirir. 1541 və 1545-ci illərdə xanın dəyişdirilməsi üçün Moskva ilə danışıqlar aparılır. Buna cavab olaraq Kazan zadəganlarının bir hissəsi edam edilir və bu da digər zadəganların etirazına səbəb olur. 1545-ci ildə Səfa Gəray qayınatası Noqay bəyi Yusifin yanına qaçır, Əli xan yenidən taxta çıxarılır. Səfa Gəray Yusif bəydən kömək aldıqdan sonra 1546-cı ildə ordu ilə Qazana qayıdır və Şah Əli xanı devirir, rəqiblərini edam etdirir.

1549-cu ilin mart ayında Səfa Gərayın ölümündən sonra hakimiyyət onun Syuyumbikədən olan kiçik oğlu Ütyamış Gərayın əlinə keçir. Salnamələrə görə, təkcə 1521-ci ildən 1545-ci ilə qədər olan dövrdə Qazan xanları əsasən Nijni-Novqorod, Vyatka, Vladimir, Kostroma, Qaliç və Murom yaxınlığındakı bölgələrdə Rusiya torpaqlarına təxminən qırx yürüş ediblər.

### 1545-1551-ci illər Rusiya-Qazan müharibəsi

Qazan zadəganları arasındakı fikir ayrılıqlarından və xanın hakimiyyətinin zəifləməsindən istifadə edən Moskva hökuməti 1545-1551-ci illərdə Qazan xanlığına yeni yürüşlərə başlayır.

1551-ci ildə çar IV İvan Qazana qarşı uğursuz birbaşa hərbi yürüşlərindən sonra şəhərin kənarında, Sviyaqa çayının mənsəbində Sviyajsk qalası tikdirir ki, bu da Krımın hökmranlığından narazı olan dağlıq bölgənin əhalisinin çar tərəfinə keçməsinə şərait yaradır. 1551-ci ildə Qazan zadəganlarının oğlanları Xuday Qul, qaraçıbəy Nur Əli, Qul Şərif, Əmir Bəybars və başqalarının dəstəyi ilə Əli Qazan xanlığını yenidən ələ keçirir.

Xanın Dağlıq bölgəni rus çarına vermək qərarı zadəganlar arasında narazılığa səbəb olur. 1551-ci il sentyabrın 14-də keçirilən Böyük Qurultay xandan dağlıq bölgəni geri qaytarmağı tələb etsə də Əli xan tabe olmaqdan imtina edir və Rusiya qarnizonunun dəstəyi ilə zadəganlara qarşı repressiyalara başlayır, 70-dən artıq zadəgan öldürülür.

1552-ci ildə Əli xan taxtdan endirildikdən sonra Qazan xalqı çar IV İvana sədaqət andı içmək qərarına gəlir. Bu, Qazan xanlığında zadəganlar və əhalinin bir hissəsi arasında kəskin narazılığa səbəb olur. Bundan sonra Qazan xalqı qarnizonu dağıdır və Həştərxan Sultanı Yadigar Məhəmmədi taxta dəvət edərək Rusiya çarlığı ilə müharibəyə başlayırlar.

### 1552-1556-cı illər – Qazan xanlığının süqutu

1552-ci ilin avqustunda rusların Qazana böyük yürüşü başlayır. 40 günlük mühasirədən sonra şəhər divarları dağıdılır və 1552-ci il oktyabrın 2-də Qazana amansız hücum olur, əhalinin böyük hissəsi öldürülür, şəhər yandırılır. Qazan xanı Yadigar xan güclü müqavimət göstərsə də, əsir düşür və Moskvaya aparılır. Bununla belə, rus qoşunlarına qarşı mübarizə uzun müddət davam edir. 1552-ci ilin dekabrında iri zadəganlardan olan Hüseyn Seyidin başçılığı ilə milli azadlıq hərəkatı baş qaldırır, güclü müqavimətə baxmayaraq, hərəkat amansızcasına yatırılır.

Qazanın tutulması və Qazan xanlığı üzərində qələbənin şərəfinə çar IV İvanın əmri ilə Moskvadakı Qırmızı Meydanda Vasili Blajennı məbədi tikilir.

**Qazan xanlığının hökmdarları:**

*Ulu Məhəmməd xan, Keçmiş Qızıl Orda xanı İçkilə xanın oğlu, (hak.1438-1445).*

*Mahmud xan, Ulu Məhəmməd xanın oğlu (1445-1466).*

*Xəlil xan, Mahmud xanın oğlu (1466-1467).*

*İbrahim xan, Mahmud xanın oğlu (1467-1479).*

*İlham xan, İbrahim xanın oğlu (1479-1484, 1485-1487).*

*Məhəmməd Əmin xan, İbrahim xanın oğlu (1484-1485, 1487-1496, 1502-1518).*

*Mamuk xan (Tümen xanı) 1496-1497).*

*Əbdül Lətif xan, İbrahim xanın oğlu (1497-1502).*

*Şahəli xan, Qasım xanı Şeyx Əliyar Sultanın oğlu (1519-1521, 1546, 1551-1552).*

*Sahib Gəray xan, Krım xanı Mənqli Gərayın oğlu (1521-1524).*

*Səfa Gəray xan, Krım xanı Səadət Gərayın 13 yaşlı oğlu (1524-1531, 1536-1546, 1546-1549).*

*Can Əli xan, Qasım xanı Şeyx Əliyar Sultanın kiçik oğlu, Şah Əlinin qardaşı (1532-1535).*

*Utyamış Gəray xan, Səfa Gərayın ölümündən sonra iki yaşlı oğlu taxta çıxıb (1549-1551).*

*Yadigar Məhəmməd xan, Həştərxan xanı Qasım xanın oğlu (1552).*

*Əli Əkrəm xan, (Noqay sülaləsi), (1553-1556).*

### Qazan zadəganları xanlığın saxlanmasına uğursuz cəhd edir

Qazan xanlığının əhalisi dövlətçiliyin itirilməsini qəbul etməyib və 1552-ci ildən 1556-cı ilə qədər işğalçılara qarşı inadkar müqavimət göstərib. 1557-ci ilə qədər son müqavimət mərkəzləri yatırılır, Qazan xanlığının mövcudluğuna son qoyulur və bu ərazilər Rusiya dövlətinin bir hissəsinə çevrilir.

Noqay sülaləsindən olan Əli Əkrəm xan 1553-ci ildən Qazan xanlığının saxlanmasına cəhd etsə də, bu mümkün olmur.

Bununla belə, ruslar xanlıq əhalisinin azadlıq istəyini dərhal yatıra bilməyiblər və onlar bir neçə dəfə–1572-1573, 1581-1584-cü illərdə xanlığı bərpa etməyə uğursuz cəhdlər ediblər.

Ümumiyyətlə, 115 il yaşayan Qazan xanlığının tarixində on doqquz dəfə xan dəyişikliyi olub, bu illər ərzində 14 xan sui-qəsd nəticəsində devrilib, dövlət daxili münaqişələr üzündən zəifləməyə başlayıb, Moskva çarı IV İvan da məhz bundan istifadə edərək Qazan xanlığını tam olaraq işğal edib.

Beləliklə, Qazan xanlığı Rusiya çarlığının bir hissəsinə çevrilib, Orta Volqaboyunun əhəmiyyətli bir hissəsi Rusiya çarlığına birləşdirilib, rus çarı «Царь Казанский»–"Qazan çarı" titulunu alıb. Dərhal Rus Pravoslav Kilsəsinin üçüncü ən böyük Qazan Arxiyepiskopluğu yaradılıb və vaxt itirmədən arxiyepiskop təyin edilib.

Qazan Salnaməsində deyilir: “Çar IV İvan Qazan xanlığını məğlub etdikdən sonra xanın xəzinəsini, tacını, əsasını, Qazan xanlığının bayrağını və silahlarını öz “müqəddəs” torpağına aparmağı əmr etdi”.

***Qulu KƏNGƏRLİ,***
***XQ-nin Türküstan müxbiri***
**Daşkənd**

*Həmkarımızın yubileyi*

# Söz dünyasının düz adamı

**Həmkarının yubileyindən yazmaq onun ömür yolunu daha həssaslıqla əriş-arğac eləmək, onunla birlikdə yaşamaq kimidir. Düşünə-düşünə, yaza-yaza duyğulanırsan. Bu yubiley araşdırmasının sonunda mənalı, məhsuldar bir həyat tarixçəsinə bələdlik etməyinlə həm qürurlanır, həm də gərəkli bir borcu yerinə yetirdiyinə görə rahatlıq duyursan.**



Belə bir bələdçiliyin hekayətini "Xalq qəzeti"nin oxucularına təqdim etməyin bir əlamətdarlığı da odur ki, söhbət açdığım söz adamı bu redaksiyaya 30 yaşında gəlib və ömrünün ikinci 30 ilini bu kollektivə bağlayıb. Qələminə və şəxsiyyətinə böyük dəyər verdiyim həmkarım Mirbağır Yaqubzadənin 60 il əvvəl dünyaya gəldiyi, bu gün isə 60 yaşının tamam olduğu bir gündə gərək ondan elə söz açasan ki, bu tarix yığcam və tutumlu əksini tapsın.

Beləliklə, yetkin jurnalist Mirbağır Yaqubzadəni elə jurnalistikaya gəldiyi vaxtlardan tanıyıram, həyat və yaradıcılıq yoluna yaxından bələdəm. Mirbağır müəllim o qədər saf, təmiz, təmənnasız bir insandır ki, onun haqqında xoş söz bitib-tükənən deyil. Daxili aləmi ilə xarici görünüşü tən gələn bu səmimi insanı həm də içindəki uşaq saflığını, dağ kəndindən gətirdiyi mərdliyi, qətiyyəti bu günədək qoruyub saxlayıb.

Son günlərdə sosial şəbəkələrdə həmkarımın 60 illik yubileyi ilə bağlı paylaşımlar göstərir ki, Mirbağır Yaqubzadə təkcə mənə doğma deyil. İstedadlı həmkarım barədə söz demək istəyənlərin, yubiley təbriklərinin sayı kifayət qədərdir. Elə arzular da. Bu sakit, ağır təbiətli, səmimi insanın bütün jurnalist həmkarları arasında xətir-hörməti, qədir-qiyməti var. Bu səmimi dəyər birdən-birə qazanılmayıb, uzun illərin bəhrəsidir, əziyyətidir.

Bir də inanmaq çətindir ki, bu gün Mirbağır müəllimin 60 yaşı tamam olur. Qıvraqdır, gümrahdır, həmişəki kimi işgüzardır. Baxanda deyirsən ki, 60 yaş nədir? Bizdən qabaqkılar isə söyləyiblər ki, bu yaş aqilliyin gəncliyi, gəncliyinin ixtiyar yaşına keçididir. Yaradıcı insanın həyatında isə 60 yaş dövrdür, kamilliyə gedən yoldur.

Mənim tanıdığım Mirbağır Yaqubzadə Ulu yaradanın ən gözəl insani xüsusiyyətləri səxavətlə bəxş etdiyi bəndəsidir. Ailədə də, işdə də, cəmiyyətdə də öz rolunu, yerini yaxşı bilir, kimsəni incitmir, nahaqqa boyun əymir, haram yemir, bacardığı qədər yaxşılıq etməyə çalışır, namərdlərdən qaçır, kəmfürsətləri yaxına buraxmır, işini, ailəsini, övladlarını, dostlarını, yurd yerini çox sevir.

Mirbağır Yaqubzadə 1965-ci ildə Lənkəran rayonunun ucqar dağ kəndi olan Bəlitonda anadan olub. Bəliton elə bir kənddir ki, oranın dağ yolları ilə qışda demirəm, yayda belə hərəkət etmək indinin özündə belə hünər istəyir. O ucqar dağ kəndinin balaca, şəraitsiz məktəbindən başlanıb həmkarımın uğur hekayəti. 1981-ci ildə kənd 8 illik məktəbini yüksək qiymətlərlə bitirdikdən sonra Lənkəran şəhər xarici dillər təmayüllü gimnaziyada təhsilini davam etdirib. 1983-cü ildə indiki Azərbaycan Dövlət Pedaqoji Universitetinin filologiya fakültəsinə qəbul olunub, oranı da əla qiymətlərlə bitirib.

Mirbağır Yaqubzadənin müəllim olmaq istəyi təsadüfi deyildi. Həm valideynlərinin arzusu idi, həm də dövrün tələbi. Dağ yerlərində müəllimə böyük tələbat da vardı, hörmət də. Amma sən demə, Yaradanın ona yazdığı alın yazısı tam ayrı imiş, çörəyini qələmdən çıxarmaq varmış Mirbağırın qismətində. O qismətə qədərsə Mirbağır Yaqubzadə hələ uzun yol qət etməliydi, pedaqoji təhsil almalıydı, müəllim kimi özünü sınamalıydı, bərkdən-boşdan çıxmalıydı.

1987-ci ildə ali təhsilini uğurla başa vurandan sonra 21 yaşlı gənc böyük şövqlə kənddəki orta məktəbdə Azərbaycan dili və ədəbiyyatı müəllimi işləməyə başlayır. 1989-cu ildə ikinci ixtisas almaq üçün birillik psixologiya kursuna göndərilir. Yeni ixtisas qazanandan sonra Lənkəran Rayon Təhsil Şöbəsinə metodist-psixoloq təyin olunur.

Lakin qarşısıalınmaz bir qüvvə və maraq onu jurnalistikaya çəkib gətirir. Paytaxta gəlib o illərin nüfuzlu qəzetləri olan "Sovet kəndi" və "Həyat" qəzetlərində korrektor kimi çalışmağa başlayır. Tale üzünə tez gülür. İstedadını, işgüzarlığını, ən əsası, məsuliyyətli olmağını nəzərə alaraq onu 1995-ci ilin sonlarında "Xalq qəzeti"nə müxbirliyə qəbul edirlər. Söz vaxtına çəkər, elə ilin bu vaxtlarında. İndi həmin tarixdən düz 30 il keçir.

Mirbağır Yaqubzadə heç vaxt jurnalistikaya gəlişindən peşman olmayıb. Qələm sevgisi, yazmaq həvəsi bütün çətinliklərə, yaşadığı ağırlıqlara üstün gəlib. Hər yeni yazısına dünyaya gəlmiş körpəsi kimi sevinib.

Həmkarımız hazırda "Xalq qəzeti" redaksiyasının iqtisadiyyat şöbəsinin aparıcı müxbiridir. Mirbağır müəllim Azərbaycan mətbu məkanında iqtisadiyyat sahəsində ixtisaslaşmış az sayda araşdırmaçı jurnalistlərdən biri sayılır. Yaxşı işinə görə həmişə mükafatlandırılıb. 2024-cü ildə COP29-la bağlı yazdığı araşdırma yazılara, tədbirlərin "Xalq qəzeti"ndə operativ işıqlandırılmasına görə Prezident İlham Əliyevin imzası ilə "Təşəkkürnamə" və pul mükafatı alıb.

Bu günlərdə təqdim edilmiş "Azərbaycan milli mətbuatının 150 illiyi (1875-2025)" yubiley medalı ilə təltif olunması isə 60 yaşının tamamında layiqli yubiley hədiyyəsidir. Mirbağır müəllimin 60 ildəki əsl qazancı isə qoruyub saxlaya bildiyi təmiz adıdır, əqidə dürüstlüyüdür, əxlaqi-mənəvi kamilliyidir.

İnsan talelərini araşdıranlar deyirlər ki, insana qoyulan ad onun sonrakı kimliyinə uyğun gəlir. "Bağır" sözünün mənası ürək, qəlb deməkdir. Bu adın hərtərəfli bilik sahibi yozumu da var. Ulu seyid ocağında doğulmuş Mirbağırın ürəyinin təmizliyi, hərtərəfli biliyi deməyə əsas verir ki, o da adının mənasını doğrultmuş xoşbəxt taleli, mənalı ömür yaşayan bir insandır.

***Esmira İSMAYILOVA,***
***filologiya üzrə fəlsəfə doktoru***

*Tofiq Əbdülhəsənli – 70*

# Ziyalı ömrünün silinməz izləri

**Bu günlərdə filologiya elmləri doktoru, professor, Əməkdar mədəniyyət işçisi Tofiq Əbdülhəsənlinin anadan olmasının 70 illiyini ölkənin elmi-mədəni ictimaiyyəti səmimi duyğularla və qədirbilənliklə qeyd edir. Elm-təhsil sahəsində jurnalistikadan gəlmiş alim ömrünün 70-ci ilinin tamamına pedaqoji sahədə məhsuldar fəaliyyətlə gəlib çatmışdır.**



Tofiq Əbdüləziz oğlu 1955-ci il dekabrında Neftçala rayonunun Pirəbbə kəndində anadan olmuşdur. Orta təhsilini rayonun Yuxarı Qaramanlı kənd orta məktəbində alan gənc Azərbaycan Dövlət Universitetinin (indiki BDU) filologiya fakültəsinə daxil olmuşdur. Ali təhsili fərqlənmə diplomu ilə başa vurmuş Tofiq müəllim Moskvada Ali Mətbuat İnstitutunda jurnalistika ixtisası da almışdır.

Media sahəsində çalışan Tofiq Əbdülhəsənli 1985-1990-cı illərdə "Gənclik" nəşriyyatında redaktor, 1990-1992-ci illərdə "Həyat", 1992-2002-ci illərdə "Azərbaycan", 2003-2018-ci illərdə "Respublika" qəzetində şöbə müdiri işləmişdir. O jurnalist fəaliyyəti dövründə çoxsaylı siyasi, iqtisadi, ekoloji mövzularda məqalələrin, Azərbaycan Televiziyasında iqtisadi və ekoloji mövzularda verilişlərin müəllifi kimi tanınmışdır.

Tofiq müəllimin iqtisadi yazılarında özünün də təbirincə desək, "rəqəmlərin öz nəğməsi, öz poeziyası var" fəlsəfəsi dayanır. Bütün bunlar müəllifin "İqtisadiyyat da poeziyadır" kitabında elmi-publisistik baxımdan əsaslandırılmışdır.

Yubilyarın publisistik yaradıcılığının əsas istiqamətləri içərisində ekoloji mövzular da aparıcı yer tutur. Müəllifin "Təbiət qayğı sevir", "Təbiətin diləyi: ekoloji qanunlar", "Yaşıl kitabımızı da yaradaq", "Ekoloji dərs", "Külli Qarabağın ab-havası", "Xəzər: ekoloji dəyişikliklər və heyvanat aləmi", "Sabah gec olar", "Ekoloji gərginliyin azadılması yolunda" kimi məqalələrində təkcə problemlər, ekoloji gərginliyi yaradan mənbələr deyil, həm də problemlərin həlli yolları göstərilmişdir.

Mətbuat sahəsindəki çoxillik fəaliyyəti ilə yanaşı, ömrünü elmi-pedaqoji fəaliyyətə də həsr edən Tofiq Əbdülhəsənli Azərbaycan dili və ədəbiyyatının tədrisi və tədqiqi yönündə də davamlı axtarışlar aparmışdır. O, mərhum professor Cəlal Abdullayevin elmi rəhbərliyi ilə "Müasir Azərbaycan şeirində siyasi lirika" mövzusunda namizədlik dissertasiyasını uğurla müdafiə etmişdir. Onun doktorluq dissertasiyası isə "Müasir Azərbaycan poeziyası" mövzusuna həsr edilmişdir.

Ədəbiyyatşünas Tofiq Əbdülhəsənli isə silsilə ədəbi-publisistik yazıları ilə elmi-mədəni mühitin diqqət mərkəzində olmuşdur. "İçimizdəki alov və ya qam şaman duası", "Vətənlə sevgi arasında", "Həsrətin 43 ili", "Rəssam qızlar", "Şeyx Səfi məqbərəsi", "Mən köçdüm, yurdum qaldı...", "Dürrə", "Ömür bir qatardır", "Sənətə məhəbbət olanda", "El alqışları", "Tarixi yaşadan Şirvanşahlar sarayı", "Uşaq ədəbiyyatımıza qayğı gələcəyimizə qayğıdır" kimi yazılar dəyərli publisistika örnəkləri sırasında yer almışdır. Ədəbi-tənqidi yazılardan ibarət "Vətəndaş yanğısı" kitabı da müəllifin ciddi yaradıcılıq uğuru olmuşdur.

1993-cü ildən elmi-pedaqoji fəaliyyəti Azərbaycan Dövlət İqtisad Universiteti ilə bağlı olan Tofiq müəllim burada Azərbaycan dili kafedrasının müəllimi, baş müəllimi və dosenti vəzifələrində çalışmışdır. 2006-cı ildən kafedraya rəhbərlik edən alim Azərbaycan dili, nitq mədəniyyəti, işgüzar və akademik kommunikasiya sahəsində tədris və tədqiqatların aparılması, yüksəkixtisaslı kadrların hazırlanması istiqamətində fəaliyyət göstərir.

Bu baxımdan Tofiq müəllim həm də tanınmış dilçi alimdir. Onun ədəbiyyatşünas kimi uğurla fəaliyyəti ilə yanaşı, linqvistik tədqiqatları da dilçiliyimiz üçün dəyərli qaynaqlardır. Tofiq müəllimin Azərbaycan dilinin saflığının qorunması, ana dilində yüksək nitq mədəniyyəti, dilimizin gənc nəslə düzgün aşılanması istiqamətində qələmə aldığı bir çox dərslik və dərs vəsaitləri də yüksək qiymətləndirilir. "İşgüzar Azərbaycan dili", "Azərbaycan dili və nitq mədəniyyəti", "İşgüzar yazışmalar", "Azərbaycan dili (ədəbi və iqtisadi mətnlər toplusu)", "Azərbaycan dili (işgüzar yazışmalar)", "Azərbaycan dili (türk dünyası üçün)", "Azərbaycan dili (rus bölmələri üçün)", "Dilimiz - varlığımız", "Azərbaycan dili (iqtisadi mətnlər)", "İşgüzar yazışmalar (interaktiv dərs vəsaiti)", "Azərbaycan dilində işgüzar və akademik kommunikasiya" və başqa əsərləri ali məktəblərdə təhsil alan tələbələr, o cümlədən pedaqoji heyət üçün stolüstü kitablardır - gənc tədqiqatçılar üçün bilik və yaradıcılıq mənbəyidir.

Müəllif öz elmi baxışlarını təkcə Azərbaycanda deyil, həm də ölkəmizin hüdudlarından kənarda keçirilən beynəlxalq elmi tədbirlərdə və dərc olunan jurnallarda da ifadə etmişdir. Türkiyə, Rusiya, Ukrayna və başqa ölkələrdə keçirilmiş beynəlxalq elmi konfranslarda Vətənimizi layiqincə təmsil edən tədqiqatçının etdiyi məruzələr həmişə mütəxəssislərin marağına səbəb olmuş, araşdırdığı mövzular ətrafında qızğın müzakirələr aparılmışdır. Onun SCOPUS beynəlxalq indeksləşdirmə və xülasələndirmə bazasına daxil olan elmi jurnallarda da məqalələri tez-tez işıq üzü görür.

Tofiq Əbdülhəsənli gözəl alim və jurnalist olmaqla yanaşı, həm də peşəkar pedaqoqdur. Uzun illərdir ki, İqtisad Universitetində yüksəkixtisaslı kadrların hazırlanmasında yaxından iştirak edir. Tofiq müəllim həm də elm və təhsil təşkilatçısıdır. Peşəkar qələm sahibi kimi öz imzası ilə tanınan jurnalist-alim Azərbaycan Yazıçılar və Jurnalistlər birliklərinin, həmçinin Respublika İqtisadçılar İttifaqının üzvüdür.

Tofiq Əbdülhəsənli ölkə mediasının inkişafındakı xidmətlərinə görə "Əməkdar mədəniyyət işçisi" fəxri adına layiq görülmüş, təhsilin inkişafındakı xidmətlərinə görə isə "Tərəqqi" medalı ilə təltif olunmuşdur.

Tanınmış alim və təcrübəli pedaqoq, filoloq həmkarım Tofiq müəllimi əlamətdar yubileyi münasibətilə səmimi-qəlbdən təbrik edir, ona möhkəm cansağlığı, yaradıcılıq uğurları arzulayıram.

***Nizami CƏFƏROV,***
***akademik***

# Paralimpiyaçıların uğur hesabatı

## *Əzmkar idmançılar 1 Dünya, 2 Avropa çempionluğu, 61 medal qazanıblar*

**Azərbaycanda Paralimpiya hərəkatının yaranması ümummilli lider Heydər Əliyevin idmanın inkişafına və əlilliyi olan şəxslərə qayğısının təzahürüdür. Bu qayğının nəticəsidir ki, Azərbaycan Respublikası Milli Paralimpiya Komitəsi (ARMPK) davamlı inkişaf yolunu tutmuşdur. Paralimpiya hərəkatı əlilliyi olan şəxslər üçün təkcə idman yarışı deyil, eyni zamanda, sağlamlıq və reabilitasiya, potensialın nümayişi, inklüzivlik, bərabərlik və cəmiyyətə inteqrasiya mənalarını özündə cəmləşdirir.**

Fəxarətlə demək olar ki, ulu öndər Heydər Əliyev idmana göstərdiyi diqqət və qayğını bu gün ölkə başçısı, Milli Olimpiya Komitəsinin prezidenti, paralimpiyaçıların dostu cənab İlham Əliyev uğurla davam etdirir. Dövlətimizin başçısının məqsədyönlü və ardıcıl siyasətinin nəticəsidir ki, bu gün Azərbaycan dünyada idman ölkəsi, beynəlxalq idman yarışlarının etibarlı ev sahibi kimi tanınır.

Bu barədə eksküliziv olaraq XQ-yə verilən məlumatda bildirilir ki, uğurların davamı olaraq paralimpiyaçılarımız 2025-ci ildə də beynəlxalq yarışlarda yüksək nəticələr əldə edərək, 22 qızıl, 18 gümüş və 21 bürünc olmaqla, ümumilikdə 61 medal qazanıblar. Bu il idmançılar arasında 1 Dünya və 2 Avropa çempionu var.

Paraüzgüçülükdə Raman Salei Dünya çempionu, paracüdoda İlham Zəkiyev və paragüllə atıcılığında Kamran Zeynalov Avropa çempionu olublar. Üçqat paralimpiya çempionu paraüzgüçümüz R.Salei Dünya çempionatında əlavə olaraq 1 gümüş və 2 bürünc medal qazaranaraq daha üç dəfə fəxri kürsüyə yüksəlib. Paracüdoçumuz Dürsədəf Kərimova və paragüllə atıcımız Aybəniz Babayeva isə Avropa çempionatında gümüş medala sahib çıxıb.

Bu il ölkəmizin paralimpiya hərəkatı tarixində ilk dəfə parabadminton üzrə Avropa çempionatında çıxış edən 14 yaşlı Zəhra Salmanlı və 20 yaşlı İbrahim Əliyev debüt etdikləri qitə çempionatının gümüş medallarını qazanıblar. Gənc və yeniyetmə parapauerliftinqçilərimiz Rəsul Zəkiyev (88 kq) ilə İlhamiz Kərimov (107 kq) isə Misirin paytaxtı Qahirədə keçirilən Dünya çempionatında 1 bürünc, 2 gümüş medal qazanaraq fəxri kürsüyə qalxıblar.

Bu il gənc paralimpiyaçılarımız üçün də uğurlu nəticələrlə yadda qaldı. Yeddinci dəfə təşkil edilən Avropa Gənclər Paralimpiya Oyunlarında debüt edən Azərbaycan Milli Paralimpiya komandası 7 idman növündə 17 idmançı ilə təmsil olunub və yarışı 4 qızıl, 2 gümüş, 7 bürünc medalla bitirib.



Qeyd edək ki, Türkiyənin İstanbul şəhərində 33 ölkədən 700-ə yaxın idmançının mübarizə apardığı oyunlarda milli komandamıza qızıl medalları Sabir Zeynalov (parataekvondo), Amin Əliyev (parataekvondo), Səmayə Həsənova (parataekvondo) və Ayşə Arabova (paraatletika, uzunluğa tullanma), gümüş medalları isə Orxan Cəfərov (parataekvondo) ilə Əli Vəliyev (paraüzgüçülük) qazandırıblar. Bürünc medallara isə Ayxan Nuruyev (parataekvondo), Amin Şıxalıyev (parataekvondo), İmran Bağırov (parataekvondo), Ömər Qurbanov (paracüdo), Hüseyn İsmayılzadə (paracüdo) və Əli Vəliyev (paraüzgüçülük) yiyələniblər. Yeniyetmə paralimpiyaçılarımız isə bu il Serbiyanın Zlatibor şəhərində keçirilmiş ISF U-15 Gimnaziada İdman Oyunlarında 3 qızıl, 2 gümüş və 4 bürünc olmaqla, ümumilikdə 9 medala sahib çıxıblar.

Ölkəmizə qızıl medalları Zəhra Salmanlı, Ayan Əliyeva və Əli Məhərrəmov (parabadminton), gümüş medalları komanda yarışında parabadmintonçularımız və Murad Məmmədov (paraüzgüçülük), bürünc medalları isə Nigar Mehdiyeva, İlkin Bağırzadə (hər ikisi parabadminton), Rəsul Süleymanov və Səlim Məmmədov (hər ikisi paraüzgüçülük) qazandırıblar. Paralimpiyaçılarımızdan Ayan Əliyeva parabadminton üzrə, Hüseyn Babayev isə paraüzgüçülük üzrə feyr-pley mükafatına layiq görülüblər. Hazırda idmançı reyestri üzrə 100-ə yaxın paralimpiyaçımız 10 idman növündə (9 yay, 1 qış idman növü) məşqlərini davam etdirirlər.

Bu il ARMPK ilə Azərbaycan Üzgüçülük Federasiyası, Azərbaycan Badminton Federasiyası, Azərbaycan Kamandan Oxatma Federasiyası və Azərbaycan Karate Federasiyası arasında əməkdaşlıq memorundamları imzalanıb. Beynəlxalq əlaqələrin gücləndirilməsi baxımından da 2025-ci il məhsuldar olub. Komitə rəhbərliyi Beynəlxalq Paralimpiya Komitəsi və Avropa Paralimpiya Komitəsinin Baş Assambleyalarında, Beynəlxalq Görmə Məhdudiyyətli İdmançılar Assosiasiyasının Ümumi Yığıncağında təmsil olunub.

Dünya Badminton Federasiyasının (BWF) parabadminton üzrə texniki seminarı da 17-19 noyabr tarixlərində Bakıda keçirilib. Avropanın 15-dən çox ölkəsindən 55-ə yaxın nümayəndə, o cümlədən parabadmintonçular və bu idman növü üzrə mütəxəssislərin iştirak etdiyi, seminarda parabadmintonun inkişafı, məşqçilik bacarıqlarının artırılması, idmançıların təsnifatı və yarışların idarə olunması mövzularında nəzəri və praktik sessiyalar keçirilib.

Sentyabr ayında ARMPK-nın prezidenti Hidayət Abdullayev Özbəkistan Paralimpiya Komitəsinin nümayəndə heyəti ilə görüşüb. Görüş zamanı tərəflər hər iki ölkədə paralimpiya hərəkatının inkişafı, mövcud əməkdaşlığın genişləndirilməsi, tibbi təsnifat məsələləri və bu sahədə mütəxəssislərin biliklərinin artırılması istiqamətlərini müzakirə ediblər. Eləcə də noyabr ayında ARMPK-nın baş katibi Toğrul Rəhimovun başçılıq etdiyi nümayəndə heyəti Özbəkistanın paytaxtı Daşkənddə Özbəkistan Paralimpiya Komitəsi sədrinin müavini Hikmət Toshmatov və sədrin müşaviri Mardonbek Davronov ilə görüşüb. Nümayəndə heyəti Daşkənddə keçirilən Özbəkistan Gənclər Agentliyi, Özbəkistan Könüllülər Assosiasiyası, Özbəkistan Respublikası Prezidenti yanında Milli Himayə Agentliyi və Özbəkistan Paralimpiya Komitəsinin təşkilatçılığı ilə "Biz birgəyik" adlı beynəlxalq festivalda da təmsil olunub. Dekabr ayında isə Komitə prezidentinin müşaviri Şahin Kazımzadə Portuqaliyanın paytaxtı Lissabona səfər edərək Portuqaliya Paralimpiya Komitəsinin (CPP) rəhbərliyi ilə görüşüb. Görüş zamanı tərəflər hər iki ölkədə Paralimpiya hərəkatının inkişafı, mövcud əməkdaşlığın genişləndirilməsi, tibbi təsnifat, tədris və birgə təlim-məşq toplanışlarının təşkili məsələlərini müzakirə ediblər.

Milli Paralimpiya Komitəsi 2025-ci ili Sumqayıt Paralimpiya İdman Kompleksində Uşaq Paralimpiya Oyunlarını təşkil edərək yekunlaşdırdı. Budəfəki Uşaq Paralimpiya Oyunları 8 idman növündə keçirildi və 130 uşaq paralimpiyaçı 8 idman növü (paracüdo, parastolüstü tennis, parataekvondo, paraüzgüçülük, parapauerliftinq, parabadminton, parakamandan oxatma, boccia) üzrə müxtəlif kateqoriyalarda mübarizə apardılar.

ARMPK-nın təşkil etdiyi Uşaq Paralimpiya Oyunları, universitet və məktəblərdə paralimpiyaçılarla keçirilən görüşlər, Paralimpiya çempionları ilə yeniyetmə idmançıların ustad dərslərinin təşkili Azərbaycanı gələcəkdə beynəlxalq idman arenalarında layiqincə təmsil edəcək yeni paralimpiyaçı nəslinin yetişməsinə xidmət edir. ARMPK növbəti ildə də ölkəmizdə paralimpiya idmanının inkişafı, idmançıların beynəlxalq arenada uğurla təmsil olunması və əlilliyi olan şəxslərin cəmiyyətə inteqrasiyasının gücləndirilməsi istiqamətində məqsədyönlü fəaliyyətini davam etdirməyi hədəfləyir.

***Mustafa KAMAL***
***XQ***

# Həssas qrupun fəal məşğulluğu

**DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzidə Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası ilə birgə birgə təşkil edilən görüşdə "İş yerlərində əlilliyi olan şəxslərin adaptasiyası və inklüziv əmək şəraitinin yaxşılaşdırılması" mövzusu geniş müzakirə edilib.**



Mərkəzin əməkdaşlarının, AHİK-in və quruma üzv təşkilatların nümayəndələrinin iştirak etdikləri məclisdə inklüziv əmək münasibətlərinin formalaşdırılması, əlilliyi olan şəxslərin iş mühitinə adaptasiyası, təhlükəsiz və əlçatan iş şəraitinin yaradılması, eləcə də onların məşğulluğunun təşviqi məsələləri diqqət mərkəzində olub. Qeyd edilib ki, bu sahədə standartlara əməl olunması və maarifləndirmə-təlim fəaliyyətlərinin gücləndirilməsi mühüm əhəmiyyət daşıyır.

Müzakirələr zamanı həmkarlar ittifaqlarının inklüzivliyin təşviqində rolu, uyğunlaşdırılmış iş mühitinin yaradılması üzrə praktiki yanaşmalar və sosial-psixoloji adaptasiya mərhələləri ətrafında fikir mübadiləsi aparılıb.

***Qabil ƏLİYEV***
***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 273 (30967) 27 dekabr 2025-ci il, şənbə

## İDMAN

### Taekvondo üzrə ölkə birinciliyi

**Dekabrın 26-da taekvondo üzrə gənclər arasında ölkə birinciliyi və böyüklər arasında Azərbaycan çempionatının açılış mərasimi keçirilib.**



Fövqəladə Hallar Nazirliyinin İdman-Sağlamlıq Mərkəzində baş tutan mərasimdə Taekvondo Federasiyasının prezidenti Kəmaləddin Heydərov ölkəmizdə idman sahəsində görülən işlərdən danışıb. Bildirib ki, Prezident İlham Əliyev hər zaman idmana, idmançılara diqqət və qayğı göstərib. Buna görə də idmançılarımız nüfuzlu beynəlxalq turnirlərdə uğurla çıxış edirlər. Azərbaycan dünyanın böyük idman yarışlarına layiqincə ev sahibliyi edir.

Natiq əlavə edib ki, cari ildə 156 medalın qazanılması, onlardan 53-nün qızıl əyarlı olması ölkəmizdə taekvondonun davamlı inkişaf etdiyini və bu idman növünə marağın ildən-ilə artdığını təsdiqləyir.

Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə, gənclər və idman naziri Fərid Qayıbov çıxışlarında Prezident İlham Əliyevin ölkə idmanına yüksək səviyyədə dəstək və qayğı göstərdiyini bildiriblər.

Yarışda paytaxt və bölgələri təmsil edən 72 klub və idman cəmiyyətindən ümumilikdə 436 taekvondoçu iştirak edir.

Çempionata sabah yekun vurulacaq.

### AFFA klubları cərimələyib

**Azərbaycan Futbol Federasiyaları Assosiasiyasından verilən məlumata görə, Misli Premyer Liqasında çıxış edən klublar cərimələnib. AFFA İntizam Komitəsinin çıxardığı qərara əsasən çempionatın XVI turunda "Kəpəz" "Turan Tovuz"la oyunda meydana kənar şəxslərin daxil olmasına görə 2500 manat ziyana düşüb. Gəncə təmsilçisi azarkeşlərin hakimlərin ünvanına küt-ləvi şəkildə təhqiramiz ifadələr səsləndirməsi ucbatından bölgə klubu 7000 manat cərimə edilib.**

"Karvan-Yevlax" isə "Neftçi" ilə görüşdə beş oyunçusu sarı vərəqə aldığı üçün 700 manat ödəməli olacaq. Həmin matçdan sonra meydana kənar şəxslərin daxil olması ucbatından bölgə klubu 5000 manat cərimə edilib. "Neftçi" azarkeşləri isə oyunun sonlarında meydana kənar əşya atıblar və "ağ-qaralar"ı 4000 manat ziyana salıblar. Paytaxt komandasının tərəfdarları qarşılaşma bitəndən sonra rəqibin avtobusuna zərər vurublar və dəymiş zərər rəqib tərəfindən qarşılanacaq.

"Araz-Naxçıvan" 2000 manat cərimələnib. Buna "Şamaxı" ilə dueldə Təcili Tibbi Yardım avtomobilinin təyin edilmiş vaxtdan gec gəlməsi səbəb olub.

"Sumqayıt" isə "Sabah"la matçda 5 futbolçusu sarı vərəqə ilə cəzalandığı üçün 700 manat ödəcəyəcək.

### Naxçıvanın idman uğurları

**Naxçıvan idmançıları 2025-ci ildə ölkə və beynəlxalq səviyyəli yarışlarda 197-si qızıl, 129-u gümüş, 117-si bürünc medal olmaqla ümumilikdə 443 medal qazanıblar.**




Naxçıvan Muxtar Respublikasının idman sahəsində və ictimai həyatında fərqlənən qabaqcıl gənclərin mükafatlandırılması mərasimində çıxış edən gənclər və idman nazirinin müavini, nazir səlahiyyətlərini icra edən Məcid Seyidov qeyd edib ki, idmançılardan ikisi dünya çempionatının, 87-si beynəlxalq turnirlərin, 106-sı isə Azərbaycan çempionatının qalibi olub.

*Qabil YUSİFOĞLU*
*XQ*

### ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin rəhbərliyi və kollektivi Milli Məclisin sabiq sədri Oqtay Əsədova qızı

**NƏRMİNƏ ƏSƏDOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin rəhbərliyi və kollektivi aparatın şöbə müdiri Tahir Kazımova qardaşı

**ZAKİR KAZIMOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

*Yeniləşmə ünvanları*

# Gəncəbasarın Samux gözəllikləri

**Səhərin erkən çağında Samuxun mərkəzinə gəlmişəm. Hava bir qədər soyuqdur, yüngül külək əsir. Şəhərin yeni parkına yaxınlaşdıqca, uzaqdan görünən geniş giriş qapısı əzəməti ilə diqqət çəkir.**






Park istiqamətinə gedən yolda orta yaşlı bir kişi dayanıb mənə baxır. Yaxınlaşanda asta səslə deyir:

– İnanırsan, elə bil, başqa şəhərin parkıdır. Amma Samuxundur, buradakıların zəhməti ilə bu hala gəlib.

Gülümsəyib başımla təsdiqləyirəm.

Parkın içərisinə daxil olanda sözün, əsl mənasında, geniş və səliqəli bir məkan açılırdı. Təxminən 3 hektar ərazidə hər şey ölçülü, nizamlı və yerində qurulmuşdu. Mərkəzdəki saat qülləsinin yanında iki gənc şahmat oynayırdı. Taxtanın üstündəki qranit fiqurlar yenicə boylanan günəş işığında parıldayırdı. Bir az kənarda ağsaqqalların toplandığı söhbətgahda armudu stəkanlara süzülmüş məxməri rəngli çaylardan buğ qalxırdı. Onlardan biri prospekt istiqamətini göstərib dedi:

– Hər şey gözümüzün qabağında dəyişir. Bu park bizə lazım idi. Sakinlərin daha çox yığışdığı yerdi buralar. Gəzinti, istirahət yeri isə çox az idi.

Parkın estetik görünüşü ilə yanaşı, praktiki tərəfləri də diqqət çəkirdi: suötürücü sistemlər, yeraltı borular, müasir işıqlandırma. Axşam burada necə gözəl mənzərə yaranacağını təsəvvür etmək çətin deyildi. 42 işıq dirəyi ilə işıqlanan bu məkan həm də bir gecə parkına çevrilmişdi.

Parkdan çıxıb Heydər Əliyev prospektinə tərəf gedirəm. Bir neçə il əvvəl burada dar yol, köhnə səkilər və sönük küçə lampaları vardı. İndi isə mənzərə tamamilə dəyişib. İki kilometrdən artıq uzunluğa malik prospekt genişləndirilib, səkilər yenidən salınıb, tamet daşları səliqə ilə düzülüb. Dekorativ gül kolları yol boyu rəng qatır.

Yolun kənarında darvazanın qırağını rəngləyən bir fəhləyə yaxınlaşıram.

– Çox iş gördünüz?, - soruşuram.

– Çoox… – deyə gülümsəyir. – Qaz borularını, işıq dirəklərini, bordürləri hamısını dəyişdik. Elə bil prospekt bir dəfə nəfəs alıb yenidən dirçəldi.

Doğrudan da prospektdəki bütün işıq dirəkləri yenilənib, yerüstü qaz xətti yeraltına keçirilib. Bu dəyişiklik təkcə görüntünü deyil, təhlükəsizliyi də artırıb. Evlərin fasadlarının aqlayla üzlənməsi, darvazaların rənglənməsi prospektə bir-birinə uyğun, vahid vizual sima verib. Sürücülərin rahatlığı üçün yol örtüyü yenilənib, piyada və nəqliyyat axını daha nizamlıdır.

Samuxun təkcə mərkəzi deyil, yaşayış massivləri də öz simasını dəyişib. Arif Nəbiyev küçəsində yeni səkilər dərhal seçilir. Hələ tam qurumamış tamet daşları günəş altında bərq vurur. Öyrənirəm ki, burada 7 ədəd 300 mm diametrli boru xətti çəkilib. Yanaşı gedən iki nəfər yaşlı qadının söhbəti diqqətimi cəlb edir:

– Ay Raziyə, yadındadı, buradan keçmək əvvəllər necə çətin idi? Gör indi nə gözəl ediblər…

– Elədir. Səkilər geniş, təmiz… Adam elə gəzmək istəyir…

Rayonun digər yerlərində, 28 May, M.P.Vaqif, Abbas Qasımov, M.Füzuli və Elçin Məmmədov küçələrində asfalt örtüyü yenilənib. Hər biri hamar və təhlükəsiz görünür.

Kolayırda Mübariz İbrahimov və Dalan küçələrində təmir səsi hələ də eşidilir. Buradakı yollar şəbənə möhkəmləndirilib, Şah İsmayıl Xətai küçəsində isə hamarlanma işləri aparılır.

Qarayeri–Gəncə yolunda axşam düşəndə dəyişiklik daha aydın görünür. Yeni, müasir işıqlandırma yolu həm daha təhlükəsiz, həm də daha modern göstərir. Orada qarşıma çıxan bir sürücü deyir:

– Gecələr işıqlar yananda yol sanki uzanıb gedir, həm də göz yorulmur.

Qəbiristanlıqlarda aparılan abadlıq və işıqlandırma işləri də sakinlərin diqqətindən yayınmır. Bu ərazilərin təmizlənməsi, divarların rənglənməsi və alternativ yolun salınması buraya xüsusi qayğı göstərildiyini sübut edir.

…Samuxda gəzərkən hiss etdiyim ən vacib məqam odur ki, bütün dəyişikliklər səs-küylə deyil, ardıcıl və planlı şəkildə aparılır. Şəhər mərkəzindən kəndlərə qədər həyat rahatlaşıb. Yollar genişlənir, parklar salınır, işıqlandırma yenilənir, suötürücü sistemlər qurulur, küçələrin siması dəyişir.

Bütün bu işlər Samuxun ümumi görünüşünə sadə, amma gözə çarpan bir təravət gətirib. Bu təravət nə süni, nə də göstərməlikdir. Sakinlərin gündəlik həyatını yüngülləşdirən, şəhərin ritmini dəyişən real yenilənmədir.

Samux bu gün daha səliqəli, daha işıqlı və daha rahatdır. Elə sakinlərin öz dediyi kimi:

– Şəhər dəyişir, amma o sakit, doğma ab-havasını da qoruyub saxlayır.

***Hamlet QASIMOV,***
***XQ-nin bölgə müxbiri***

**Samux**

# "Bioloji saat"ın pozulmaz diktəsi

**Son illər aparılan tədqiqatlar göstərir ki, yuxu rejimində pozuntu belə arterial təzyiqin yüksəlməsi riskini artırır. Mütəxəssislərin fikrincə, yuxu insan sağlamlığının əsas sütunlarından biridir və onun davamlı şəkildə pozulması ürək-damar sistemi üçün ciddi təhlükə yaradır.**



İnsan orqanizmi "bioloji saat" prinsipi ilə işləyir. Gec yatmaq, tez oyanmaq və ya yuxu saatlarının tez-tez dəyişməsi bu tarazlığı pozur. Nəticədə stres hormonlarının səviyyəsi yüksəlir, damarlar daralır və qan təzyiqi artır.

"Scripps Research" İnstitutunun alimləri müəyyən ediblər ki, qeyri-müntəzəm yuxu rejimi – hətta cəmi bir saatlıq dəyişiklik belə – arterial hipertoniyanın və obstruktiv yuxu apnoesinin riskinin artması ilə əlaqəlidir. Tədqiqatın nəticələri Journal of Medical Internet Research (JMIR) jurnalında dərc olunub.

Araşdırmada təxminən 400 yetkin şəxs iştirak edib. Onlar orta hesabla iki ilə yaxın müddət ərzində yuxu göstəricilərini qeydə alan daşınan fitnes qurğularından əldə olunan məlumatları ötürüblər, eyni zamanda, tibbi anketləri doldurublar. Bu qədər uzun müddədə dövrü qısamüddətli tədqiqatlarda adətən nəzərdən qaçan sabit yuxu vərdişlərini aşkar etməyə imkan verib.

Məlumatların təhlili göstərib ki, yuxuyagetmə və oyanma vaxtları gecədən-gecəyə ciddi şəkildə dəyişən insanlarda yuxu apnoesi riski stabil rejimə riayət edənlərlə müqayisədə iki dəfədən çox yüksəkdir. Yuxu apnoesi yuxu zamanı nəfəsin qısa müddətli dayanması ilə xarakterizə olunan tənəffüs pozuntusudur. Belə hipoksiya epizodları ürək ritminin pozulmasına səbəb olur və beynin fəaliyyətinə mənfi təsir göstərir.

Qeyri-müntəzəm yuxu rejimi zamanı arterial təzyiqin yüksəlmə ehtimalı da 71 faiz artır. Bu zaman həlledici amil yuxunun müddəti deyil, rejimdə "sürüşmələrin" olmaması, yəni yuxuyagetmə və oyanma vaxtlarının sabitliyidir.

Müəlliflər qeyd edirlər ki, qeyri-müntəzəm yuxu ürək-damar sistemində gizli pozuntuların göstəricisi ola bilər. Onların fikrincə, daşınan cihazlardan əldə edilən məlumatlar gələcəkdə hipertoniya və yuxu zamanı tənəffüs pozuntularının riskini erkən mərhələdə aşkar etmək üçün istifadə edilə bilər. Eyni zamanda, tədqiqatçılar vurğulayırlar ki, aşkar edilən əlaqə müşahidə xarakterlidir və birbaşa səbəb-nəticə münasibətini sübut etmir – bunun üçün əlavə klinik araşdırmalar tələb olunur.

Qeyd edək ki, smartfon, planşet və digər elektron cihazlardan gecə saatlarında istifadə yuxu keyfiyyətini aşağı salır. Süni işıq beyin fəaliyyətini stimullaşdıraraq yuxuya getməyi çətinləşdirir. Nəticədə yuxu müddəti azalır və bu, hipertoniya riskini artıran amillərdən birinə çevrilir.

Növbəli iş rejimində çalışanlar, tələbələr və stresli iş mühitində olan şəxslər yuxu pozuntularına daha çox məruz qalırlar. Mütəxəssislər bu qrup insanlara yuxu rejiminə xüsusi diqqət yetirməyi, mümkün olduqda eyni saatlarda yatıb-durmağı tövsiyə edirlər.

Həkimlərin tövsiyəsinə görə, böyüklər üçün gündəlik 7–8 saat keyfiyyətli yuxu optimal hesab olunur. Yatmazdan əvvəl ağır yeməklərdən, kofeinli içkilərdən və elektron cihazlardan uzaq durmaq, sakit və qaranlıq mühitdə yatmaq qan təzyiqinin normal səviyyədə saxlanmasına kömək edir.

Nəticə etibarilə, yuxu rejimində cəmi 1 saatlıq pozuntu belə uzunmüddətli perspektivdə hipertoniya riskini artıra bilər. Sağlam yuxu vərdişlərinin formalaşdırılması isə ürək-damar xəstəliklərinin qarşısının alınmasında ən sadə və effektiv vasitələrdən biridir.

*Nurəngiz ADİLQIZI*
*XQ*

## HAVA

# Bakıda yağmursuz, bölgələrdə yağış və qar...

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Mülayim cənub-qərb küləyi axşam şimal-qərb küləyi ilə əvəzlənəcək.**



Havanın temperaturu gecə 2-4, gündüz 6-9 dərəcə isti olacaq. Atmosfer təzyiqi 758 millimetr civə sütunundan 752 millimetr civə sütununa enəcək. Nisbi rütubət gecə 70-75, gündüz 60-65 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi, lakin gündüz şimal və qərb rayonlarından başlayaraq bəzi yerlədə arabir yağıntılı olacağı, qar yağacağı proqnozlaşdırılır. Ayrı-ayrı yerlərdə intensivləşəcəyi ehtimalı var. Gecə və səhər arabir duman olacaq. Qərb küləyi gündüz bəzi yerlərdə arabir güclənəcək.

Havanın temperaturu gecə 2 dərəcə şaxtadan 3 dərəcəyədək isti, gündüz 7-10 dərəcə isti, dağlarda gecə 5-10 dərəcə şaxta, gündüz 0-3 dərəcə isti olacaq.

Gecə bəzi dağlıq ərazilərdə yolların buz bağlamaq ehtimalı var.

*Q.ƏLİYEV*
*XQ*


# "Rabitəbank" ASC səhmdarlarının nəzərinə!

"Rabitəbank" ASC-nin müşahidə şurasının 26 dekabr 2025-ci il tarixli, 99 nömrəli qərarına əsasən, 12 fevral 2026-cı il saat 17:00-da bankın səhmdarlarının ümumi yığıncağının növbəti iclası keçiriləcəkdir.

**Yığıncağın gündəliyi:**

**1.** Bankın 2025-ci maliyyə ili üzrə balans, mənfəət və zərər haqqında hesabatının təsdiqi
**2.** Bankın audit komitəsinin hesabatının təsdiqi
**3.** Bankın səhmdarlarına dividendlərin ödənilməsi
**4.** Bankın müşahidə şurası üzvlərinə mükafatın ödənilməsi
**5.** "Capital Partners" İnvestisiya Şirkəti QSC-nin müşahidə şurasının tərkibinin təsdiq edilməsi
**6.** "Capital Partners" İnvestisiya Şirkəti" QSC-nin "Rabitəbank" ASC adından qərar verməsi ilə bağlı səlahiyyətli orqan və ya şəxsin təyin edilməsi
**7.** "Capital Partners" İnvestisiya Şirkəti" QSC-nin nizamnamə kapitalının artırılması
**8.** Təşkilati və cari məsələlər.

**Yığıncağın keçiriləcəyi ünvan:** Bakı şəhəri, Füzuli küçəsi 71 (Rabitəbank ASC-nin inzibati binası).



DİREKTOR – BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 Email: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994 (51) 280-16-44

"Xalq" qəzeti redaksiyası" MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3596
SİFARİŞ 2334
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Nurlan ABDALOV
Çapa imzalanmışdır 00:00